RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 14 (9469) 24 YANVAR 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Bütöv Azərbaycanda Zəfər seçkisi

### Demokratik, ədalətli, şəffaf seçkilər üçün bütün şərait yaradılıb

Bu il fevralın 7-də Azərbaycan xalqı müstəqillik tarixində ilk dəfə olaraq qalib ölkənin qalib vətəndaşları kimi səs verəcək.

Eləcə də illərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkisinin qüruru yaşanacaq.

Ard-arda qazandığımız parlaq Şuşa, Xankəndi zəfərləri sayəsində xalqımız yeni başlanğıclarla bol möhtəşəm bir dövrə qədəm qoyub.

Cəmi üç il əvvələ qədər arzusunda olduğumuz möcüzəvi hadisələrin hamısı artıq gerçəyə çevrilib. Ərazi bütövlüyümüz, suverenliyimiz təmin edilib, Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda, Ağdərədə üçrəngli bayrağımız dalğalandırılıb.



→ 4

## Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığı uğurludur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı nəticələr baxımından 2023-cü ilin uğurlu olduğu bildirildi. Ötən ilin dekabrında Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin təmasları məmnunluqla xatırlandı.

Söhbət zamanı iqtisadi əməkdaşlığın geniş gündəliyə malik olduğu vurğulanaraq, qarşıda bu sahədə yeni istiqamətlər üzrə planların nəzərdə tutulduğu bildirildi. Ticarət dövriyyəsinin 17,5 faiz, həmçinin yük və tranzit daşımalarının davamlı artımı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsinin imzalanmasının əhəmiyyəti vurğulandı. Aleksey Overçukun səfərinin əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.

Görüşdə nəqliyyat-logistika, "Şimal-Cənub" nəqliyyat dəhlizinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## AŞ PA Azərbaycandan Zəfərin intiqamını alır

### Korrupsiyalaşmış qurum ölkəmiz üçün artıq heç bir əhəmiyyət kəsb etmir

İndi Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra AŞ PA-nın ölkəmizin səsvermə hüququnu məhdudlaşdırmaq niyyətinə düşməsi bu qurumun ikiüzlülüyündən, Avropa Parlamenti kimi erməni təəssübkeşliyindən, erməni lobbisinin alətinə çevrilməsindən xəbər verir. Görünən odur ki, AŞ PA da Avropa Parlamenti kimi islamofob və türkəfob təfəkkürlü nümayəndələrinin düşərgəsidir. Və o da aydın olur ki, torpaqlarımızın işğal altında olduğu illərdə AŞ PA bu məsələ ilə bağlı əslində riyakar siyasət yürüdübmüş.




AŞ PA-nın bu təşəbbüsü Qərbin korrupsiyalaşmış, anti-Azərbaycan və ermənipərəst qruplarının qurduğu növbəti məkrli oyundur. Onu da qeyd edək ki, AŞ PA-da bu təkliflə almaniyalı deputat Frank Şvabe çıxış edib. Deyəsən Fransanın xarici siyasətində ardıcıl uğursuzluqlarına və nüfuzdan düşməsinə görə bu dəfə alman deputatı qabağa veriblər və ya Paris öz niyyətlərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır.

→ 8

◆ Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

## 50 çeşiddə məhsul, 13 ölkəyə ixrac



### Müasir müəssisələrimiz sayəsində idxaldan asılılıq aradan qaldırılır

Bu gün "SOCAR Polymer" məhsullarını 13-ə yaxın ölkəyə ixrac etməklə yanaşı, yerli tələbatı da ödəyir.

Şirkətin fəaliyyəti barədə bizə məlumat verən baş direktorun müavini Rauf Quliyev qeyd edir ki, 2013-cü ildə təsis edilən "SOCAR Polymer" 2015-ci ildə Azərbaycanda ilk dəfə olaraq neft-kimya sənayesində layihənin maliyyələşdirilməsi ilə 500 milyon dollara yaxın vəsait cəlb edib. Şirkətin istehsalat obyektləri olan polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal edən iki zavodu 2018-ci ilin iyulunda və 2019-cu ilin fevralında istismara verilib: "Polipropilen zavodunun açılışında həmçinin İtaliya Prezidenti Sercio Mattarella da olmuşdu. 2018-ci ildən ixraca başladıq. Əsas ixrac bazarı Rusiya, Qazaxıstan, Belarus və digər MDB ölkələri, ikinci yerdə isə Türkiyədir. Yerli satışın az olması tələbatla bağlıdır. 2020-ci ildə "SOCAR Polymer" Rusiya bazarında polipropilen üzrə ixracatçılar arasında birinci yerdə olub. Hazırda bütün polipropilen məhsulları üzrə ilk sıradadır. 2023-cü ildə ilk dəfə olaraq satışların dəyəri 300 milyon dolları keçib".

İstehsal olunan məhsulların 95 faizini xarici bazarlara göndərən "SOCAR Polymer" bu gün də qeyri-neft ixracatçı şirkətlər arasında liderlərdəndir.

Polipropilen zavodunun illik istehsal gücü 184 min ton, yüksək sıxlıqlı polietilenin isə 120 min tondur. Xammal təchizatçısının SOCAR "Azərkimya" İstehsalat Birliyinin olduğunu deyən direktor müavini bildirir ki, istehsalda əsasən yerli xammallardan istifadə olunur, müəyyən qatqılar idxal edilir.

→ 7

## Qərəz də bir mərəzdir

### Fransa bu mərəzə AŞ PA-nı da yoluxdurmaq istəyir

Məlum olduğu kimi, Fransa parlamentinin aşağı və yuxarı palataları tərəfindən 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin əleyhinə bir neçə qətnamə qəbul edilib. Fransa Senatının yanvarın 17-də qəbul etdiyi qətnamə isə şər hədəfinin "onluğu"na dəyib. Azərbaycanı az qala ermənilərə qarşı "soyqırımı" törətməkdə suçlayan sənəddə dəlil, sübut əvəzinə "biz belə istəyirik, belə də yazırıq" hikkəsi var.

Həmin qətnamənin mürəkkəbi qurumamış Fransanın təhriki ilə Avropa Şurası Parlament Assambleyası Azərbaycanın qurumdakı səsini dondurmaq barədə məsələni gündəliyə çıxarıb. Bu dəfə Fransa, el arasında deyildiyi kimi, "ilanı Seyid Əhməd əli ilə" tutmağa qərar verib. Belə ki, məsələni gündəliyə almaniyalı deputat Frank Şvabe daxil etsə də, müəllifi Fransadır. Belə çıxır ki, Avropanın aparıcı ölkəsi və söz sahibi olan Almaniya indi Fransanın yedəyində gedir?!



→ 8

## Yaşıl vətən

Yaşadıgımız dünya, bizi əhatə edən aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Bu dünya, bu mühit, bu aləm təbiət adlanır. Əslində, biz özümüz də təbiətin bir zərrəsi, onun tərkib hissəsiyik. Təbiət hamımızın anasıdır. Təəssüf ki, meşələrin qırılması və ətraf mühitin çirklənməsi bitki aləminə zərbələr vurur, nəticə etibarilə insanların saglamlığına təhlükə yaradır. Bu səbəblərə görə təbiətin qorunması bizim planetin ən vacib məsələlərindən biridir. Təbiət bizi yedizdirir, içizdirir, geyindirir və müalicə edir. Təbiəti sevmək, qorumaq hər bir vətəndaşın borcudur. Bu baxımdan ətraf mühitin mühafizəsində meşələrin qorunması və bərpası əsas vəzifədir. Müasir dövrümüzdə innovasiyalar insan həyatında nə qədər müsbət rol oynasa da, bir o qədər də təbii resurslara əks təsir edir. Müharibələrdə istifadə olunan müasir silahların öldürücü fəsadları insanlardan sonra meşələrdə özünü göstərir, əks olunur. Ona görə də meşə örtüyünü qorumaq, meşə sahələrinin azalmasının qarşısının alınması mütləqdir.

Azərbaycanda bu sahədə də görülən işlər təqdirəlayiqdir. 20 il öncə ölkənin meşə ehtiyatları, adambaşına düşən meşə sahəsi və oduncağın həcminə görə göstəriciləri aşağı səviyyədə idi. Meşələrin təbii və süni bərpası da qənaətbəxş deyildi. Amma təxirəsalınmaz tədbirlər nəticəsində ötən iki onillikdə 204 min 692,5 hektar ərazidə ümumi meşə bərpa tədbirləri aparıldı, 103 milyondan çox ağac əkildi.

→ 5

## Azərbaycanın Avropa Şurasına ehtiyacı yoxdur

AŞ PA-da Azərbaycanın səsini dondurmaq təşəbbüsünü irəli sürənlər bu çirkin niyyətlərini "insan hüquqları" bəhanəsi ilə pərdələməyə çalışırlar. Amma hər kəsə gün kimi aydındır ki, bunun insan hüquqları ilə heç bir əlaqəsi yoxdur. Bu, sadəcə olaraq, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qisas cəhdidir. Görünür, tarixi zəfərimiz Qərbin bəzi siyasətçilərində, dövlət adamlarında və beynəlxalq qurumlarında ciddi narahatlığa səbəb olub. Lakin həmrəylik nümayiş etdirərək torpaqlarını işğaldan azad edən Azərbaycan hər şəraitdə xarici hücumlara sinə gərmək gücünə də malikdir. Ona görə də Avropanın bəzi dairələrinin çirkin cəhdləri iflasa məhkumdur.

→ 8

## Mədəniyyət: mənəviyyatımızın aynası

### Dünya bizi bu aynaya baxıb tanıyır

Şuşaya dövlətimiz mədəniyyət işığında daxil oldu. Düşmənin 30 ilə yaxın müddətdə daşı daş üstündə qoymadığı, dini məbədlərinə qədər dağıdıb tökdüyü bu gözəl məkanda yenidən mədəniyyət günəşi doğdu. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı, bu il isə islam dünyasının mədəniyyət paytaxtı elan olundu. Bütün xalqları, ölkələri, insanları kin-küdurəti, mənasız iddiaları, saxta mifləri kənara qoyub mədəniyyət dəyərləri ətrafında birləşməyə çağırdı. Mədəniyyətin gücü ilə dünyaya, insanlara, bu günə və gələcəyə fayda verməyə səslədi.

Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalları, Vaqif Poeziya Günləri hər kəsi heyran etdi. Festivallarda Şuşadan, Cıdır düzündən yenidən dünyaya xoş musiqi sədaları yayıldı. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanı özünə vətən bilən hər bir kəsin ürəyi bu tədbirlərin keçirildiyi əsrarəngiz diyarda döyündü.

→ 6

# Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qüvvəyə mindiyi gündən aşağıdakı qanunlar ləğv edilir:

2.1. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1993-cü il 4 mart tarixli 526 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 17; 2001, № 6, maddə 360, № 11, maddələr 676, 683, № 12, maddə 736; 2003, № 1, maddə 5; 2004, № 2, maddə 57, № 4, maddə 202; 2006, № 12, maddə 1005; 2008, № 2, maddə 49, № 5, maddə 348, № 6, maddə 462; 2010, № 11, maddə 939; 2015, № 4, maddə 369; 2016, № 4, maddə 637; 2019, № 1, maddə 25; 2021, № 7, maddə 701; 2022, № 5, maddə 430);

2.2. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının 1995-ci il 2 iyun tarixli 1049 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 366; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 683, 686; 2004, № 2, maddə 57; 2015, № 4, maddə 370; 2017, № 7, maddə 1260; 2019, № 1, maddə 26; 2023, № 4, maddə 455);

2.3. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının 1998-ci il 15 dekabr tarixli 590-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 155; 2006, № 12, maddə 1005; 2007, № 11, maddə 1053; 2008, № 6, maddə 462; 2013, № 11, maddə 1282; 2015, № 4, maddə 371; 2016, № 1, maddə 18).

**Maddə 3.** Azərbaycan Respublikasının digər normativ hüquqi aktları bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

**Maddə 4.** Bu Qanun 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

# "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1.Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 1.1.37-ci, 1.1.46-cı, 4.4-cü (hər iki halda) maddələrində, 8.2-ci maddəsinin ikinci cümləsində, 9.2-ci (hər üç halda), 9.3-cü maddələrində, 11.5-ci maddəsinin ikinci cümləsində, 13.2-ci, 13.6-cı, 15.3-cü, 15.6-cı, 16.7-ci, 27.2-ci, 27.3-cü, 28.6-cı maddələrində, 29.7-ci maddəsinin birinci cümləsində, 30.2-ci maddəsində, 33.3-cü maddəsinin birinci cümləsində, 34.4-cü, 36.2-ci, 37.1-ci maddələrində, 39.3-cü maddəsinin ikinci cümləsində, 39.7-ci, 39.12-ci, 44.1.3-cü, 44.2-ci maddələrində, 44.3-cü və 46.1-ci maddələrinin ikinci cümlələrində, 48.3-cü, 48.8-ci, 65.10-cu, 77.8-ci və 77.14-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2.həmin Məcəllənin 4.4-cü (hər iki halda) maddəsində, 11.5-ci maddəsinin ikinci cümləsində, 13.2-ci, 15.6-cı, 27.3-cü, 28.6-cı, 48.3-cü, 48.8-ci, 65.10-cu və 77.14-cü maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Məcəllənin 1.1.46-cı maddəsində, 8.2-ci maddəsinin ikinci cümləsində, 9.3-cü maddəsində, 13.6-cı, 15.3-cü, 16.7-ci, 27.2-ci, 30.2-ci maddələrində, 33.3-cü maddəsinin birinci cümləsində, 36.2-ci maddəsində, 39.3-cü maddəsinin ikinci cümləsində, 39.7-ci, 39.12-ci, 44.2-ci maddələrində, 44.3-cü və 46.1-ci maddələrinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 9.2-ci (ikinci və üçüncü hallarda) və 34.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 1.1.37-ci maddəsində və 9.2-ci maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 29.7-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 37.1-ci, 44.1.3-cü və 77.8-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi və təmin edilməsi ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. aşağıdakı normativ hüquqi aktları altı ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin:

2.4.1. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin 4.4-cü maddəsinə uyğun olaraq, həmin Məcəllənin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən halları, fəaliyyət sahələrini və məhsulları;

2.4.2. həmin Məcəllənin 11.5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olmasına və ya ola bilməsinə dair meyarları;

2.4.3. həmin Məcəllənin 13.2-ci maddəsinə uyğun olaraq, sazişlərin həmin Məcəllənin 13.1-ci maddəsində qeyd olunan şərtlərə cavab verməsinə dair meyarları, həmçinin texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli sazişlərin istisna edilməsinə dair meyarları;

2.4.4. həmin Məcəllənin 15.6-cı maddəsinə uyğun olaraq, müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi qaydasını;

2.4.5. həmin Məcəllənin 27.3-cü və 28.6-cı maddələrinə uyğun olaraq, müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi və təmərküzləşmələrin qiymətləndirilməsi qaydasını;

2.4.6. həmin Məcəllənin 48.3-cü və 48.8-ci maddələrinə uyğun olaraq, rəqabət orqanı tərəfindən bazar subyektlərində və təbii inhisar subyektlərində yoxlamaların keçirilməsi qaydalarını;

2.4.7. həmin Məcəllənin 65.10-cu maddəsinə uyğun olaraq, həmin Məcəllənin 65-ci maddəsinə əsasən götürülmüş malların digər məqsədlər üçün istifadəsi, satılması, qaytarılması, məhv edilməsi və ya dəyərinin ödənilməsi qaydalarını;

2.4.8. həmin Məcəllənin 77.14-cü maddəsinə uyğun olaraq, həmin Məcəllənin 77.1-77.3-cü, 77.5-ci və 77.12-ci maddələrində qeyd edilmiş hər bir hal üçün işin xüsusiyyətinə uyğun olaraq maliyyə sanksiyalarının hesablanması və tətbiqi meyarlarını və qaydalarını;

2.5. aşağıdakı normativ hüquqi aktları dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.5.1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 8.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi qaydalarını;

2.5.2. həmin Məcəllənin 9.3-cü maddəsinə uyğun olaraq, həmin Məcəllənin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə qaydasını;

2.5.3. həmin Məcəllənin 13.6-cı maddəsinə uyğun olaraq, həmin Məcəllənin 13.5-ci maddəsi əsasında sazişlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təsdiqlənməsi qaydalarını;

2.5.4. həmin Məcəllənin 15.3-cü maddəsinə uyğun olaraq, rəqabət orqanı ilə razılaşdırmaqla Azərbaycan Respublikası Mərkəzi Bankının təklifi əsasında maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtlərini (bazar payının hədləri və müəyyən edilməsi meyarları);

2.5.5. həmin Məcəllənin 16.7-ci maddəsinə uyğun olaraq, hökmran mövqedən sui-istifadənin obyektiv zəruriliyinin və səmərəliliyinin qiymətləndirilməsi qaydalarını;

2.5.6. həmin Məcəllənin 27.2-ci maddəsinə uyğun olaraq, rəqabət orqanı ilə razılaşdırmaqla Azərbaycan Respublikası Mərkəzi Bankının təklifi əsasında maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarları (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyəri, ümumi dövriyyəsinin həcmi);

2.5.7. həmin Məcəllənin 30.2-ci maddəsinə uyğun olaraq, həmin Məcəllənin 30.1-ci maddəsində nəzərdə tutulan ərizənin formasını;

2.5.8. həmin Məcəllənin 36.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında təbii inhisar subyektlərinin siyahısını;

2.5.9. həmin Məcəllənin 39.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, müraciət edilməsi və müraciətə baxılma qaydasını;

2.5.10. həmin Məcəllənin 39.7-ci maddəsinə uyğun olaraq, təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının formasını və təqdim edilmə qaydasını;

2.5.11. həmin Məcəllənin 44.2-ci maddəsinə və 44.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması, monitorinqin nəticələrinə dair aktın forması və tərtib edilməsi qaydasını;

2.5.12. həmin Məcəllənin 46.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, araşdırmanın nəticələrinə dair aktın formasını;

2.6. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Bu Fərmanın 1-ci hissəsi 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 37 **QƏRAR** Bakı şəhəri, 23 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 aprel tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) meyar göstəriciləri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 aprel tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 387 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) meyar göstəriciləri" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 yanvar tarixli 37 nömrəli Qərarı ilə yeni redaksiyada verilmişdir.*

## Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) meyar göstəriciləri

1. Ekologiya, müdafiə, milli təhlükəsizlik, fövqəladə hallar, müdafiə sənayesi, yanğından mühafizə və mülki müdafiə təyinatlı, dövlət və səfərbərlik ehtiyatları saxlanılan əsas fondlar, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və dövlətə məxsus hüquqi şəxslərin balansında olan binalar, o cümlədən onların struktur komponentləri və digər daşınmaz əmlaklar (ilkin dəyəri 500 min manatdan yuxarı olan).

2. Qurğular və onların struktur komponentləri:

2.1. körpülər, tunellər, bütün növ limanlar, o cümlədən aerodromlar, uçuş-enmə zolaqları və dönmə dairələri (dəyərindən asılı olmayaraq);

2.2. xüsusi radio-televiziya qüllələri, rabitə qurğuları və peyklər (dəyərindən asılı olmayaraq);

2.3. avtomobil yolları və dəmir yolları (ilkin dəyəri 500 min manatdan yuxarı olan);

2.4. digər qurğular (ilkin dəyəri 500 min manatdan yuxarı olan).

3. Elektrik, metropoliten və dəmiryol stansiyaları (dəyərindən asılı olmayaraq).

4. Ötürücü qurğular və onların struktur komponentləri - metal və dəmir-beton dayaqlar üzərində qurulmuş gərginliyi 220 kvt-dan yuxarı olan elektrikötürücü naqillər, qaz, su və kanalizasiya kəmərləri, neft və neft məhsulları üçün kəmərlər (ilkin dəyəri 500 min manatdan yuxarı olan).

5. Maşın və avadanlıqlar (ilkin dəyəri 500 min manatdan yuxarı olan).

6. Bütün növ nəqliyyat vasitələri (ilkin dəyəri 1,0 mln. manatdan yuxarı olan).

7. Tərkibində qiymətli metalların dəyəri 50 min manatdan yuxarı olan bütün növ əsas vəsaitlər (fondlar).

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 38 **QƏRAR** Bakı şəhəri, 23 yanvar 2024-cü il

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648 (Cild I) ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2005, № 3, maddə 257 (Cild I) ilə təsdiq edilmiş "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 3.3.26-cı yarımbəndində "qanunvericiliyə uyğun olaraq müsabiqələrin (tenderlərin)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 783 (Cild I) ilə təsdiq edilmiş "Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 17-ci hissəsində "üzrə keçirilən tenderin" sözləri "ilə bağlı" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydaları"nın 8.15-ci bəndinin üçüncü abzasında "tender keçirilməklə dövlət satınalmaları qaydalarına müvafiq olaraq" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar keçirilməklə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 385 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 3.2.13-cü yarımbəndində "qanunvericilikdə nəzərdə tutulmuş qaydada müsabiqələrin (tenderlərin)" sözləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların" sözləri ilə, 7.1.15-ci yarımbəndində "müsabiqələrin keçirilməsi üzrə komissiyalar yaradır" sözləri "satınalma komissiyasını formalaşdırır" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 602 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.4-cü bənddə "istehsalçılarla (o cümlədən daxili və xarici malgöndərənlərlə)" sözləri "təchizatçılarla" sözü ilə əvəz edilsin;

6.2. 3.5-ci bənddə və 3.5.1-ci yarımbənddə ismin müvafiq hallarında "malgöndərənlər" sözü ismin müvafiq hallarında "təchizatçılar" sözü ilə əvəz edilsin;

6.3. 3.7-ci bəndin birinci cümləsində "malgöndərənlərdən" sözü "təchizatçılardan" sözü ilə, "malgöndərən" sözü "təchizatçı" sözü ilə, ikinci cümləsində "malgöndərəndə" sözü "təchizatçıda" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 oktyabr tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 854 (Cild I) ilə təsdiq edilmiş "Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.3-cü bənddə "satınalma işlərinin planını" sözləri "satınalma planını" sözləri ilə əvəz edilsin;

7.2. həmin mexanizmə əlavənin 2-ci hissəsinin onuncu abzasında "satınalma işlərinin planını" sözləri "satınalma planını" sözləri ilə, 4.3-cü bəndinin ikinci cümləsində isə "tender" sözü "satınalma" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 889 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması Qaydası"nın 2.2-ci bəndinin birinci cümləsində "16-cı maddəsinə" sözləri "44-cü maddəsinə" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 18 dekabr tarixli 564 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2512 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş tez xarab olan mallar barəsində sərəncam verilməsi Qaydası"nın 2.9-cu bəndində "müsabiqə" sözü "satınalmalar" sözü ilə, "podratçı təşkilat" sözləri isə "təchizatçı" sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 347 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası"nın 2.1.2-ci yarımbəndi ləğv edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 997 (Cild I) ilə təsdiq edilmiş "Enerji menecment sisteminə dair Tələblər"in 3.7.7-ci yarımbəndində "malgöndərənlərə (podratçılara)" sözləri "təchizatçılara" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan polisi Böyük qayıdışın reallaşması üçün əzmlə çalışır

## Ötən il cinayətkarlığa qarşı mübarizə uğurla aparılıb





Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2023-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələrin baş verdiyini, bunların arasında Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin bərpasının mühüm yer tutduğunu diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsində qazanılan Zəfərdən və ötən il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Ağdərə və digər ərazilər düşməndən azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük qayıdış proqramının reallaşması üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir, təhlükəsizliyi etibarlı təmin edirlər.

Antiterror tədbirlərində 12 hərbi qulluqçunun və 8 polis əməkdaşının şəhid olduğunu vurğulayan nazirin təklifi ilə şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2023-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 36.811 cinayət qeydə alınıb, onlardan 87,8 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 360 fakt təşkil edib. Cinayətlərin 94,5 faizi və ya 34.783-ü daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 89,6 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 89,6, qeyri-aşkar şəraitdə baş verənlərin 84,6, şəxsiyyət əleyhinə olanların 98,4, onlardan qəsdən adam öldürmələrin 96,1, adam öldürməyə cəhdlərin 97,4, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, xuliqanlıqların 96,3, mülkiyyət əleyhinə olanların 79,6, o cümlədən soyğunçuluqların 98,1, quldurluqların və hədə-qorxu ilə tələb etmələrin 97,5, avtonəqliyyat vasitəsini qaçırmaların 97,2, dələduzluqların 92,1 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri isə 3,6 faiz yaxşılaşaraq 84,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 4.324 nəfər tutulub, 254 kriminal qrup zərərsizləşdirilib.

Eyni zamanda prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyini, 426 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğunu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyini, habelə Dövlət Təhlükəsizliyi Xidməti ilə sıx qarşılıqlı əlaqədə dini radikalizmə qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə önəmli nəticələrə nail olunduğunu xüsusi vurğulayan nazir həmin dövlət orqanlarının əməkdaşlarına və rəhbərliyinə təşəkkürlərini ifadə edib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də 2,3 faiz yaxşılaşaraq 87,8 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 108 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 53 nəfərin yeri müəyyən olunub.

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 494 fakt müəyyən edilib, həmin cinayətlərə görə 262 nəfər tutulub. Ümumilikdə 12.648 odlu silah və 2,5 milyona yaxın sursat aşkarlanıb.

Qeyri-leqal dövriyyədən 3.487 ədəd müxtəlif nominallı saxta əskinas, istifadə müddəti ötmüş 6.310 ton yeyinti məhsulu və tikinti materialı çıxarılıb.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirərək bildirib ki, qanunsuz dövriyyədən 4 ton 464 kiloqram, yəni 2022-ci illə müqayisədə 1 ton 46 kiloqram çox narkotik vasitə götürülüb, 620 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 366 fakt aşkarlanıb və müvafiq cinayətlərlə əlaqədar 160 cinayətkar qrup zərərsizləşdirilib. Nazir bu növ cinayətlərlə mübarizədə vətəndaşların iştirakını, həmin şəxslərin məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini bildirərək onlara təşəkkürlərini çatdırıb.

Həmçinin yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Hesabat ilində 5.389, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 3.823 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində müsbət həll edilib. Eyni zamanda nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan uğurlardan, nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidentinin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə maneə yaradan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını tələb edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət funksiyalarını daha böyük peşəkarlıqla həyata keçirməsinin vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə dövlət başçısına dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Küveyt arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Yanvarın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Küveyt arasında ikitərəfli, çoxtərəfli əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında müxtəlif, o cümlədən iqtisadi, alternativ enerji, ticarət, kənd təsərrüfatı, balıqçılıq, turizm, mədəniyyət, təhsil və digər sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin və perspektivlərin mövcud olduğunu məmnunluqla qeyd edib. Xüsusilə regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı (QH) çərçivəsində iki ölkənin bir-birinə göstərdiyi qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.

2024-cü ilin, eyni zamanda Azərbaycan ilə Küveyt arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi ilə əlamətdar olduğu diqqətə çatdırılıb. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlament diplomatiyasının, o cümlədən iki ölkənin parlamentarilərinin qarşılıqlı səfərlərinin müsbət rol oynadığı bildirilib.

Əlaqələrin inkişaf perspektivlərinin zəngin olduğu, bu istiqamətdə mövcud potensialdan səmərəli istifadə edilməsi məqsədilə siyasi məsləhətləşmələr mexanizminin, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın böyük əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Qonaqlar həmçinin işğaldan azad olunmuş ərazilərdə postmünaqişə dövründə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumatlandırılıb, Küveyt tərəfinin prosesdə iştirakı üçün potensial imkanların olduğu qeyd edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ailə, qadın və uşaq məsələləri komitəsinin yaz sessiyasında ilk iclası keçirilib



Yanvarın 23-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2024-cü ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Hicran Hüseynova bildirib ki, 2023-cü il xalqımızın həyatında unudulmaz hadisələrlə əlamətdar olub. Ötən il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd edilib, keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Komitə sədri Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizi ehtiramla yad edib, qazilərimizə şəfa diləyib.

Azərbaycanın uğurlarına, xüsusən də ərazi bütövlüyünü və suverenliyini təkbaşına təmin etməsinə bir çox ölkənin qərəzli münasibət göstərməsindən söz açan Hicran Hüseynova xalqımızı və dövlətimizi qarşıda gözləyən yeni nailiyyətlərdən bəhs edib. O, fevralın 7-də keçiriləcək prezident seçkilərinin əhəmiyyətinə diqqət çəkərək qədirbilən Azərbaycan xalqının bu seçkilərdə də fəal iştirak edərək yeni uğurlara öz xeyir-duasını verəcəyini bildirib.

Sonra Hicran Hüseynova iclasın gündəliyini diqqətə çatdırıb. O bildirib ki, gündəliyə 5 məsələ, o cümlədən 2023-cü ilin payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabat, 2024-cü ilin yaz sessiyası üçün komitənin iş planı və bəzi qanunlara dəyişikliklərin edilməsi ilə bağlı layihələr daxildir.

Hicran Hüseynova əvvəlcə 2023-cü ilin payız sessiyası ərzində Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitənin 9 iclası keçirilib, 11 məsələyə baxılıb. Bununla yanaşı, sessiya ərzində komitədə aktual mövzulara həsr olunmuş 2 ictimai dinləmə keçirilib. O, komitə üzvlərinin həm "Heydər Əliyev İli" çərçivəsində keçirilən, həm də digər yerli və beynəlxalq tədbirlərdə fəal iştirakını qeyd edib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin 2024-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı bildirilib ki, layihədə cari ilin yaz sessiyasında qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmiş qanun layihələrinə baxılması və komitənin fəaliyyət sahəsinə aid digər məsələlərə dair tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Gündəliyin 3-cü məsələsi olan Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə bildirilib ki, sənəd uşaq hüquqlarının müdafiəsinin dövlət təminatı istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Vurğulanıb ki, təqdim olunan dəyişikliklərdə valideynlərin valideynlik hüquqlarının məhdudlaşdırılması və valideynlik hüquqlarından məhrum edilməsi barədə iddia qaldırmaq hüququ olan şəxslər sırasına prokurorluq orqanlarının da əlavə edilməsi nəzərdə tutulub.

Gündəliyin 4-cü məsələsi olan "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verərkən komitə sədri təklif olunan dəyişikliklərin heç bir halda milli-mənəvi və ailə dəyərlərinə mənfi təsir göstərmədiyini, əksinə, sənədin ailə institutunun möhkəmləndirilməsinə, ailədaxili münasibətlərin daha yaxşı tənzimlənməsinə və vətəndaşın konstitusion hüquqlarının müdafiəsinə xidmət etdiyini xüsusi olaraq vurğulayıb.

Gündəliyin sonuncu, 5-ci məsələsi olan Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə hazırlanıb.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə üzvləri çıxış edərək fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda komitənin ötən sessiya dövründə fəaliyyəti nəzərə alınıb, qarşıdakı sessiya üçün iş planının layihəsi təsdiqlənib, müzakirə olunan qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı yanvarın 23-də Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar rayonlarından olan vətəndaşlarla görüşüb, müraciətlərini dinləyib. Görüşdə vətəndaşlar dini icmaların qeydiyyatı, dini maarifləndirmə işinin genişləndirilməsi, islam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər. Dövlət komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş görüşdə ərizələr qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# Küveyt həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləyib

Yanvarın 23-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ölkəmizdə səfərdə olan Küveyt Ümmət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlayan Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva Azərbaycan və Küveytin həm ikitərəfli, həm də çoxtərəfli formatda, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Azərbaycan və Küveyt arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinin qeyd olunacağını deyən Sevinc Fətəliyeva ötən illər ərzində bu iki dövlətin siyasi, iqtisadi, mədəniyyət, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığının inkişafından danışıb. Komitə sədrinin müavini qonaqlara Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi və suverenliyini tam bərpa etməsi, həmin ərazilərdə aparılan tikinti-quruculuq işləri, Ermənistanla sülh danışıqları prosesi, Ermənistanla münasibətlərin normallaşdırılması üçün Azərbaycanın səyləri, həyata keçirilən "yaşıl enerji" layihələri haqqında məlumat verib, islam həmrəyliyinin əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Küveyt Ümmət Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyri ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnunluqla danışıb. Qonaq Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbriklərini çatdıraraq, ölkəsinin həmişə Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini qeyd edib.

Qonaq Küveytlə Azərbaycanın oxşar cəhətləri, ölkələrimizi və xalqlarımızı birləşdirən ümumi dəyərlər, investisiyaların təşviqi, parlamentlər arasında, həmçinin digər sahələrdə qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi imkanları barədə fikirlərini bölüşüb.

Görüşdə iştirak edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə Azərbaycanın xarici siyasət strategiyası, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolu və digər məsələlər barədə qonaqlara məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər mövzularda da müzakirələr aparılıb.

***"Azərbaycan"***

## 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

# Xarici İşlər Nazirliyi MSK ilə birgə ölkəmizin diplomatik missiyaları üçün seminar keçirib



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) Mərkəzi Seçki Komissiyası (MSK) ilə birgə fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan vətəndaşlarının səsvermə hüquqlarının təmin olunması məqsədilə ölkəmizin diplomatik missiyalarının əməkdaşları üçün videokonfrans formatında seminar təşkil edib.**

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev tədbiri açaraq növbədənkənar prezident seçkilərinin keçirilməsi üçün ümumilikdə 37 ölkədə 49 seçki məntəqəsinin yaradıldığını qeyd edib, xarici ölkələrdə seçkilərin təşkili ilə əlaqədar həyata keçirilmiş tədbirlər, o cümlədən beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı ilə bağlı görülmüş işlər barədə məlumat verib.

Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov ölkə hüdudlarından kənarda seçkilərin təşkilinə dair Xarici İşlər Nazirliyi ilə birgə görülməkdə olan işlər, seçkilərin xarici ölkələrdə keçirilməsi ilə əlaqədar ölkə qanunvericiliyinin normaları barədə geniş məlumat verib. O, xarici ölkələrdə yaşayan Azərbaycan vətəndaşları üçün səsvermənin təşkili məqsədilə XİN-lə MSK arasında gündəlik əsasda intensiv əməkdaşlığın davam etdiyini, yaranan məsələlərin əlaqələndirilmiş qaydada həll olunduğunu vurğulayıb.

Seminar zamanı əvvəlki seçkilərdən fərqli olaraq, bu seçkilərin keçiriləcəyi ölkələrin və xaricdə yaradılmış məntəqələrin sayında əhəmiyyətli artımın qeydə alındığını və bunun indiyədək keçirilmiş seçkilər üzrə ən yüksək göstərici olduğu bildirilib.

Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov çıxışında seçkilərin keçirilməsi ilə bağlı görüləcək işlər, həmçinin seçkilərin təşkili ilə əlaqədar Xarici İşlər Nazirliyinin fəaliyyət planı və nazirliyin nəzdində yaradılmış qərargah barədə məlumat verib.

Görüşün sonunda seçkilərin keçirilməsi ilə əlaqədar Azərbaycanın diplomatik missiyalarının çoxsaylı sualları cavablandırılıb.

Seminarda Xarici İşlər Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının aidiyyəti sahələr üzrə əməkdaşları, ölkəmizin xarici ölkələrdəki diplomatik missiyalarının səlahiyyətli nümayəndələri (videokonfrans formatında), o cümlədən diplomatik missiyalarda yaradılmış seçki məntəqələrinin aid olduğu dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.



# Bütöv Azərbaycanda Zəfər seçkisi

## Demokratik, ədalətli, şəffaf seçkilər üçün bütün şərait yaradılıb









*Əvvəli 1-ci səh.*

2024-cü il fevralın 7-də Azərbaycanda suverenliyimizin təmin edilməsi kimi tarixi şəraitdə ilk dəfə prezident seçkiləri keçirməyimizin özünün də böyük rəmzi mənası var.

Bu baxımdan, heç şübhəsiz, növbədənkənar prezident seçkilərinin keçiriləcəyi 7 fevral təqvimi salnamələrimizə tarixi gün kimi yazılacaq. Çünki Azərbaycan xalqı müstəqillik həyatında ilk dəfə olaraq bu seçkilərə - ərazi bütövlüyümüzün tam bərpası fonunda gedəcək. Bu seçkilərin işğaldan azad edilmiş yurdlarımızda keçirilməsi isə bir ayrı milli qürurumuzdur.

### Böyük qayıdışın yaratdığı zəmin

Azərbaycan dövlətinin qısa müddət ərzində 10 min kvadratkilometr ərazidə apardığı genişmiqyaslı tikinti və quruculuq işlərinin nəticəsidir ki, illərboyu erməni vandalları tərəfindən viran qoyulan ərazilərimizin də siması tamamilə dəyişir. Bir zamanlar mənfur düşmənin yanmış torpaq siyasəti ilə bütün canlı aləmini məhv etdiyi, sularını qurutduğu, meşələrini qırdığı Qarabağ və Şərqi Zəngəzura həyat qayıdır. Çoxsaylı yaşayış məntəqəsinin yenidən qurulduğu, "ağıllı kənd və şəhərlər"in salındığı bu ərazilərdə böyük infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir.

Xatırladaq ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib.

Artıq Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux kəndlərinə, eləcə də Füzuli və Laçın şəhərlərinə minlərlə insan qayıdıb, əzəli torpağında əbədi yaşamağa başlayıb.

Qayıdış proqramının böyük müvəffəqiyyətlə icra olunmasının və görülən mühüm işlərin daha bir mühüm nəticəsidir ki, işğaldan azad edilən ərazilərimizdə də prezident seçkilərində səsvermə keçiriləcək və bunun üçün həmin yerlərdə mühüm hazırlıq işləri görülüb.

### 26 seçki məntəqəsi təşkil edilib

İşğaldan azad edilən ərazilərdə 26 seçki məntəqəsi təşkil edilib. Bu seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb.

Seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki məntəqələri lazımi texniki və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar paylanılıb, divarlardan seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Məntəqə seçki komissiyalarının katibləri və üzvləri, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər ayrılıb.

Bir sözlə, növbədənkənar prezident seçkilərinə işğaldan azad olunmuş ərazilərimizdə də yüksək səviyyədə hazırlıq işləri görülüb və lazımi şərait yaradılıb. Və qayıdış karvanları ilə dədə-baba torpağına dönən minlərlə keçmiş məcburi köçkün fevralın 7-də öz yurdunda - Qarabağda və Şərqi Zəngəzurda layiqli namizədinə səs verərək Prezidentini seçəcək.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Zaqatalada məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər başa çatıb

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq çərçivəsində Zaqatala rayonunda yerləşən 111 və 112 saylı seçki dairələrində aşağı seçki komissiyalarının sədr, katib və üzvləri üçün maarifləndirici seminar-treninqlər başa çatıb. Yanvarın 17-dən başlanan treninqlərə hər iki seçki dairəsi üzrə ümumilikdə 558 nəfər cəlb olunub.**





111 saylı Zaqatala-Balakən seçki dairəsi dairə seçki komissiyasının sədri Söhrab İsmayılov AZƏRTAC-a bildirib ki, beş gün davam edən treninqlərdə dairənin tərkibində olan 50 seçki məntəqəsi üzrə 300 nəfər komissiya üzvü iştirak edib. Məşğələlər Mərkəzi Seçki Komissiyasının təlim kursunda iştirak etmiş Mübariz Laçınov və Səyavuş Hüseynov tərəfindən aparılıb.

Məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə təşkil olunan treninqlərdə iştirakçılara seçki komissiyalarının strukturu, seçki komissiyaları üzvlərinin rol və vəzifələri barədə ətraflı məlumat verilib. Məşğələlərdə, həmçinin komissiya üzvlərinə seçki günü prosesləri və müstəsna hallar, səsvermə günü müşahidəçilərin hüquqları, seçki məntəqəsinin açılması, səsvermə prosesi, daşınan seçki qutusu ilə səsvermə prosesi, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması və digər məsələlər geniş izah olunub, metodiki tövsiyələr verilib, iştirakçıların sualları cavablandırılıb.

Söhrab İsmayılovun verdiyi məlumata görə, seçki dairəsinin tərkibinə daxil olan 50 seçki məntəqəsinin 38-i Zaqatalada, 12-si isə Balakən rayonunda yerləşir. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 51 min 107 seçici qeydə alınıb. Onlardan 940 nəfəri 80-100 yaş arasındadır. 721 gənc isə bu seçkilərdə ilk dəfə səs verəcək.

112 saylı Zaqatala seçki dairəsində də məntəqə seçki komissiyalarının üzvləri üçün təşkil edilən maarifləndirici seminar-treninqlər başa çatıb. Dairə seçki komissiyasından AZƏRTAC-a bildirilib ki, dörd gün davam edən treninqlərdə dairənin tərkibində olan 43 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri, ümumilikdə, 258 nəfər iştirak edib.

# Seçkilərdən seçkilərə

## Azərbaycanın təbii qaz potensialı hələ uzun illər xalqımıza və dövlətimizə xidmət edəcək

**Bu şaxtalı-sazaqlı, qarlı-buzlu qış günlərində neçə-neçə ölkədəki istehlakçıların mənzilləri və iş otaqları Azərbaycanın mavi yanacağı ilə isinir. Dünyada cərəyan edən hadisələr bir çox yerdə Azərbaycan qazına tələbatı artırıb. Yaranmış vəziyyətdə Avropa ölkəmizdən daha çox qaz gözləyir. Bu ehtiyacı qarşılamaq üçün bir sıra vacib şərtlər var ki, onlardan da biri hasilatdır.**



Azərbaycanın böyük qaz ehtiyatlarına malik olması artıq hamıya məlumdur. Bu potensial hələ bir əsr bundan sonra bizi mavi yanacaqla təmin edə, eləcə də bir sıra digər ölkələrin qaz təminatına mühüm dəstək verə bilər. Belə ki, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir.

Azərbaycan qazından söhbət düşəndə təbii ki, ilk növbədə "Şahdəniz"in adı çəkilir. Bu, son onilliklərdə dünyada kəşf olunmuş ən nəhəng karbohidrogen yataqlarından biridir. İlkin hesablamalara görə, bu yatağın 1 trilyon kubmetrdən çox qaz və 2 milyard barel kondensat ehtiyatı var. "Şahdəniz"in sayəsində Azərbaycan dünyada qaz ixrac edən ölkə kimi tanınıb. "Cənub qaz dəhlizi" kimi bir meqalayihənin ehtiyat mənbəyi də məhz bu yataqdır.

2006-cı ilin sonlarından Gürcüstanın, növbəti ilin ortalarından Türkiyənin və artıq üç ildən çoxdur Avropanın ölkəmizdən aldığı qaz "Şahdəniz"dən hasil olunur. Hazırda Azərbaycandan Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiya qaz alır. Bu ölkələrin sayı getdikcə artır.

Dünyaya səs salan "Şahdəniz"imizə 2023-cü ildə hasilata başlayan"Abşeron" da qoşuldu. "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlanması Azərbaycan qazına tələbatın artdığı, bizdən mavi yanacaq idxal etmək istəyən ölkələrin sayının getdikcə çoxaldığı bir zamanda xüsusi əhəmiyyət daşıyır.

"Abşeron" yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşir. Dənizdə, suyun 500 metr dərinliyində yerləşən yatağın ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir.

Yatağın işlənməsinin İHS mərhələsi sualtı hasilat quyusunu "Neft Daşları"ndakı mövcud qurğularla əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur. Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan "Abşeron" İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən Mərkəzi İdarəetmə Otağından həyata keçirilir.

Yataqda illik hasilatı 1,5 milyard kubmetrdən 6 milyard kubmetrədək artırmaq planlaşdırılır.

Təbiət xalqımıza elə zəngin bir sərvət bəxş edib ki, neft yataqlarından eyni zamanda səmt qazı, qaz yataqlarından isə yüksəkkeyfiyyətli neftə bərabər olan kondensat da çıxarılır. Məşhur "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarını götürək. Bu nəhəng neft yataqları blokundan həmçinin səmt qazı əldə olunur. İndiyədək AÇG-dən milyonlarla kubmetr mavi yanacaq hasil edilib ki, onun da böyük hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib.

Lakin "Azəri-Çıraq-Günəşli"nin mavi yanacaq ehtiyatı bununla bitmir. Blokun dərin qazının olduğu ehtimalı da var. Odur ki, buradakı dərin qaz laylarında qiymətləndirmə işlərinə başlanıb. Strukturda istismarda olan neft yataqlarının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu qazılıb. Hazırda dərin qaz laylarının potensialını öyrənmək üçün quyudan əldə olunmuş məlumatın təhlili aparılır.

"Şahdəniz" yatağında isə yeni kəşfiyyat quyusu qazılır. "Heydər Əliyev" adına yarımdalma qazma qurğusu bu quyunun "Şahdəniz" yatağının şərq cinahında yerləşən qazma ərazisinə 2022-ci ilin dekabr ayında gətirilib. Quyunun ümumi dərinliyinin təxminən 7000 metr olacağı nəzərdə tutulur. İşlərin uğurlu olacağı təqdirdə bu quyu şərq cinahda hazırda istismar edilən məhsuldar layların altındakı daha dərin horizontların qazma xüsusiyyətləri, hasilat imkanları və qaz ehtiyatları potensialı haqqında daha aydın təsəvvür yaradacaq.

Azərbaycan qazına böyük tələbatın yarandığı, ixracın artmasının və şaxələndirilməsinin gündəmə gəldiyi bir zamanda AÇG və "Şahdəniz"də gedən bu işlər də mühüm əhəmiyyət kəsb edir.

Xəzərin Azərbaycan sektorunda perspektivli yataqlar çoxdur. "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan", "Qarabağ" kimi strukturlarda hazırda müxtəlif mərhələlərdə işlər aparılır. Azərbaycan dövləti perspektivli yataqlardan alınacaq qazı həm daxili tələbatın ödənilməsinə, həm də ixraca yönəltməyi nəzərdə tutur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Pensiya, müavinət, təqaüd, ünvanlı yardımlar üzrə əhaliyə 8 milyard manata yaxın vəsait ödənilib

**2023-cü il ərzində pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə 2022-ci illə müqayisədə 1 milyard 311 milyon manat və ya 19,7 faiz çox olmaqla 7 milyard 957 milyon manat ödənilib.**

Ötən ilin əvvəlindən növbəti sosial islahat paketi reallaşdırılaraq pensiya, müavinət və təqaüdlərin, habelə ehtiyac meyarı həddinin növbəti dəfə artırılması təmin edilib.

Əmək pensiyaçılarına maddi yardımlar pensiyanın sığorta hissəsinə əlavə edilib və pensiyanın sığorta hissəsi 2023-cü il yanvarın 1-dən 14,7 faiz indeksləşdirilərək artırılıb.

## Xankəndidə poçt filialı yaradılır

**"Azərpoçt" MMC tərəfindən son 20 il ərzində ölkə üzrə maddi-texniki baza gücləndirilib, poçt şöbələri və filiallar əsaslı təmir edilib və ya binaları yenidən tikilib.**

Bu illər 887 yeni poçt şöbəsi binası tikilib, 126 poçt şöbəsi binası əsaslı təmir edilib, 11 poçt filialı üçün isə yeni bina tikilib. Əlavə olaraq qurum tərəfindən 367 yeni avtomobil alınaraq istifadəyə verilib. Eyni zamanda 2003-2023-cü illər ərzində 72 yeni ATM quraşdırılıb, 1236 poçt şöbəsi isə mərkəzi şəbəkəyə qoşulub.

Xatırladaq ki, 2020-ci ildə Hadrutda, daha sonra Cocuq Mərcanlıda poçt şöbəsi yaradılıb. 2022-ci ildə isə Zəngilan rayonunun Ağalı kəndində poçt xidmətlərinin təşkili təmin olunub.

Hazırda Xankəndi poçt filialının yaradılması, Şuşa, Laçın, Xocavənd və Əsgəran şəhərlərində poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

## Reabilitasiya xidməti göstərilənlərin illik sayı 7 dəfədən çox artıb

**Son illər ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun yeni reabilitasiya metodlarının da tətbiqinə başlanıb.**

Sosial sahədə son illər aparılan islahatlar ölkədə müasir reabilitasiya sisteminin qurulması ilə yanaşı, reabilitasiya sahəsində biopsixososial modelə əsaslanan xidmət spektrinin yeni istiqamətlər üzrə xeyli genişlənməsinə də imkan yaradıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində ənənəvi üsullarla paralel olaraq, 2018-2023-cü illərdə qabaqcıl dünya təcrübəsinə uyğun olaraq robotik reabilitasiya, sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, dance ability (rəqs terapiyası) və s. kimi reabilitasiya metodlarının da tətbiqinə başlanıb.

Həmçinin stasionar və ambulator xidmətlərlə yanaşı, son illərdə icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətlərinin göstərilməsi təmin edilir.




Beləliklə, qeyd olunan dövrdə aparılan işlər nəticəsində reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayı 2018-ci ilə nisbətən 7,3 dəfə artaraq 2023-cü ildə 87,7 minə çatıb. Həmin şəxslərə ötən il 883,7 mindən çox xidmət göstərilib.

## Aqrar sığorta köməyə gəlir

**Dövlət ərzaq bolluğunun yaradılması, kənd təsərrüfatı məhsullarının daxili tələbatı ödəməklə ixracına da nail olmaq üçün aqrar sektora hər cür dəstək verir. Ümumiyyətlə, bu sektor Azərbaycanda dövlət tərəfindən ən çox güzəşt olunan sahədir.**

Güzəştlərdən biri də son üç ildə tətbiq edilən aqrar sığorta üzrədir. Bu da ondan ibarətdir ki, ölkəmizdə kəndli öz təsərrüfatını sığorta etdirdikdə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

Goranboy rayonundan olan fermer İsmayıl Əsgərovun rayonun Şadılı kəndində yerləşən təsərrüfatı sel-subasma və dolu hadisəsi nəticəsində zərər çəkmişdi. Ekspertlər tərəfindən zərərin həcmi müəyyənləşdirilmiş və dəymiş zərərin qarşılığı olaraq fermerə 35 min 618 manat ödəniş edilmişdir. Əkin sahəsini 50 faiz dövlət dəstəyi ilə sığortalayan fermer fondun xidmətindən razı qaldığını bildirərək fermerləri bu sərfəli imkandan istifadə etməyə çağırmışdır.

Yeri gəlmişkən, qeyd edək ki, payızlıq əkin sahələrinin sığortalanması üçün fermerlərin müraciət tarixi 19 yanvar 2024-cü il tarixədək uzadılıb. Onu da xatırladaq ki, aqrar sığorta əkin sahələrini təbii hadisələr, yağıntı, dolu, sel, fırtına, qasırğa, həmçinin 3-cü şəxslərin hərəkətləri və s. risklərdən qoruyur.

Son günlər hava şəraitinin kəskin dəyişməsi, bütün ölkə ərazisində qar yağması və temperaturun aşağı düşməsi kənd təsərrüfatına, o cümlədən meyvə bağlarına ciddi təsir edir. Amma bu zaman da ziyana düşməmək olar. Ölkəmizdə dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi vasitəsilə meyvə bağlarını digər risklərlə yanaşı, şaxtavurma (donvurma) və normadan artıq qar yağıntıları risklərindən də sığortalamaq mümkündür.

Şaxtavurma riski dedikdə havanın temperaturunun 0 dərəcədən aşağı düşməsi nəticəsində bitkinin məhsulunda yaranan zərərlər başa düşülür. Yəni bu sığorta ilə havanın temperaturunun 0 dərəcədən aşağı olduğu hallarda donvurma nəticəsində meyvə bağına dəyən zərər kompensasiya edilir. Donvurmadan sığorta vasitəsilə müxtəlif bitkiləri, o cümlədən limon, naringi, portağal, üzüm, alma, armud, heyva, fındıq, badam, qoz, gavalı, alça, ərik, gilas, nar, xurma, albalı, zeytun və şaftalı bağlarını sığorta etmək olar.

Meyvə bağları ilə yanaşı, ağac və tingləri də şaxtavurma riskindən sığorta etmək mümkündür. Bundan başqa, aqrar sığorta vasitəsilə əkin sahələrini, tərəvəz əkinlərini və meyvə bağlarını normadan artıq qar yağıntılarından da sığortalamaq olar. Qeyd edək ki, normadan artıq qar yağıntıları riski üçün əlavə ödəniş etmək tələb olunmur, bu hadisədən sığorta bitkilərin baza sığorta zərfində yer alır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



## Yaşıl vətən

**Ətraf mühit, elmi dildə desək, insanları əhatə edən, onlarla qarşılıqlı əlaqədə olan günəş şüaları, su, torpaq, hava və canlılar, antropogen maddə, əşyalar və qurğulardır. Biz özümüz də ətraf mühitin ayrılmaz və çox güclü təsirə malik olan hissəsiyik.**

Alimlər ətraf mühiti təbii və süni mühit olaraq iki hissəyə ayırıblar. İnsanların həmişə asılı olduqları mühit təbiidir. Süni mühit isə cəmiyyətin inkişafı ilə əlaqədər insanların fəaliyyəti nəticəsində yaradılıb. Müasir elmin köməyi ilə yaradılmış yeni çoxsaylı bitki və heyvan növləri, süni dəryalar, göllər, qoruqlar və s. bu mühitin obyektləridir.

Təəssüf ki, keçən əsrin ortalarından ekoloji böhran özünü büruzə verməyə başlayıb. Hətta o dərəcədə ki, SOS siqnalı verilib və 1972-ci ildə BMT Baş Məclisinin İsveçin paytaxtı Stokholmda keçirilən iclasında hər il iyunun 5-nin Dünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunması qərara alınıb.

Dünya Ətraf Mühitin Mühafizəsi Gününün hər il geniş tədbirlərlə qeyd edildiyi Azərbaycanda da ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli diqqət mərkəzindədir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair dövlət proqramı qəbul edilərək icra olunur. Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də ətraf mühitin qorunmasında üstün çəkiyə malikdir.

Təsadüfi deyil ki, 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan olunmuşdu. "Ekologiya ili" çərçivəsində ölkəmizdə milyonlarla ağac əkildi, yeni yaşıl zolaqlar salındı, meşələrin qırılmasına qarşı mübarizə gücləndirildi və digər ekoloji tədbirlər reallaşdırıldı. Təbii ki, bütün bunlar nəticəsiz qalmadı. Ümumiyyətlə, son illər Azərbaycanda həyata keçirilən ekoloji tədbirlər sosial-iqtisadi islahatların tərkib hissəsi kimi qəbul olunur.

Ekoloji tarazlığın mühafizəsində qarşıda duran vəzifələrdən biri də gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılmasıdır. Mütəxəssislərin fikri belədir ki, bu məqsədlə ölkədə yaşıllıqların payı artırılmalı, iqtisadi artımla ekoloji mühit arasındakı tarazlıq qorunmalı, yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslarımız bərpa edilməlidir. Eləcə də ölkənin keyfiyyətli suya tələbatı su resurslarından səmərəli istifadə etməklə ödənilməlidir. Söz düşmüşkən xatırladaq ki, 2022-ci ildə suyun təbii resurs olmasını insanlara çatdırmaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərsu" ASC, Meliorasiya və Su Təsərrüfatı Nazirliyi, IDEA İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Bir damcı" adlanan layihə hazırlanmışdır. Layihənin "Bir damcı öyrənək" və "Bir damcı dəyər verək" adlanan mərhələlərinin əsas məqsədi su mənbələrinin dəyərinin bilinməsi, sudan istifadə ilə bağlı vərdişlərin aşılanması və bunların sayəsində vətəndaşlara davamlı olaraq su ilə təminatda fayda verməyin vacibliyini vurğulamaqdır.



Yaşadıgımız dünya, bizi əhatə edən aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Bu dünya, bu mühit, bu aləm təbiət adlanır. Əslində, biz özümüz də təbiətin bir zərrəsi, onun tərkib hissəsiyik. Təbiət hamımızın anasıdır. Təəssüf ki, meşələrin qırılması və ətraf mühitin çirklənməsi bitki aləminə zərbələr vurur, nəticə etibarilə insanların saglamlığına təhlükə yaradır. Bu səbəblərə görə təbiətin qorunması bizim planetin ən vacib məsələlərindən biridir. Təbiət bizi yedizdirir, içizdirir, geyindirir və müalicə edir. Təbiəti sevmək, qorumaq hər bir vətəndaşın borcudur. Bu baxımdan ətraf mühitin mühafizəsində meşələrin qorunması və bərpası əsas vəzifədir. Müasir dövrümüzdə innovasiyalar insan həyatında nə qədər müsbət rol oynasa da, bir o qədər də təbii resurslara əks təsir edir. Müharibələrdə istifadə olunan müasir silahların öldürücü fəsadları insanlardan sonra meşələrdə özünü göstərir, əks olunur. Ona görə də meşə örtüyünü qorumaq, meşə sahələrinin azalmasının qarşısının alınması mütləqdir.

Azərbaycanda bu sahədə də görülən işlər təqdirəlayiqdir. 20 il öncə ölkənin meşə ehtiyatları, adambaşına düşən meşə sahəsi və oduncağın həcminə görə göstəriciləri aşağı səviyyədə idi. Meşələrin təbii və süni bərpası da qənaətbəxş deyildi. Amma təxirəsalınmaz tədbirlər nəticəsində ötən iki onillikdə 204 min 692,5 hektar ərazidə ümumi meşə bərpa tədbirləri aparıldı, 103 milyondan çox ağac əkildi.

Təbii meşələrdən başqa, milli parklar və qoruqlar da əvəzsiz sərvətimizdir. Milli parklarımız bənzərsiz təbii mənzərəsi, fərqli iqlimi, təmiz havası və suyu ilə seçilir. Bu gün Azərbaycanda ümumi sahəsi 892 min 855,6 hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri var. Ümumiyyətlə, hazırda ölkəmizdə 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 faizini təşkil edir.

Gəlin təbiətimizi, o cümlədən yaşıllığı qoruyaq. Həm də təkcə qorumayaq, ərazisini genişləndirməkdə dövlətə kömək edək, arxa olaq, əlindən tutaq və unutmayaq ki, vətənin hər qarış torpağını yaşıllaşdırmaq müqəddəs borcumuzdur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Seçkilərdən seçkilərə

# Mədəniyyət: mənəviyyatımızın aynası

## Dünya bizi bu aynaya baxıb tanıyır

**Bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayan ölkəmizin çoxşaxəli inkişaf meyilləri milli mədəniyyətimizi də əhatə edir. Hər il Azərbaycan mədəniyyətinin inkişafı məqsədilə ardıcıl addımlar atılır, müxtəlif tədbirlər həyata keçirilir. Bütün bunlar mədəniyyət sahəsinin, bu sahədə çalışan insanların daimi dövlət qayğısı ilə əhatə olunduqlarını göstərir. Hamımız razılaşarıq ki, dünyada sülhün, mədəniyyətlər arasında dialoqun, insanı qorumağın və onun rifahı üçün çalışmağın alternativi yoxdur. Bunlar Yer üzündə sağlam düşüncənin əhatəsini genişləndirir. Xoş niyyətlər ətrafında birləşən insanların sayını artırır.**






Bəşəriyyət üçün belə nailiyyətləri yaradan faktlardan biri də ölkəmizdə keçirilən silsilə beynəlxalq tədbirlər kimi yanaşdığımız festivallar, mahnı müsabiqələri, qlobal mədəniyyətlərarası dialoq forumlarıdır. Həmin forumlarda aparılan müzakirələrdir. Dünyanın nüfuzlu söz sahibləri arasında gedən fikir və ideya mübadiləlləridir. Əldə edilən razılaşmalardır. Bakıdan bütün bəşəriyyətə ünvanlanan çağırışlardır. Bu gün həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt məhz milli irsin təbliği, mədəniyyət abidələrinin, genofondun qorunmasıdır.

Mədəniyyətin ən böyük təsir gücü həm də milli birliyə xidmət etməsindədir. Ortaq mədəniyyət insanları öz doğmalığında bir araya gətirir. Xalqın milli birliyini sarsılmaz edir. Mədəniyyət ortaq keçmişə və gələcəklə bağlı məqsədlərə malik ayrı-ayrı ölkələrin birliyi üçün də möhkəm bağlantıdır. Vətən müharibəsindəki qələbəmizdən sonra regionda yeni geosiyasi reallıqlar yaradan, türk dünyasının tərəqqipərvər toplumlarla bir arada inkişafı, sülh, sabitlik, rifah içində bəşəriyyətin xoşbəxt gələcəyinə yönələn, ardıcıl işlər aparan Azərbaycan üçün bu amil çox vacibdir.

### Mədəniyyət tədbirlərinin dünyaya anlatdığı həqiqətlər

İndiyə qədər Azərbaycanda çox əhəmiyyətli mədəniyyət hadisələri yaşanıb. Ölkəmiz bir çox regional və beynəlxalq səviyyəli tədbirə ev-sahibliyi edib. Humanitar sahədə bütün dünyada böyük maraqla qarşılanan və təqdir edilən xeyli xoşməramlı layihələr reallaşdırılıb. Azərbaycanın təşəbbüsü ilə təşkil edilən "Bakı prosesi" bütün dünyada yüksək nüfuzlu beynəlxalq platformaya çevrilib.

Vətən müharibəsindəki möhtəşəm qələbəmizə qədər bunlar Azərbaycanın dünya mədəniyyətinə fayda vermək arzusu, ölkəmizi, xalqımızı beynəlxalq ictimaiyyətə zəngin mədəniyyətimizlə birgə tanıtmağı, sağlam düşüncəli insanları müxtəlif qlobal məsələlər ətrafında bir araya gətirmək istəyi kimi görünürdü. Qələbəmizdən, işğal altındakı torpaqlarımızın azadlığından sonra isə artıq bu cür tədbirlər əlavə məzmun kəsb etməyə başlayır. Azərbaycanın öz müstəqilliyini daha da möhkəmləndirməsi, sosial-iqtisadi inkişaf, ordu quruculuğu, xarici siyasət sahəsində görülən işlər, cəmiyyət həyatının müxtəlif sahələrində aparılan köklü islahatlar qədər mədəniyyət diplomatiyası da uğurla həyata keçirilir.

Şuşaya dövlətimiz mədəniyyət işığında daxil oldu. Düşmənin 30 ilə yaxın müddətdə daşı daş üstündə qoymadığı, dini məbədlərinə qədər dağıdıb tökdüyü bu gözəl məkanda yenidən mədəniyyət günəşi doğdu. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı, bu il isə islam dünyasının mədəniyyət paytaxtı elan olundu. Bütün xalqları, ölkələri, insanları kin-küdurəti, mənasız iddiaları, saxta mifləri kənara qoyub mədəniyyət dəyərləri ətrafında birləşməyə çağırdı. Mədəniyyətin gücü ilə dünyaya, insanlara, bu günə və gələcəyə fayda verməyə səslədi.

Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalları, Vaqif Poeziya Günləri hər kəsi heyran etdi. Festivallarda Şuşadan, Cıdır düzündən yenidən dünyaya xoş musiqi sədaları yayıldı. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanı özünə vətən bilən hər bir kəsin ürəyi bu tədbirlərin keçirildiyi əsrarəngiz diyarda döyündü.

Xüsusi qeyd olunmalıdır ki, ölkəmiz son onilliklərdə mədəniyyət sahəsində bir sıra tarixi nailiyyətlərə imza atmaqdadır. Heydər Əliyev Fondunun silsilə tədbirləri, xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri, Üzeyir bəy Hacıbəyli, Rostropoviç, Qəbələ Beynəlxalq Musiqi festivalları, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Bakı Caz Festivalı, görkəmli mədəniyyət xadimlərinin yubileyləri ölkəmizin getdikcə artan nüfuzu və potensialının mədəniyyət sahəsindəki təzahürüdür. Bütün bunlar hazırda Azərbaycanı dünyanın əsas musiqi mərkəzlərindən birinə çevirmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uzun illərdən bəri həyata keçirilən yerli və qlobal layihələr, humanitar təşəbbüslər ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarına xidmət edir. Mehriban xanımın təşəbbüsü ilə indiyə qədər doğma yurdumuzun paytaxtında, bölgələrdə və Azərbaycanın hüdudlarından kənarda çox əhəmiyyətli mədəniyyət layihələri həyata keçirilib. Mühüm geostrateji mövqeyə, zəngin təbii sərvətlərə, böyük inkişaf potensialına görə tanınan Azərbaycanı dünyanın böyük bir hissəsi indi həm də zəngin mədəniyyətimizlə kəşf etməyə başlayıb. Bu layihələrin hər biri ölkəmizin imicini daha da yüksəldir. Azərbaycanlıları sivil, qədim mədəniyyətə malik xalq kimi dünyaya təqdim edir. Minillər boyu bu torpaqlarda yaradılan və nəsillərdən-nəsillərə mənəvi miras kimi keçən misilsiz mədəniyyət incilərimizi bəşəriyyətə sərgiləyir. Mədəniyyətlər arasında dialoq, tolerantlıq, multikulturalizm çağırışları ilə Azərbaycanın tutduğu yolu, ümumbəşəri dəyərlərə bağlılığını, yüksək amallarını göstərir.

### Şəxsiyyətlərimiz həmişə anılır

Azərbaycan öz milli irsini, mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini dünyada təbliğ edir. Beynəlxalq ictimaiyyət bizi tarixboyu bəşər mədəniyyətinə ciddi töhfələr vermiş mütəfəkkirlərimizin mənəvi irsi işığında tanıyıb dəyərləndirir. Nəimi, Nəsimi, Nizami, Əcəmi Naxçıvani, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani, Vaqif, Natəvan və başqa böyük şəxsiyyətlərimizin yaradıcılığına diqqət yönəltməklə Azərbaycan bu dühaların yaradıcılıq dünyasından müasir bəşəriyyətin problemlərini araşdırır, onların həlli yollarını tapır. Azərbaycanda "Nəsimi ili", "Nizami ili"nin elan olunması belə böyük dühalarımızı cəmiyyətimizə də, gənc nəsillərimizə də fərqli yöndən tanıdır. Xüsusi sərəncamlarla yubileyləri qeyd olunan şəxsiyyətlərin mənəvi irsi işığında gələcəyə doğru aydın yol göstərilir.

2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olundu. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyi ilə bağlı silsilə tədbirlər keçirildi. Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci il ölkəmizdə "Nizami ili" elan olundu. Bu, təkcə böyük dühaların yaradıcılığına, ədəbiyyata deyil, ümumilikdə mədəniyyətə, Azərbaycana və sivilizasiyaya verilən dəyərdir.

### Tarixi töhfələrə böyük qiymət

İctimai fikir tariximizdə müstəsna rol oynamış təsisatların yubileylərinin təntənəli şəkildə qeyd edilməsi dövlətimizin mədəniyyət siyasətində xüsusi yer tutur. Ötən ildə də yubuleyi tamamlanan qurumların tarixindəki bu əlamətdar məqam ən yüksək səviyyədə qeyd edildi. Onların hər biri cəmiyyət həyatında xoş mədəniyyət hadisəsinə çevrildi. 2023-cü ildə fəaliyyətə başlamasının 150 ili tamam olan Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi buna bir nümunədir. Ötən il fevralın 3-də verilən sərəncamda Azərbaycan teatrı xalqımızın mədəni sərvəti kimi dəyərləndirilmiş, həmin sərvətin qorunması və inkişaf etdirilməsinin mədəniyyət siyasətində əsas prioritetlərdən biri olduğu vurğulanmışdır.

Əlamətdar mədəniyyət faktlarından biri də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin tamamlanması olmuşdur. Yaradıldığı ilk vaxtlardan dövrünün görkəmli ədəbi simalarının və məşhur sənət adamlarının tədrisə cəlb edildiyi Bakı Teatr Məktəbinin bazasında təşkil olunmuş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ölkənin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Ötən müddət ərzində universitet milli mədəniyyətimizin və incəsənətimizin tərəqqisi işinə mühüm töhfələr vermiş, peşəkar sənətkarlar yetişdirmişdir. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil strategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran ali məktəb mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırmış, həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil və mədəniyyət mərkəzləri ilə qarşılıqlı tərəfdaşlıq əlaqələri yaratmışdır. Universitetin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi bu mədəniyyət məbədinin fəaliyyətinə verilən yüksək dəyərin ifadəsi kimi cəmiyyətdə böyük rəğbət doğurmuşdur.

2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının da 100 illiyi tamamlanmışdır. Cəmiyyətimizin intellektual potensialının yüksəlməsində bu kitabxananın rolu müstəsnadır. Ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə Azərbaycan Milli Kitabxanası xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir. Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirir. Dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirir.

Bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının da yaradılmasından 100 il ötür. Naxçıvan şəhəri Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutur. Bu şəhər Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları Şərq dünyasının mədəniyyət abidələri sırasında indi də mühüm yer tutur. Naxçıvan əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji" zonası elan olunmuşdur.

Ötən ilin ən mühüm mədəniyyət hadisələrindən biri də "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması ilə bağlı olmuşdur. Bununla əlaqədar müvafiq sərəncam imzalanmışdır. Məlum olduğu kimi, Tuğ kəndi Azərbaycan xalqının böyük keçmişini özündə təcəssüm etdirən tarixi yaşayış məntəqələrindəndir. Bu kənd Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrini özündə mühafizə edir. Burada Qarabağ bölgəsinin ənənəvi memarlıq üslubuna xas dekorativ elementlərlə işlənmiş yaşayış evləri, bulaqüstü tikililər, sənduqə tipli qəbirlər və məbədlər vardır. Tuğ kəndi eyni zamanda zəngin təbii potensiala və ekoloji resurslara malikdir. Şuşa şəhərinə aparan Zəfər yolu üzərində yerləşməsi kəndin turizm baxımından inkişaf perspektivini artırır.

### Sənətə və sənətkara qayğı

Azərbaycan ictimai fikrinin inkişafında mühüm rol oynamış görkəmli sənətkarların yubileylərinin yüksək səviyyədə qeyd edilməsi dövlətimizin mədəniyyət siyasətində xüsusi yer tutur. 2023-cü ildə bir çox tanınmış simaların yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalanmışdır.

Görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalanmışdır. Daha bir yubiley sərəncamı görkəmli teatr rejissorumuz, dövlət mükafatları laureatı, tanınmış pedaqoq, Xalq artisti Tofiq Kazımovun anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında olmuşdur. 2023-cü ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli tarixçi və şərqşünas alim Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun da anadan olmasının 100 ili tamamlanmış və bu görkəmli şəxsiyyətin yubileyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalanmışdır.

Mədəniyyət, elm, təhsil və digər sahələrdə mühüm xidmətlərə malik bir çox sənət adamlarımızın yüksək dövlət mükafatları ilə təltif olunması hər zamankı kimi ötən il də davam etdirilmişdir. Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Çingiz Fərzəliyev "Şərəf" ordeni, Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Arif Hüseynov və Tofiq Ağababayev "Şöhrət" ordeni, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Akif İslamzadə "Şöhrət" ordeni, Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vaqif Mustafayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişlər. Teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Məlik "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Balayev və Oqtay Mirqasımov "İstiqlal" ordeni, Elçin Əfəndiyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş, Rauf Abdullayevə Heydər Əliyev Mükafatı verilmişdir.

Mədəni əlaqələrin inkişafında, milli mədəniyyətimizin ölkə sərhədlərindən kənarda təbliği sahəsində mühüm əməyi olan sənət adamlarının xidmətləri də diqqətdən kənarda qalmamışdır. Onlardan Yuli Qusman Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafındakı xidmətlərinə görə "Şərəf" ordeni, Azərbaycan mədəniyyətinin təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara Sinyavskaya "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə mükafatlandırılmışdır.

Bütün bunlar ölkəmizdə mədəniyyətin inkişafı üçün münbit mühitin yaradıldığını göstərir. Gəlin unutmayaq, intibah mədəniyyətdən başlanır.











*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

# 50 çeşiddə məhsul, 13 ölkəyə ixrac

### Müasir müəssisələrimiz sayəsində idxaldan asılılıq aradan qaldırılır

Hər şeydən öncə təhlükəsizlikdir...

Elə Sumqayıt Kimya Sənaye Parkının (SCİP) rezident üzvlərindən olan "SOCAR Polymer"in əsas üstünlük verdiyi həm işçilərin, həm də zavod ərazisinə daxil olan qonaqların təhlükəsizliyinin qorunmasıdır.

Bunun üçün isə ərazidə təbii ki, təhlükəsizlik qaydalarına əməl etmək ən vacib məsələdir. Bu səbəbdən müəssisə ərazisinə daxil olduğumuz zaman ilk olaraq Sağlamlığın, Əməyin Təhlükəsizliyinin qorunması və Ətraf Mühitin mühafizəsi (SƏTƏM) məsələləri üzrə təlimçi zavod ərazisində davranış qaydalarını izah etdi.

Ümumiyyətlə, SƏTƏM siyasətində öz prioritetinə çevirən zavod işçilərini, müştəriləri, qonaqları, yerli icmaları və fəaliyyətlərinin təsirinə məruz qala biləcək hər kəsi qorumaq öhdəliyinə ciddi yanaşır.

Bu gün "SOCAR Polymer" şirkəti yaradılma məqsədinin cavabını tam olaraq verir. Öz missiyasını layiqincə yerinə yetirən şirkətin zavodları Azərbaycanın neft-kimya sənayesinin inkişafının sürətləndirilməsi və ölkəmizə polimer bazarının PP/YSPE seqmenti üçün məhsul istehsal edən dövlətlər sırasına daxil olmaq imkanı qazandırıb. Fəaliyyətini bu gün də uğurla davam etdirən müəssisənin regionda dayanıqlı rəqabət üstünlüyünə malik bizneslər yaratmaq məramı da öz səmərəsini verir. Hazırda şirkətdə özəl investorların səhm payı 43 faiz təşkil edir.

### Məhsulların 95 faizi xarici bazarlara göndərilir

2018-ci ildə "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində Prezident bu müəssisənin Azərbaycanın qeyri-neft sektorunun inkişafına böyük dəstəyi olacağına əminliyini ifadə etmişdi. Dövlət başçısı burada buraxılan xammaldan hazır məhsul istehsal olunacağını və Azərbaycanın həmin məhsulun idxalından asılılığını aradan qaldıracağını vurğulamışdı.

"…Polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır. Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük", - deyə Prezident bildirmişdi.

Bəli, bu gün "SOCAR Polymer" məhsullarını 13-ə yaxın ölkəyə ixrac etməklə yanaşı, yerli tələbatı da ödəyir.

Şirkətin fəaliyyəti barədə bizə məlumat verən baş direktorun müavini Rauf Quliyev qeyd edir ki, 2013-cü ildə təsis edilən "SOCAR Polymer" 2015-ci ildə Azərbaycanda ilk dəfə olaraq neft-kimya sənayesində layihənin maliyyələşdirilməsi ilə 500 milyon dollara yaxın vəsait cəlb edib. Şirkətin istehsalat obyektləri olan polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal edən iki zavod 2018-ci ilin iyulunda və 2019-cu ilin fevralında istismara verilib: "Polipropilen zavodunun açılışında həmçinin İtaliya Prezidenti Sercio Mattarella da olmuşdu. 2018-ci ildən ixraca başladıq. Əsas ixrac bazarı Rusiya, Qazaxıstan, Belarus və digər MDB ölkələri, ikinci yerdə isə Türkiyədir. Yerli satışın az olması tələbatla bağlıdır. 2020-ci ildə "SOCAR Polymer" Rusiya bazarında polipropilen üzrə ixracatçılar arasında birinci yerdə olub. Hazırda bütün polipropilen məhsulları üzrə ilk sıradadır. 2023-cü ildə ilk dəfə olaraq satışların dəyəri 300 milyon dolları keçib".

İstehsal olunan məhsulların 95 faizini xarici bazarlara göndərən "SOCAR Polymer" bu gün də qeyri-neft ixracatçı şirkətlər arasında liderlərdəndir.

Polipropilen zavodunun illik istehsal gücü 184 min ton, yüksək sıxlıqlı polietilenin isə 120 min tondur. Xammal təchizatçısının SOCAR "Azərkimya" İstehsalat Birliyinin olduğunu deyən direktor müavini bildirir ki, istehsalda əsasən yerli xammallardan istifadə olunur, müəyyən qatqılar idxal edilir.

### Davamlı istehsal

800-ə yaxın işçisi olan şirkətin mütəxəssislərinin 99 faizi yerli kadrlardır. R.Quliyev qeyd edir ki, hazırda müəssisədə 50-dən çox çeşiddə məhsul istehsal olunur ki, onlardan 30-a yaxını polipropilen, qalanı isə polietilen qurğularına aiddir.

Daha sonra isə dəbilqəmizi, xidməti jiletimizi və qoruyucu eynəyimizi taxaraq ərazi ilə tanış olmağa başlayırıq. Bizi proseslərlə tanış etmək üçün müşayiət edənlər PP və YSPE üzrə sahə operatorları Nəcəf Əsgərov və Aqil Budaqovdur.

İlk getdiyimiz yer hər iki zavodun fəaliyyətinin, istehsal prosesinin kompüterlər vasitəsilə tənzimləndiyi İdarəetmə mərkəzidir.

Mərkəzdən kompüterlər vasitəsilə istehsal prosesini izləyirik. Zavodların istehsalı barədə danışan N.Əsgərov deyir ki, bütün proses kompüterlər vasitəsilə idarə olunur. "Avadanlıqlarla bağlı problemlər istisna olmaqla, bütün proses idarəetmə otağından idarə oluna bilir. İstehsal prosesi davamlıdır. İstehsalatda itki olsa da, həmin məhsulun təkrar emalı mümkündür", - deyə o bildirir.

Texnoloji inkişafla bağlı itkilərin həcminin azaldığını qeyd edən sahə operatoru bildirir ki, istehsal prosesi 4-5 ildir fasiləsiz olaraq davam edir. Sistemin istismar müddətinin başa çatmasına isə hələ 10 ilə yaxın vaxt var. Polietilenin polipropilenə nisbətən daha dözümlü olduğunu vurğulayan N.Əsgərov deyir ki, bu məhsullar 100-200 il istifadə oluna bilir. O bildirir ki, saatda 10-12 ton polietilen istehsal etmək mümkündür.

Daha sonra əraziyə baş çəkərək hər iki zavodun reaktorlarını müşahidə edirik. Qurğular vasitəsilə baş tutan istehsal prosesi barədə məlumatlar alırıq. Təbii ki, müəyyən kimyəvi proseslər getdiyindən ərazidə hər sahəyə daxil olmaq mümkün deyil.

Daha sonra isə hazır məhsulların paketləmə prosesinin baş tutduğu sahəyə daxil oluruq. Məhsulların kisələrə tökülərək streçlənməsi prosesini izləyirik.

Ərazidə olan paketləmə operatoru Zaur Bədəlov deyir ki, məhsul daxil olduqdan sonra iki xətt üzrə paketləmə həyata keçirilir: "Polipropilen və polietilen 25 kq-lıq kisələrə doldurulur. Saatda 25-28 ton arası məhsul paketlənərək hazır vəziyyətə gətirilir. Maksimum 30 tona qədər məhsul qablaşdırıla bilir".

N.Əsgərov bizə polietilenin istifadə olunduğu sahələr barədə də məlumat verir. Qeyd edir ki, YSPE yüksək təzyiqə davam gətirən qaz, su və kanalizasiya boruları da daxil olmaqla, geniş çeşidli məhsulların istehsalında xammal kimi istifadə oluna bilər.

PP-yə cavabdeh sahə operatoru Aqil Budaqov isə polipropilendən hazırlanan məhsullara diqqəti çəkir: "Zavodda iki adda polimer istehsal olunsa da, ayrıca olaraq polipropilendən 30-a yaxın çeşiddə məhsul hazırlanır. Bunlar qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektron, elektrik cihazlarının istehsalında xammal kimi istifadə olunur. Eyni zamanda polipropilendən qida məhsullarının qablaşdırılması və tibb sənayesi sahələrində də geniş istifadə oluna bilər".

Daha sonra "SOCAR Polymer"in laboratoriyasına baş çəkirik. Analizlərin aparılması üçün bütün avadanlıqların yer aldığı hissədə keyfiyyətə nəzarət üzrə mühəndis Günel Allahverdiyeva aparılan laborator müayinələrdən danışır. Qeyd edir ki, zavodda istehsal olunan hər iki məhsulun xammalından hazır vəziyyətinə qədər analizlər götürülür. ""Azərkimya" İB-dən gələn xammalların laboratoriyada keyfiyyət və kəmiyyət analizləri həyata keçirilir, istehsala uyğunluqları yoxlanılır. İstehsal prosesində bizə aralıq məhsul daxil olur və onlardan da analizlər götürülür. Hər iki zavod üçün analizlər fiziki göstəricilərinə görə bir-birindən fərqlənirlər. Daha sonra hazır məhsuldan nümunələr daxil olur və onlar üzərində də laborator müayinələr aparılır".

Qeyd edək ki, son məhsul üçün mexaniki, termiki və fiziki analizlər həyata keçirilir. Aparılan analizlər nəticəsində satışa göndəriləcək məhsullara uyğunluq sertifikatı verilir. Yalnız sertifikatlaşdırılan məhsullar satışa göndərilir.

### İllik istehsal gücü 20 min ton olan zavod

Daha sonra yolumuz Sumqayıt Kimya Sənaye Parkının 1,5 hektar ərazisində inşa edilən 2022-ci ildə fəaliyyətə başlayan "Azərsulfat" zavodunadır. Müəssisə bu gün daxili bazarı təmin etməklə yanaşı, məhsullarını ixrac da edir. Zavodun illik istehsal gücü 20 min tondur.

Zavodun iş fəaliyyəti ilə bizi tanış edən baş texnoloq Rəşad Namazov qeyd edir ki, sulfat turşusunun hazırlanmasında ölkəyə idxal olunan kükürd 99.9 faiz təmizlənir. Kükürd elevator vasitəsilə 160 dərəcəlik əritmə sisteminə verilir. Buxar vasitəsilə əridilən xammal mexaniki filterdə 10 mikrona qədər təmizləndikdən sonra kükürd çəninə yığılır. Daha sonra kükürd sobasına göndərilən məhsuldan müəyyən reaksiyalar nəticəsində sulfat turşusu əmələ gəlir. Sulfatın bir hissəsi daim həmin reaksiya üçün sistemdə istifadə olunur. Qalanı hazır məhsulun saxlanılması çənlərinə toplanır. Saxlama çənləri 3 ədəd olmaqla, hər biri 640 tona qədər tutuma malikdir. Onlar bir aylıq istehsalı toplaya bilir.

R.Namazov qeyd edir ki, müəssisə gündəlik 60 ton olmaqla, ən müasir üsullarla 93-98 faizli sulfat turşusu istehsal etmək gücünə malikdir. İstehsal olunan məhsulun 10 min tonu yerli bazara, qalanı isə əsas ixracat bazarı olan Gürcüstana göndərilir. Bu ildən isə sulfat turşusunun Rusiyaya ixracı da nəzərdə tutulur.

Günümüzdə qeyri-neft sənayesinin perspektivi həm də birbaşa texnoloji inkişafla bağlıdır. Ən son texnologiyalar müəssisənin istehsal gücünü artırmaqla yanaşı, istehsalatda itkilərin azalmasına və prosesin avtomatlaşdırılmasına imkan verir. Nəticə innovativ üsullarla dünya standartlarına uyğun, böyük istehsal gücünə malik, xarici bazarda özünə yer qazanan Azərbaycan brendinin inkişafına rəvac verir.

"Azərsulfat"da da istehsal prosesinin 90 faizi avtomatik rejimdə çalışır. Baş texnoloq deyir ki, zavodda "Siemens" firmasının 4-cü nəsil sistemindən istifadə olunur və istehsal prosesi İdarəetmə mərkəzindən idarə edilir. İşçi sayı 52 nəfər olan müəssisədə növbəlilik rejimi əsasında bütün proseslər idarə olunur.

Sulfat turşusunun tətbiqi sahələrinin geniş olduğunu deyən R.Namazov bildirir ki, ondan silahların, boyaların hazırlanmasında, müxtəlif turşu, duz, dərman alınmasında xammal kimi istifadə edilir.

### Sulfatdan gübrə istehsalında da xammal kimi istifadə olunacaq

Yaxın gələcəkdə zavodun məhsulundan gübrə istehsalında da xammal kimi istifadə olunacağını qeyd edən baş texnoloq məhsulun keyfiyyətinə nəzarət barədə də danışır. Bunun üçün isə zavodun laboratoriyasına üz tuturuq. Laboratoriyada bütün analizlər həyata keçirilir. İlkin analizlər kükürddən, daha sonra isə hazır məhsuldan götürülür. Məhsul üzərində 70-ə yaxın adda analizlər aparılır. Beləliklə, bu məlumatlar satış zamanı istehlakçıya təqdim olunur.

Əraziyə baxış zamanı avadanlıqlardan tüstü çıxdığı müşahidə edilsə də, heç bir qoxu hiss olunmurdu. Məlum olur ki, qurğulardan ayrılan sadəcə su buxarıdır. Əvvəldə də qeyd etdiyimiz kimi, kükürd buxar vasitəsilə əridilir. Bu məqamda Rəşad Namazovdan zavodun ekologiyaya təsirləri ilə bağlı soruşuruq. Baş texnoloq vurğulayır ki, müəssisə ətraf mühitə ekoloji normativlərdən 5-6 dəfə az tullantı verir. Bunun səbəbi isə ən müasir neytrallaşma sistemi və tullantı qazlarının tam təmizlənərək atmosferə buraxılmasıdır.

Bəli, günümüzdə neft sektoru ilə yanaşı, qeyri-neft sənayesinin inkişafı istiqamətində vacib addımlar atılsa da, bu əsnada xüsusi diqqət yetirilməli məqamlardan biri də atmosferə atılan qazların mümkün qədər minimuma endirilməsi, ətraf mühitin tullantılardan qorunması və bunların nəticəsində insan sağlamlığının qorunmasıdır.

Çünki sənaye zavodlarında istifadə olunan köhnə sistemlər, istismar müddəti bitmiş avadanlıqlar havaya buraxılan zərərli qazların miqdarını artırmaqla, qlobal istiləşməyə təkan verərək iqlim dəyişikliklərinin fəsadlarını artırır.

Bütün ekoloji normalara, üzərinə götürdüyü öhdəliklərə sadiq olan ölkəmiz bu istiqamətdə vacib olan bütün addımları atmaqla, dünyada həm də qeyri-neft ölkəsi kimi nüfuzunu artırır.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*


























# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Xristian klubunun növbəti məkri

### Avropa Azərbaycan kimi vacib tərəfdaşı itirməkdən çəkinməlidir

"Avropa Şurasının ölkəmizə münasibətdə qərəzli mövqeyi, əslində, Avropanın Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi faktını bu gün də qəbul edə bilmədiyini bir daha göstərir. Avropa ölkələrinə Cənubi Qafqaz regionunda öz mövcudluqlarını təmin etmək üçün münaqişə lazım idi".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, Azərbaycan münaqişəni aradan qaldırmaqla vəziyyəti tamam dəyişib. Bu da müxtəlif Avropa platformalarında, eyni zamanda ABŞ-də ölkəmizə qarşı siyasi diplomatik hücumları intensivləşdirib. AŞ PA tərəfindən Azərbaycana münasibətdə obyektiv mövqe sərgilənmədiyi hər zaman müşahidə edilirdi. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra isə ölkəmizə qarşı qərəzli siyasi mövqelərin formalaşdırılması istiqamətində Avropa müstəvisində daha çox fəallaşma oldu. Bu gün Avropanın müxtəlif platformalarında xüsusilə Fransa və ona bənzər dövlətlərin təşəbbüsləri ilə Azərbaycana qarşı davamlı olaraq siyasi hücumlar edilir. Başlıca məqsəd isə yenə də Cənubi Qafqaz regionunda gərginliyin yaradılmasından ibarətdir.

Deputat qeyd edib ki, Ermənistan bu məsələdə alət kimi istifadə olunur və bu, region üçün çox ciddi təhlükələr yarada bilər. Çünki Ermənistanın Avropa, ABŞ qarşısında bir alət rolunda xidmətləri qarşılığında onun olduqca təhlükəli iddialarına dəstək nümayiş etdirilir. Hazırda bunu görməkdəyik. "Azərbaycan öz suveren ərazilərində antiterror tədbirləri həyata keçirərək separatizm kimi bəşəriyyəti daim ciddi təhlükə qarşısında saxlayan bir halı aradan qaldırdı. Ölkəmizin bu addımı, əslində, Avropa tərəfindən alqışlanmalı idi, amma biz bunun əksini görürük. Avropanın özü daim separatizmdən əziyyət çəkir, təhlükəsizliyi üçün çox ciddi təhdid yaranır. Bütün bunlara baxmayaraq, antiterror tədbirlərindən sonra Azərbaycana qarşı siyasi hücumların genişləndiyini görürük. Bu həm də onun göstəricisidir ki, nə Avropa, nə də ABŞ Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesində obyektiv vasitəçilik göstərə bilmirlər, çünki bu istəkdə deyillər", - deyə o əlavə edib.

E.Mirbəşiroğlu bildirib ki, keçmiş münaqişə vəziyyətinin mövcudluğu dövründə də nə Avropa strukturları, nə də ABŞ tərəfindən məsələyə obyektiv yanaşıldığı görünüb. Bu gün Avropa İttifaqının Azərbaycandan enerji asılılığı böyükdür, məhz bunu nəzərə alaraq o, hələ "sərhədli" davranır.

Deputat hesab edir ki, enerji asılılığı olmasa, Avropa Azərbaycana qarşı daha aşkar qərəzli mövqe sərgiləyər. Avropa İttifaqının ali nümayəndəsi Cozef Borel heç bir əsas olmadan daim ölkəmizi ittiham edir. Onun sərgilədiyi mövqe isə təmsil etdiyi strukturun Azərbaycana qarşı aşkar qərəz mövqeyindən çıxış etdiyini göstərir. Borel və onun kimilərinin davranışları sübut edir ki, əgər Azərbaycanla əməkdaşlıq Avropa İttifaqı üçün həyati vacib əhəmiyyət kəsb etməsəydi, onda Avropa daha sərt, daha qərəzli mövqe sərgiləyərdi.

Onun sözlərinə görə, AŞ PA Azərbaycan səsinin dondurulması təşəbbüsünü dəstəklədiyi təqdirdə, bu, ölkəmizə mahiyyətcə heç bir mənfi təsir göstərməyəcək: "Sadəcə olaraq, gələcəkdə Avropa strukturlarının Ermənistanın daha aşkar şəkildə bir alət kimi istifadəsinə zəmin yarada bilər. Yəni bununla Ermənistan üzərindən növbəti manipulyasiyalar etməyə çalışacaqlar.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycana qərəz mövqeyi mahiyyət etibarilə bizi öz yolumuzdan heç bir halda döndərə bilməz. Biz öz maraqlarımızı daim qətiyyətlə müdafiə edəcəyik".

E.Mirbəşiroğlu bildirib ki, Avropa Azərbaycan kimi etibarlı və vacib tərəfdaşı itirməkdən çəkinməlidir. Bizim olduqca səmimi tərəfdaşlarımız var və haqlı mövqelərimizə çox böyük hörmətlə yanaşılan platformalar mövcuddur. Bu çərçivədə Azərbaycanın rolu və mövqeyi kifayət qədər təsirli və qəbulolunandır.

Bu baxımdan deputat hesab edir ki, Avropa strukturları heç bir işlərinə yaramayacaq Ermənistanı təhlükəli məqsədlər üçün dəstəkləməkdənsə, Azərbaycanla əməkdaşlığa üstünlük verməlidirlər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın Avropa Şurasına ehtiyacı yoxdur

"44 günlük Vətən müharibəsində, eləcə də ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri nəticəsində əldə etdiyimiz zəfərlər təkcə Azərbaycanın deyil, ümumilikdə türk dünyasının tarixinə yazılan şanlı qələbədir. Lakin görünən odur ki, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi və suverenliyini bərpa etməsi Qərbi, Amerika Birləşmiş Ştatlarını və Avropanın "erməni sevgisi"ndən əziyyət çəkən bəzi ölkələrini ciddi şəkildə narahat edib. Qələbələrimizdən sonra həmin qüvvələr bərk sarsılıblar. AŞ PA-da Azərbaycanın səsini dondurmaq təşəbbüsü də bunu deməyə tam əsas verir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Deputat bildirib ki, bəzi Qərb ölkələri ilə yanaşı, bəzi beynəlxalq qurumlar da Azərbaycanın əleyhinə hərəkətə keçiblər. AŞ PA isə bu baxımdan sırf ermənisifətliliyi ilə daha qabarıq formada fərqlənir. Başa düşülən odur ki, Avropanın "erməni sevgisi" virusuna yoluxan siyasətçiləri Azərbaycana təzyiq etmək üçün indi də AŞ PA qalxanından istifadə etmək istəyirlər.

Deputatın sözlərinə görə, AŞ PA-da Azərbaycanın səsini dondurmaq təşəbbüsünü irəli sürənlər bu çirkin niyyətlərini "insan hüquqları" bəhanəsi ilə pərdələməyə çalışırlar: "Amma hər kəsə gün kimi aydındır ki, bunun insan hüquqları ilə heç bir əlaqəsi yoxdur. Bu, sadəcə olaraq öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qisas cəhdidir. Görünür, tarixi zəfərimiz Qərbin bəzi siyasətçilərində, dövlət adamlarında və beynəlxalq qurumlarında ciddi narahatlığa səbəb olub. Lakin həmrəylik nümayiş etdirərək torpaqlarını işğaldan azad edən Azərbaycan hər şəraitdə xarici hücumlara sinə gərmək gücünə də malikdir. Ona görə də Avropanın bəzi dairələrinin çirkin cəhdləri iflasa məhkumdur".

Vüqar İskəndərov vurğulayıb ki, Azərbaycan üçün nəinki AŞ PA-da səsinin dondurulması, heç bu qurumun özünün belə əhəmiyyəti yoxdur: "Azərbaycan vaxtilə Qarabağ probleminin həlli ilə bağlı Avropa Şurasına üzv olmuşdu. Amma uzun illər qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərinin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız hüquqi çəkisi olmayan azsaylı bəyanatlarla kifayətlənib. AŞ PA bu illər ərzində üzvü olan bir ölkənin digər ölkəyə qarşı haqsız ədavətinə, yəni Ermənistanın Azərbaycan ərazisini işğal altında saxlaması faktına göz yumub, işğalçı dövlətin səs hüququnun məhdudlaşdırılması haqda belə düşünməyib".

Deputat yekunda bildirib ki, belə qərarların verilməsində AŞ PA nümayəndələrinin islamofob və türkofob təfəkkürlü olmaları da xüsusi rol oynayır. Heç kimə sirr deyil ki, Azərbaycan 2001-ci ildə bu təşkilata üzv olandan bəri ermənipərəst qüvvələr bu təşkilatdan daim ölkəmizə qarşı istifadə ediblər.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## AŞ PA Azərbaycandan Zəfərin intiqamını alır

### Korrupsiyalaşmış qurum ölkəmiz üçün artıq heç bir əhəmiyyət kəsb etmir

Azərbaycan torpaqlarının işğal altında qaldığı 30 ilə yaxın müddət ərzində Avropa təşkilatları, o cümlədən Avropa Şurası Parlament Assambleyası tərəfindən Ermənistana tutarlı təzyiq və təsir edilməsi barədə bir təşəbbüs belə göstərməyib. Bu istiqamətdə təşkilatın qəbul etdiyi sənədlər isə deklorativ məzmun daşımaqla, heç bir hüquqi çəkisi olmayıb. Əslində, bu, Avropa Şurasının üzvü olan bir dövlətin xarici ərazilərin işğalının təşkilat qarşısında götürdüyü öhdəliklərinə zidd olsa da, bununla bağlı Ermənistana "gözün üstə qaşın var" deyən olmayıb.



### AŞ PA Avropa Parlamenti kimi simasızlığını göstərdi

Azərbaycanın Vətən müharibəsində torpaqlarını işğaldan azad etməsindən sonra dünənə qədər Ermənistanın təcavüzkar siyasətinə qarşı tutarlı mövqe ortaya qoymayan Qərb siyasi dairələrinin əsl simaları üzə çıxmaqdadır. Aydın şəkildə görünür ki, Fransa, Avropa Parlamenti, o cümlədən Avropa İttifaqının rəsmiləri Azərbaycanın öz torpaqlarını azad etməsi ilə barışa bilmirlər. Hətta o qədər azğınlaşıblar ki, Azərbaycanı öz ərazilərini işğaldan azad etdiyinə, tarixi ədaləti yoluna qoyduğuna görə ittiham belə etməyə çalışırlar.

Bu günlərdə AŞ PA-da Azərbaycanın səsini dondurmaq barədə təşəbbüsün səslənməsi də bu qurumun riyakarlıq baxımından Fransa və Avropa Parlamentindən geri qalmadığını göstərdi. Bu, Azərbaycana qarşı ötən 20 ildən artıq müddətdə daim məkrli siyasət yürüdən, ölkəmizi qərəzli şəkildə ittiham edən AŞ PA-nın simasızlığının təsdiqidir. Bu, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycandan qisas almaq cəhdidir.

### Qərəzli qətnamələr bizim üçün kağız parçalarından artıq deyil

Azərbaycan 2001-ci ildə bu təşkilata üzv olandan bəri ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər. AŞ PA Azərbaycanın bu quruma üzvlüyündən sonra mütəmadi şəkildə ölkəmizlə bağlı fərziyə, ehtimal və gümanları üzərində qurulmuş subyektiv mülahizələrə əsaslanan hesabatlar hazırlayıb. Hansı ki, həmin hesabatları hazırlayan deputatlar nədənsə Ermənistanın işğal siyasətini dəstəkləyən və Azərbaycanın Vətən müharibəsində qələbəsini həzm edə bilməyən dövlətləri AŞ PA-da təmsil ediblər. AŞ PA-da Azərbaycana qarşı ardıcıl şəkildə edilmiş hücumlar hələ illər öncədən bu təşkilatın siyasi təzyiq alətinə çevrildiyini göstərib.

Hələ bir neçə il əvvəl AŞ PA-nın Azərbaycanla bağlı qərəzli qətnamə qəbul etməsinə dair Prezident demişdi: "Bu gün bu təşkilat əfsuslar olsun, bir daha demək istəyirəm ki, heç bir nüfuza malik deyil, onların qəbul etdiyi qərarlar bizim üçün tamamilə əhəmiyyətsizdir. Azərbaycanla bağlı qəbul edilmiş son qətnamə bizim üçün heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin bizim üçün dəyəri bir kağız parçasından artıq deyil. Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir dırnaqarası tələbini icra etməyəcəyik".

2001-ci ildə Azərbaycanın Avropa Şurasına üzv olduğu vaxt əsas məqsədlərdən biri torpaqlarımızın işğaldan azad edilməsi idi. Lakin əvvəldə qeyd etdiyimiz kimi, bu qurum və onun parlament assambleyası uzun illər Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərimizin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız əhəmiyyəti olmayan bəyanatlarla, tövsiyələrlə kifayətlənib. Bu illər ərzində AŞ PA bir dəfə də olsun işğalçı Ermənistanın səs hüququnun məhdudlaşdırılması haqda düşünməyib. Baxmayaraq ki, onun qeyd etdiyimiz sənədlərində Azərbaycan torpaqlarının işğalı faktı əksini tapmışdı. Lakin AŞ PA tutarlı təzyiq mexanizmləri bir yana qalsın, Ermənistanı səsvermə hüququndan məhrum etmək barədə təşəbbüs belə göstərməmişdi.

### Bizə AŞ PA lazımdırmı?

İndi Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra AŞ PA-nın ölkəmizin səsvermə hüququnu məhdudlaşdırmaq niyyətinə düşməsi bu qurumun ikiüzlülüyündən, Avropa Parlamenti kimi erməni təəssübkeşliyindən, erməni lobbisinin alətinə çevrilməsindən xəbər verir. Görünən odur ki, AŞ PA da Avropa Parlamenti kimi islamofob və türkəfob təfəkkürlü nümayəndələrin düşərgəsidir. Və o da aydın olur ki, torpaqlarımızın işğal altında olduğu illərdə AŞ PA bu məsələ ilə bağlı, əslində, riyakar siyasət yürüdübmüş.

AŞ PA-nın bu təşəbbüsü Qərbin korrupsiyalaşmış, anti-Azərbaycan, islamofob və ermənipərəst qruplarının qurduğu növbəti məkrli oyundur. Onu da qeyd edək ki, AŞ PA-da bu təkliflə almaniyalı deputat Frank Şvabe çıxış edib. Deyəsən Fransanın xarici siyasətində ardıcıl uğursuzluqlarına və nüfuzdan düşməsinə görə bu dəfə alman depuatatı qabağa veriblər və ya Paris öz niyyətlərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır.

Sual olunur, 23 illik üzvlük dövründə AŞ PA Azərbaycana nə verib? Əlbəttə, heç nə. Bu dövrdə Ermənistanın işğalçı siyasətinin aradan qaldırılması istiqamətində də heç bir təsirli addım atmayan bu qurum Azərbaycana qarşı qərəzli mövqeyini indi də davam etdirməkdədir.

Azərbaycan isə artıq torpaqlarını azad edib, həm də güclü və özünün qətiyyətli siyasəti olan dövlətdir. Ona görə onilliklər boyu işğala göz yuman Avropa Şurası kimi təşkilata və onun parlament assambleyasına Azərbaycanın ehtiyacı yoxdur. Qarayaxma, ləkələmə, ikili standartlar nümunələrinin tüğyan etdiyi bir təşkilat Azərbaycanın nəyinə lazımdır? Bu mənada respublikamız Avropa təsisatlarının özünə qarşı qərəzli və ədalətsiz mövqeyini heç vaxt qəbul etməyəcək və onları hər zaman prinsipiallıqla cavablandıracaq. Qüdrətli Azərbaycan üçün AŞ PA-da səsinin dondurulması heç bir əhəmiyyət kəsb etmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Qərəz də bir mərəzdir

### Fransa bu mərəzə AŞ PA-nı da yoluxdurmaq istəyir

Ermənistan indi bir tərəfdən sülhdən danışır, digər tərəfdən isə hər vəchlə sülhdən qaçır. Bu azmış kimi, Nikol Paşinyan bildirir ki, ölkəsini dünyanın nəqliyyat qovşağına çevirəcək. Hətta bunun üçün "sülh kəsişməsi" layihəsi təşəbbüsü ilə də çıxış edib.

Amma onun bu qeyri-ciddi bəyanatı sözün həqiqi mənasında dünyada rişxəndlə qarşılanır. Dənizə çıxışı olmayan, Azərbaycan və Türkiyə ilə kommunikasiya əlaqəsi qurmayan ölkənin bu "layihə"sinin heç bir perspektivinin olmaması hamıya məlumdur. Hərçənd sonradan bilindi ki, Paşinyanın belə bir absurd bəyanat verməsinin səbəbi Hindistan, İran və Ermənistan arasında olan razılaşmadan qaynaqlanırmış, lakin onun bu arzusu da suya düşdü. Belə ki, Hindistan ABŞ-nin təkidi ilə "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" (İMEC) adlanan yeni nəqliyyat dəhlizinin aparıcı ölkəsi oldu. Yəni Hindistan-İran-Ermənistan nəqliyyat marşrutu arxa plana keçdi.

İndi Hayastan özünü bilməməzliyə vurub həmin layihənin icrasından danışsa da, hər kəsə məlumdur ki, bütün diqqət və sərmayə qoyuluşu İMEC-yə olacaq. Hayastanın nəqliyyat naziri Vahan Karobyan deyir ki, may ayına kimi Hindistan-İran-Ermənistan marşrutu fəaliyyətə başlayacaq. Ancaq nazir bir məsələni unudur ki, Ermənistanla İran arasında dəmir yol bağlantısı yoxdur. O ki qaldı avtomobil yollarına, burada da vəziyyət ürəkaçan deyil. Ermənistan-İran sərhədindən Gürcüstan sərhədinə çəkiləcək yolun tikintisinə 2009-cu ildə başlanılsa da, onun heç 30 faizi hazır deyil. Bu marşrut Gürcüstandan iki istiqamətə - Qara dəniz vasitəsilə Avropaya, Lars keçidi ilə Rusiyaya yönəlib. Rusiya-Gürcüstan marşrutunun hava şəraiti ilə bağlı olaraq ilin müəyyən vaxtlarında həftələrlə, hətta aylarla işləmədiyi də olur. Hansı ölkə və ya iş adamı belə bir etibarsız marşrutdan istifadə etmək istəyər?

N.Paşinyanın bu yaxınlarda verdiyi başqa bəyanat da bir daha onun siyasi cəhətdən etibarsız olduğunu nümayiş etdirdi. Ermənistan, Azərbaycan və Rusiya arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla Zəngəzur dəhlizinin açılması barədə üzərinə götürdüyü yazılı öhdəliyi danmasını deyirik. N.Paşinyan bildirib ki, kim həmin bəyanatda Zəngəzurla bağlı öhdəlik götürdüyünü sübut etsə, ona mükafat verəcək. Onun bu həyasız inkarçılığına ilk reaksiya Rusiyadan gəlib. Həmişə ermənipərəst mövqeyi ilə seçilən Sergey Lavrov qonşu ölkəni təhdid edərək bildirib ki, həmin məsələ üçtərəfli Bəyanatda öz əksini tapıb və Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Ermənistan rəhbərinin bu sürüşkən mövqeyindən sonra hansı dövlət bu ölkəyə etibar edər. Elə Hindistanın da sözügedən marşrutdan yan keçməsinin əsas səbəblərindən biri Ermənistanın qeyri-ciddi olmasıdır.

Ermənilərin digər böyük bəlası həmişə ağa axtarışında olmaları və ya onları tez-tez dəyişmələridir. Bugünkü Ermənistan dövləti mövcudluğuna görə Rusiyaya minnətdar olmalıdır. Amma əvəzində bunu unudub xilaskarına meydan oxuyur. Çünki indi "böyük bacı"sı Fransa onlara nələrisə vəd edir. Elə Zəngəzur dəhlizinin açılmamasının bir səbəbi də Fransanın Cənubi Qafqazda hegemonluğu ələ keçirmək siyasətindən qaynaqlanır. Əgər bu gün Fransa Ermənistana desə ki, Azərbaycanın şərtlərinə uyğun sülh müqaviləsi imzala, imzalayacaq.

Fransa isə Azərbaycanla Ermənistan arasında sülhüm olmasını istəmir. Əksinə, iki ölkə arasında gərginliyin qalmasında, mümkün olsa, yeni müharibənin başlanmasında maraqlıdır. Məqsəd Rusiyanı bölgədən sıxışdırıb çıxarmaqla regionu hərbi və siyasi baxımdan nəzarətə götürməkdir. Bunun üçün plastdarm kimi Cənubi Qafqazın zəif bəndi olan Ermənistandan istifadə edir. Regionun güclü dövləti Azərbaycana isə müxtəlif vasitələrlə təsir etmək istəyir.

Məlum olduğu kimi, Fransa parlamentinin aşağı və yuxarı palataları tərəfindən 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin əleyhinə bir neçə qətnamə qəbul edilib. Fransa Senatının yanvarın 17-də qəbul etdiyi qətnamə isə şər hədəfinin "onluğu"na dəyib. Azərbaycanı az qala ermənilərə qarşı "soyqırımı" törətməkdə suçlayan sənəddə dəlil, sübut əvəzinə "biz belə istəyirik, belə də yazırıq" hikkəsi var.

Həmin qətnamənin mürəkkəbi qurumamış Fransanın təhriki ilə Avropa Şurası Parlament Assambleyası Azərbaycanın qurumdakı səsini dondurmaq barədə məsələni gündəliyə çıxarıb. Bu dəfə Fransa, el arasında deyildiyi kimi, "ilanı Seyid Əhməd əli ilə" tutmağa qərar verib. Belə ki, məsələni gündəliyə almaniyalı deputat Frank Şvabe daxil etsə də, müəllifi Fransadır. Belə çıxır ki, Avropanın aparıcı ölkəsi və söz sahibi olan Almaniya indi Fransanın yedəyində gedir?!

Bütün dünya bilir ki, Azərbaycan BMT-nin 51-ci maddəsinə uyğun olaraq 30 il Ermənistan tərəfindən 20 faiz işğal olunan torpaqlarını azad edərək ərazisində suverenliyini bərpa edib. Yəni heç bir beynəlxalq qanunu pozmayıb. Bəs Fransanı rahatsız edən nədir? Bu ölkə özünün apardığı müstəmləkə siyasəti üzündən Afrikadan və Asiyadan qovulub. E.Makronun belə yarıtmaz siyasəti hətta Fransa parlamentində müzakirə edilib və dövlətin apardığı diplomatiyanın uğursuzluğu şiddətli tənqid olunub. Bu səbəbdən də Fransa indi Cənubi Qafqaza soxulub Afrikada itirmiş nüfuzunu bərpa etmək istəyir. Ona qarşı açıq-aşkar müqavimət göstərən ölkə isə Azərbaycandır. İndi bildinizmi Fransanın Azərbaycanı hədəf seçməsinin səbəbini?!

Əgər Fransa həqiqətən ədaləti, ölkələrin ərazi bütövlüyünü müdafiə edən, insan haqlarına dəyər verən ölkə olsaydı, Ermənistan tərəfindən Azərbaycanın torpaqları işğal olunan 30 il ərzində bircə dəfə səsini çıxarardı. AŞ PA isə bu illər ərzində üzvü olan bir ölkənin (Ermənistan) digərinin (Azərbaycan) ərazisini işğal altında saxlaması faktına göz yummayıb, işğalçı dövlətin səs hüququnun məhdudlaşdırılması barədə qərar qəbul edərdi. Bundan sonra belə ədalətsizliyə necə dözəsən, ona necə qərəz deməyəsən...

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## *Azərbaycan XİN:*

# "Cozep Borelin səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik"

**"Yanvarın 22-də Xarici Əlaqələr Şurasının yekunlarına dair mətbuat konfransı zamanı Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozep Borelin Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə C.Borelin iddialarına dair şərhində bildirib.

A.Hacızadə qeyd edib ki, Aİ-nin ali nümayəndəsi tərəfindən faktların açıq-aşkar təhrif olunması Azərbaycanın legitim maraqlarına etinasızlıqdır və bu cür hədələyici ritorika Azərbaycan-Aİ münasibətlərini daha da gərginləşdirən ikili standartın bariz nümunəsidir.

"Ali nümayəndə Azərbaycan Prezidentinin Azərbaycan və Ermənistan ərazilərinə dair tarixi faktlarla bağlı fikirlərini tamamilə təhrif etməklə yanaşı, Azərbaycana qarşı hərbiləşmə və təcavüzkar siyasəti qızışdırır. Beynəlxalq ictimaiyyətin Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə inandırmaq üçün heç bir səy göstərməməsinə baxmayaraq, Azərbaycan hər zaman Ermənistanla danışıqlara, sülhə və sabitliyə sadiq olub. Azərbaycanın təcavüzə və separatizmə son qoyduğu tədbirlər Ermənistanla sülh sazişinin bağlanmasına zəmin yaradır.

Bundan əlavə, Aİ nümayəndəsinin diplomatların ölkədən çıxarılması ilə bağlı Fransa ilə həmrəyliyini ifadə etməsi davam edən hüquqi araşdırma prosesinə açıq müdaxilə olmaqla yanaşı, Azərbaycandan qovulmuş fransız diplomatların qanunsuz hərəkətlərinə haqq qazandırmağa bərabərdir. Belə qərəzli bəyanat Azərbaycanın Fransadakı diplomatlarına qarşı əsassız tədbirlərə məhəl qoymamaqla yanaşı, diplomatik davranışın bütün qayda və təlimatlarına açıq-aşkar etinasız yanaşan, iş üzrə araşdırma aparmaqdan imtina edən bəzi dövlətlərin bu quruma necə mənfi təsir göstərdiyini nümayiş etdirir", - deyə XİN rəsmisinin şərhində vurğulanıb.

Ayxan Hacızadə əlavə edib ki, Azərbaycan beynəlxalq öhdəliklərinə və beynəlxalq hüquqa sadiq olmaqla yanaşı, milli maraqlarına zidd olan hər hansı iddiaların və təhdidedici dilin legitimləşdirilməsi cəhdlərinin qarşısını qətiyyətlə alacaq.

# Avropa diplomatiyasının başçısı Borel Cənubi Qafqazda sülh və əmin-amanlıq axtarışı səylərini baltalayır

**"Cozef Borelin Cənubi Qafqaz regionunda vəziyyətlə bağlı mövqeyi birtərəfli və qərəzlidir, hətta onu qeyri-adekvat da adlandırmaq olar".**

Bu fikirləri AZƏRTAC-a tarixçi-qafqazşünas, tarix elmləri namizədi Oleq Kuznetsov yanvarın 22-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozef Borelin bəyanatını şərh edərkən bildirib. Həmin bəyanatda növbəti dəfə Ermənistanın ərazi bütövlüyü məsələsi qaldırılır və vurğulanır ki, "Ermənistanın suverenliyinin hər hansı şəkildə pozulması Brüssel ilə Bakı arasında münasibətlərdə ciddi fəsadlar doğuracaq".

Agentliyin müsahibi bununla bağlı deyib: "Cənab Borelin Ermənistanın ərazi bütövlüyü haqqında fikirləri anlaşılmazdır, bu məsələ öz həllindən uzaqdır və nizamlanmayıb. Ermənistanın dörd qonşusundan yalnız biri - Türkiyə ilə sərhəd məsələsi həll olunub və bu, 1921-ci il Qars müqaviləsində öz əksini tapıb. İrəvan digər iki qonşusuna - Azərbaycana və Gürcüstana qarşı onilliklər ərzində daim ərazi iddiaları irəli sürüb, onlarla sərhəd xətti müəyyən olunmayıb və qeydə alınmayıb. Ona görə də bu ölkənin ərazi bütövlüyünün nədən ibarət olduğu müəyyən edilməyib və nizama salınmayıb. Cənab Borelin rəhbərlik etdiyi Avropa diplomatiyası beynəlxalq hüquq reallıqlarından, həmin şərtlərin olmadığı halda isə tərəflərin öz ziddiyyətlərini sülh yolu ilə həll etmək istəyindən çıxış etməlidir. O, əvvəlcə etiraf etməlidir ki, Ermənistanın ərazi bütövlüyü təkcə Azərbaycanla deyil, həm də Gürcüstanla razılaşmalardan asılıdır və bu məsələyə təkcə Ermənistanın qonşularından birinin tərəfinə diqqət yetirməklə deyil, kompleks şəkildə yanaşmaq lazımdır. Məhz bu cür mövqe ölçülüb-biçilmiş və adekvat olacaq, cənab Borelin indi bizə nümayiş etdirdiyi yanaşma deyil. Amma hələ ki, onun mövqeyi birtərəfli və qərəzlidir, hətta onu qeyri-adekvat da adlandırmaq olar".



O.Kuznetsovun sözlərinə görə, cənab Borelin Ermənistana münasibətdə qeyri-dostcasına addımlar atılacağı təqdirdə rəsmi Bakının ünvanına səsləndirdiyi təhdid onun qeyri-adekvat olduğunu göstərir. Ekspert əlavə edib: "O, birmənalı olaraq belə bir obyektiv reallığı etiraf etmək istəmir ki, Azərbaycan və Ermənistan faktiki olaraq hələ də müharibə vəziyyətindədir, onların arasında hətta atəşkəs də yoxdur, yalnız atəşkəs razılaşması var. Nəticə etibarilə həm de-yure, həm də faktiki olaraq iki ölkə bir-biri ilə nə dost, nə də yaxşı qonşudur və bu gün onlar yalnız son üç onillikdə içində olduqları silahlı qarşıdurmadan çıxış yolu axtarırlar. Və cənab Borel sülh və harmoniya axtarışında tərəflərin səylərini təşviq etmək əvəzinə, öz bəyanatları ilə bu səyləri baltalayır, başlayan dialoqun tərəflərindən birinə təzyiq göstərməyə çalışır. Vicdanlı və məsuliyyətli siyasətçilər bu cür hərəkət etməməlidir, lakin nə onun özünün, nə də beynəlxalq aləmdə təmsil etdiyi Avropa Birliyinin belə bir reputasiyası yoxdur. Obyektivlik, dürüstlük və qərəzsizlik ona xas olan xüsusiyyətlər deyil".

Ümumilikdə, O.Kuznetsovun fikrincə, Avropa diplomatiyasının başçısının dünənki bəyanatında prinsipcə heç bir yenilik və ya əvvəllər deyilməyən fikir yoxdur. "Borelin bəyanatlarının onun özünün də parlaq nümayəndəsi olduğu Avropa İttifaqının transmilli bürokratiyasının maraqlarına tamamilə zidd olması sadəcə təəccüb doğurardı", - deyə o vurğulayıb.

Rusiyalı tarixçi sonda deyib: "Cənab Borelin yerində olsaydım, Azərbaycanı təhdid etməzdim və Ermənistanın baş naziri Nikol Paşinyanın ölkədə ona "Qarabağ irsi" korbağırsağından qurtulmağa imkan verəcək və orada yenidən yaradılan Dördüncü respublikanı təkrarən sivil ölkələr sırasına daxil edəcək konstitusiya islahatı təşəbbüsünü hər cür dəstəkləyərdim. Diplomatın səriştəsi və peşəkarlığı real təzahürü hələ baş verməmiş və ehtimal olunan mənfi hallara diqqətin cəmlənməsində deyil, əslində, yaxşı işlərdən ibarət olan məhz belə məsələlərdə özünü büruzə verir. Hərçənd Avropa "bağ"ından kənarda yalnız cəngəllik görən insan üçün dünyaya belə bir baxış alışılan və təbiidir, elə onun problemi də bundan ibarətdir. Qarşıdurma və təcavüz bunkerində gizlənərək özünü günəşi və səmanı görmək imkanından məhrum edən insan üçün dünyada yaşamaq çətindir".

# Yaxın Şərq: reallıqlar bədbin, proqnozlar dumanlı olsa da...

Yaxın Şərqdə münaqişələrin dərinləşməsi, Sudanda vətəndaş müharibəsi, Ukrayna-Rusiya savaşının uzanması 2023-cü ili müasir dünya tarixinə ən ağır illərdən biri kimi yazdı. İqlim dəyişiklikləri ilə bağlı həyəcanlı hadisələr də bir yandan. Bu baxımdan ötən il həm də ən isti il kimi gözlənilməz təbii fəlakətlərlə yadda qaldı.

Bəli, bunlar sıradan yazılası faktlar deyil. Rusiya-Ukrayna müharibəsi hələ də dinc əhali arasında minlərlə insanın ölümü, mülki obyektlərin dağılması, Kaxov su-elektrik stansiyasının bəndinin partladılması kimi hadisələrlə davam edir. Yalnız su anbarının dağılmasından və ətrafı su basmasından dəyən ziyanın dəyəri 14 milyard dollara yaxındır.

Həmas-İsrail müharibəsi də minlərlə insanın ölümü, yaşayış məntəqələrinin Yer üzündən silinməsi ilə müşahidə olunur. İsrailin cavab addımları Qəzza sektorunda əhalinin 85 faizindən çoxunu evindən edib, regionda ərzaq və su qıtlığı yaradıb. Elə İsrail əhalisi də Həmasın terror aktlarından az əziyyət çəkmir.

2023-cü ildə Sudanda baş verən münaqişə zəminində də 10 mindən yuxarı insan həlak olub. Silahlı qarşıdurma humanitar fəlakətə gətirib çıxarıb, 7 milyon insan evini tərk edib, onların 1,5 milyonu qonşu ölkələrə qaçıb. BMT münaqişə başlayandan 4 milyona yaxın insana humanitar yardım göstərib.

Xülasə, nikbinliyə heç bir əsas yoxdur və əksər KİV yazır ki, proqnozların üzü bədbinliyədir. Ekspertlər, həmçinin iqtisadi böhranın dərinləşəcəyini ehtimal edirlər. Üstəlik, süni intellektin doğura biləcəyi risk də diqqət mərkəzindədir. Sən demə, XXI əsrin yeni texnologiyalarında həm dağıdıcı, həm də yaradıcı qüvvəyə malik böyük enerji gizlənirmiş. Bütün bunlara baxmayaraq, əsas təhlükələr daha çox müharibələrin dərinləşməsi ilə bağlıdır. Ən dumanlı proqnozlarda ABŞ-nin Rusiya və ya Çinlə toqquşması ehtimal edilir. Rusiya-Ukrayna müharibəsinin gələcəyi də qaranlıq və müəmmalıdır və çox güman ki, o hələ bir qədər uzanacaq. İsrail-Fələstin müharibəsinin də sonu görünmür. Hətta onun Yaxın Şərqdə regional münaqişəyə çevrilmək ehtimalı yüksəkdir.



Artıq Sudan, Yəmən, Myanma, Somali, Suriya və Nigerdə də silahlı münaqişələr alovlanır və 2024-cü ildə onların sayının artması ehtimal edilir. Alışa bilən münaqişələrin sırasına məğlubiyyətə uğrayan Ermənistan da qoşula bilər, təbii ki, Allah ağlını alarsa. Amma bir iş də var ki, bu "dövlət" yarandığı gündən münaqişələrlə yaşamağa adət edib və hər dəfə də başı əzilib.

Bu il həm də seçkilər ilidir. Rusiyada keçiriləcək prezident seçkilərində Putinin qalib gələcəyi şübhə doğurmur. Lakin seçkilərin əsas səhnəsi ABŞ-də qurulacaq. ABŞ xalqı noyabr ayında özünə prezident seçəcək. Onun kim - indiki, yoxsa ondan əvvəlki prezident olacağını demək çətindir. Lakin onu proqnozlaşdırmaq mümkündür ki, Avropa İttifaqında iyun seçkilərindən sonra Avroparlament və AŞ-nin rəhbərliyi dəyişəcək.

Bir sözlə, yaxşılığa doğru dəqiq nələrin baş verəcəyini proqnozlaşdırmaq çətindir. Amma ola bilər ki, üzü yaya ağır xəbərlərin, müharibə və böhranlar haqqında məlumatların sayı azalsın. Fransa artıq Yay Olimpiadasının estafetinə 2 min məşəl hazırlayır. İyulun 26-da Parisdə XXXIII yay Olimpiya oyunları açılacaq. Olimpiada isə təkcə idman deyil, həm də 5 qitəni birləşdirən sülh və dostluqdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## *İcma:* "Borelin açıqlamaları Aİ-nin Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesində bitərəf mövqedə olmadığını bir daha sübut edir"

**"Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin Azərbaycana qarşı böhtan dolu açıqlamaları davam edir. Bu açıqlamalarla Avropa İttifaqı Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesində bitərəf mövqe nümayiş etdirmədiyini bir daha sübut edir".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Otuz ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması faktını bir dəfə də dilinə gətirməyən qurumun nümayəndəsinin Azərbaycana qarşı davamlı olaraq qərəzli mövqedən çıxış etməsi təəssüf doğurur. Belə bir şəraitdə Aİ-nin Azərbaycan ilə Ermənistan arasında sülh prosesində vasitəçilik missiyası üçün heç bir şans qalmır. Vasitəçi kimi prosesə töhfə vermək istədiyini bəyan edən beynəlxalq təşkilatın nümayəndəsinin tərəflərdən birinə qarşı hədələyici tonda bəyanat verməsi "vasitəçilik" prinsipinin mahiyyəti ilə bir araya sığmır və qəbul edilə bilməz. Qərbi Azərbaycan İcması bir daha Aİ tərəfini Azərbaycana qarşı ədalətsiz və ittihamedici ritorikadan imtina etməyə çağırır".

# İrəvan Putinə qarşıdır

## Paşinyan Kremlə zidd olan siyasətini getdikcə daha da gücləndirir




**İrəvan bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır. Daha çox narahatlıq doğuran məqam anti-Rusiya əhvali-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsidir.**

Bu isə öz növbəsində Hayastanda Rusiyanın dayaqlarının laxladılması deməkdir. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.

Ermənistanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi anti-Rusiya siyasətini təsdiq edir. Bu günlərdə Rusiyadan mühacirət edən vətəndaşlar İrəvanda Rusiya Prezidenti Vladimir Putinin əleyhinə aksiya keçiriblər. Əllərində Putin və müharibə əleyhinə şüarlar yazılmış plakatlar olan yüzlərlə insan İrəvan meriyasının qarşısına toplaşıb.

Belə bir vəziyyətdə Nikol Paşinyan növbədənkənar parlament seçkilərinə hazırlaşır. Baş nazirin hökumət dairələrində, parlamentdə, xüsusilə də rusyönümlü şəxsləri vəzifələrdən kənarlaşdırmaq istədiyi, özünə sadiq hesab etdiyi insanları həmin vəzifələrə təyin etməyə çalışdığı qeyd olunur.

Yerli medianın yazdığına görə, seçkilər zamanı Hayastanın ikinci prezidenti Robert Koçaryanın şəxsən, yaxud da komandasının iştirak edə biləcəyinə dair iddialar yayılıb. Onun hazırkı proseslərlə bağlı mövqeyinin dəqiq bilinmədiyi, lakin Paşinyan hökumətinə qalib gələ biləcək yeganə müxalifət nümayəndəsi olduğu qeyd edilir.

Vurğulanır ki, Rusiya münasibətlərin pisləşməsi fonunda Hayastan sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqeyə sahib olacaq. Bu fonda Hayastanın makroiqtisadi göstəriciləri pessimizmi daha da gücləndirməkdədir. Ölkədə işsizliyin sürətlə çoxalması, əhalinin maddi təminatının gündən-günə pisləşməsi Ermənistan iqtisadiyyatının çöküşünü sürətləndirir. Erməni iqtisadçılarını təşvişə salan daha bir məqam isə xaricdən pulköçürmələrin azalması ilə bağlıdır. Mətbuatda yer alan xəbərlərə görə, rəsmi rəqəmlər indiyə qədər bu pulköçürmələrin 2 milyard dollara çatdığını və tədiyyə balansında yaranan kəsirin 50 faizinin də elə həmin vəsait hesabına maliyyələşdirildiyini göstərir. Ancaq indi təxmini hesablamalar pulköçürmələrinin miqdarının yarıya qədər azaldığından və il ərzində bu göstəricinin daha da aşağı düşəcəyindən xəbər verir.

Bütün bunlarla yanaşı, o da qeyd olunur ki, büdcənin doldurulmasında hakimiyyət bütün əsas yükü kiçik və orta bizneslə məşğul olanların üzərinə qoymağa çalışır. Bu sahədə fəaliyyət göstərənlərin sayı məhdud olduğuna görə onlar öz bizneslərini dayandırır, başqa əlac olmadıqda isə xarici ölkələrə köçməyə üstünlük verirlər. Beləliklə də ölkə büdcəsinin doldurulmasında ciddi problem yaşanır, eyni zamanda kiçik və orta biznesin sıradan çıxma prosesi daha geniş vüsət alır. O da əlavə olunur ki, İrəvan hazırda heç nə istehsal etmədən xarici maliyyə qaynaqlarından əldə olunan kreditlər hesabına ayaqda qalmağa çalışır. Ölkənin dövlət borcu 11 milyard dolları ötüb.

Beləliklə, gedən proseslər Hayastanın sürətlə məhvinə doğru yaxınlaşdığını təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Tramp Baydeni özünə rəqib saymır

## Ağ Evin sabiq lideri ABŞ-nin yeni prezidenti seçiləcəyinə əmindir

ABŞ-nin keçmiş prezidenti Donald Tramp yenidən ölkə rəhbəri seçiləcəyi təqdirdə üçüncü dünya müharibəsinin qarşısını alacağını bildirib. O, bu barədə yanvarın 23-də Respublikaçılar Partiyasından prezident seçkiləri üçün ilk praymerizlərin keçiriləcəyi Nyu Hempşirdə tərəfdarları qarşısında çıxışı zamanı söz verib.



Tramp Rusiya ilə Ukrayna arasındakı münaqişəni həll edə biləcəyini vurğulayıb. Eyni zamanda siyasətçi əlavə edib ki, dövlət başçısı kimi qalsaydı, böhrandan qaçmaq olardı. Ölkənin sabiq lideri həmçinin deyib ki, əgər ABŞ Prezidenti "zəif insan" olmasaydı, Qəzza zolağında münaqişənin də qarşısını almaq mümkün idi.

Tramp əvvəllər dəfələrlə yeni dünya münaqişəsinin qarşısını almaq qabiliyyətindən danışıb. Dediyinə görə, o, əsas dünya liderlərini tanıyır, ona görə də onları nüvə partlayışlarına başlamamağa inandıra bilər.

Donald Tramp tərəfdarları qarşısında çıxış edərkən Ağ Evin hazırkı başçısı Co Baydeni Birləşmiş Ştatlar tarixinin ən pis on prezidenti ilə müqayisə edib: "Ölkəmizin tarixinin ən pis on prezidentini seçsəniz və onların ABŞ-yə vurduğu ziyanı cəmləsəniz, bu Baydenin etdiklərindən çox az olacaq. Əfqanıstanda biabırçılıq, tarixin ən pis anı... Sərhədə baxın, dünyanın hər yerindən insanların ölkəmizə gəlməsinə icazə veririk".

Tramp vurğulayıb ki, Amerikanı ya axmaq insanlar, ya da olkəyə nifrət edənlər idarə edir.

Sabiq prezident həmçinin Co Baydeni demokratiya üçün təhlükə adlandırıb və onu bacarıqsızlıqda ittiham edib. Bundan əvvəl Donald Tramp qeyd etmişdi ki, ABŞ Baydenin səriştəsizliyi ucbatından dünyanın qalan hissəsi üçün zibilxanaya çevrilib. Onun fikrincə, ABŞ-də demokratiya təhlükədədir. O həmçinin ABŞ-nin hazırkı Prezidentinin yaxşı niyyətli olduğunu, lakin sonda ölkəni "xaraba qoyduğunu" bildirib.

Bundan əvvəl Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp "Fox News" telekanalına müsahibəsində deyib ki, o, iki əqli qabiliyyət testindən keçib və namizədliyini irəli sürən hər kəsi bu testdən keçməyə təşviq edib: "Mən iki koqnitiv test verdim, bunun öhdəsindən gəldim. Prezidentliyə namizəd olan hər kəsi koqnitiv test verməyə çağırıram, çünki bunun yaxşı bir fikir olduğunu düşünürəm".

Onun fikrincə, ağıllı adam ABŞ prezidenti seçilsə, çox yaxşı olar. Bundan əvvəl Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd, ölkənin BMT-dəki keçmiş daimi nümayəndəsi Nikki Heyli özünün təşviqat videosunda hazırkı Prezident Co Baydeni tutduğu vəzifəyə görə "çox yaşlı", konqresi isə ölkədə ən eksklüziv qocalar evi adlandırıb. O da hesab edir ki, ABŞ-də siyasətçilərin əqli qabiliyyətləri ilə bağlı testlər aparmaq lazımdır.

Bu arada Donald Tramp əmindir ki, ABŞ Prezidenti Co Bayden qarşıdan gələn seçkilərdə prezidentlik uğrunda mübarizədən kənarda qalacaq. "Şəxsən mən belə hesab edirəm", - deyə Tramp "Fox News" jurnalistinin müvafiq sualına cavab verib.

Bundan əvvəl iş adamı Vivek Ramasvami və Florida ştatının qubernatoru Ron Desantis seçki yarışını tərk etmişdilər. Onların namizədliyi Respublikaçılar Partiyası tərəfindən irəli sürülüb. İndi Trampın yalnız bir respublikaçı rəqibi qalıb. Bu, Nikki Heylidir.

Son məlumata görə, Donald Tramp noyabrda keçiriləcək prezident seçkilərində qalib gələcəyi təqdirdə İsraildəki "Dəmir günbəz"ə bənzər raketdən müdafiə sistemini ölkə üzərində yerləşdirmək niyyətindədir.

Bununla bağlı o, deyib: "Mən ölkənin üzərində "Dəmir günbəz", müasir Amerika istehsalı olan raketdən müdafiə sistemi quracağam. Biz bunu başqa ölkələr üçün edirik, onlara kömək edirik, amma özümüz üçün etmirik. Bizim də buna ehtiyacımız var. Keçmiş prezident Ronald Reyqan bunu illər əvvəl təklif etmişdi, lakin o vaxt texnologiya yox idi. İndi bizim inanılmaz texnologiyalarımız var".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Milli Xalça Muzeyində "Baharı salamlayan Əjdaha. Çin Yeni ili festivalı"nın açılışı olub

Yanvarın 23-də Azərbaycan Milli Xalça Muzeyində "Baharı salamlayan Əjdaha. Çin Yeni ili festivalı"nın açılış mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbir Milli Xalça Muzeyi və Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun təşkilatçılığı, Çinin ölkəmizdəki səfirliyinin dəstəyi ilə təşkil olunub.

Tədbirdə çıxış edən Milli Xalça Muzeyinin direktor vəzifəsini müvəqqəti icra edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Mira Məmmədxanova bildirib ki, festival müddətində qədim Çin çay mərasimi, kalliqrafiya (açıqcaların ieroqliflərlə yazılması), uşu, kunq-fu kimi bir-birindən maraqlı ustad dərsləri, mühazirələr, ənənəvi bayram atributları iştirakçılara əsl Çin Yeni ili ab-havası yaşadacaq. Ecazkar ölkənin ənənəvi sənət nümunələri üzrə ustad dərsləri Bakıdakı Konfutsi İnstitutunun müəllimləri tərəfindən aparılacaq. Silsilə tədbirlərdə muzeyin Uşaq şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan xalçalarındakı əjdahalara həsr olunmuş kölgə teatr tamaşası göstəriləcək, əjdaha naxışlı xalçanın toxunması və bu mövzuya aid digər ustad dərsləri keçiriləcək.

Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Min çıxışında qeyd edib ki, ölkəsi Azərbaycan ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir və bu silsilə tədbirlər də iki ölkə arasında mədəni əməkdaşlıq sahəsində münasibətlərin möhkəmlənməsinə xidmət edəcək. Səfir vurğulayıb ki, Yeni ilin başlanması Şərqi Asiya ölkələrində, xüsusən də Çində böyük təmtəraqla qeyd olunur. Dörd min ildən çox tarixə malik Yeni il bayramı Çində bütün ailənin bir yerdə toplaşması üçün gözəl fürsətdir.

Çində bu hadisənin həm də yaz festivalı adlandığını bildirən diplomat deyib: "Çinlilərin ən əziz bayramı olan yaz festivalı bir çox ənənələr və ayinlər ilə də zəngindir. İnsanlar Yeni ilə bir neçə gün əvvəldən hazırlaşır, hədiyyələr alır, bayramın rəmzlərini əks etdirən suvenirlər hazırlayırlar. Evlər, küçə və meydanlar, parklar kağızdan hazırlanmış qırmızı fənərlərlə bəzədilir, qapı və pəncərələr qırmızı rənglə boyadılır. Bayram günü qırmızı geyinmək növbəti ildə uğurlara yol açır. Bu gün Çin Yeni il bayramının müxtəlif ölkələrdə keçirilməsi, xüsusilə Bakıda Milli Xalça Muzeyində baş tutması bizi çox sevindirir", - deyə xanım Qo Min əlavə edib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bu gün soyuq hava olsa da bu bayramın ürəklərə istilik gətirdiyini qeyd edib.

H.Hüseynova bu gün Bakıda Çin bayramının keçirilməsini yüksək qiymətləndirib. Milli Məclisdə Azərbaycan-Çin parlamentlərarası komissiyanın ən geniş qrup olduğunu diqqətə çatdıran H.Hüseynova iki ölkə arasında mövcud dostluq, əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb.

H.Hüseynova bu cür bayramların il ərzində mütəmadi keçiriləcəyini deyib və tədbir iştirakçılarını bir daha bayram münasibətilə təbrik edib.

Tədbir iştirakçılarına Çin dilində müraciət edən Rafiq Abbasov onlara yaşıl əjdaha ilinin əfsanəsi barədə məlumat verib. Tədbirdə gənclər və uşaqların təmsil olunduğunu vurğulayan R.Abbasov onların bədii çıxışlarının maraqla qarşılandığını deyib.

Yanvarın 28-dək davam edəcək "Baharı salamlayan Əjdaha. Çin Yeni ili festivalı" iki ölkə arasında mədəni əlaqələrin inkişafına və möhkəmlənməsinə töhfə olacaq.

Daha sonra ecazkar ölkənin ustad dərsləri və ənənəvi bayram atributları əsl Çin Yeni ili ab-havası yaşadıb.

Tədbir bədii hissə ilə davam edib.

# *Səfir:* "Çin şirkətləri azad edilmiş ərazilərdə bərpa işlərinin gedişini diqqətlə izləyirlər"

Azərbaycanla Çin arasında münasibətlər çox qədim tarixə əsaslanır. İki ölkə arasında dostluq münasibətləri siyasi-iqtisadi, mədəniyyət, elm və təhsil kimi sahələrdə daha sıx formalaşıb. Bu gün Çin Xalq Respublikası Azərbaycanda bir sıra layihələrdə iştirak edir.



AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min deyib.

Onun sözlərinə görə, investisiya sahəsində ikitərəfli əməkdaşlıq intensivləşib, bərpaolunan enerji və "yaşıl" sənaye yeni qarşılıqlı fəaliyyət sahələrinə çevrilib.

"Çin şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərinin gedişini diqqətlə izləyirlər. Bir sıra müəssisələrin nümayəndələri bu ərazilərdə olub, "ağıllı kənd" kimi layihələrin həyata keçirilməsində və hava limanları üçün avadanlıqların təchizatında iştirak ediblər", - deyə Qo Min əlavə edib.

Səfir xanım qeyd edib ki, Azərbaycanda əməkdaşlıq imkanları axtaran Çin müəssisələrinin sayı sürətlə artır: "Hazırda bərpaolunan mənbələrdən elektrik enerjisinin istehsalı, enerjinin saxlanması, kimya sənayesi, kənd təsərrüfatı, logistika və nəqliyyat kimi geniş spektrli layihələr üzrə fəal danışıqlar və məsləhətləşmələr aparılır. Azərbaycanda əməkdaşlıq imkanları axtaran Çin müəssisələrinin sayı sürətlə artır. Hazırda bərpaolunan mənbələrdən elektrik enerjisinin istehsalı, enerjinin saxlanması, kimya sənayesi, kənd təsərrüfatı, logistika və nəqliyyat kimi geniş spektrli layihələr üzrə fəal danışıqlar və məsləhətləşmələr aparılır", - deyə xanım Qo Min əlavə edib.

Səfir xanım Azərbaycan-Çin arasında investisiya əməkdaşlığının genişləndirilməsini, Çin və Azərbaycan arasında "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın, eləcə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bizneslə məşğul olmaq imkanlarını yüksək qiymətləndirib.

# Asiya İnkişaf Bankı işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə dəstək vermək niyyətindədir

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Asiya İnkişaf Bankının (AİB) işçi qrupu ilə görüş keçirilib.



Dövlət komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə əməkdaşlıq imkanları və istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

Görüş zamanı qonaqlara həmçinin Böyük qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planının icrası çərçivəsində aparılan işlər, məcburi köçkünlərin doğma yurda qayıdışı, eyni zamanda komitənin fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Bildirilib ki, Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini işğaldan azad olunmuş ərazilərin bərpası və həmin ərazilərə təhlükəsiz, könüllü, ləyaqətli qayıdış təşkil edir. Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərə qayıdış davamlı xarakter daşıyır. Birinci xanım Mehriban Əliyeva da məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsini, onların yaşayış şəraitinin yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Görüşdə qeyd edilib ki, Asiya İnkişaf Bankı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərinə dəstək vermək niyyətindədir və bu sahədə əməkdaşlıq imkanlarını qiymətləndirməyi vacib sayır.

Dövlət komitəsinin məsul əməkdaşları qonaqları maraqlandıran sualları cavablandırıb, əməkdaşlıq perspektivləri barədə rəy və təkliflərini bildiriblər.

Görüşdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, BMT-nin Məskunlaşma Proqramı - UN-HABİTAT-ın nümayəndələri də iştirak ediblər.

# Qış turizmi: imkanımız malik olduğumuzdan çoxdur

Yay mövsümündən sonra növbə qış turizminindir. Bu fasildə də tətilə çıxıb istirahət etmək, qarlı havanın dadını çıxarmaq istəyənlər az olmur. Son illərə qədər imkan və xat baxımından fərqlənənlər qış aylarında daha çox xarici ölkələrə üz tuturdular. Amma müşahidələr göstərir ki, daxili qış turizminin inkişafı xaricə gedənlərin sayında bir qədər azalmaya səbəb olub.









Dünyada qış turizmi ilə məşhur olan məskənlər çoxdur və onlar öz ölkələrinin iqtisadiyyatında kifayət çəkiyə malikdirlər. ABŞ-nin Çikaqo şəhəri, Yellouston Milli Parkı, Estoniyanın Tallin, Belçikanın Brügge, Çexiyanın Praqa şəhərləri, Finlandiyada Laplandiya, Avstriyada Halştad, Sloveniyada Bled gölü, İsveçrədə Alp dağları, qardaş Türkiyənin Uludağ, Palandöken, Kartepe, Kartalkaya, Sarıkamış, Erciyes, Davras bölgələri qış turizminin döyünən ürəyi sayılır. Deyilən bu ərazilərdə hokkey, konkisürmə, buzda balıq ovu, qarda atsürmə, xizəksürmə, qış festivalları və digər qış turizm əyləncələrindən ləzzət almaq mümkündür.

Azərbaycanda turizmin inkişafı 2011-ci ildən başlayıb. Məhz həmin ildən başlayaraq ölkədə yay və qış turizmi üçün müasir infrastruktur yaradılıb. Xüsusilə hotelçilik və turizm biznesinə sərmayə qoyuluşu bu sektorda irəliləyişə səbəb olub. Dünyanın ən məşhur hotel brendləri də Azərbaycana maraq göstəriblər. İndi əsasən paytaxtda həmin brendlər adı altında fəaliyyət göstərən hotellərin sayı kifayət qədərdir. Bu sahədə tədbirlər indi də davam edir. Çünki bütövlükdə turizm qeyri-neft sektorunun inkişafında əsas sahələrdən biri sayılır.

Ölkəmizdə qış turizm mövsümünə əsasən dekabrın 1-dən başlanılır. Turistlər qış aylarında da Quba, Qusar, Qəbələ, Şamaxı, İsmayıllı, Şəki, Lerik, Lənkəran rayonlarında dincəlməyə üstünlük verirlər. Bu rayonlarda yerləşən 3 və 4 ulduzlu, həmçinin ulduz kateqoriyası olmayan kottec tipli hotellər fəaliyyət göstərirlər.

Hazırda ölkəmizdə 3 əsas qış turizm mərkəzi - "Şahdağ" Turizm Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm Kompleksi və Naxçıvan Muxtar Respublikasında yerləşən "Ağbulaq" İstirahət Mərkəzi var. Peşəkar xizəkçilərin çoxuna "Şahdağ" Qış-Yay Turizm Kompleksi cəlbedici görünür. Qeyd edək ki, bu kompleks istifadəyə verildikdən sonra ölkəmizdə qış turizminə böyük maraq yaranıb. Şəhər mühitindən uzaqlaşmaq istəyənlər üçün "Şahdağ" mükəmməl qış istirahət zonasıdır. Şəraitlə əlaqədar burada süni qar yağdıran qurğular işə salınır. Süni qar xizəklə sürüşməyə tam şərait yaradır. Xizək sürməyə marağı olmayan turistlər üçün isə digər əyləncələr - motorlu xizək, asma kanat, snoubord, dağ yolları ilə turlar, velosiped gəzintisi, yamac paraşütçülüyü təklif olunur.

Bənzərsiz gözəlliyi ilə seçilən yerlərdən biri də "Tufandağ" Dağ-Xizək Kompleksidir. Xüsusi hazırlanmış 15 kilometrlik yamaclar snoubordinq və xizəklə sürüşmək üçün əla məkandır. İlk dəfə xizək sürənlər üçün istirahət kompleksinin xizəksürmə məktəbi də fəaliyyət göstərir. Xizək həyəcanından söz düşəndə Naxçıvandakı "Ağbulaq" İstirahət Mərkəzi haqqında söz deməsək fikrimiz yarımçıq qalmış olar. Şahbuz dağlarının qoynunda yerləşən bu mərkəz qış aylarında dağ-xizək, yay aylarında isə dağ turizmini seçənlərə xidmət göstərir. Kəndin gözəl təbiəti, səfalı yerləri insanları qış aylarında da bura cəlb edir. Mərkəzdə uzunluğu 1580, eni 18-30 metr olan dağ-xizək sahəsi turistlərin xidmətində durur.

Son günlər yağan qar insanların ağ təbiətin seyrinə çıxmaq marağını bir qədər də artırdı, xüsusən şimal istiqaməti üzrə turist axınına səbəb oldu. Onların arasında xarici qonaqlar da var idi. Dövlət Turizm Agentliyinin (DTA) məlumatına görə, təkcə 2023-cü ilin dekabr ayında Azərbaycana 192 min 869 əcnəbi vətəndaş səfər edib ki, bu da 2022-ci ilin göstəricisindən (143 min 814) 34,11 faiz çoxdur. Onlar Rusiya (47 min 347 nəfər), Türkiyə (36 min 372 nəfər), Hindistan (17 min 524 nəfər), İran (17 min 526 nəfər), Birləşmiş Ərəb Əmirlikləri (11 min 374 nəfər), Gürcüstan (10 min 781 nəfər), Pakistan (6009 nəfər), Qazaxıstan (4823 nəfər), Özbəkistan (4441 nəfər) və Səudiyyə Ərəbistanı vətəndaşları (4174 nəfər) olublar.









Qış mövsümünün möcüzələri təkcə şimal regionunda və Naxşıvanda deyil, işğaldan azad edilmiş ərazilərdə də var. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinin sürəti ondan xəbər verir ki, yaxın illər bu regionda həm də turizm sahəsi inkişaf edəcək. Laçında, Kəlbəcərdə qış turizmi üçün kəşf edilməmiş, insan ayağı dəyməyən cəlbedici məkanlar var. Məlumdur ki, DTA-nın əsas hədəfi ölkəyə daha çox əcnəbi turist cəlb edilməsinə nail olmaqdır. Bu baxımdan yay turizmi üçün Qarabağın, qış turizmi üçün Şərqi Zəngəzurun turizm potensialı böyükdür. Ümumiyyətlə, bu yerlərin relyefi, təbiəti, tarixi abidələri onu deməyə əsas verir ki, gələcəkdə region hətta dünyanın turizm bölgələrindən birinə çevriləcək. İki hava limanı və tikilməkdə olan üçüncü aeroport həm də məhz buna xidmət edir.

Dünya Turizm Təşkilatının hesablamalarına görə, dünyada turist gəzintisinə çıxmaq istəyənlərin 35 faizə qədəri qış turizminə üstünlük verirlər, baxmayaraq ki, bu, dünyada ən bahalı turizm növüdür. Buna baxmayaraq, yaxın qonşularımız Gürcüstan və Türkiyə qış turizminin inkişafı sahəsində böyük irəliləyişlər əldə ediblər. Etiraf edək ki, Azərbaycanın da bu sahədə potensialı az deyil. Sadəcə, qalır həmin potensialdan səmərəli istifadə edərək ölkəmizin bu sahədə indiki 71-ci pillədən layiq olduğu yerə qalxması üçün tədbirlər görmək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *İtaliyalı ekspert:* "Azərbaycan göstərdi ki, yanacaq enerjisi nəzərə alınmasa, əsl "yaşıl" keçid reallaşa bilməz"

Bu il Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərdən biri hesab olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. Noyabr ayında paytaxt Bakının evsahibliyi edəcəyi COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin artan nüfuzunun ən parlaq göstəricilərindən biridir.






Tədbirin ölkəmizdə keçirilməsi barədə yekdil qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28-in plenar iclasında qəbul edilib. Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə evsahibliyi edib və onları ləyaqətlə həyata keçirib. Lakin Prezident İlham Əliyevin dediyi kimi, COP29-u indiyədək təşkil olunmuş tədbirlərlə müqayisə etmək olmaz. Belə ki, iki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

Ümumiyyətlə, qarşıdakı illər ərzində ölkədə bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində bir çox yeniliklər gözlənilir, Şərqi Zəngəzur və Naxçıvanda bu sahədə bir sıra məqsədlərə nail olunması nəzərdə tutulur. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, 2024-cü ilin Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, habelə Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan edilməsi aparılan məqsədyönlü dövlət siyasətinin tərkib hissəsidir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ilə bağlı AZƏRTAC-ın suallarını beynəlxalq münasibətlər üzrə italiyalı ekspert Salvator Santajelo cavablandırıb.

*- İlk öncə, Azərbaycanın COP29-u uğurla keçirmək səylərini necə qiymətləndirirsiniz?*

- Ölkə ən çətin məsələnin öhdəsindən artıq gəlib: beynəlxalq ictimaiyyətin neft-qaz ölkələrinə geniş inamsızlığı səbəbindən tədbirin keçirilməsi ilə bağlı konsensusa nail olmaq asan olmadı. Sonda Azərbaycan tenderdə qalib gələrək dünyaya, eləcə də "enerji həmkarlarına", yəni digər enerji ixrac edən ölkələrə göstərə bildi ki, yanacaq enerjisi nəzərə alınmazsa, əsl "yaşıl" keçidin reallaşması və iqlim dəyişikliyinə qarşı real mübarizə baş verə bilməz. Bu, tarixi hadisə olacaq və bütün amillər onu deməyə əsas verir ki, ölkə bu fürsətdən uğurla istifadə edəcək. COP29-a təxminən on ay qalıb, lakin ölkə artıq marketinqdən tutmuş seçim komitələrinə qədər tədbirə intensiv şəkildə hazırlaşır.

*- Azərbaycanda keçiriləcək COP29 iqlim dəyişikliyi ilə mübarizə üçün gələcək addımların müəyyən edilməsində mühüm rol oynayacaq. Sizcə, konfransda hansı mövzular əsas təşkil edəcək? Konfransın gündəliyinə hansı məsələlərin daxil edilməsini zəruri hesab edirsiniz?*

- Beynəlxalq ictimaiyyətin iqlim əsaslı mövcud beynəlxalq paktların icra vəziyyətini qiymətləndirmək üçün Azərbaycanda toplanacağı gözlənilir. BMT mənbələrinə görə, COP29 üzvləri tərəfindən digər məsələlərlə yanaşı, ilk gücləndirilmiş şəffaflıq çərçivəsini və maliyyə ilə bağlı yeni hədəfləri yekunlaşdıracaqları gözlənilir.

*- Azərbaycan qlobal "yaşıl gündəliy"in həyata keçirilməsinə hansı töhfəni verə bilər və bu baxımdan Azərbaycanda "yaşıl enerji"nin inkişafı istiqamətində həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz? Sizcə, Azərbaycan bu məqsədə çatmaq üçün nə etməlidir?*

- Azərbaycan böyük neft və qaz ölkəsidir və bu o deməkdir ki, onun təmiz iqtisadiyyata keçid öhdəliyi dünyanın digər neft ölkələri üçün nümunə ola bilər. Azərbaycanda "yaşıl enerji" layihələrinin sayı getdikcə artır, onların bir çoxu xarici oyunçular, o cümlədən İtaliya və digər Avropa enerji korporasiyaları tərəfindən maliyyələşdirilir və proqnoz ümumilikdə çox müsbətdir. Fikrimcə, ölkə günəş-elektrik stansiyalarına qoyulan sərmayələrlə yanaşı, daha çox külək-elektrik stansiyalarını və su-elektrik stansiyalarını maliyyələşdirməyə çalışmalı, eyni məqsədlə daha çox beynəlxalq investor cəlb etməlidir.

*- Ölkəmizin iqlim gündəliyinə və dekarbonizasiya planlarına sadiqliyini necə qiymətləndirirsiniz?*

- Azərbaycan enerjinin şaxələndirilməsinə və "yaşıl keçid"ə çoxlu resurs yatırır. Son bir neçə ildə günəş və külək enerjisi ilə bağlı onlarla layihə maliyyələşdirilib və inkişaf etdirilib. Üstəlik, onların müvafiq hissəsi "yaşıl" hidrogen sənayenin qurulması istiqamətində ilk addımların atılması fonunda xarici ölkələrin və investorların artan marağının nəticəsidir. İnvestisiyaya əlavə olaraq, ölkə könüllü olaraq 2040-cı və 2050-ci illərə qədər təmiz enerji iqtisadiyyatı qurmağı öhdəsinə götürüb və karbon emissiyalarını 40 faiz azaltmağı planlaşdırır. İqlim məqsədlərinə nail olmaq üçün ölkə 2016-cı ildə ilk "yaşıl" inkişaf göstəricilərini hazırlayıb və iqlimə uyğun məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" kimi əsas sənədlərə daxil edib.

*- Cənubi Qafqazın dünya iqtisadiyyatına inteqrasiyasında Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?*

- Azərbaycansız Cənubi Qafqaz qlobal rola malik ola bilməz. Azərbaycan bir tərəfdən Avropaya aparıcı enerji ixracatçısı kimi çıxış edir, digər tərəfdən isə, Avrasiyanın dörd əsas istiqamətini birləşdirən bir növ mərkəzə çevrilib. Ölkə Avropa-Mərkəzi Asiya-Çin ticarətində və beynəlxalq "Şimal-Cənub" dəhlizində böyük rola malikdir. Hazırda Azərbaycan Ermənistanla sülh prosesini sürətləndirməyə çalışır, çünki Qarabağ probleminə görə indiyədək regionun potensialı lazımi şəkildə inkişaf etdirilə bilməyib. Bu gün Azərbaycanın suverenliyinin tam bərpa olunduğu və Ermənistanla sülhün yaxınlaşdığı bir vaxtda Cənubi Qafqazda siyasi vəziyyətin sabitləşməsi müşahidə olunur. Gürcüstandakı separatizm problemi və Ermənistanın coğrafi məhdudiyyəti səbəbindən Azərbaycan regionda Avrasiya körpüsü rolunu oynaya biləcək yeganə ölkədir.

# AÇG-də irihəcmli seysmik tədqiqat proqramı başlanıb



"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında yeni dördölçülü (4D) yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramına başlanıb. Bu barədə AÇG layihəsinin operatoru olan bp şirkəti bildirib.

Tədqiqatın əhatə edəcəyi ərazi, aparılacaq işlərin ümumi dəyəri və müddəti baxımından bu layihə bp-nin dünyada indiyədək həyata keçirdiyi ən böyük seysmik məlumat toplama proqramı olacaq. AÇG-nin hazırkı məhsuldar layları - Balaxanı və Fasilə dəstlərinin tədqiqinə yönəlmiş bu proqram seysmik mənbənin altında 740 kvadratkilometr, qəbuledicilərin altında isə 507 kvadratkilometrlik bir ərazini əhatə edəcək. Proqramın ümumi dəyərinin təxminən 370 milyon dollar, icra müddətinin isə beş il (2024-2028) olacağı planlaşdırılır. Bu uzunmüddətli proqramın planlanlaşdırılmasına ötən ildən başlanıb. Proqram çərçivəsində dənizdibi qovşaqlardan, həmçinin bir qoşa mənbəli gəmidən ("Murovdağ") və bir qovşaq gəmisindən ("Quba") istifadə etməklə beş monitorinqin aparılması nəzərdə tutulur.

bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda geologiya və işlənmə üzrə vitse-prezidenti Roşni Musai deyir: "AÇG bp-nin əməliyyatçısı olduğu ən böyük neft yatağıdır. O, həm bizim üçün, həm də Azərbaycan və tərəfdaşlarımız üçün çox əhəmiyyətlidir. Bu genişmiqyaslı seysmik tədqiqat proqramını həyata keçirməkdə məqsədimiz yatağın arxitekturası və maye kontaktının (fazalararası təmasın) dinamikası barədə ətraflı məlumat əldə etməkdir. Ümid edirik ki, bu proqram üçün istifadə ediləcək ən müasir 4D texnologiyası yataq haqqında yeni və daha dərin məlumatlar əldə etməyimizə imkan verəcək. Bu isə bizə gələcəkdə quyularda gözlənilməz halları minimuma endirmək və növbəti onilliklər ərzində yatağın neftvermə əmsalını maksimuma çatdırmaq üçün həll yolları müəyyənləşdirməyə kömək edəcək".

Proqram "Caspian Geo LLC"şirkəti tərəfindən yerinə yetiriləcək.

Xatırladaq ki, AÇG üzrə ilkin Hasilatın Pay Bölgüsü Sazişi 1994-cü ilin sentyabrında imzalanıb. 2017-ci ilin sentyabrında sazişə dəyişiklik edilərək yenidən işlənib və müddəti 2049-cu ilin sonunadək uzadılıb. Yenidən işlənmiş saziş növbəti 31 ildə AÇG-nin Azərbaycan və səhmdarlar üçün iqtisadi faydasının maksimuma çatdırılmasını nəzərdə tutur.

İndiyədək AÇG-dən 4,3 milyard bareldən artıq (581 milyon ton) neft hasil olunub. Neft dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri və Qərb İxrac Boru Kəməri ilə çıxarılır. Keçən ilin üçüncü rübünün sonunadək AÇG yataqlar blokunun işlənməsinə ümumilikdə 43 milyard dollardan artıq sərmayə qoyulub. Hazırda AÇG-də 9 dəniz platforması - 7 hasilat və 2 texniki emal, kompressiya, suvurma və kommunal məqsədli platforma fəaliyyət göstərir. Platformalardan əldə olunan neft və qaz Bakı yaxınlığında quruda yerləşən və dünyanın ən böyük neft-qaz terminallarından olan Səngəçal terminalına ötürülür. 2023-cü ilin ilk 9 ayı ərzində AÇG-nin ümumi hasilatı gündə orta hesabla 368 min barel olub.

Qeyd edək ki, AÇG-nin işlənməsi mərhələlərlə həyata keçirilib. Belə ki, "Çıraq" yatağından hasilat İlk Neft Layihəsi çərçivəsində 1997-ci ildə başlanıb. "Azəri" yatağının işlənməsini nəzərdə tutan birinci mərhələdə hasilat 2005-ci ildə "Mərkəzi Azəri"dən, ikinci mərhələdə isə 2006-cı ilin yanvar ayında "Qərbi Azəri"dən, həmin ilin oktyabrında "Şərqi Azəri"dən əldə olunub. Layihənin işlənməsinin üçüncü mərhələsində "Günəşli" yatağının dərinsulu hissəsindən neft 2008-ci ilin aprelində alınıb. Növbəti mərhələdə "Qərbi Çıraq" platformasından 2014-cü ilin yanvarında hasilata başlanıb. Ən son mərhələ - "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində isə hasilatın başlanması bu ilin əvvəlində gözlənilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Londonda Baronessa Koksun və erməni diasporunun növbəti təxribatının qarşısı alınıb

Londonda Baronessa Koksun və erməni diasporunun növbəti təxribatının qarşısı alınıb.




AZƏRTAC xəbər verir ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fəaliyyət göstərən Azərbaycan icması erməni diasporunun və havadarlarının növbəti təxribatının qarşısını alıb.

Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova bildirib ki, Londonun mərkəzində yerləşən məşhur Karlton Klubu fevralın 5-də "Ermənistan: Dağlıq Qarabağın etnik təmizlənməsi" mövzusunda keçirilməsi nəzərdə tutulan tədbirə evsahibliyi etməyi planlaşdırırdı. Bu tədbir qatı ermənipərəst, türkçülüyə və islam dininə düşmən münasibət bəsləyən Baronessa Karolina Koks, ona dəstək verən Lord de Moli TD və Ermənistanın Birləşmiş Krallıqdakı səfiri Varujan Nersesyan tərəfindən təşkil olunmalı idi.

Bundan xəbər tutan Britaniya Azərbaycanlıları Cəmiyyəti ölkədəki Azərbaycan İcmasının adından Karlton Klubunun rəhbərliyinə açıq etiraz məktubu göndərib. Məktubun surəti Britaniya xarici işlər naziri Devid Kemerona, parlament üzvlərinə, Lordlar Palatasının üzvləri Lord Evans, Lord Əhməd, Lord Kilkluni, Lord Sarfraz və Baronessa Manzila Pola Udinə, Avropa və Şimali Amerika üzrə nazir Leo Dokertiyə, Britaniya XİN-in xüsusi komitəsinin rəhbəri Alisiya Kernsə, "Mühafizəkarların Səsi" təşkilatının rəhbərliyinə ünvanlanıb.

Məktubda diqqətə çatdırılıb ki, tarixi məkanın əsassız tədbirə evsahibliyi etməsi Azərbaycan icmasının dərin narahatlığına səbəb olub. Azərbaycanla Ermənistanın sülh müqaviləsini imzalamağa yaxın olduğu bir zamanda belə tədbirin təşkilinin iki ölkə arasında sülh perspektivlərini açıq şəkildə pozduğu, Birləşmiş Krallığın sülhü dəstəkləyən mövqeyinə və ölkənin xarici siyasətinə tam zidd olduğu vurğulanıb.

Azərbaycana qarşı etnik təmizləmə iddialarının tamamilə əsassız olduğu, BMT və Beynəlxalq Qırmızı Xaç Komitəsinin faktaraşdırıcı missiyalarının Qarabağda mülki infrastruktura hər hansı ziyanın dəydiyinə, yaxud Azərbaycan hakimiyyəti tərəfindən erməni mülki şəxslərin məcburi köçürüldüyünə dair heç bir fakt aşkar etmədiyi və sənədləşdirmədiyi bir daha yada salınıb. Bundan başqa, Ermənistanın Britaniyadakı səfirinin öz ölkəsinin baş naziri Nikol Paşinyanın siyasətinin əleyhinə olan görüşün təşkilatçıları arasında yer alması təəccüblü fakt kimi xüsusi vurğulanıb.

Mötəbər sübutların olmadığı təqdirdə, əsassız ittihamların davam etdirilməsi nəticəsində xoşagəlməz vəziyyətin yarana biləcəyini, ötən il Queen Mary Universitetinin nümunəsini xatırladan cəmiyyət sədri Karlton Klubunun rəhbərliyini bu qərəzli tədbiri ləğv etməyə çağırıb.

Karlton Klubunun katibi Simon Robinsonun adından Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahovaya yanvarın 22-də ünvanlanan rəsmi məktubda bu görüşün klubda baş tutmayacağı təsdiqlənib. "Bu, bizim Britaniya diasporunun erməni diasporu və ermənipərəstlər üzərində növbəti qələbəmizdir", - deyə Fəridə Pənahova vurğulayıb.

# Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışılıb





Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 23-də Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetini və onun nəzdində fəaliyyət göstərən hərbi təhsil müəssisələrini ziyarət edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Qonaqlara Müdafiə Nazirliyinin strukturuna daxil olan təhsil müəssisələrinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olunub.

Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetlərinin rəhbər heyəti arasında keçirilən görüşdə dövlətimizin başçısının hərbi təhsil sisteminin inkişafına göstərdiyi qayğısından, Azərbaycan Ordusunda bu sahədə aparılan islahatlar, eləcə də ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışılıb.

Azərbaycan Prezidentinin müvafiq fərmanı və sərəncamı ilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında yaradılan xüsusi təyinatlı hərbi kolleclərin əhəmiyyəti, eləcə də hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin gənclərin hərbi xidmətə marağının əhəmiyyətli dərəcədə artmasına imkan verəcəyi qeyd olunub.

Görüşdə iki qardaş ölkənin hərbi təhsil sahəsində əməkdaşlığının daha da genişləndirilməsindən söhbət açılıb, bu istiqamətdə görüləcək işlər, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Təhsil müəssisələrini ziyarət edən professor E.Afyoncu xatirə kitablarına ürək sözlərini yazıb.

# Çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib

Cari ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin məsul vəzifəli şəxslərinin və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə Azərbaycan Ordusunda hərbi xidmətə yeni gələn çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, çağırışçıların hərbi hissələr üzrə bölgü prosesi elektron qaydada, xüsusi kompüter proqramı vasitəsilə tam şəffaf şəkildə icra olunub.

Şəxsi heyətin bölgüsü onların ailə tərkibi və fiziki hazırlığı, eləcə də əks-ərazi prinsipi nəzərə alınmaqla ixtisaslara uyğun yerinə yetirilib.



# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

## MÜNDƏRİCAT


**1-ci fəsil**
**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. Bu Məcəllədə istifadə olunan əsas anlayışlar
Maddə 2. Azərbaycan Respublikasının rəqabət qanunvericiliyi
Maddə 3. Azərbaycan Respublikasının rəqabət siyasətinin prinsipləri
Maddə 4. Bu Məcəllənin tətbiq dairəsi
Maddə 5. Rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması

**2-ci fəsil**
**RƏQABƏT SAHƏSİNDƏ BAZAR SUBYEKTLƏRİNİN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI**

Maddə 6. Rəqabət sahəsində bazar subyektlərinin vəzifələri
Maddə 7. Rəqabət sahəsində bazar subyektlərinin hüquqları

**3-cü fəsil**
**RƏQABƏT ORQANI**

Maddə 8. Rəqabət orqanı
Maddə 9. Rəqabət orqanının işçilərinin sosial təminatı, maliyyə sanksiyalarından və digər vəsaitlərdən ayırmalar
Maddə 10. Maraqlar toqquşması

**4-cü fəsil**
**RƏQABƏTİ MƏHDUDLAŞDIRAN SAZİŞLƏR**

Maddə 11. Rəqabəti məhdudlaşdıran üfüqi sazişlər
Maddə 12. Rəqabəti məhdudlaşdıran şaquli sazişlər
Maddə 13. İstisna edilmiş sazişlər
Maddə 14. Azəhəmiyyətli sazişlər

**5-ci fəsil**
**BAZARDA HÖKMRAN MÖVQE VƏ NİSBƏTƏN YÜKSƏK BAZAR GÜCÜ**

Maddə 15. Bazarda hökmran mövqe
Maddə 16. Hökmran mövqedən sui-istifadə
Maddə 17. Aşağı və yüksək inhisar qiymətləri
Maddə 18. Nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektləri tərəfindən sui-istifadə hərəkətləri

**6-cı fəsil**
**HAQSIZ RƏQABƏT**

Maddə 19. Haqsız rəqabətin formaları
Maddə 20. Müştərilərə qarşı aqressiv davranış
Maddə 21. Rəqib təsərrüfat subyektinin nüfuzdan salınması
Maddə 22. Rəqibin sahibkarlıq fəaliyyətinin təqlidi
Maddə 23. Müştərilərin çaşdırılması və aldadılması
Maddə 24. Kommersiya sirrinin qanunsuz əldə edilməsi,istifadəsi və yayılması
Maddə 25. Haqsız rəqabətə səbəb olan digər hərəkətlər

**7-ci fəsil**
**İQTİSADİ TƏMƏRKÜZLƏŞMƏLƏR**

Maddə 26. Təsərrüfat subyektlərinin təmərküzləşməsi
Maddə 27. Razılıq alınması tələb olunan təmərküzləşmələr
Maddə 28. Təmərküzləşmələrin qiymətləndirilməsi
Maddə 29. Dövriyyənin hesablanması
Maddə 30. Təmərküzləşmə haqqında ərizənin təqdim edilməsi
Maddə 31. Təmərküzləşmə haqqında ərizənin araşdırılması
Maddə 32. Təmərküzləşmələrin araşdırılması ilə əlaqədar ödənişlər

**8-ci fəsil**
**DÖVLƏT ORQANLARI (QURUMLARI), YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI, HABELƏ TƏNZİMLƏYİCİ QURUMLAR TƏRƏFİNDƏN RƏQABƏT QANUNVERİCİLİYİNƏ ƏMƏL EDİLMƏSİ**

Maddə 33. Dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, habelə tənzimləyici qurumların rəqabət qanunvericiliyinə zidd olan hərəkətləri (hərəkətsizliyi)
Maddə 34. Subsidiyaların və tənzimləmə fəaliyyətlərinin rəqabətə təsirlərinin qiymətləndirilməsi
Maddə 35. Dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, habelə tənzimləyici qurumlardan məlumatların əldə edilməsi

**9-cu fəsil**
**TƏBİİ İNHİSAR SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ**

Maddə 36. Təbii inhisar sahələri
Maddə 37. Təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi
Maddə 38. Tənzimləmə üsullarının tətbiq olunması üçün əsaslar
Maddə 39. Təbii inhisar subyektlərinin fəaliyyətinə rəqabət orqanı tərəfindən dövlət nəzarəti
Maddə 40. Təbii inhisar subyektlərinin fəaliyyətinə dair tələblər
Maddə 41. Təbii inhisar subyektlərinin məlumatı açıqlamaq vəzifəsi

**10-cu fəsil**
**RƏQABƏT QANUNVERİCİLİYİNƏ ƏMƏL EDİLMƏSİNƏ DÖVLƏT NƏZARƏTİ TƏDBİRLƏRİ**

Maddə 42. Dövlət nəzarəti və onun metodları
Maddə 43. Rəqabət orqanının apardığı araşdırmalar
Maddə 44. Bazarın monitorinqi
Maddə 45. Məlumatların təhlili
Maddə 46. Araşdırmanın yekunlaşdırılması
Maddə 47. Dövlət nəzarətinin həyata keçirilməsinin xüsusiyyətləri
Maddə 48.Yoxlamaların aparılması
Maddə 49. Yoxlamaların nəticələrinin rəsmiləşdirilməsi
Maddə 50. Rəqabət orqanı tərəfindən sənədlərin və nümunə kimi əşyaların götürülməsi
Maddə 51. Ekspertin dəvət edilməsi
Maddə 52. Mütəxəssisin dəvət edilməsi
Maddə 53. Tərcüməçinin iştirakı
Maddə 54. Baxış və götürmə zamanı videoçəkilişdən istifadə
Maddə 55. Tərtib edilən protokollara dair ümumi tələblər
Maddə 56. Sənəd və məlumatların rəqabət orqanına təqdim edilməsi
Maddə 57. Rəqabət orqanı tərəfindən sənədlərin təqdim edilməsi
Maddə 58. Sübut etmə vəzifəsi
Maddə 59. Müvəqqəti tədbirlər
Maddə 60. Bazar subyektləri tərəfindən qanun pozuntusunun könüllü aradan qaldırılması

**11-ci fəsil**
**RƏQABƏT QANUNVERİCİLİYİNİN POZULMASI HAQQINDA İŞLƏRƏ BAXILMASI**

Maddə 61. Rəqabət komissiyası tərəfindən işə baxılması
Maddə 62. Rəqabət komissiyası tərəfindən baxılan işin tərəfləri
Maddə 63. İş üzrə dinləmələr
Maddə 64. Rəqabət qanunvericiliyinin pozulması haqqında baxılan iş üzrə sübuta yetirilməli olan hallar
Maddə 65. Rəqabət qanunvericiliyinin pozulmasının sübutları
Maddə 66. Rəqabət komissiyasının qərarları
Maddə 67. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının təxirə salınması, iş üzrə icraatın birləşdirilməsi və ayrılması
Maddə 68. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının dayandırılması
Maddə 69. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasına xitam verilməsi
Maddə 70. Rəqabət qanunvericiliyinin pozulmasına və məsuliyyət tədbirlərinin tətbiqinə dair qərarlar
Maddə 71. Qərarların elan edilməsi
Maddə 72. Rəqabət qanunvericiliyinin pozulmasının aradan qaldırılması barədə göstərişin verilməsi
Maddə 73. Rəqabət qanunvericiliyinin pozulmasının aradan qaldırılması barədə göstərişin cavabdeh tərəfindən icrası
Maddə 74. İş üzrə materialların aidiyyəti dövlət orqanlarına göndərilməsi
Maddə75. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə yenidən baxılması

**12-ci fəsil**
**RƏQABƏT QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT**

Maddə 76. Rəqabət qanunvericiliyinin pozulması
Maddə 77. Rəqabət qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyaları
Maddə 78. Maliyyə sanksiyalarından azadolmalar və güzəştlər
Maddə 79. Maliyyə sanksiyalarını yüngülləşdirən və ağırlaşdıran amillər
Maddə 80. Maliyyə sanksiyalarının dövlət büdcəsinə ödənilməsi
Maddə 81. Qanunsuz gəlir
Maddə 82. Müddətlər
Maddə 83. Rəqabət qanunvericiliyinin pozulması ilə bağlı işin yekunu üzrə rəqabət orqanının qərar və göstərişlərindən, onun vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətin verilməsi
Maddə 84. Rəqabət qanunvericiliyinin pozulması nəticəsində vurulmuş zərərin ödənilməsi


Bu Məcəllə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 16-cı bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini, rəqabət sahəsində tənzimlənməni, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir, sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır.

## 1-ci fəsil
## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Bu Məcəllədə istifadə olunan əsas anlayışlar

1.1. Bu Məcəllənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.1.1. **ailə üzvləri** - ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürmüş şəxslər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaş övladları və nəvələri, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları, bacıların ərləri, qardaşların arvadları, qəyyumlar və qəyyumluğa götürülənlər, vərəsələr;

1.1.2. **aktiv satış** - müştəriləri məktub, elektron poçt, zəng, müştərinin ünvanına getməklə və ya digər birbaşa kommunikasiya vasitələri ilə (onlayn və ya offlayn formada hədəfləyici reklam və ya marketinq vasitələri ilə) aktiv qaydada hədəfləməklə edilən satış;

1.1.3. **alıcı** - istehsal, istifadə (sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətlə əlaqədar) və ya təkrar satış məqsədilə məhsulu alan təsərrüfat subyekti, o cümlədən distribüter;

1.1.4. **aşağı inhisar qiyməti** - hökmran mövqe tutmuş təsərrüfat subyektinin öz xərcini satıcının hesabına ödəmək məqsədilə aldığı məhsullara müəyyənləşdirdiyi aşağı qiymət, yaxud hökmran mövqe tutmuş təsərrüfat subyektinin rəqibləri bazardan sıxışdırıb çıxarmaq məqsədilə satdığı məhsullara tətbiq etdiyi rəqabət şəraitində formalaşan qiymətlərdən aşağı qiymət;

1.1.5. **bazara giriş maneələri** - bazarda potensial rəqabəti, habelə potensial rəqiblərin və ya digər təsərrüfat subyektlərinin müvafiq bazara daxil olmasını məhdudlaşdıra və ya qarşısını ala bilən və bununla da bazarda mövcud olan təsərrüfat subyektləri üçün üstünlüklər yaradan hər hansı hüquqi, iqtisadi və ya inzibati şərait, habelə hərəkət (hərəkətsizlik);

1.1.6. **bazar payı** - bir və ya bir neçə təsərrüfat subyektinin müvafiq bazardakı satış dövriyyəsinin (natura və ya dəyər ifadəsində) həmin bazardakı ümumi dövriyyəyə (natura və ya dəyər ifadəsində) nisbəti;

1.1.7. **bazar subyektləri** - bazarda yaranan münasibətlərin iştirakçısı olan təsərrüfat subyektləri, dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, tənzimləyici qurumlar, digər subyektlər;

1.1.8. **cavabdeh** - rəqabət orqanı tərəfindən rəqabət qanunvericiliyini pozduğu iddia olunan bazar subyektləri;

1.1.9. **demping** - malların daxili bazarda süni surətdə endirilmiş, orta pərakəndə qiymətlərdən aşağı və ya maya dəyərindən aşağı qiymətə satılması;

1.1.10. **digər subyekt** - təsərrüfat subyekti, dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, tənzimləyici qurum və ya müştəri qismində çıxış etməyən, təsərrüfat subyektlərinin qərarlarına təsir edə bilən hüquqi və ya fiziki şəxs;

1.1.11. **dövlət inhisarı** - təqdim etdiyi məhsullarla bağlı fəaliyyəti rəqabət qanunvericiliyi ilə tənzimlənməyən, inhisarlaşan bazarda fəaliyyətinə nəzarət və tənzimləmə üsulları dövlət tərəfindən müəyyən edilən inhisar;

1.1.12. **dövlət inhisarında olan məhsullar** - qiymətləri (tarifləri) qanunla müəyyən edilən və dövlət orqanları (qurumları) tərəfindən təqdim edilən məhsullar;

1.1.13. **eksklüziv təchizat sistemi** - satıcının müəyyən ərazi və ya müştəri qruplarını eksklüziv olaraq özünə və ya ayrı-ayrı alıcılara ayırdığı və həmin alıcıların bir-birinin eksklüziv ərazi və ya eksklüziv müştəri qruplarına aktiv satışını məhdudlaşdıran saziş və ya sazişlər məcmusu;

1.1.14. **ərizəçi** - qanun pozuntusunun araşdırılması və aradan qaldırılması barədə müraciət təqdim etmiş fiziki və ya hüquqi şəxs;

1.1.15. **haqsız rəqabət** - müvafiq bazarda üstünlük əldə etmək məqsədilə təsərrüfat subyektinin qanunvericiliyə və işgüzar ənənələrə zidd olan, habelə ədalətsiz üsullardan istifadə etməklə rəqib təsərrüfat subyektinə zərər vuran (vura bilən) və ya onların işgüzar nüfuzuna xələl gətirən (gətirə bilən) hərəkətləri;

1.1.16. **həlledici nəzarət** - hüquqi və ya fiziki şəxsə (şəxslərə) digər hüquqi və ya fiziki şəxsin (şəxslərin) fəaliyyətini birbaşa və ya dolayı yolla (bir və ya bir neçə hüquqi şəxs vasitəsilə), təkbaşına və ya birgə şəkildə məhdudlaşdırmaq və ya istiqamətləndirmək imkanı verən aşağıdakı hallardan birinin mövcudluğu:

1.1.16.1. digər şəxsin aktivlərinin 50 faizindən çoxuna mülkiyyət hüququnun olması;

1.1.16.2. şəxslər arasında törəmə və ya asılı təsərrüfat cəmiyyəti münasibətlərinin olması;

1.1.16.3. aralarındakı münasibətlərin xarakterinə əsasən nəzarət edən şəxsin nəzarət olunan şəxsə icrası məcburi olan göstərişlər vermək səlahiyyətinin olması;

1.1.16.4. nəzarət olunan şəxsin idarəetmə orqanlarının tərkibinin formalaşdırılmasına, səsvermə və ya qərar qəbuletmə prosesinə həlledici təsir etmək imkanının (hər hansı prosesin gedişatını dəyişməyə imkan verən hüquqlarının) olması;

1.1.17. **hökmran mövqe** - bazar payı bu Məcəllədə qeyd olunan hədlərdən çox olan təsərrüfat subyektinin öz üstün bazar gücünə əsaslanaraq, rəqiblərdən və müştərilərdən asılı olmadan müvafiq bazarda rəqabəti məhdudlaşdırmaq və ya ona təsir etmək (o cümlədən məhsulun dövriyyəsinin ümumi qaydalarını və şərtlərini dəyişdirmək, bazara giriş maneələri yaratmaq, rəqibləri bazardan çıxarmaq) imkanı verən müstəsna vəziyyəti;

1.1.18. **xidmət (iş)** - malların təqdim edilməsi sayılmayan, nəticələri maddi (və ya qeyri-maddi) ifadə kəsb edən və satış üçün nəzərdə tutulan fəaliyyət;

1.1.19. **iqtisadi fəaliyyət** - yalnız dövlət orqanları (qurumları) tərəfindən həyata keçirilən dövlətin mühüm funksiyalarına aid olan fəaliyyət növləri və fiziki şəxsin istehlak məqsədilə məhsul alması istisna olmaqla bazarda məhsulun təqdim olunması ilə xarakterizə olunan hər hansı fəaliyyət;

1.1.20. **kartel sövdələşməsi** - rəqabətin məhdudlaşdırılması məqsədilə bağlanılmış və bu Məcəllə ilə qadağan edilən üfüqi saziş;

1.1.21. **qarşılıqlı əvəz oluna bilən məhsullar** - istifadə təyinatına, tətbiqinə, keyfiyyət və texniki xüsusiyyətlərinə, qiymətinə və digər parametrlərinə görə müqayisə oluna bilən, müştərinin istehlak (o cümlədən istehsalat məqsədləri üçün istehlak) zamanı onları bir-biri ilə əvəz etdiyi və ya əvəz etməyə hazır olduğu məhsul;

1.1.22. **qiymət manipulyasiyası** - bazarın ümumi tələblərindən asılı olmadan hökmran mövqe tutmuş təsərrüfat subyekti tərəfindən rəqabətin məhdudlaşdırılması məqsədilə həyata keçirilən və ya rəqabət qanunvericiliyini pozmaqla qiymətlərin azaldılması, bir səviyyədə saxlanılması və yüksəldilməsindən ibarət hərəkətlər;

1.1.23. **mal** - satış, mübadilə və dövriyyənin digər formaları üçün nəzərdə tutulmuş hər hansı maddi və ya qeyri-maddi əmlak;

1.1.24. **maliyyə institutları** - maliyyə bazarlarını tənzimləyən qanunlara müvafiq olaraq maliyyə xidmətlərini həyata keçirən və Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - Mərkəzi Bank) tərəfindən fəaliyyətinə nəzarət olunan təsərrüfat subyektləri;

1.1.25. **maraqlı tərəflər** - rəqabət komissiyasının qərarı nəticəsində maraqları birbaşa təsirə məruz qala biləcək və ya öz müraciəti əsasında işə cəlb olunan hüquqi və ya fiziki şəxslər;

1.1.26. **məhsul** - satış, mübadilə və dövriyyənin digər formaları üçün nəzərdə tutulmuş hər hansı mal və ya xidmət (iş);

1.1.27. **müqayisə edilə bilən rəqabətli bazar** - məhsulların alınması və ya satılması məqsədlərinə və müvafiq bazara çıxış şərtləri əsasında müəyyən edilən, satılan malların həcminə, müştərilərin və ya satıcılarının tərkibinə görə müqayisə edilə bilən digər bazar;

1.1.28. **mühüm əhəmiyyətli resurs** - təkrar istehsalı mümkün olmayan, müvafiq bazarda faktiki əvəzedicisi olmayan, istifadə edilməsinə imkan verilmədikdə isə rəqibin fəaliyyətini tam və ya qismən məhdudlaşdıran infrastruktur, obyekt və ya ehtiyat;

1.1.29. **müştəri** - məhsulu istifadə edən, onu sifariş verən, alan, yaxud sifariş vermək və ya almaq niyyəti olan şəxs, o cümlədən istehlakçı;

1.1.30. **müvafiq bazar** - coğrafi sərhədlərindən kənarda müştərinin iqtisadi, texniki və ya digər praktiki səbəblərdən müvafiq əmtəəni əldə etməyi məqsədəuyğun hesab etmədiyi və xüsusiyyətləri, qiymətləri və istifadə təyinatı eyni olan, yaxud qarşılıqlı əvəz oluna bilən əmtəələrin təklif olunduğu bazar;

1.1.31. **nou-hau** - satıcının təcrübə və sınaqlar əsasında əldə etdiyi, patentləşdirilməyən və təcrübəyə aid olan, sahibinin mülahizəsinə əsasən hər kəsə məlum olmayan və asanlıqla əldə edilə bilməyən, alıcı tərəfindən məhsulun istifadəsi, satışı və ya təkrarsatışı üçün vacib əhəmiyyətli və faydalı olan və gizlilik və mühümlük tələblərinə cavab verməsinin təsdiqlənməsi üçün hərtərəfli və ətraflı olaraq təsvir olunan məlumat məcmusu;

1.1.32. **passiv satış** - müəyyən ərazi və ya müştəri qrupunu hədəfə almadan həmin müştərilər tərəfindən edilən təkliflərə əsasən həyata keçirilən satış;

1.1.33. **potensial rəqib** - rəqabəti məhdudlaşdıran sazişlər və ya digər hərəkətlər (hərəkətsizlik) olmadığı təqdirdə qısa müddət ərzində zəruri xərcləri çəkməklə müvafiq bazara daxil olmaq imkanına malik (yalnız nəzəri mümkünlük istisna olmaqla) təsərrüfat subyekti;

1.1.34. **rəqabət** - məhsulun mövcud və ya potensial müştəriləri və (və ya) satıcıları ilə daha əlverişli işgüzar münasibətlər yaratmaq məqsədilə müstəqil fəaliyyət göstərən təsərrüfat subyektlərinin qanuna zidd olmayan fəaliyyəti;

1.1.35. **rəqabət aparmamaq öhdəliyi** - alıcının satıcı tərəfindən təchiz olunan məhsul ilə rəqabətdə olan məhsulu istehsal etmək, digər təsərrüfat subyektindən almaq, satmaq və ya təkrar satmaq imkanını məhdudlaşdıran birbaşa və ya dolayı öhdəlik və ya alıcının müvafiq bazarda eyni və ya qarşılıqlı əvəz oluna bilən məhsulun 50 faizindən çoxunu (sonuncu maliyyə ilində onun satın aldığı məhsulun dəyəri və ya bu mümkün olmadıqda həcminə uyğun olaraq hesablanır) satıcıdan və ya satıcı tərəfindən müəyyən olunan digər təsərrüfat subyektindən almağa məcbur edən birbaşa və ya dolayı öhdəlik;

1.1.36. **rəqabətin məhdudlaşdırılması** - bazar subyektləri tərəfindən rəqabətin qarşısını alan, aradan qaldıran və ya ona məhdudiyyətlər qoymaq məqsədi daşıyan, belə nəticələrə səbəb olan, yaxud belə nəticələrə səbəb ola bilən sazişlərin bağlanması, uyğunlaşdırılmış hərəkətlərin edilməsi, qərarların qəbul edilməsi, hökmran mövqedən sui-istifadə və bu kimi digər hərəkətlərin həyata keçirilməsi;

1.1.37. **rəqabət orqanı** - rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini həyata keçirən, dövlətin rəqabət siyasətinin formalaşdırılmasında iştirak edən və həmin siyasətin həyata keçirilməsini, habelə rəqabət sahəsində tənzimlənməni təmin edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.1.38. **rəqib** - müvafiq bazara məhsul çıxara bilən təsərrüfat subyekti;

1.1.39. **satıcı** - məhsulu müştəriyə satan və ya təkrar satış üçün paylayan təsərrüfat subyekti;

1.1.40. **saziş** - təsərrüfat subyektləri və (və ya) digər subyektlər arasında bazardakı davranışlarla bağlı ortaq maraqların hər hansı qaydada nümayiş etdirilməsinə dair açıq və ya gizli şəkildə yazılı və ya şifahi formada (o cümlədən etibarsız olub nəticə yaradan, ləğv və ya xitam edilmiş) razılaşmalar və ya əqdlər, habelə təsərrüfat subyektlərinin birliklərinin qərarları;

1.1.41. **selektiv təchizat sistemi** - satıcının məhsulu yalnız müəyyən meyar əsasında seçilmiş distribüterlərə satmaq və belə distribüterlərin məhsulu onlar üçün ayrılmış ərazi daxilində digər distribüterlərə icazəsiz satmamaq öhdəliyini müəyyən edən saziş və ya sazişlər məcmusu;

1.1.42. **şaquli saziş** - bir-biri ilə alqı-satqı münasibətində olan və ya ola bilən və rəqib olmayan təsərrüfat subyektlərinin və ya digər subyektlərin öz aralarında bağladıqları, yaxud təsərrüfat subyektləri ilə digər subyektlər arasında bağlanılan saziş;

1.1.43. **şəbəkə effekti** - informasiya-telekommunikasiya şəbəkələri vasitəsilə məhsul satışını həyata keçirən təsərrüfat subyektinin həmin şəbəkəyə qoşulan istifadəçilərin sayının çoxalması hesabına müvafiq bazara təsir imkanının artması;

1.1.44. **şəxslər qrupu** - Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən qarşılıqlı surətdə asılı olan hüquqi və ya fiziki şəxslər, habelə bir-birinin və ya biri digərinin qəbul etdiyi qərarlara və ya bazardakı fəaliyyətinə birbaşa və ya dolayı yolla, həlledici nəzarət edən, yaxud eyni şəxslər (hüquqi və ya fiziki) və ya onların ailə üzvləri tərəfindən idarə edilən hüquqi və ya fiziki şəxslər;

1.1.45. **təbii inhisar** - istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin mümkün olmadığı, habelə iqtisadi baxımdan əlverişli və ya məqsədəuyğun hesab edilmədiyi şəraitdə dövlət və ya ictimai maraqlar səbəbindən ödənilməsi zəruri olan, lakin istehlakda başqa məhsul ilə əvəz edilə bilməyən məhsula tələbatın təmin edilməsi üçün daha səmərəli olan bazarın vəziyyəti;

1.1.46. **təbii inhisar subyekti** - təbii inhisar şəraitində məhsul istehsalı (satışı) ilə məşğul olan və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıya daxil edilən təsərrüfat subyekti;

1.1.47. **təmərküzləşmə** - bu Məcəllənin 26-cı maddəsində qeyd olunan qaydada bir və ya bir neçə təsərrüfat subyektinin, onun müəyyən hissələrinin (fəaliyyət sahələrinin) birləşməsi, yaxud təsərrüfat subyektinin, onun müəyyən hissələrinin (fəaliyyət sahələrinin, səhmlərinin, paylarının) və hüquqlarının əldə edilməsi, yaxud birgə təsərrüfat subyektinin yaradılması;

1.1.48. **tənzimləyici qurum** - qanuna uyğun olaraq bazarın müvafiq sahəsində dövlət tənzimləmə funksiyalarını həyata keçirən qurum;

1.1.49. **təsərrüfat subyekti** - mülkiyyət növündən, təşkilati hüquqi formasından və maliyyələşmə mənbəyindən asılı olmayaraq, sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətlə məşğul olan istənilən hüquqi və ya fiziki şəxs, xarici hüquqi və ya fiziki şəxsin daimi nümayəndəliyi, filialı və digər bölməsi, habelə şəxslər qrupu, təsərrüfat subyektlərinin birlikləri, yaxud təsərrüfat subyektinə həlledici nəzarət edən bir və ya bir neçə fiziki şəxs;

1.1.50. **təsərrüfat subyektlərinin birlikləri** - eyni növ fəaliyyəti həyata keçirən iki və ya daha çox təsərrüfat subyekti tərəfindən yaradılan, dövlət və ictimaiyyət qarşısında öz üzvlərini (iştirakçılarını) təmsil edən və onların qanuni maraqlarını müdafiə edən təşkilat, habelə hüquqi şəxslərin ittifaqları;

1.1.51. **uyğunlaşdırılmış hərəkətlər** - müvafiq bazarda aralarında saziş olmadan təsərrüfat subyektinin öz davranışını digər təsərrüfat subyektinin hərəkətlərinə (hərəkətsizliyinə) uyğunlaşdırması (əlaqələndirməsi və ya təkrarlaması), paralel hərəkətlər və ya üçüncü şəxslər tərəfindən koordinasiya olunmuş hərəkətlər;

1.1.52. **üfüqi saziş** - müvafiq bazarda fəaliyyət göstərən və bir-biri ilə rəqib olan (o cümlədən potensial rəqib ola bilən) təsərrüfat subyektlərinin və ya digər subyektlərin öz aralarında bağladıqları, yaxud təsərrüfat subyektləri ilə digər subyektlər arasında bağlanılan saziş;

1.1.53. **ümumi iqtisadi mənafeyə xidmət edən fəaliyyət** - normal bazar şəraitində təsərrüfat subyektlərinin təklif edə bilmədiyi məhsulun müştərilərə uyğun qiymətə və keyfiyyətdə çatdırılmasını təmin etmək məqsədilə dövlət tərəfindən təsərrüfat subyektlərinə (təbii inhisarlar və dövlət inhisarları daxil olmaqla) müstəsna hüquqların verilməsi yolu ilə onlar tərəfindən həmin məhsulun bazara təklif edilməsi;

1.1.54. **yüksək inhisar qiyməti** - hökmran mövqe tutmuş təsərrüfat subyektinin əsassız (artırılmış) xərclərin kompensasiyası və ya rəqabət şəraitinə nisbətən əlavə mənfəət əldə edilməsi məqsədilə satdığı məhsullara rəqabət şəraitində formalaşan qiymətlərdən yüksək müəyyənləşdirdiyi qiymət.

1.2. Bu Məcəllənin məqsədləri üçün sonuncu hesabat ili dedikdə, sonuncu maliyyə ili nəzərdə tutulur.

1.3. Bu Məcəllədə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

*Ardı 13-cü səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 12-ci səh.*

**Maddə 2. Azərbaycan Respublikasının rəqabət qanunvericiliyi**

2.1. Azərbaycan Respublikasının rəqabət qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Məcəllədən və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Bu Məcəllə əqli mülkiyyət sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunan hüquqları məhdudlaşdırmır.

**Maddə 3. Azərbaycan Respublikasının rəqabət siyasətinin prinsipləri**

3.1. Rəqabət siyasətinin prinsipləri aşağıdakılardır:

3.1.1. sahibkarlıq fəaliyyəti də daxil olmaqla, iqtisadi fəaliyyətin azad və sağlam rəqabət şəraitində həyata keçirilməsinin təmin olunması;

3.1.2. rəqabətin təmin olunması, qorunması və inkişaf etdirilməsi;

3.1.3. iqtisadiyyatın inhisarsızlaşdırılması və rəqabətin stimullaşdırılması;

3.1.4. rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilən sazişlərə, davranış və hərəkətlərə (hərəkətsizliyə), habelə təbii inhisar fəaliyyətinə dövlət tənzimlənməsinin və nəzarətinin təmin olunması;

3.1.5. qiymətlərin bazarda tələb və təklifin qarşılıqlı təsiri əsasında formalaşması;

3.1.6. sərbəst qiymətqoymada müştərilərin mənafeyinin nəzərə alınması və sərbəst seçim hüququnun təmin olunması;

3.1.7. müştərilərin və təbii inhisar subyektlərinin maraqlarının uzlaşdırılmasının təmin olunması;

3.1.8. rəqabəti məhdudlaşdıran sazişlərin, təmərküzləşmələrin və hökmran mövqedən və təbii inhisar mövqeyindən sui-istifadənin yolverilməzliyi;

3.1.9. bütün bazar subyektləri üçün bazara sərbəst giriş, resurslara bərabər əlçatanlıq və bərabər tənzimləmə şərtlərinin müəyyən edilməsi.

**Maddə 4. Bu Məcəllənin tətbiq dairəsi**

4.1. Bu Məcəllə Azərbaycan Respublikasında iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinin öz aralarında, onlarla dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, tənzimləyici qurumlar və digər subyektlər, habelə müştərilər arasında yaranan və rəqabətə təsir edən münasibətləri tənzimləyir.

4.2. Bu Məcəllə ümumi iqtisadi mənafeyə xidmət edən fəaliyyətə, habelə belə fəaliyyətlə məşğul olan bazar subyektlərinin digər iqtisadi fəaliyyətinə də şamil edilir.

4.3. Bu Məcəllə Azərbaycan Respublikasının təsərrüfat subyektləri ilə xarici ölkələrin hüquqi və fiziki şəxsləri arasında bağlanılan sazişlərin, təmərküzləşmələrin və (və ya) həmin subyektlərin xaricdəki fəaliyyətinin daxili bazarda rəqabəti məhdudlaşdırdığı (və ya məhdudlaşdıra biləcəyi) hallara da şamil edilir.

4.4. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən fəaliyyət sahələrinə və məhsullara bu Məcəllənin tələbləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan hallarda tətbiq edilmir və ya məhdud tətbiq edilir.

4.5. Ələt azad iqtisadi zonasında rəqabətlə bağlı məsələlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 5. Rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması**

5.1. Bu Məcəllədə rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması dedikdə aşağıdakılar nəzərdə tutulur:

5.1.1. ardıcıl 12 (on iki) ay ərzində istənilən dövr aralığında müvafiq bazarın şəxslər qrupuna daxil olmayan subyektlərinin sayının 10 faiz və daha çox azalmasına səbəb olan hərəkətlərə (hərəkətsizliyə) yol verilməsi;

5.1.2. ardıcıl 12 (on iki) ay ərzində istənilən dövr aralığında hökmran mövqedə olmayan təsərrüfat subyektlərinin birgə bazar payının 50 faiz və daha çox azalmasına səbəb olan hərəkətlərə (hərəkətsizliyə) yol verilməsi;

5.1.3. digər təsərrüfat subyektlərinin müvafiq bazara daxil olmasının qarşısının alınması;

5.1.4. müvafiq bazarda təsərrüfat subyektlərinin bazar paylarının 90 faizinin 6 (altı) aydan çox olan müddətdə dəyişməz qalmasına gətirib çıxaran hərəkətlərə yol verilməsi.

**2-ci fəsil**
**RƏQABƏT SAHƏSİNDƏ BAZAR SUBYEKTLƏRİNİN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI**

**Maddə 6. Rəqabət sahəsində bazar subyektlərinin vəzifələri**

6.1. Rəqabət sahəsində bazar subyektlərinin vəzifələri aşağıdakılardır:

6.1.1. rəqabət qanunvericiliyinin tələblərinə riayət etmək;

6.1.2. rəqabət orqanının vəzifəli şəxslərinin qanunda nəzərdə tutulmuş səlahiyyətlərinin bu Məcəlləyə uyğun olaraq icrası üçün lazımi şərait yaratmaq, onların rəqabət qanunvericiliyinə uyğun olaraq verdikləri göstərişləri və qanuni tələblərini icra etmək;

6.1.3. yoxlama zamanı yoxlamaya aid sənədləri (məlumatları) yoxlayıcıya təqdim etmək və yaranan suallara şifahi və (və ya) yazılı izahatlar vermək, habelə sənədlərin (məlumatların) təhrif olunmasına yolverməmək;

6.1.4. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada zəruri məlumatları (qanunda nəzərdə tutulduğu hallarda kommersiya, vergi, gömrük və bank sirri, habelə statistik sirr sayılan məlumatlar daxil olmaqla) və sənədləri (onların təsdiq olunmuş surətlərini) rəqabət orqanına təqdim etmək;

6.1.5. bu Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilən digər vəzifələri yerinə yetirmək.

**Maddə 7. Rəqabət sahəsində bazar subyektlərinin hüquqları**

7.1. Rəqabət sahəsində bazar subyektlərinin hüquqları aşağıdakılardır:

7.1.1. rəqabət qanunvericiliyi haqqında, habelə bazar subyektlərinin, rəqabət orqanının və onun vəzifəli şəxslərinin rəqabət sahəsinə aid hüquqları və vəzifələri barədə rəqabət orqanından əvəzsiz olaraq yazılı məlumat (izahat) almaq;

7.1.2. rəqabət qanunvericiliyində nəzərdə tutulmuş tənzimləmə tədbirlərinin tətbiqi ilə əlaqədar təkzibedici sübutları və materialları rəqabət orqanına təqdim etmək;

7.1.3. əlavə sübut və izahatların təqdim edilməsi üçün müəyyən olunmuş müddətin uzadılması barədə rəqabət orqanına müraciət etmək;

7.1.4. barəsində aparılan araşdırmaların və yoxlamaların materialları ilə tanış olmaq, qəbul edilmiş qərarlara münasibətdə rəyini bildirmək;

7.1.5. barəsində aparılan araşdırmalara və yoxlamaların nəticələrinə dair sənədlərin və qəbul edilmiş qərarların surətini almaq;

7.1.6. rəqabət orqanının inzibati aktlarından, onun vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət etmək;

7.1.7. rəqabət orqanının inzibati aktları, onun vəzifəli şəxslərinin hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin ödənilməsini mülki qanunvericiliklə müəyyən edilmiş qaydada tələb etmək;

7.1.8. rəqabət orqanının vəzifəli şəxslərindən bazar subyektinin təqdim etdiyi məlumatların və sənədlərin (kommersiya, vergi, gömrük və bank sirri, habelə statistik sirr sayılan məlumatlar daxil olmaqla) qanunla müəyyən edilmiş qaydada qorunmasını tələb etmək;

7.1.9. rəqabət qanunvericiliyinə riayət olunması və pozulmasının qarşısını almaq məqsədilə özünün rəqabət qanunvericiliyi tələblərinə uyğunluğunun daxili təminatı sistemini təşkil etmək;

7.1.10. rəqabət qanunvericiliyinin pozulması nəticəsində qanunsuz gəlir əldə etmiş bazar subyektindən həmin pozuntu halı üzrə zərərinin əvəzinin ödənilməsini mülki qanunvericiliklə müəyyən edilmiş qaydada tələb etmək;

7.1.11. bu Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilən digər hüquqları həyata keçirmək.

**3-cü fəsil**
**RƏQABƏT ORQANI**

**Maddə 8. Rəqabət orqanı**

8.1. Rəqabət orqanının bu Məcəlləyə uyğun olaraq qəbul etdiyi qərarları onların aid olduğu bütün bazar subyektləri üçün məcburidir.

8.2. Rəqabət qanunvericiliyinin pozulması haqqında işlərə baxılması və qanun pozuntularının aradan qaldırılması məqsədilə rəqabət orqanı tərəfindən rəqabət komissiyası yaradılır. Rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunur.

**Maddə 9. Rəqabət orqanının işçilərinin sosial təminatı, maliyyə sanksiyalarından və digər vəsaitlərdən ayırmalar**

9.1. Xidməti fəaliyyətlə əlaqədar rəqabət orqanının işçisinin və ya onun ailə üzvlərinin əmlakına dəymiş zərər, onun müraciəti əsasında, məhkəmə qaydasında təqsirkar şəxsdən tutulmaqla, tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

9.2. Bu Məcəllənin tələblərinin pozulmasına görə bu Məcəllə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq olunan sanksiya və cərimələrdən toplanan vəsaitin 50 faizi (bu Məcəllənin 81.2-ci maddəsinə əsasən qanunsuz gəlirə mütənasib artırılan hissə və əlavə maliyyə sanksiyası istisna edilməklə) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial təminatının gücləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

9.3. Bu Məcəllənin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 10. Maraqlar toqquşması**

10.1. Rəqabət orqanının vəzifəli şəxsi bu Məcəllənin tələbləri nəzərə alınmaqla vəzifələrini həyata keçirərkən "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun maraqların toqquşması ilə bağlı müddəalarına riayət etməlidir.

10.2. Rəqabət orqanının vəzifəli şəxsi aşağıdakı hallarda xidməti vəzifələrini təsərrüfat subyektinə münasibətdə həyata keçirə bilməz:

10.2.1. rəqabət orqanının vəzifəli şəxsi ilə müvafiq təsərrüfat subyekti (hüquqi şəxs olduqda təsisçisinin, iştirakçısının, benefisiar mülkiyyətçisinin, qanuni təmsilçisinin və ya idarəetmə orqanlarının üzvləri) arasında ailə üzvləri münasibətləri olduqda;

10.2.2. rəqabət orqanının vəzifəli şəxsinin və (və ya) onun ailə üzvlərinin bilavasitə və ya dolayı yolla müvafiq təsərrüfat subyektində (onun fəaliyyətində) maliyyə marağı olduqda.

**4-cü fəsil**
**RƏQABƏTİ MƏHDUDLAŞDIRAN SAZİŞLƏR**

**Maddə 11. Rəqabəti məhdudlaşdıran üfüqi sazişlər**

11.1. Bu Məcəllənin 13-cü maddəsi nəzərə alınmaqla, rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olan və ya ola bilən üfüqi sazişlər və uyğunlaşdırılmış hərəkətlər, o cümlədən aşağıdakı hədəflərdən birinə və ya bir neçəsinə çatmaq məqsədilə bağlanılan kartel sövdələşmələri və uyğunlaşdırılmış hərəkətlər qadağan edilir və bağlanıldığı andan əhəmiyyətsizdir:

11.1.1. alış və ya satış qiymətlərinin, yaxud hər hansı digər ticarət şərtlərinin birbaşa və ya dolayı yolla razılaşdırılması və (və ya) bununla əlaqədar məlumat mübadiləsinin aparılması;

11.1.2. istehsalın, bazarın, texniki inkişafın, investisiyaların məhdudlaşdırılması və ya onlara nəzarət edilməsi;

11.1.3. bazarların, o cümlədən müştərilərin, satıcıların, ərazilərin, xammal mənbələrinin, yaxud məhsulun konkret növlərinin istehsalının (satışının) öz aralarında bölüşdürülməsi;

11.1.4. müvafiq bazarda tələb və təklifin həcminin əvvəlcədən müəyyənləşdirilməsi və (və ya) ona nəzarət edilməsi;

11.1.5. dövlət satınalmaları, hərrac və digər müsabiqələrdə iştirak edən və ya iştirak edəcək təsərrüfat subyektlərinin və (və ya) təklif olunacaq satış (alış) qiymətlərinin onlar arasında əvvəlcədən razılaşdırılması, yaxud bu prosesə digər formada qanunsuz təsir göstərilməsi;

11.1.6. digər təsərrüfat subyektləri ilə aparılan eyni və ya oxşar əməliyyatlara fərqli şərtlərin tətbiqi və bununla da onların rəqabətdə əlverişsiz vəziyyətə salınması;

11.1.7. saziş iştirakçısı olmayan rəqiblərlə müqavilələrə mahiyyətinə və işgüzar adətlərə əsasən, həmin müqavilələrin predmeti ilə əlaqəsi olmayan və (və ya) onun üçün əlverişsiz olan şərtin (öhdəliyin) daxil edilməsi;

11.1.8. digər təsərrüfat subyektlərinin saziş iştirakçısı olmayan bir sıra təsərrüfat subyektləri ilə kommersiya münasibətləri qurmamağa və ya müqavilə bağlamamağa sövq edilməsi;

11.1.9. saziş iştirakçısı olmayan rəqib təsərrüfat subyektlərinin müvafiq bazara girişinin məhdudlaşdırılması və ya həmin bazardan sıxışdırılıb çıxarılması;

11.1.10. rəqabət üçün vacib əhəmiyyəti olan müqavilələrə və ya təsərrüfat subyektlərinin birliklərinə qoşulmaqdan kollektiv imtina edilməsi.

11.2. Rəqabəti məhdudlaşdıran üfüqi sazişlərin, o cümlədən kartel sövdələşmələrinin və uyğunlaşdırılmış hərəkətlərin müəyyən edilməsi və sübutların əldə edilməsi üçün aşağıdakılar araşdırılır:

11.2.1. müvafiq bazarda sabit iqtisadi amillər (pandemiyanın, iqtisadi böhranın və ya iqtisadiyyatın inkişafına təsir edən digər hadisələrin baş verməmdiyi) şəraitində hər hansı şəxslər qrupuna daxil olmayan təsərrüfat subyektlərinin sayının 20 faiz və daha çox azalması və (və ya) bazardan çəkilməsi;

11.2.2. müvafiq bazarda dəyişməz iqtisadi amillər (vergi, kredit və sığorta siyasətinin, minimum əməkhaqqı məbləğinin dəyişmədiyi) şəraitində məhsul dövriyyəsinin 20 faiz və daha çox dəyişməsi;

11.2.3. müvafiq bazarda qiyməti formalaşdıran ümumi şərtlər (dövlət tənzimləməsi, o cümlədən gömrük rüsumları, vergitutma və tariflər) dəyişmədiyi halda, qiymətlərin 30 (otuz) gün ərzində 10 faizdən çox dəyişdirilməsi;

11.2.4. müvafiq bazarda 30 faiz və daha çox birgə paya malik olan saziş iştirakçılarının hamısı tərəfindən qiymətlərin 30 (otuz) gün ərzində 10 faizdən çox dəyişdirilməsi və ya satış həcminin əsassız olaraq məhdudlaşdırılması (mal qıtlığının yaradılması);

11.2.5. təsərrüfat subyektlərinin eyni vaxtda bir ərazidə yerləşən bazarda cəmləşməsi və ya digər ərazidə yerləşən bazarlardan çəkilməsi;

11.2.6. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, tənzimləyici qurumlar tərəfindən dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi ilə bağlı saziş iştirakçısı olmayan təsərrüfat subyektlərinə normativ hüquqi aktlarda nəzərdə tutulmayan tələblərin qoyulması;

11.2.7. müvafiq bazarda təsərrüfat subyektlərinin bazar paylarının 90 faizinin 6 (altı) aydan çox olan müddətdə dəyişməz qalması;

11.2.8. müvafiq bazarda təsərrüfat subyektlərinin bazar paylarının dəyişməz iqtisadi amillər (vergi, kredit və sığorta siyasətinin, minimum əməkhaqqı məbləğinin dəyişmədiyi) şəraitində 20 faiz və daha çox dəyişməsi.

11.3. Bu Məcəllənin 11-ci maddəsinin müddəaları müvafiq bazarda rəqib olan təsərrüfat subyektləri arasında bağlanan şaquli sazişlərə də şamil edilir.

11.4. Təsərrüfat subyektlərinin hərəkətləri uyğunlaşdırılmış hərəkət hesab olunması üçün aşağıdakı şərtlərə birlikdə cavab verməlidir:

11.4.1. rəqib təsərrüfat subyektinin hərəkətləri əvvəlcədən təsərrüfat subyektinə məlum olmalıdır;

11.4.2. təsərrüfat subyektlərinin hərəkətləri müvafiq bazarın tələbi əsasında və təbii şəraitdə formalaşan, habelə bütün təsərrüfat subyektlərinə eyni dərəcədə təsir edən amillərdən asılı olmamalıdır.

11.5. Sazişin məqsədi bu Məcəllənin 11.1-ci və 12.1-ci maddələrində nəzərdə tutulmadıqda, rəqabət orqanı müvafiq sazişin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya olma ehtimalı ilə bağlı araşdırma aparır. Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

11.6. Təsərrüfat subyekti rəqabəti məhdudlaşdırma məqsədli müzakirələrin aparıldığı iclasda iştirak etdikdə və ya ona rəqabəti məhdudlaşdırıcı xarakterli istənilən formada məlumat verildikdə, həmin subyekt bazarda olan davranışını həmin müzakirələr və ya məlumat əsasında aparmadıqda belə özünü müzakirələrdən və ya məlumatdan uzaqlaşdırmadıqda, həmin sazişin iştirakçısı hesab olunur. Özünü müzakirələrdən və ya məlumatdan uzaqlaşdırmaq üçün təsərrüfat subyekti müzakirənin bütün iştirakçılarına açıq və ətraflı şəkildə bazardakı davranışını müzakirələr və ya məlumat əsasında tənzimləməyəcəyini bildirməli və ya rəqabət orqanına bu barədə məlumat verməlidir.

11.7. Bu Məcəllənin 11-ci maddəsinin müddəaları müvafiq bazarda fəaliyyət göstərməyən, lakin bu maddə ilə qadağan edilmiş və bu Məcəllənin 13-cü və 14-cü maddələrinin tələblərinə cavab verməyən sazişin tərəflərinin ümumi məqsədlərinə çatmasında iştirak edən və həmin məqsədlərə nail olunması üçün faktiki hərəkətlərin edildiyini bilən və ya bilməli olan digər təsərrüfat subyektlərinə də tətbiq olunur.

11.8. Bu Məcəllənin 11.1.5-ci maddəsi istisna olmaqla, bu Məcəllənin 11-ci maddəsinin müddəaları eyni şəxslər qrupuna daxil olan şəxslər arasındakı münasibətlərə tətbiq edilmir.

**Maddə 12. Rəqabəti məhdudlaşdıran şaquli sazişlər**

12.1. Bu Məcəllənin 12-ci maddəsində nəzərdə tutulan istisnalar və bu Məcəllənin 13-cü maddəsi nəzərə alınmaqla, aşağıdakı şərtlərdən bir və ya daha çoxunu nəzərdə tutan rəqabəti məhdudlaşdıran (məhdudlaşdıra bilən) şaquli sazişlər qadağan edilir və bağlanıldığı andan əhəmiyyətsizdir:

12.1.1. satıcı tərəfindən alıcının təkrar satış qiymətini müəyyən etmək imkanının məhdudlaşdırılması, o cümlədən təkrar satış qiymətinin məbləğini və ya minimum həddini müəyyən etməklə məhsulu həmin qiymətdən aşağı qiymətə satmamağa aşağıdakılar istisna olmaqla sövq edilməsi:

12.1.1.1. alıcıya təkrar satış qiymətinin minimum həddinin yalnız tövsiyə edilməsi (bu halda tövsiyənin məcburi xarakter daşımaması yazılı şəkildə satıcı tərəfindən bəyan edilməlidir və məhsulun üzərində (etiketində) qiymət yazıldıqda həmin qiymətin "tövsiyə olunan qiymət" olduğu qeyd olunmalıdır);

12.1.1.2. satıcı tərəfindən məhsulun maksimum satış qiymətinin müəyyənləşdirilməsi;

12.1.2. eksklüziv təchizat sistemi üzrə satıcı tərəfindən aşağıdakılar istisna olmaqla alıcının məhsulu aktiv və ya passiv qaydada sata biləcəyi ərazinin və ya müştərilərin məhdudlaşdırılması:

12.1.2.1. satıcı tərəfindən onun özünə və ya digər alıcıya eksklüziv olaraq ayrılan ərazi və ya müştəri qrupuna alıcı tərəfindən aktiv satışın məhdudlaşdırılması;

12.1.2.2. topdansatış səviyyəsində fəaliyyət göstərən alıcının son istehlakçılara aktiv və ya passiv satışının məhdudlaşdırılması;

12.1.2.3. birləşdirilmə məqsədləri üçün təchiz edilən tərkib hissələrinin, onlardan istifadə edərək satıcı ilə eyni növ məhsulu istehsal edəcək təsərrüfat subyektlərinə aktiv və ya passiv satışı üzrə alıcıya məhdudiyyət qoyulması;

12.1.3. selektiv təchizat sistemi daxilində eyni və ya fərqli ticarət səviyyələrində fəaliyyət göstərən alıcılar arasında qarşılıqlı təchizata məhdudiyyətlərin qoyulması;

12.1.4. selektiv təchizat sistemi daxilində aşağıdakılar istisna olmaqla satıcı tərəfindən sistem iştirakçısı olan alıcıların məhsulları satacağı ərazi və ya müştəri qruplarının məhdudlaşdırılması:

12.1.4.1. satıcı tərəfindən onun özünə və ya digər alıcıya eksklüziv olaraq ayrılan ərazi və ya müştəri qrupuna selektiv təchizat sisteminin iştirakçısı olan alıcılar tərəfindən aktiv satışın məhdudlaşdırılması;

12.1.4.2. selektiv təchizat sisteminin iştirakçısı olan alıcılar tərəfindən həmin sistemin mövcud olduğu ərazidə selektiv təchizat sisteminin iştirakçısı olmayan alıcıya satışın məhdudlaşdırılması;

12.1.4.3. topdansatış səviyyəsində fəaliyyət göstərən selektiv alıcının müştərilərə aktiv və ya passiv satışının məhdudlaşdırılması;

12.1.4.4. birləşdirilmə məqsədləri üçün təchiz edilən tərkib hissələrinin, onlardan istifadə edərək satıcı ilə eyni növ əmtəəni istehsal edəcək təsərrüfat subyektlərinə aktiv və ya passiv satışı üzrə alıcıya məhdudiyyət qoyulması.

12.2. Şaquli sazişlərdə aşağıdakı şərtlərin nəzərdə tutulması qadağan olunur:

12.2.1. 3 (üç) ildən artıq müddət üçün nəzərdə tutulan birbaşa və ya dolayı rəqabət aparmama öhdəliyinə dair şərt (əgər alıcı satışı satıcının mülkiyyətində olan torpaq sahəsi və ya digər daşınmaz əmlakda həyata keçirirsə və rəqabət aparmama öhdəliyi alıcının həmin torpaq sahəsi və ya digər daşınmaz əmlakı istifadə etmə müddətindən çox deyilsə, bu maddə tətbiq olunmur);

12.2.2. selektiv təchizat sistemi iştirakçılarının satıcıya rəqib olan konkret təsərrüfat subyektinin məhsullarını satmamaq öhdəliyini müəyyən edən şərt;

12.2.3. saziş müddəti bitdikdən sonra alıcının müəyyən məhsulu istehsal etmək, almaq, satmaq və ya təkrar satmaq imkanını birbaşa və ya dolayı yolla məhdudlaşdıran şərt.

12.3. Bu Məcəllənin 12.2.3-cü maddəsi aşağıdakı şərtlərin hamısı olduqda tətbiq olunmur:

12.3.1. öhdəlik həmin məhsul ilə rəqabətdə olan mal və ya xidmətə (işə) aiddirsə;

12.3.2. öhdəlik satıcı tərəfindən alıcıya ötürülən nou-haunun qorunması üçün zəruridirsə;

12.3.3. öhdəlik satıcı tərəfindən təmin olunan torpaq sahəsi və ya digər daşınmaz əmlakdan həyata keçirilən satış üzrə müəyyənləşdirilirsə;

12.3.4. öhdəliyin müddəti sazişin xitamından sonra 1 (bir) ili keçmirsə.

12.4. İctimaiyyətə açıqlanmayan nou-haunun açıqlanması və istifadəsi üzrə qeyri-müəyyən müddət üçün nəzərdə tutulan məhdudiyyət tətbiq oluna bilər və bu Məcəllənin 12.2.3-cü maddəsi belə məhdudiyyətin tətbiqi imkanına xələl gətirmir.

12.5. Bu Məcəllənin 12-ci maddəsinin müddəaları müvafiq bazarda fəaliyyət göstərməyən, lakin bu maddə ilə qadağan edilmiş və bu Məcəllənin 13-cü və 14-cü maddələrinin tələblərinə cavab verməyən sazişin tərəflərinin ümumi məqsədlərinə çatmasında iştirak edən və həmin məqsədlərə nail olunması üçün faktiki hərəkətlərin edildiyini bilən və ya bilməli olan digər təsərrüfat subyektlərinə də tətbiq olunur.

12.6. Bu Məcəllənin 12-ci maddəsinin müddəaları eyni şəxslər qrupuna daxil olan şəxslər arasındakı münasibətlərə tətbiq edilmir.

**Maddə 13. İstisna edilmiş sazişlər**

13.1. Texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli olan sazişlər bu Məcəllənin 13.2-ci maddəsi ilə müəyyənləşdirilən meyarlara cavab verdikdə, habelə istehlakçılara verdiyi fayda rəqabətin məhdudlaşdırılmasının mənfi təsirlərindən üstün olan sazişlər və uyğunlaşdırılmış hərəkətlər aşağıdakı şərtlərin hamısına birlikdə cavab verdikdə, həmin şərtlərin mövcud olduğu müddətdə rəqabət orqanı tərəfindən qadağadan azad edilir:

13.1.1. belə sazişlər məhsulun istehsalının və ya satışının yaxşılaşdırılmasına, yaxud texniki və ya iqtisadi tərəqqinin təşviqinə xidmət etdikdə və istehlakçıların ədalətli şəkildə əlavə fayda əldə etməsinə imkan yaratdıqda;

13.1.2. belə sazişlər bu Məcəllənin 13.1.1-ci maddəsində qeyd olunanlara nail olmaq məqsədilə qeyri-mütənasib əlavə məhdudiyyətlər müəyyən etmədikdə;

13.1.3. belə sazişlər təsərrüfat subyektlərinə müəyyən məhsulun əhəmiyyətli hissəsinə münasibətdə rəqabətin məhdudlaşdırılması imkanını vermədikdə.

13.2. Sazişlərin hansı hallarda bu Məcəllənin 13.1-ci maddəsində qeyd olunan şərtlərə cavab verməsinə dair meyarlar, həmçinin texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli sazişlərin istisna edilməsinə dair meyarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

13.3. Mikro və kiçik sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin artırılmasına xidmət edən, habelə mikro və kiçik sahibkarlıq subyektləri arasında məhsulun alınmasına dair bağlanılan sazişlər və uyğunlaşdırılmış hərəkətlər rəqabəti əhəmiyyətli dərəcədə məhdudlaşdırmadıqda qadağan edilmir.

13.4. Bu Məcəllə ilə qadağan edilən və bu Məcəllənin 12-ci və 13-cü maddələrinə uyğun olaraq istisna olunmaq üçün şərtlərə cavab verməyən sazişlər və uyğunlaşdırılmış hərəkətlər əhəmiyyətsiz hesab edilir və rəqabət orqanı həmin saziş və uyğunlaşdırılmış hərəkətin pozuntunu törədən təsərrüfat subyektləri tərəfindən ləğv olunmasına dair icrası məcburi göstəriş verir.

13.5. Təsərrüfat subyektləri öz sazişlərinin bu Məcəllənin 11.8-ci, 12-ci, 13.1-ci, 13.3-cü və 14.1-ci maddələrinin tələblərinə əsasən istisna edilməsi və ya az əhəmiyyətli olmasının təsdiqlənməsi məqsədilə rəqabət orqanına müraciət etmək hüququna malikdirlər. Belə təsdiqlənmə yalnız müəyyən müddət üçün, yəni təsdiqlənməyə imkan verən şərtlərin ödənildiyi müddətdə qüvvədə ola bilər.

13.6. Bu Məcəllənin 13.5-ci maddəsi əsasında sazişlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təsdiqlənməsi üzrə qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

*Ardı 14-cü səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 13-cü səh.*

**Maddə 14. Azəhəmiyyətli sazişlər**

14.1. Birbaşa məqsədi rəqabəti məhdudlaşdırmaq olan, bu Məcəllənin 11-ci və 12-ci maddələrində qeyd olunan sazişlər istisna olmaqla, aşağıdakı tələblərə cavab verən sazişlər (habelə uyğunlaşdırılmış hərəkətlər) rəqabət üçün azəhəmiyyətli hesab olunur və qadağan olunmur:

14.1.1. üfüqi saziş iştirakçılarının sazişin təsir etdiyi hər hansı müvafiq bazar üzrə birgə bazar payı 10 faizdən artıq olmadıqda;

14.1.2. şaquli saziş iştirakçılarının sazişin təsir etdiyi hər hansı müvafiq bazar üzrə hər birinin bazar payı 15 faizdən artıq olmadıqda.

14.2. Sazişin şaquli və ya üfüqi saziş olmasını müəyyənləşdirmək mümkün olmadıqda, həmin sazişin azəhəmiyyətli olub-olmaması bu Məcəllənin 14.1.1-ci maddəsinə əsasən müəyyən edilir.

## 5-ci fəsil
## BAZARDA HÖKMRAN MÖVQE VƏ NİSBƏTƏN YÜKSƏK BAZAR GÜCÜ

**Maddə 15. Bazarda hökmran mövqe**

15.1. Bir təsərrüfat subyekti 50 faiz və daha çox bazar payına malik olduqda, hökmran mövqe tutmuş hesab edilir.

15.2. Müvafiq bazarda hərəkətləri birbaşa və ya dolayı yolla birgə xarakter daşıyan, hər biri 10 faizdən çox bazar payına malik olan 2 (iki) və daha çox təsərrüfat subyekti (ən çox paya malik olanlar əsas götürülməklə) aşağıdakı hallarda birgə hökmran mövqe tutmuş hesab edilirlər:

15.2.1. iki və ya üç təsərrüfat subyektinin birgə bazar payı 50 faizdən çox olduqda;

15.2.2. dörd və ya beş təsərrüfat subyektinin birgə bazar payı 70 faizdən çox olduqda.

15.3. Maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri (bazar payının hədləri və müəyyən edilməsi meyarları) rəqabət orqanı ilə razılaşdırmaqla Mərkəzi Bankın təklifi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

15.4. Müvafiq bazarda 50 faizdən az, lakin 35 faizdən çox bazar payına malik olan təsərrüfat subyekti müvafiq bazara təsir imkanına malik olduqda hökmran mövqe tutmuş hesab edilir. Təsərrüfat subyektlərinin müvafiq bazara təsir imkanlarını müəyyən etmək üçün aşağıdakılar araşdırılır:

15.4.1. hökmran mövqe tutmuş təsərrüfat subyektinin və onun rəqiblərinin bazar payı;

15.4.2. hökmran mövqe tutmuş təsərrüfat subyektinin maliyyə imkanları;

15.4.3. hökmran mövqe tutmuş təsərrüfat subyektinin digər təsərrüfat subyektləri ilə əlaqələrinin vəziyyəti;

15.4.4. məhsulu hökmran mövqe tutmuş təsərrüfat subyektindən başqa, digər təsərrüfat subyektinə satmaq və ya digər təsərrüfat subyektindən almaq imkanları;

15.4.5. müvafiq bazarda rəqabətin faktiki vəziyyəti və dəyişməsi imkanları;

15.4.6. potensial rəqiblərin bazara daxil olmasının və mövcud rəqiblərin bazar payını artırmasının, yaxud bununla bağlı maneələrin yaradılmasının real imkanları;

15.4.7. alıcılıq qabiliyyətinin dəyişib-dəyişməməsi halları, habelə alıcının satıcıları çevik seçmə imkanı və alıcının təsiredici gücü (alıcının satıcının hökmran mövqe tutan təsərrüfat subyektinə çevrilməsinə təsir imkanı);

15.4.8. digər təsərrüfat subyektlərinin təchizat və ya satış bazarlarına çıxış imkanları;

15.4.9. təsərrüfat subyektinin şəbəkə effektinə malik olması.

15.5. Şəbəkə effektinə malik olan təsərrüfat subyektlərinin müvafiq bazara təsir imkanlarını müəyyən etmək üçün bu Məcəllənin 15.4-cü maddəsində göstərilənlərlə yanaşı aşağıdakılar da araşdırılır:

15.5.1. şəbəkə effektinə malik olan bir təsərrüfat subyektinin xidmətlərindən digərinin xidmətinə keçidlə bağlı müştərilərin əlavə xərcləri;

15.5.2. təsərrüfat subyektinin bazara təsir imkanının miqyası;

15.5.3. təsərrüfat subyektinin şəbəkə istifadəçilərinin müvafiq (fərdi, təsərrüfat, ticarət) məlumatlarına çıxışı;

15.5.4. təsərrüfat subyektinin innovasiyalar əsasında rəqabətə təsir göstərmək imkanı.

15.6. Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 16. Hökmran mövqedən sui-istifadə**

16.1. Təsərrüfat subyektlərinin təkbaşına və ya birgə hökmran mövqedən bu Məcəllənin 16.2-ci maddəsində nəzərdə tutulan rəqabətin məhdudlaşdırılmasına səbəb olan (və ya ola bilən) sui-istifadə halları qadağan edilir.

16.2. Hökmran mövqedən rəqabətin məhdudlaşdırılmasına səbəb olan (və ya ola bilən) sui-istifadə halları aşağıdakılardır, lakin bunlarla məhdudlaşdırılmır:

16.2.1. aşağı və ya yüksək inhisar qiymətlərinin tətbiqi;

16.2.2. müştərilərin mənafeyinə zidd olaraq istehsalın, satışın və ya texniki inkişafın (o cümlədən yeni texnologiyanın tətbiqinin) məhdudlaşdırılması;

16.2.3. müqavilənin bağlanılmasının onun predmeti ilə birbaşa əlaqəsi olmayan, yəni mahiyyətindən və kommersiya istifadəsindən asılı olmayan əlavə öhdəliklərin daxil edilməsi ilə şərtləndirilməsi, o cümlədən bir məhsulun satışı üçün digər məhsulun əldə edilməsinin məcburi şərt kimi müəyyən edilməsi və (və ya) məhsulun məcburi əlavə çeşidlə satışı;

16.2.4. iqtisadi və ya texnoloji əsaslar olmadan uyğun ödəniş müqabilində məhsulun təqdim edilməsindən, əqli mülkiyyət hüquqlarından istifadədən, yaxud şəbəkədən (ümumi istifadə üçün yaradılmış hər hansı bir sistemdən) birgə istifadə mümkün olduqda ona çıxış imkanının yaradılmasından imtina edilməsi;

16.2.5. hökmran mövqedə olan təsərrüfat subyekti tərəfindən digər təsərrüfat subyektlərinin ona üstünlük verməyə məcbur edilməsi və ya hər hansı məhsulu onun rəqiblərindən deyil, yalnız ondan almağa sövq edilməsi;

16.2.6. iqtisadi və ya texnoloji əsaslar olmadan satıcı və ya müştəri ilə bağlanılmış müqavilələrə xitam verilməsi, yaxud məhsulun təqdim edilməsi mümkün olduğu təqdirdə və qanundan irəli gələn hallar istisna olmaqla müqavilənin bağlanılmasından imtina edilməsi;

16.2.7. müvafiq bazarda rəqabətin məhdudlaşdırılması ilə nəticələnən aşağı qiymətlərin, yaxud rəqiblərə davamlı olaraq rentabelli fəaliyyət göstərməyə imkan verməyən qiymətlərin tətbiq edilməsi (bu maddə hasilat və ya topdansatış bazarında hökmran mövqedə olan təsərrüfat subyekti tərəfindən yuxarı qiymətlər tətbiq edilməklə həmin məhsulu ondan alan və emal və ya pərakəndə bazarında onunla rəqabət aparan təsərrüfat subyektlərinin fəaliyyətini məhdudlaşdıran davranışa da tətbiq edilir);

16.2.8. fiziki və mənəvi köhnəlmiş mallar, istifadədən çıxarılmış əsas və dövriyyə vəsaitləri istisna olmaqla, iqtisadi və ya texnoloji əsaslar olmadan məhsulun maya dəyərindən aşağı qiymətə satılması;

16.2.9. iqtisadi cəhətdən mümkün və əlverişli olmasına baxmayaraq, rəqibin mühüm əhəmiyyətli resursdan istifadə etmək imkanından məhrum edilməsi;

16.2.10. tələbat olan və bazarda qıtlığı müşahidə edilən xammalın, materialın və ya yarımfabrikatların hökmran mövqe tutan təsərrüfat subyekti tərəfindən onun istehsal və ya istehlak tələblərindən artıq həcmdə, yəni bazara təsir edən həcmdə alınması;

16.2.11. hökmran mövqedə olan təsərrüfat subyektinə rəqib olmayan, lakin bir-biri ilə rəqib olan təsərrüfat subyektləri ilə bağlanılan eyni növ müqavilələrə obyektiv əsaslar olmadan fərqli şərtlərin (ayrı-seçkilik hallarının) tətbiqi ilə onların rəqabətdə əlverişsiz vəziyyətə salınması;

16.2.12. bu Məcəllənin 16.2.11-ci maddəsində nəzərdə tutulmuş hallarda eyni məhsulun alıcılarına münasibətdə aşağıdakılardan birinə gətirib çıxaran qiymət ayrı-seçkiliyinə yol verilməsi:

16.2.12.1. rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına;

16.2.12.2. eyni növ və eyni keyfiyyətli məhsul oxşar məzmunlu müqavilələr vasitəsilə müxtəlif alıcılara satıldıqda, qiymət və (və ya) satış ilə bağlı şərtlərin (hər hansı güzəşt, kompensasiya, kredit və ya ödəniş şərtlərinin) həmin alıcılar arasında ayrı-seçkilik yaratmasına.

16.3. Bu Məcəllənin 16.2.12-ci maddəsində qeyd olunan qiymət ayrı-seçkiliyi aşağıdakı hallarda hökmran mövqedən sui-istifadə hesab edilmir:

16.3.1. istehsal, satış, təchizat, marketinq və çatdırılmanın qiymətində güzəştlərin tətbiqi nəticəsində yaranan qiymət fərqinin məhsulun həcmi, çatdırılma üsulu və yerinin müxtəlifliyi ilə əsaslandırılması;

16.3.2. rəqibin təklif etdiyi qiymətlə və ya güzəştlə əlaqədar yaranan fərqi ödəmək üçün tədbirlər görülməsi;

16.3.3. tez xarab olan malların istehlak müddəti bitənədək satılması (təqdim edilməsi) məqsədilə tədbirlər görülməsi;

16.3.4. fiziki və ya mənəvi köhnələn malların tələbatdan çıxmadan satılması (təqdim edilməsi) məqsədilə tədbirlər görülməsi;

16.3.5. məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müsadirə, hərrac, ləğv olunma, müflis elan edilmə və digər hallarla bağlı satışın həyata keçirilməsi;

16.3.6. müştərilərə ödəniş tarixçəsi və müqavilə xərclərindən asılı olaraq fərqli qiymətə satışın həyata keçirilməsi.

16.4. Hökmran mövqedən sui-istifadə edən təsərrüfat subyektinə öz hərəkətlərinin obyektiv zəruriliyini (təhlükəsizlik, istehlakçıların sağlamlığının qorunması, ictimai asayiş və digər) və ya səmərəliliyini sübut etmək imkanı yaradılır. Rəqabət orqanı həmin təsərrüfat subyektinin əsaslandırmasını bu Məcəllənin 16.5-ci maddəsinə uyğun olaraq qənaətbəxş hesab etdikdə bu Məcəllənin 16.1-ci maddəsi ona tətbiq edilmir.

16.5. Bu Məcəllənin 16.4-cü maddəsində nəzərdə tutulmuş obyektiv zərurilik araşdırılarkən sui-istifadənin bu Məcəllənin 16.6.2-ci maddəsində nəzərdə tutulan məqsədəuyğunluğu rəqabət orqanı tərəfindən nəzərə alınır.

16.6. Bu Məcəllənin 16.4-cü maddəsində nəzərdə tutulmuş səmərəlilik əsasları aşağıdakı şərtlərə cavab verməlidir:

16.6.1. davranışın rəqabətdə texniki inkişaf, iqtisadi səmərəlilik, istehsal və təchizat xərclərində azalma (itkiyə yol verərək və ya mənfəət əldə etmədən təsərrüfat subyektinin qiymət manipulyasiyası istisna edilir) və ya digər rəqabətdəstəkləyici nəticələr yaratması;

16.6.2. davranışın bu nəticələrə nail olunmasında yeganə seçim olması və ya rəqabəti daha az məhdudlaşdıran alternativin olmaması;

16.6.3. rəqabəti dəstəkləyən nəticələrin rəqabətin məhdudlaşdırılmasının mənfi nəticələrindən üstün olması.

16.7. Hökmran mövqedən sui-istifadənin obyektiv zəruriliyinin və səmərəliliyinin qiymətləndirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

16.8. Bu Məcəllənin 16.2.7-ci maddəsində nəzərdə tutulmuş hallarda rəqabət orqanı eyni bazarda fəaliyyət göstərən rəqiblərin müqayisə oluna bilən xərclərini və satış qiymətlərini, yaxud digər müqayisə oluna bilən məlumatlarını əsas götürməklə, hökmran mövqedə olan təsərrüfat subyektinin ümumi xərclərini qarşılaya bilmədiyini, itkiyə yol verdiyini və ya öz mənfəətindən müəyyən müddət üçün imtina etdiyini, rəqiblərin isə öz müştərilərinə itkilərə yol vermədən xidmət göstərə bilmədiyini müəyyən edərsə, bu hökmran mövqedən sui-istifadə halının sübutu kimi qəbul edilir.

16.9. Bu Məcəllənin 16.2.6-cı maddəsində qeyd olunan hallar faktiki imtina ilə yanaşı, həmçinin dolayı imtina hallarına (məsələn müqavilə qiymətinin ağlabatan olmayan dərəcədə artırılması, məhsulun verilməsinin əsassız olaraq gecikdirilməsi və digər) da tətbiq olunur.

**Maddə 17. Aşağı və yüksək inhisar qiymətləri**

17.1. Qiymətin aşağı və ya yüksək inhisar qiyməti hesab edilməsinin meyarları aşağıdakılardır:

17.1.1. məhsulun qiymətinin hökmran mövqe tutmayan və həmin məhsulun qiymətini müəyyən edən təsərrüfat subyektləri ilə eyni şəxslər qrupuna aid olmayan alıcıların və satıcıların məhsullarının müvafiq bazarda və ya müqayisə edilə bilən rəqabətli bazarda formalaşan qiymətindən aşağı və ya yüksək olması;

17.1.2. məhsulun istehsalı və satışı üçün zəruri olan xərclərin dəyişməz qalması və ya həmin xərclərdəki dəyişikliyin məhsulun qiymətindəki dəyişikliyə münasibətdə qeyri-mütənasib olması;

17.1.3. bazarda əmtəənin qiymətini müəyyən edən ümumi şərtlər (dövlət tənzimləməsi, o cümlədən gömrük rüsumları, vergitutma və tariflər) dəyişmədiyi halda, əmtəənin qiymətinin hökmran mövqe tutmuş təsərrüfat subyektləri tərəfindən əsassız azaldılması (hökmran mövqedə olan təsərrüfat subyektinin aşağı qiymətlər tətbiq etməklə müəyyən müddət ərzində mənfəət əldə etməməsi və ya itki verməsi rəqabət orqanı tərəfindən sübut edilməlidir) və ya artırılması.

17.2. Bu Məcəllənin 17.1-ci maddəsində qeyd edilən meyarlar hamısı birlikdə qiymətləndirilir və hər hansı biri olmadıqda məhsulun qiyməti aşağı və ya yüksək inhisar qiyməti hesab edilə bilməz.

17.3. Müvafiq bazarda qiyməti müqayisə etmək mümkün olmadıqda, məhsulun müqayisə edilə bilən rəqabətli bazardakı, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənardakı qiyməti ilə müqayisə aparılır.

17.4. Müqayisə edilə bilən rəqabətli bazarda, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənardakı rəqabət şəraitində formalaşmış qiyməti müəyyən etmək mümkün olmadıqda, bazar subyektinin xərclərinin və gəlirlərinin təhlili əsasında qiymət müəyyən edilir.

**Maddə 18. Nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektləri tərəfindən sui-istifadə hərəkətləri**

18.1. Bir təsərrüfat subyektinin bazar payının 35 faizdən aşağı olmasına baxmayaraq, rəqabəti əhəmiyyətli dərəcədə məhdudlaşdırmaq və ya bu Məcəllənin 15.4-cü maddəsinə əsasən ona təsir etmək imkanı təsdiq olunarsa, həmin təsərrüfat subyekti nisbətən yüksək bazar gücünə malik hesab edilir.

18.2. Mikro, kiçik və orta sahibkarlıq subyektləri mütəmadi olaraq nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektinə bazarın ümumi şərtlərindən fərqli və özü üçün daha əlverişsiz şərtlərlə məhsulu satmağa və ya ondan almağa məcbur olduqda, habelə alternativ alıcılar və ya satıcılarla əlaqə yaratmaq imkanı məhdud olduqda, mikro, kiçik və orta sahibkarlıq subyektləri həmin təsərrüfat subyektindən asılı hesab edilir.

18.3. Nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektinin aşağıdakı hərəkətləri sui-istifadə halları hesab olunmaqla qadağan edilir:

18.3.1. nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektlərindən asılı olan mikro, kiçik və orta sahibkarlıq subyektləri digər təsərrüfat subyektlərinin xidmətlərindən istifadə etmək üçün heç bir imkana malik olmadıqda və ya məhdud imkana malik olduqda, bu Məcəllənin 16.2.1-ci və 16.2.5-ci maddələrində qeyd edilən hərəkətlərə yol verməsi;

18.3.2. nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektlərindən asılı olan mikro, kiçik və orta sahibkarlıq subyektləri ilə rəqib olduğu müvafiq bazarda müəyyən dövr ərzində maya dəyərinə bərabər və ya ondan aşağı qiymətə məhsulu təklif etməsi və ya satması;

18.3.3. müvafiq bazarda rəqibləri olan mikro, kiçik və orta sahibkarlıq subyektlərindən iqtisadi əsas olmadan özünün təklif etdiyi qiymətdən daha yüksək qiymətə məhsulun satılmasını tələb etməsi;

18.3.4. nisbətən yüksək bazar gücünə malik təsərrüfat subyektlərindən asılı olan mikro, kiçik və orta sahibkarlıq subyektləri ilə müqavilələrdə əsassız birtərəfli üstünlüklərin nəzərdə tutulması.

## 6-cı fəsil
## HAQSIZ RƏQABƏT

**Maddə 19. Haqsız rəqabətin formaları**

19.1. Haqsız rəqabətin formaları aşağıdakılardır:

19.1.1. müştərilərə qarşı aqressiv davranış;

19.1.2. rəqib təsərrüfat subyektinin nüfuzdan salınması;

19.1.3. rəqibin sahibkarlıq fəaliyyətinin təqlidi;

19.1.4. müştərilərin çaşdırılması və aldadılması;

19.1.5. kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması;

19.1.6. bu Məcəllənin 25-ci maddəsində nəzərdə tutulan haqsız rəqabətə səbəb olan digər hərəkətlər.

19.2. Bu Məcəllənin 19.1-ci maddəsində qeyd olunan formalarda haqsız rəqabətin aparılması qadağandır.

**Maddə 20. Müştərilərə qarşı aqressiv davranış**

Sahibkarlıq fəaliyyətində təhdid, zor və ya digər qanunsuz təsir vasitələrinin tətbiqi ilə müştərilərin seçim hüququnun məhdudlaşdırılmasına və bununla da onların normal bazar şəraitində qəbul edəcəyi qərarlardan fərqli qərar qəbul etməsinə səbəb olan hərəkətlərə yol verilmir.

**Maddə 21. Rəqib təsərrüfat subyektinin nüfuzdan salınması**

21.1. Aşağıdakılar rəqib təsərrüfat subyektini nüfuzdan salan hərəkətlər hesab edilir:

21.1.1. rəqibin işgüzar nüfuzu və ya maliyyə vəziyyəti haqqında və ya rəqibin elmi-texniki və istehsal imkanları haqqında yalan və ya təhrif olunmuş məlumatların yayılması, yaxud belə məlumatların yayılmasının təşkili, habelə rəqibin məhsulundan imtina etməyə əsassız çağırışların edilməsi (boykot edilməsi);

21.1.2. rəqibin təklif etdiyi məhsulun, habelə istifadə etdiyi xammal və ya materialların mənşəyi, texnologiyası, xassələri, keyfiyyəti və təhlükəsizliyi haqqında yalan və ya təhrif olunmuş məlumatların yayılması, yaxud belə məlumatların yayılmasının təşkili, habelə rəqibin əmtəəsindən imtina etməyə əsassız çağırışların edilməsi (boykot edilməsi).

**Maddə 22. Rəqibin sahibkarlıq fəaliyyətinin təqlidi**

22.1. Aşağıdakılar rəqibin sahibkarlıq fəaliyyətini təqlid edən hərəkətlər hesab edilir:

22.1.1. məhsulun texniki xassələrindən irəli gələn xarici görünüşü istisna olmaqla, rəqibin məhsulunun və onun formasının, o cümlədən malın xarici tərtibatının və ya qablaşdırılmasının onunla razılaşdırmadan təqlid edilməsi;

22.1.2. rəqibin əqli mülkiyyət hüquqlarını pozmaq yolu ilə onun məhsulunun bilavasitə təkrarlanması;

22.1.3. rəqibin adından və ya firma adından (eyni adlı təsərrüfat subyektinin öz adından hər hansı fərqləndirici nişanla firma adı kimi istifadə halları istisna olmaqla), habelə onun əmtəə nişanından qanunsuz istifadə edilməsi;

22.1.4. rəqibin internet domeninin adından, habelə rəqiblə eynilik və ya istifadəçiləri çaşdıracaq dərəcədə oxşarlıq təşkil edən internet səhifəsinin dizaynından onunla razılaşdırılmadan istifadə edilməsi;

22.1.5. rəqibin qanuna uyğun istifadə etdiyi coğrafi göstəricisindən qanunsuz istifadə edilməsi.

**Maddə 23. Müştərilərin çaşdırılması və aldadılması**

23.1. Aşağıdakılar müştəriləri çaşdırmağa, yaxud aldatmağa yönəldilmiş hərəkətlər hesab edilir:

23.1.1. məhsulun mənşəyi, hazırlanma üsulu və texnologiyası, istifadə üçün yararlılığı, keyfiyyəti, çəkisi, qiyməti və ya başqa xassələri, habelə təsərrüfat subyekti və ya onun sahibkarlıq fəaliyyətinin xüsusiyyəti barədə müştərini çaşdıra və ya aldada bilən hər hansı məlumatlardan istifadə olunması;

23.1.2. məhsulun satışı, yaxud danışıqlar zamanı müştərinin sərbəst seçim hüququna təsir göstərən qanunsuz reklam üsullarından istifadə olunması;

23.1.3. müştərini çaşdıra bilən tərzdə öz məhsulunun rəqibin məhsulu ilə müqayisə edilməsi, habelə bu müqayisənin reklam və ya media məhsulu kimi təqdim olunması;

23.1.4. məhsulun istehlak xassələri və digər mühüm xüsusiyyətləri barədə həqiqətə uyğun olmayan göstəricilərdən (o cümlədən fərqləndirici nişan, marka və ya işarələrdən) istifadə edilməsi və bununla əlaqədar reklamın verilməsi;

23.1.5. məhsulun standartlara və ya texniki reqlamentlərə uyğunluğu barədə yanlış məlumat verməklə (bəyan etməklə) təklif edilməsi, yaxud məhsulun öz təyinatına və ya ona qoyulan tələblərə uyğun olmadığının gizlədilməsi.

**Maddə 24. Kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və yayılması**

Azərbaycan Respublikasının normativ hüquqi aktları və ya rəqiblə bağlanılan kommersiya sirrinə dair münasibətləri tənzimləyən müqavilədə nəzərdə tutulan hallar istisna olmaqla, şəxsi maraq və ya üçüncü tərəflərin marağı üçün rəqibin maraqlarına ziyan vura və ya onun bazardakı rəqabət vəziyyətinə xələl gətirə bilən onun istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı məlumatların, habelə qanunla və ya müqavilə ilə kommersiya sirrinə aid edilən digər məlumatların qanunsuz əldə edilməsi, istifadə olunmasına və ya yayılmasına yol verilmir.

**Maddə 25. Haqsız rəqabətə səbəb olan digər hərəkətlər**

25.1. Aşağıdakılar haqsız rəqabətə səbəb olan qanunsuz hərəkətlər hesab edilir:

25.1.1. haqsız, qeyri-dəqiq və ya gizli reklamdan istifadə etməklə haqsız rəqabətə yol verilməsi;

25.1.2. Azərbaycan Respublikasının ərazisində qorunan əmtəə nişanları ilə təchiz edilmiş məhsulun bazar payının və ya süni yolla artırılmış qiymətlərinin saxlanılması məqsədilə həmin əmtəə nişanının sahibi olan təsərrüfat subyektləri tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda qeydiyyata alınmış eyni və ya oxşar əmtəə nişanı ilə təchiz edilmiş məhsulun rəqib təsərrüfat subyektləri tərəfindən idxalının məhdudlaşdırılması;

25.1.3. rəqibin işgüzar münasibətlərinin pozulması və ya dayandırılmasına səbəb olan və ya ola bilən qanunsuz əqdlərin bağlanması və ya hərəkətlərin (hərəkətsizliyin) edilməsi;

25.1.4. öz xidməti vəzifələrini yerinə yetirməməyə sövq etmək və ya rəqibə digər formada zərər vurmaq məqsədilə rəqibin işçilərinə qanunsuz vasitələrlə təsir göstərilməsi;

25.1.5. rəqibin sahibkarlıq fəaliyyəti ilə bağlı qərarlarının qəbul edilməsinə və icrasına qanunsuz vasitələrlə təsir göstərilməsi;

25.1.6. bu Məcəllənin 19.2-ci maddəsi ilə qadağan edilmiş hərəkətlərin (hərəkətsizliyin) digər şəxslər tərəfindən törədilməsi məqsədilə ödənişlərin sifariş və ya təşkil edilməsi.

## 7-ci fəsil
## İQTİSADİ TƏMƏRKÜZLƏŞMƏLƏR

**Maddə 26. Təsərrüfat subyektlərinin təmərküzləşməsi**

26.1. Aşağıdakı hallar təmərküzləşmə hesab olunur:

26.1.1. iki və ya daha çox müstəqil təsərrüfat subyektinin, yaxud onların müəyyən hissələrinin (fəaliyyət sahələrinin) birləşməsi (o cümlədən hüquqi şəxslərin birləşməsi, qoşulması);

26.1.2. bir təsərrüfat subyekti tərəfindən birbaşa və ya dolayı yolla bir və ya daha çox təsərrüfat subyektinin, o cümlədən maliyyə institutlarının, onların müəyyən hissələrinin (səhmlərinin, paylarının, fəaliyyət sahələrinin) və ya hüquqlarının aşağıdakı qaydada əldə edilməsi:

26.1.2.1. əvvəllər səhmdar cəmiyyətin səhmlərinin mülkiyyətçisi olmayan və ya səsvermə hüququ verən səhmlərinin 25 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan səsvermə hüququ verən səhmlərinin 25 faizindən çox hissəsinə sərəncam hüququnun əldə edilməsi (bu tələb səhmdar cəmiyyəti yaradılarkən onun təsisçilərinə şamil edilmir);

26.1.2.2. əvvəllər səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin 25 faizindən çox, lakin 50 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan səsvermə hüququ verən səhmlərinin 50 faizindən çox hissəsinə sərəncam hüququnun əldə edilməsi;

26.1.2.3. əvvəllər səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin 50 faizindən çox, lakin 75 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan səsvermə hüququ verən səhmlərinin 75 faizindən çox hissəsinə sərəncam hüququnun əldə edilməsi;

26.1.2.4. əvvəllər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalında payı olmayan və ya payların 25 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan nizamnamə kapitalındakı payların üçdə birinə və ya daha çox hissəsinə sərəncam hüququnun əldə edilməsi (bu tələb məhdud məsuliyyətli cəmiyyət yaradılarkən onun təsisçilərinə şamil edilmir);

26.1.2.5. əvvəllər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı payların 25 faizindən çox, lakin 50 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan nizamnamə kapitalındakı payların 50 faizdən çox hissəsinə sərəncam hüququnun əldə edilməsi;

26.1.2.6. əvvəllər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı payların 50 faizdən çox, lakin 75 faizinədək hissəsinə sərəncam hüququ olan təsərrüfat subyekti tərəfindən sonradan nizamnamə kapitalındakı payların 75 faizindən çox hissəsinə sərəncam hüququnun əldə edilməsi;

26.1.2.7. bir təsərrüfat subyektinin (maliyyə institutları istisna olmaqla) mülkiyyətində və ya istifadəsində olan əsas vəsaitlərin, o cümlədən əsas istehsal vasitələrinin və qeyri-maddi aktivlərin balans dəyərinin 20 faizindən çox olan hissəsinin digər təsərrüfat subyektinin mülkiyyətinə verilməsi;

26.1.2.8. bu Məcəllənin 26.1.2.7-ci maddəsində qeyd olunan əsas vəsaitlər, o cümlədən əsas istehsal vasitələri və qeyri-maddi aktivlər üzrə istifadə və ya lizinq hüququ, yaxud biznes əməliyyatları və resurslarının idarə olunması hüququ, habelə təsərrüfat subyektlərinin qərarlarının qəbul edilməsinə həlledici təsir göstərmək hüququ verən müqavilənin 6 (altı) aydan çox müddətə və ya müddətsiz bağlanılması;

*Ardı 15-ci səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 14-cü səh.*

26.1.2.9. bir maliyyə institutunun aktivlərinin (pul vəsaitləri istisna olmaqla) bu Məcəllənin 27.2-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən olunmuş məbləğdən çox hissəsinin digər maliyyə institutu tərəfindən əldə edilməsi;

26.1.2.10. bir təsərrüfat subyektinin sahibkarlıq fəaliyyətini və ya onun icra orqanının funksiyalarını həyata keçirmək hüquqlarının (o cümlədən əmlakın etibarnamə, birgə fəaliyyət barəsində müqavilə və ya tapşırıq müqaviləsi əsasında idarə edilməsi hüquqlarının) digər təsərrüfat subyekti tərəfindən əldə edilməsi;

26.1.2.11. təsərrüfat subyekti tərəfindən xarici ölkədə qeydiyyatda olan eyni və ya əlaqəli fəaliyyət göstərən hüquqi şəxsin səsvermə hüququ verən səhmlərinin (paylarının) 50 faizindən çox hissəsinə sərəncam hüququnun, yaxud həmin hüquqi şəxsin sahibkarlıq fəaliyyətinin və ya icra orqanının funksiyalarının həyata keçirilməsi ilə bağlı digər hüquqların əldə edilməsi;

26.1.2.12. iki və ya daha çox təsərrüfat subyektinin icra orqanlarında, direktorlar şurasında (müşahidə şurasında) və ya digər idarəetmə orqanlarında bu təsərrüfat subyektlərinin bazardakı davranışlarını müəyyən etmək imkanına malik olan şəxslərin iştirak etməsi;

26.1.3. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə birgə nəzarət olunan, yaxud fəaliyyəti və idarəedilməsi təsisçilərin birgə qərarı əsasında həyata keçirilən yeni birgə təsərrüfat subyektinin yaradılması.

26.2. Maliyyə institutları tərəfindən səsvermə hüququndan istifadə etməmək şərtilə və aldığı tarixdən 1 (bir) il ərzində təkrar satış məqsədilə hər hansı təsərrüfat subyektinin səhmlərinin (paylarının) əldə edilməsi təmərküzləşmə hesab edilmir. Səhmlərin (payların) satışı 1 (bir) il ərzində mümkün olmadıqda, maliyyə institutunun əsaslandırılmış müraciəti əsasında bu müddət rəqabət orqanı tərəfindən 1 (bir) ilədək uzadıla bilər. Səhmlər (paylar) üzrə səsvermə hüququndan bu maddədə qeyd olunan müddətdə yalnız təsərrüfat subyektinin icra orqanının və ya direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin seçilməsi üçün istifadə edilə bilər.

26.3. İflas prosesi ilə bağlı təsərrüfat subyektinin idarə edilməsi hüququnun ləğvetmə komissiyasına (əmlak inzibatçısına, ləğvediciyə) verilməsi təmərküzləşmə hesab edilmir.

26.4. Bu Məcəllədən başqa hal irəli gəlmirsə şəxslər qrupuna daxil olan şəxslər arasındakı əməliyyatlar təmərküzləşmə hesab edilmir. Şəxslər qrupuna daxil olan şəxslər belə təmərküzləşmə baş verdikdən sonra 7 (yeddi) iş günü ərzində rəqabət orqanına bu barədə məlumat verirlər.

**Maddə 27. Razılıq alınması tələb olunan təmərküzləşmələr**

27.1. Təmərküzləşmədə iştirak edən təsərrüfat subyektləri aşağıdakı hallardan azı biri olduqda, bu Məcəllənin 27.2-ci maddəsi nəzərə alınmaqla rəqabət orqanına razılıq alınması üçün müraciət edir:

27.1.1. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərindən biri müvafiq bazarda hökmran mövqe tutduqda;

27.1.2. maliyyə institutları tərəfindən səhmlərin (payların) bu Məcəllənin 26.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla təkrar satışı mümkün olmadıqda;

27.1.3. müvafiq bazarda təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərindən birinin və ya təmərküzləşmədən sonra yaranacaq təsərrüfat subyektinin ümumi dövriyyəsi 25 milyon manatdan artıq olduqda;

27.1.4. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin sonuncu hesabat ilində ölkə daxilində və ölkə xaricində ümumi dövriyyəsi 35 milyon manatdan çox olduqda;

27.1.5. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərindən birinin sonuncu hesabat ilində ölkə daxilində dövriyyəsi 15 milyon manatdan çox, digərinin (digərlərinin) isə sonuncu hesabat ilində ölkə daxilində ümumi dövriyyəsi 5 milyon manatdan çox olduqda;

27.1.6. təmərküzləşmədə iştirak edən bütün təsərrüfat subyektlərinin sonuncu hesabat ilində ümumi dövriyyəsi bu Məcəllənin 27.1.4-cü və 27.1.5-ci maddələri ilə müəyyən edilmiş məbləğlərdən az olduğu hallarda, təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin sonuncu hesabat ilində ümumi dövriyyəsi müvafiq bazarın ümumi dövriyyəsinin 20 faizindən çox olduqda.

27.2. Maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarlar (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyəri, ümumi dövriyyəsinin həcmi) rəqabət orqanı ilə razılaşdırmaqla Mərkəzi Bankın təklifi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

27.3. Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

27.4. Bazar payının müəyyən edilməsi üçün təsərrüfat subyekti rəqabət orqanına müraciət edə bilər.

**Maddə 28. Təmərküzləşmələrin qiymətləndirilməsi**

28.1. Bu Məcəllənin 27-ci maddəsinə əsasən razılıq tələb olunan təmərküzləşmələr onların növbəti 3 (üç) il ərzində bazarın strukturuna, habelə rəqabətin qorunması və inkişafına təsirlərinin müəyyən edilməsi məqsədilə rəqabət orqanı tərəfindən qiymətləndirilir. Qiymətləndirmə təmərküzləşmədə iştirak edən bütün təsərrüfat subyektlərinin bazar payı və bu Məcəllənin 15.4-cü və 15.5-ci maddələrində qeyd olunan digər hallar üzrə araşdırmaların nəticələri nəzərə alınmaqla bu Məcəllənin 28.6-cı maddəsində qeyd olunan qaydalara uyğun olaraq həyata keçirilir.

28.2. Bu Məcəllənin 28.6-cı maddəsində qeyd olunan qaydalara uyğun olaraq ölkənin bütün ərazisində və ya onun bir hissəsində müvafiq bazarda, yaxud ölkə daxili digər bazarlarda rəqabəti məhdudlaşdıran (və ya məhdudlaşdıra bilən), hökmran mövqenin yaradılması və ya gücləndirilməsi ilə nəticələnən (və ya nəticələnə bilən) təmərküzləşmələr qadağan edilir.

28.3. Bu Məcəllənin 28.6-cı maddəsində qeyd olunan qaydalara uyğun olaraq rəqabət orqanı təmərküzləşmənin müvafiq texnoloji, səmərələşdirici və ya digər rəqabətdəstəkləyici nəticələrinin həmin bazarda rəqabəti məhdudlaşdırma təsirindən üstün olmasını, istehlakçıların mənafeyinə ziyan vurmadığını və bu nəticələrin başqa üsullarla əldə edilməsi imkanının olmadığını müəyyən etdikdə təmərküzləşməyə razılıq verir.

28.4. Təmərküzləşmə öz müstəqilliyini saxlayan təsərrüfat subyektlərinin bazar davranışlarını əlaqələndirmək məqsədilə təşkil etdikləri birgə təsərrüfat subyektləri, birgə fəaliyyət barəsində müqavilə və ya tapşırıq müqaviləsi formasında baş verdikdə, belə əlaqələndirmə bu Məcəllənin 11-15-ci maddələri ilə müəyyən edilən meyarlar və bu Məcəllənin 28.6-cı maddəsində qeyd edilən qaydalar əsasında aşağıdakılar nəzərə alınmaqla qiymətləndirilir:

28.4.1. iki və daha çox təsərrüfat subyektinin təsis etdiyi birgə müəssisə eyni bazarda, yaxud birgə müəssisənin xammal aldığı bazarda və ya pərakəndə istehlak bazarında, habelə həmin bazarlarla əlaqəli olan qonşu bazarlarda öz fəaliyyətini əhəmiyyətli dərəcədə saxlaması;

28.4.2. bazar davranışlarının əlaqələndirilməsinin aidiyyəti təsərrüfat subyektlərinə məhsulun əhəmiyyətli hissəsinin istehsalı və satışı sahəsində rəqabətin məhdudlaşdırılmasına şərait yaratması.

28.5. Qarşılıqlı olaraq əlaqəli olan, əldə olunmuş razılığın qüvvədə olduğu müddətdə bir-biri ilə fəaliyyət sahəsinə, maliyyələşmə mənbəyinə, təklif olunan məhsula, satış bazarlarına görə bağlı olan iki və daha çox təmərküzləşmə halı vahid təmərküzləşmə kimi qiymətləndirilir.

28.6. Rəqabət orqanı tərəfindən təmərküzləşmələrin qiymətləndirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 29. Dövriyyənin hesablanması**

29.1. Payların (səhmlərin) satıcısı qismində çıxış edən təsərrüfat subyektlərinin bu Məcəllənin 27.1.3-27.1.6-cı maddələrində nəzərdə tutulan dövriyyələri satılan paylara (səhmlərə) mütənasib hesablanır.

29.2. Maliyyə institutlarında ümumi dövriyyənin hesablanması qaydası bu Məcəllənin 27.2-ci maddəsinin tələblərinə uyğun müəyyən edilir.

29.3. Təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin ümumi dövriyyəsi aşağıdakı təsərrüfat subyektlərinin dövriyyələrinin cəmindən ibarətdir:

29.3.1. təmərküzləşmədə iştirak edən əsas təsərrüfat subyektləri;

29.3.2. təmərküzləşmədə iştirak edən əsas təsərrüfat subyektlərinin həlledici nəzarətində olan təsərrüfat subyektləri;

29.3.3. təmərküzləşmə başa çatdıqdan sonra təmərküzləşmədə iştirak edən əsas təsərrüfat subyektlərinə həlledici nəzarət edəcək təsərrüfat subyektləri;

29.3.4. bu Məcəllənin 29.3.3-cü maddəsində qeyd olunan əsas təsərrüfat subyektlərinə nəzarət edən təsərrüfat subyektləri tərəfindən həlledici nəzarət olunan və təmərküzləşmədə iştirak etməyən digər təsərrüfat subyektləri;

29.3.5. bu Məcəllənin 29.3.1-29.3.4-cü maddələrində qeyd olunan 2 (iki) və ya daha çox təsərrüfat subyektinin birgə həlledici nəzarət etdiyi təsərrüfat subyektləri.

29.4. Bu Məcəllənin 29.3.1-29.3.4-cü maddələrində əsas təsərrüfat subyekti deyildikdə həlledici nəzarəti həyata keçirən təsərrüfat subyektləri nəzərdə tutulur.

29.5. Təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin ümumi dövriyyəsinə onların öz arasındakı dövriyyə və bu Məcəllənin 29.3.2-29.3.5-ci maddələrində qeyd olunan təsərrüfat subyektləri arasındakı dövriyyə daxil edilmir.

29.6. Dövriyyə maliyyə sanksiyalarının hesablanması üçün əsas kimi götürüldükdə, müvafiq təsərrüfat subyektlərinin bu Məcəllənin 77-ci maddəsinə əsasən daşıdıqları məsuliyyəti onların iştirak paylarına mütənasib şəkildə müəyyən edilir.

29.7. Rəqabət orqanı təsərrüfat subyektlərinin dövriyyəsi barədə məlumatların təqdim edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər. Müraciətdə tələb olunan məlumatlar 3 (üç) iş günü müddətində rəqabət orqanına təqdim edilir.

**Maddə 30. Təmərküzləşmə haqqında ərizənin təqdim edilməsi**

30.1. Bu Məcəllənin 27-ci maddəsində qeyd olunan hallardan azı biri olduqda, təmərküzləşmə həyata keçirilməzdən əvvəl, lakin hansının daha əvvəl baş verməsindən asılı olaraq, təmərküzləşmə barədə müqavilə bağlanıldıqdan, qərar qəbul edildikdən, təklif elan edildikdən, səhmlərin (payların) alınması üçün təklif vermək niyyəti açıqlandıqdan, habelə tərəflər arasında təmərküzləşmə barədə digər formada razılıqlar əldə edildikdən sonra 30 (otuz) gün müddətində təmərküzləşməyə razılıq alınması üçün ərizə ilə rəqabət orqanına müraciət edilir. Dövlət satınalmaları, hərrac və digər müsabiqələrdə iştirak zamanı ərizənin verilməsi müddəti qalib elan olunduqdan sonra hesablanır.

30.2. Bu Məcəllənin 30.1-ci maddəsində nəzərdə tutulan ərizənin formasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

30.3.Ərizə təmərküzləşmədə iştirak edən təsərrüfat subyektləri və ya birgə nəzarəti əldə edən təsərrüfat subyektləri tərəfindən, yaxud bir və ya daha çox təsərrüfat subyektinin müəyyən hissələri (səhmləri, payları, fəaliyyət sahələri) üzərində nəzarəti əldə edən təsərrüfat subyekti tərəfindən təqdim edilir. Təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin hər biri ayrılıqda ərizənin verilməməsinə görə məsuliyyət daşıyır.

30.4. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsi nəzərə alınmaqla ərizəyə aşağıdakılar əlavə olunur:

30.4.1. təmərküzləşmə barədə müqavilənin, qərarın və ya təmərküzləşməyə əsas verən digər sənədlərin notarial qaydada və ya təsərrüfat subyektinin möhürü olduğu təqdirdə möhürlə təsdiq edilmiş surəti (bütün əlavələrlə birlikdə);

30.4.2. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin son 2 (iki) il ərzindəki əsas fəaliyyət növləri, dövriyyələri (naturada və ya pul ifadəsində) və bazar payları haqqında məlumatlar;

30.4.3. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin son 2 (iki) il ərzindəki vergi və dövlət statistika orqanlarına dövriyyənin həcmi barədə (naturada və ya pul ifadəsində) təqdim etdikləri hesabatların surəti;

30.4.4. təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinin təsis sənədlərinin surəti;

30.4.5. təsisçilər və bu Məcəllənin 29.3.2-29.3.5-ci maddələrində qeyd olunan digər təsərrüfat subyektləri barədə bu Məcəllənin 30.4.2-30.4.4-cü maddələrində qeyd olunan məlumatlar;

30.4.6. səhmdar cəmiyyətlərin təmərküzləşməsi halında, səhmdarlara bu barədə əvvəlcədən məlumat verilməsi haqqında təsdiqedici sənəd;

30.4.7. təmərküzləşmədə iştirak edən təsərrüfat subyekti şəxslər qrupuna daxildirsə:

30.4.7.1. şəxslər qrupundakı hər bir təsərrüfat subyekti haqqında bu Məcəllənin 30.4.2-30.4.4-cü maddələrində göstərilən məlumatlar;

30.4.7.2. təsərrüfat subyekti ilə şəxslər qrupundakı hər bir təsərrüfat subyekti arasında sonuncu hesabat ilində dövriyyə (natural və ya dəyər ifadəsində) haqqında məlumat;

30.4.7.3. təsərrüfat subyekti ilə şəxslər qrupundakı hər bir təsərrüfat subyektinin asılılıq forması;

30.4.8. ərizənin araşdırılması üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.

30.5. Ərizə təqdim edən təsərrüfat subyekti təmərküzləşmənin bu Məcəllənin 28.3-cü maddəsində qeyd olunan nəticələrə (olduğu halda) səbəb olacağını hesab edirsə, bu barədə təsdiqedici məlumatları ərizəyə əlavə edir.

30.6. Bu Məcəllənin 27.1.3-27.1.6-cı maddələrində qeyd olunan dövriyyənin məbləği həmin maddələrdə göstərilən məbləğlərdən az, lakin həmin məbləğlərin 70 faizindən çox olduqda, təmərküzləşmədə iştirak edən təsərrüfat subyektləri təmərküzləşmə baş verdikdən sonra 30 (otuz) gün müddətində rəqabət orqanına yazılı məlumat verirlər.

**Maddə 31. Təmərküzləşmə haqqında ərizənin araşdırılması**

31.1. Rəqabət orqanı təmərküzləşmə haqqında ərizənin bu Məcəllənin 30.2- 30.4-cü maddələrinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə (ona əlavə edilmiş sənədlərdə) aradan qaldırılması mümkün olan və razılığın verilməsi üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin təqdim edildiyi gündən 10 (on) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə müraciət edən təsərrüfat subyektinə bildiriş təqdim edilir. Bütün çatışmazlıqlar müraciət edən təsərrüfat subyektinə eyni zamanda bildirilməlidir. Təsərrüfat subyekti çatışmazlıqları bildirişi aldığı gündən ən geci 10 (on) iş günü müddətində aradan qaldıraraq rəqabət orqanına yazılı məlumat təqdim edir.

31.2. Ərizə onun təqdim edildiyi gündən 30 (otuz) iş günü müddətində araşdırılır və nəticəsi üzrə rəqabət orqanı tərəfindən aşağıdakı əsaslandırılmış qərarlardan biri qəbul edilir:

31.2.1. ərizə bu Məcəllənin 27-ci maddəsinin tətbiqi dairəsinə aid olmadıqda, yaxud bu Məcəllənin 31.1-ci maddəsində qeyd edilən çatışmazlıqlar həmin maddədə nəzərdə tutulan müddətdə aradan qaldırılmadıqda - ərizənin baxılmamış saxlanılması barədə;

31.2.2. təmərküzləşmə müvafiq bazarda rəqabəti məhdudlaşdırmadıqda, yaxud bu Məcəllənin 28.3-cü maddəsində qeyd olunan hallarda - ərizənin təmin edilməsi və ya qismən təmin edilməsi (razılığın verilməsi) barədə;

31.2.3. bu Məcəllənin 28.2-ci maddəsində qeyd olunan hallarda, yaxud bu Məcəllənin 31.5-ci maddəsində qeyd edilən çatışmazlıqlar həmin maddədə nəzərdə tutulan müddətdə aradan qaldırılmadıqda - ərizənin təmin edilməsindən imtina barədə.

31.3. Rəqabət orqanının bu Məcəllənin 31.2-ci maddəsində qeyd olunan qərarları 3 (üç) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir.

31.4. Əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün bu Məcəllənin 31.2-ci maddəsində nəzərdə tutulmuş müddətdən daha artıq müddət tələb olunduğu hallarda, araşdırma müddəti rəqabət orqanının qərarı əsasında hər dəfə 30 (otuz) iş günü olmaqla 2 (iki) dəfə uzadıla bilər. Rəqabət orqanı tərəfindən müddətin uzadılması barədə məlumat 3 (üç) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir.

31.5. Araşdırma zamanı təmərküzləşmənin müvafiq bazarda rəqabəti məhdudlaşdırdığı, lakin bu məhdudlaşdırmanın araşdırma müddətində aradan qaldırılmasının mümkünlüyü müəyyən edildikdə, 3 (üç) iş günündən gec olmayaraq məhdudlaşdırmanın aradan qaldırılması barədə müraciət edən təsərrüfat subyektinə bildiriş təqdim edilir. Təsərrüfat subyekti çatışmazlıqları bildirişi aldığı gündən ən geci 15 (on beş) iş günü, görülməli tədbirlərin həcmi böyük olduqda isə müraciət edən təsərrüfat subyektinin vəsatəti əsasında ən geci 30 (otuz) iş günü müddətində aradan qaldıraraq rəqabət orqanına görülmüş işlərə dair yazılı məlumatı və müvafiq təsdiqedici sənədlərin surətini təqdim edir.

31.6. Bu Məcəllənin 31.1-ci və 31.5-ci maddələri ilə müəyyən edilmiş hallarda ərizənin araşdırılması ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırılması barədə təsərrüfat subyektinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

31.7. Bu Məcəllənin 31.1-ci və 31.5-ci maddələrində qeyd olunan çatışmazlıqlar sonradan aradan qaldırıldıqda, təmərküzləşmədə iştirak edən təsərrüfat subyektləri yenidən bu Məcəllə ilə müəyyən edilmiş qaydada ərizə ilə rəqabət orqanına müraciət edə bilərlər.

31.8. Ərizənin araşdırılmasına təsir edə biləcək hallar üzrə istintaq və ya məhkəmə araşdırması aparıldıqda, rəqabət orqanının qərarı ilə ərizənin araşdırılması ilə bağlı müddətin axımı dayandırılır. Müddət axımının dayandırılması barədə məlumat 3 (üç) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir.

31.9. İstintaq və ya məhkəmə araşdırmasının nəticəsinə dair qəbul edilmiş qərar nəzərə alınmaqla, ərizənin araşdırılmasıdavam etdirilir. Bu zaman təmərküzləşmədə iştirak edən şəxslər istintaq orqanının və ya məhkəmənin qərarının surətini, habelə bu qərar nəzərə alınmaqla yeni ərizə tərtib edilməli olduğu halda, həmin ərizəni rəqabət orqanına təqdim edirlər.

31.10. Rəqabət orqanı təmərküzləşmələrə dair razılığın verilməsi məqsədilə təmərküzləşmədə iştirak edən təsərrüfat subyektlərinə yalnız rəqabətin qorunması üçün bu sahəni tənzimləyən qanunlara uyğun əsaslandırılmış əlavə şərtlər müəyyən etmək hüququna malikdir.

31.11. Bu Məcəllənin 27-ci maddəsi ilə müəyyən edilmiş hallarda təmərküzləşmə razılıq əldə edilmədən həyata keçirildikdə və bu Məcəllənin 28.2-ci maddəsinə uyğun olaraq rəqabətin məhdudlaşdırılmasına səbəb olduqda və ya rəqabət orqanının bu Məcəllənin 31.10-cu maddəsinə əsasən əlavə şərtlərlə verdiyi razılığa zidd həyata keçirildikdə, rəqabət orqanı təmərküzləşmənin ləğv edilməsi üçün məhkəməyə müraciət edir.

31.12. Ərizənin araşdırılması məqsədilə rəqabət orqanı əsaslandırılmış sorğu ilə təsərrüfat subyektindən işin həlli üçün zəruri olan əlavə məlumat tələb edə bilər.

31.13. Ərizənin araşdırılması müddətində rəqabət orqanı tərəfindən qərar qəbul edilmədikdə, təmərküzləşməyə dair razılıq verilmiş hesab olunur.

31.14. Rəqabət orqanı təqdim edilmiş ərizələrin araşdırılma nəticələrinə dair məlumatları özünün rəsmi internet səhifəsində dərc edir.

**Maddə 32. Təmərküzləşmələrin araşdırılması ilə əlaqədar ödənişlər**

32.1. Təmərküzləşmələrlə bağlı ərizələrin araşdırılması üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

32.2. Ərizə bu Məcəllənin 27-ci maddəsinin tətbiqi dairəsinə aid olmadığı üçün ərizənin baxılmamış saxlanılması barədə qərar qəbul edildikdə, ödənilmiş dövlət rüsumu "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq geri qaytarılır.

## 8-ci fəsil
## DÖVLƏT ORQANLARI (QURUMLARI), YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI, HABELƏ TƏNZİMLƏYİCİ QURUMLAR TƏRƏFİNDƏN RƏQABƏT QANUNVERİCİLİYİNƏ ƏMƏL EDİLMƏSİ

**Maddə 33. Dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, habelə tənzimləyici qurumların rəqabət qanunvericiliyinə zidd olan hərəkətləri (hərəkətsizliyi)**

33.1. Dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, habelə tənzimləyici qurumların normativ hüquqi aktlarla müəyyən edilmiş əsaslar olmadan rəqabətin məhdudlaşdırılmasına səbəb olan (və ya səbəb ola bilən), eləcə də təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinə toxunan (və ya toxuna bilən) aşağıdakı hərəkətləri (hərəkətsizliyi) qadağan edilir:

33.1.1. dövlət və bələdiyyə mülkiyyətində olmayan təsərrüfat subyektlərinə məhsulun istehsalı və satışı üzrə, həmçinin müəyyən kateqoriya müştərilərin üstünlük verilməklə təchiz edilməsi və ya bəzi müqavilələrin bağlanmasına üstünlük verilməsi üzrə birbaşa və dolayı göstərişlərin və (və ya) məcburi dövlət sifarişlərinin verilməsi, eyni zamanda müştərilərə müəyyən kateqoriya məhsulun xüsusi bazar subyektlərindən alınmasına dair məhdudiyyətlərin qoyulması;

33.1.2. təsərrüfat subyektlərinin satdığı məhsulun qiymətləri üzərində nəzarətin həyata keçirilməsi;

33.1.3. öz struktur bölmələrinə və tabeliyində olan qurumlara rəqabətin məhdudlaşdırılmasına gətirib çıxara bilən səlahiyyətlərin verilməsi;

33.1.4. fəaliyyəti rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilən təsərrüfat subyektlərinin və idarəetmə orqanlarının yaradılması;

33.1.5. Azərbaycan Respublikasının ərazisində məhsulun hərəkətinə qadağaların (məhdudiyyətlərin) tətbiqi, kapital qoyuluşlarına, habelə iqtisadiyyatın müxtəlif sahələri arasında maliyyə vəsaitinin sərbəst hərəkətinə maneələrin yaradılması;

33.1.6. eyni sahədə fəaliyyət göstərən ayrı-ayrı təsərrüfat subyektlərinə rəqabətdə üstünlük verə biləcək güzəştli kreditlərin, subsidiyaların, vergi və digər ödənişlər üzrə güzəşt və azadolmaların verilməsi, dövlət və bələdiyyə mülkiyyətində olan vəsaitdən güzəştli şərtlərlə istifadə etmək imkanının yaradılması;

33.1.7. müəyyən məhsulunalışı, satışı, istehsalı, idxalı və ixracının, müəyyən sahibkarlıq fəaliyyət növü ilə məşğul olmanın, habelə yeni müəssisələrin, o cümlədən maliyyə institutlarının yaradılmasının qadağan edilməsi və ya məhdudlaşdırılması, eləcə də yeni texnologiyaların işlənilib hazırlanması ilə bağlı maneələrin yaradılması;

33.1.8. təsərrüfat subyektlərinin müstəqilliyinin, o cümlədən xarici iqtisadifəaliyyətinin məhdudlaşdırılması;

33.1.9. rəqabətin məhdudlaşdırılmasına yönəldiyi və müştərilərin mənafeyinə toxunduğu hallarda qiymətlərin yüksəldilməsi, aşağı salınması və ya bir səviyyədə saxlanılması məqsədilə məhsul, o cümlədən maliyyə xidmətləri bazarlarına əsassız müdaxilə edilməsi;

33.1.10. rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinə dempinqin tətbiqi üçün şərait yaradılması;

33.1.11. tələb və təklif sahəsində informasiya resursları üzərinə nəzarətin qoyulması və ya bəzi təsərrüfat subyektlərinə belə informasiya resurslarına üstün çıxış imkanının yaradılması;

33.1.12. dövlət satınalmaları sahəsində normativ hüquqi aktlara zidd olaraq müəyyən təsərrüfat subyekti üçün üstün şərait yaradılması;

33.1.13. yeni təsərrüfat subyektlərinin bazara daxil olmasına maneələrin yaradılması;

33.1.14. təsərrüfat subyektlərinin maddi ehtiyatlarla təchiz olunması üçün mərkəzləşdirilmiş qaydada təchizat kanallarının yaradılması;

33.1.15. qarşılıqlı əvəz oluna bilən məhsulların istehsalına, idxalına və ixracına nəzarətin həyata keçirilməsi;

33.1.16. az həcmdə gəlir əldə edən və ya zərərlə işləyən təsərrüfat subyektlərinə ictimai mənafe ilə bağlı olmayan, rəqabəti məhdudlaşdıran (məhdudlaşdıra bilən) güzəştlərin və əlverişli şərait yaradan üstünlüklərin verilməsi, yardım göstərilməsi;

33.1.17. müştərilərin sərbəst seçim hüququnu məhdudlaşdıran (məhdudlaşdıra bilən) qərarların qəbul edilməsi;

33.1.18. yerli özünüidarəetmə orqanlarının öz səlahiyyətlərindən, bələdiyyə mülkiyyətində olan obyektlərin, yerli büdcənin, həmçinin büdcədənkənar fondların vəsaitindən ayrı-ayrı təsərrüfat subyektlərinə üstünlük yaratmaq məqsədilə istifadə etməsi;

33.1.19. rəqabətin məhdudlaşdırılmasına səbəb olan (ola bilən) digər qanunsuz hərəkətlər (hərəkətsizlik).

33.2. Rəqabət orqanı bu Məcəllənin 33.1-ci maddəsində qeyd olunan qanunsuz hərəkətlərin (hərəkətsizliyin) əlamətlərini müəyyən etdikdə, onların qarşısının alınması, aradan qaldırılması, habelə tənzimləyici qurumlar tərəfindən həyata keçirilən tənzimləmə tədbirlərinin rəqabət qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsi məqsədilə bu Məcəllənin 10-12-ci fəsilləri ilə müəyyən edilmiş tədbirləri görür.

33.3. Rəqabətin mövcud olmadığı, yaxud əhəmiyyətli dərəcədə məhdudlaşdırıldığı sahələrdə, yaxud sosial xarakterli fövqəladə mühit rejimindəyüksək qiymət tətbiqinin qarşısını almaq məqsədilə müvafiq məhsulların satış qiymətini müəyyən etmək üçün dövlət orqanları (qurumları), habelə tənzimləyici qurumlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təkliflər verilə bilər. Həmin təkliflər əsasında müvafiq tədbirlər görüldükdə belə tədbirlər müvafiq şəraitin mövcud olduğu dövr üçün yalnız konkret müddət göstərilməklə tətbiq olunur.

33.4. Bu Məcəllənin 33.3-cü maddəsinə uyğun olaraq görülən tədbirlər bu Məcəllənin tələblərinin pozulması kimi qəbul edilmir. Həmin maddə çərçivəsində hər hansı təklifin verilməsindən əvvəl təklif olunan tədbirin rəqabətin məhdudlaşdırılmasına təsirlərini qiymətləndirmək məqsədilə rəqabət orqanının məşvərətçi rəyi alınır.

**Maddə 34. Subsidiyaların və tənzimləmə fəaliyyətlərinin rəqabətə təsirlərinin qiymətləndirilməsi**

34.1. Rəqabət orqanı dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən iqtisadiyyatın müəyyən sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiya və digər dövlət yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə təsirini mütəmadi olaraq qiymətləndirir.

*Ardı 16-cı səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 15-ci səh.*

34.2. Dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən təsərrüfat subyektlərinə subsidiya və digər dövlət yardımlarının verilməsinin bu Məcəllə ilə qadağan olunmuş hərəkətlərə səbəb olmaması barədə rəqabət orqanının məşvərətçi rəyi alınır.

34.3. Qiymətləndirmənin nəticələrinə əsasən rəqabət orqanı subsidiya və digər dövlət yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə olan mənfi təsirlərini aradan qaldırmaq məqsədilə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə tənzimləyici qurumlara təkliflər verə bilər.

34.4. Rəqabət orqanı subsidiya və qanunla müəyyən edilən digər yardımlarının verilməsinin və tənzimləmə tədbirlərinin rəqabətə təsirinə dair cari ilin qiymətləndirmə nəticələri barədə növbəti il martın 31-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) illik hesabat və təkliflər təqdim edir.

34.5. Bütün hüquqi və fiziki şəxslər, dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar bu Məcəllənin tətbiqi üçün zəruri olan bütün sənədləri (məlumatları) rəqabət orqanına onun əsaslandırılmış sorğusu əsasında sorğuda göstərilmiş müddətdə və tam şəkildə təqdim etməlidirlər.

34.6. Bu Məcəllənin 34-cü maddəsinin müddəaları rəqabət orqanı tərəfindən bu Məcəllənin 31.14-cü maddəsinə uyğun olaraq məlumatın dərc edilməsini, bu Məcəllənin 45.2-ci maddəsinə əsasən sənədlərə çıxışın təmin edilməsini, yaxud hər hansı təsərrüfat subyekti və ya təsərrüfat subyektlərinin birlikləri ilə bağlı fərdi məlumatları və qanunla qorunan digər məlumatları özündə əks etdirməyən sorğuların, bazar araşdırmalarının nəticələrinin dərc edilməsini istisna etmir.

**Maddə 35. Dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, habelə tənzimləyici qurumlardan məlumatların əldə edilməsi**

35.1. Dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, tənzimləyici qurumlar dövlətin rəqabət siyasətinin həyata keçirilməsi və bu Məcəllənin icrası ilə bağlı rəqabət orqanı ilə əməkdaşlıq edir, o cümlədən aşağıdakı məlumatları rəqabət orqanına təqdim edirlər:

35.1.1. müvafiq bazarda rəqabət şəraitinə təsir edə biləcək iqtisadi və regional inkişaf proqramlarının layihələrini;

35.1.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq hazırladıqları və müvafiq bazarda rəqabətə təsir edə biləcək normativ və ya inzibati aktların layihələrini, o cümlədən dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi və birləşdirilməsinə dair qərarlarını;

35.1.3. təsərrüfat subyektlərinin birliklərinin bu Məcəllənin tələblərinə uyğunluğu şübhə doğuran razılaşmalarını və qərarlarını;

35.1.4. rəqabət orqanının təmərküzləşmələrə razılıq verməsi ilə bağlı araşdırma aparılması məqsədilə təsərrüfat subyektləri barəsində sorğu etdiyi məlumatları.

### 9-cu fəsil
### TƏBİİ İNHİSAR SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**Maddə 36. Təbii inhisar sahələri**

36.1. Təbii inhisar fəaliyyəti sahələri aşağıdakılardır:

36.1.1. neft və (və ya) neft məhsullarının magistral boru kəmərləri ilə nəqli (Azərbaycan Respublikası ərazisindən tranzit nəqli və Azərbaycan Respublikasının hüdudlarından kənara ixracı istisna olmaqla) və paylanması;

36.1.2. təbii qazın boru kəmərləri ilənəqli (Azərbaycan Respublikası ərazisindən tranzit nəqli və Azərbaycan Respublikasının hüdudlarından kənara ixracı istisna olmaqla), saxlanması, paylanması və (və ya) təchizatı xidmətləri;

36.1.3. elektrik və istilik enerjisinin ötürülməsi və paylanması (bələdiyyə və (və ya) xüsusi mülkiyyətə aid mənbələr hesabına istehsal olunan enerji istisna olmaqla);

36.1.4. magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;

36.1.5. magistral və ümumi əhəmiyyətli avtomobil yollarının, yol qurğu və tikililərinin saxlanması və istismarı;

36.1.6. aeroport xidmətləri, aeroportların, uçuş zolaqları və qurğularının istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri;

36.1.7. metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı, sərnişindaşıma, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti;

36.1.8. dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti;

36.1.9. ümumi istifadədə olan telefon rabitəsi xidmətləri, elektrik və ya elektromaqnit rabitə vasitələri (kabel, optik və ya radio əlaqəsi və digər oxşar vasitələr) ilə hər hansı siqnalın, səsin məsafəyə ötürülməsi və qəbul edilməsi üçün istifadə olunan müxtəlif növ vasitə və qurğuların istismarı, universal poçt rabitəsi xidmətləri, qəbuledici-verici radio və televiziya stansiyalarının, yüksəktezlikli qurğuların istismarı vənəzarət fəaliyyəti;

36.1.10. baş sutəmizləyici qurğular, magistral borular, su kəməri şəbəkəsi və onların üzərindəki təzyiq və tənzimləyici qurğuların istismarı;

36.1.11. kanalizasiya təsərrüfatında aerasiya, mexaniki təmizləmə stansiyaları, nasosxanalar, baş və yağış kollektorları və kanalizasiya xətlərinin istismarı;

36.1.12. meliorasiya vəirriqasiya sahələrinəaid olan su anbarları, kanallar, kollektorlar, boru kəmərləri və bəndlərin istismarı;

36.1.13. istilik təchizatı xidmətləri (bələdiyyə və (və ya) xüsusi mülkiyyətə aid mənbələr hesabına istehsal olunan enerji istisna olmaqla).

36.2. Təbii inhisar subyektlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

36.3. Bu Məcəllənin 36.1-ci maddəsi ilə müəyyən edilmiş fəaliyyət sahələrində mövcud olan təsərrüfat subyektlərinə həmin sahələr üzrə rəqib subyektlər yarandıqda rəqabət şəraitində fəaliyyət göstərən subyektlər təbii inhisar subyekti hesab edilmir və təbii inhisar subyektlərinin siyahısından çıxarılana qədər onlara bu Məcəllənin 37-41-ci maddələri tətbiq edilmir.

36.4. Bu Məcəllənin 36.1-ci maddəsində nəzərdə tutulan fəaliyyət sahələri təbii inhisar subyektlərinin siyahısına daxil edilən təsərrüfat subyektləri tərəfindən həyata keçirilir. Təbii inhisar subyektinin müəyyən ərazidə, yaxud müəyyən dövrdə fəaliyyətini həyata keçirməsi sosial xarakterli fövqəladə mühit rejiminin mövcudluğu səbəbindən mümkün olmadıqda, həmin ərazidə, yaxud dövrdə təbii inhisar subyektlərinin müraciəti əsasında rəqabət orqanının razılığı ilə digər bazar subyektləri müvəqqəti fəaliyyət göstərə bilər.

36.5. Bu Məcəllənin 36.1-ci maddəsində nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsini nəzərdə tutan təsərrüfat subyektləri təbii inhisar subyektlərinin siyahısına daxil edilmələri üçün rəqabət orqanına müraciət edirlər. Müraciət edən təsərrüfat subyektinin fəaliyyətinin (o cümlədən həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətin) bu Məcəllənin 36.1-ci maddəsi ilə müəyyən edilmiş sahələrə aid olmadığı aşkar edildikdə, yaxud fəaliyyətin bu Məcəllənin 39.4-cü maddəsində qeyd edilən hallara səbəb olacağı halda rəqabət orqanı tərəfindən müraciətin rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul edilir.

**Maddə 37. Təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi**

37.1. Təbii inhisar subyektlərinin fəaliyyətini tənzimləmək məqsədilə rəqabət orqanı, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və tənzimləyici qurumlar tərəfindən aşağıdakı üsullar tətbiq edilir:

37.1.1. məhsulların qiymətlərinin tənzimlənməsi;

37.1.2. xidmət göstərilməsi məcburi olan müştərilərin müəyyən edilməsi;

37.1.3. təbii inhisar subyektlərinin müştərilərin məhsul üzrə ehtiyacını tam həcmdə ödəyə bilmədiyi hallarda onların həmin məhsul ilətəmin olunmasının minimum səviyyəsinin müəyyən edilməsi;

37.1.4. məhsul istehsalının (satışının) həcminin bu Məcəllənin 37.1.3-cü maddəsinin tələblərinə uyğun müəyyən olunmuş göstəricilərinə əməl edilməsinin təmin olunması;

37.1.5. təbii inhisar subyektləri tərəfindən bu Məcəllənin 36.4-cü və 39.2-ci maddələri ilə müəyyən edilmiş hərəkətlərin həyata keçirilməsinə razılıq verilməsi.

37.2. Bu Məcəllənin 37.1-ci maddəsində nəzərdə tutulan orqanlar (qurumlar) qanuna zidd olmayan digər üsulları da tətbiq edə bilərlər.

37.3. Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən məhsulların qiymətləri "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.

37.4. Qiymətləri tənzimlənməyən məhsulların qiymətləri bu Məcəllənin 39.6-cı maddəsinə uyğun olaraq təbii inhisar subyektinin özü tərəfindən müəyyən olunur. Rəqabət orqanı iqtisadi cəhətdən əsaslandırılmamış və bu Məcəllənin 38.1-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun gəlməyən qiymətlərin real iqtisadi göstəricilərə uyğunlaşdırılması barədə göstəriş verir.

37.5. Bu Məcəllənin 4-cü və 5-ci fəsillərində qadağan olunmuş hərəkətlər (hərəkətsizlik) və onlara görə məsuliyyət tədbirləri təbii inhisar subyektlərinin təbii inhisar fəaliyyəti hesab olunmayan fəaliyyətinə və dövlət inhisarında olan xidmətləri göstərən subyektlərin belə xidmətlərin göstərilməsi ilə əlaqəli olmayan iqtisadi fəaliyyətinə də şamil edilir.

**Maddə 38. Tənzimləmə üsullarının tətbiq olunması üçün əsaslar**

38.1. Bu Məcəllənin 37.1-ci maddəsi ilə nəzərdə tutulan orqanlar (qurumlar) tənzimləmə üsullarının tətbiq edilməsi haqqında qərarı konkret olaraq hər bir təbii inhisar subyekti üçün, belə bir tənzimləmənin istehsal edilmiş və ya satılmış məhsulun keyfiyyətinin artırılmasında və bu məhsula tələbatın ödənilməsində stimullaşdırıcı rolu nəzərə almaqla qəbul edir. Bu zaman məsrəflərin nə dərəcədə əsaslandırılmış olması müəyyən edilir və aşağıdakılar nəzərə alınır:

38.1.1. məhsulun istehsal və ya satış xərcləri, o cümlədən əməkhaqqı, xammal və materialların dəyəri;

38.1.2. vergilər vədigər dövlət ödənişləri;

38.1.3. əsas istehsal vasitələrinin dəyəri, onların təkrar istehsalı üçün zəruri olan investisiyaya tələbat və amortizasiya ayırmaları;

38.1.4. faktiki vəproqnozlaşdırılan mənfəət;

38.1.5. istehsal olunan və ya satılan məhsulun keyfiyyətinin, kəmiyyətinin və çatdırılma üsulunun müştərilərin tələbatına uyğunluğu;

38.1.6. dövlət dotasiyaları vədövlət büdcəsindən maliyyə yardımı ilə bağlı digər tədbirlər.

**Maddə 39. Təbii inhisar subyektlərinin fəaliyyətinə rəqabət orqanı tərəfindən dövlət nəzarəti**

39.1. Rəqabət orqanı təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini bu Məcəlləyə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirir. Rəqabət orqanı müştərilərin mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin (hərəkətsizliyin) qarşısının alınması və ya aradan qaldırılması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş tədbirləri görür.

39.2. Rəqabət orqanı təbii inhisar subyektləri tərəfindən həyata keçirilən aşağıdakı hərəkətlər üzərində nəzarəti həyata keçirir:

39.2.1. təbii inhisar subyektləri tərəfindən məhsulun istehsalı (satışı) üzrə müştərilərə münasibətdə tətbiq edilən hüquqi aktların (qərar, qayda, tələbnamə, reqlament, əmr, göstərişlərin və s.) və müqavilələrin rəqabət qanunvericiliyinə uyğunluğu;

39.2.2. əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi (nəzərdə tutulan əsas vəsaitin dəyəri təbii inhisar subyektinin cari ilin əvvəlindəki balansına uyğun olaraq aktivlərinin balans dəyərinin 0,5 faizindən çox olarsa);

39.2.3. əsas vəsaitlərin satışı, icarəyə verilməsi və ya digər hərəkətlər nəticəsində təbii inhisar subyektlərinin mülkiyyət və ya istifadə hüququnun digər təsərrüfat subyektlərinə keçməsi (nəzərdə tutulan əsas vəsaitin dəyəri təbii inhisar subyektinin cari ilin əvvəlindəki balansına uyğun olaraq aktivlərinin balans dəyərinin 0,5 faizindən çox olarsa);

39.2.4. əsas vəsaitlərin müştərilərə satışı, habelə lizinq və ya uzunmüddətli öhdəliklər əsasında verilməsi;

39.2.5. təbii inhisar subyektləri tərəfindən bu Məcəllənin 36.1-ci maddəsi ilə müəyyən edilməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması və ya yeni fəaliyyət sahələrinə başlanılması;

39.2.6. təbii inhisar subyektlərinin yenidən təşkili, ləğvi və ya təbii inhisar fəaliyyəti üzrə səlahiyyətlərini (səlahiyyətlərinin bir hissəsini) təsisçisi olduğu hüquqi şəxsə ötürməsi.

39.3. Təbii inhisar subyektləri bu Məcəllənin 36.4-cü və 39.2-ci maddələrində qeyd edilən hərəkətlərin edilməsinə razılıq almaq üçün rəqabət orqanına müraciət etməlidirlər. Müraciətin edilməsi və müraciətə baxılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

39.4. Rəqabət orqanı aşağıdakı hallarda təbii inhisar subyekti tərəfindən təqdim edilmiş müraciətdə göstərilən hərəkətin (hərəkətlərin) edilməsinə razılıq verilməsindən imtina edir:

39.4.1. mövcud qiymətlərin artması ilə nəticələnə bilərsə;

39.4.2. müştərilərlə müqavilələrin pozulması ilə nəticələnə bilərsə;

39.4.3. müştərilərin qanuni mənafelərinə mənfi təsir göstərə bilərsə, yaxud bu Məcəllə və ya qanunla qorunan hüquqlarının pozulmasına gətirib çıxararsa;

39.4.4. digər təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin məhdudlaşmasına səbəb ola bilərsə, yaxud azad sahibkarlıq mühitinə mənfi təsir göstərə bilərsə;

39.4.5. qiymətləri tənzimlənən məhsulun satılması üçün istifadə olunan texnoloji sistemin pozulmasına və ya qiymətləri tənzimlənən məhsulun keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilərsə;

39.4.6. subyektin imkan və resurslarının müştərilərin məhsul üzrə ehtiyacının tam həcmdə ödənilməsinə imkan verməsə.

39.5. Təbii inhisar subyektlərinin nizamnamə kapitalında səhmlərin (payların) əldə edilməsi və ya başqa əqdlər (girov, idarəetmənin həvalə edilməsi və s.) nəticəsində təbii inhisar subyektinin səsvermə hüququ verən səhmlərinin (paylarının) 10 faizinədək hissəsinə sərəncam hüququ olan şəxs tərəfindən sonradan səsvermə hüququ verən səhmlərinin (paylarının) 10 faizindən çox hissəsinə sərəncam hüququnu əldə edən şəxs rəqabət orqanına 15 (on beş) gün müddətində bu barədə məlumat verməlidir.

39.6. Təbii inhisar subyekti qiyməti tənzimlənməyən məhsulun (beynəlxalq sazişlərdən irəli gələn fəaliyyət sahələri istisna olmaqla) istehsalını (satışını) həyata keçirdikdə, təklif olunan qiymətlər barədə azı 30 (otuz) gün əvvəl rəqabət orqanına məlumat verir. Təbii inhisar subyekti qiyməti formalaşdıran iqtisadi amillər barədə bütün məlumatları rəqabət orqanına təqdim etməlidir.

39.7. Təbii inhisar subyektləri sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarını rüb bitdikdən sonra növbəti ayın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi formada və qaydada rəqabət orqanına təqdim etməlidirlər.

39.8. Rəqabət orqanı təbii inhisar subyektləri tərəfindən onların fəaliyyətinin rəqabət qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsinə nəzarəti təşkil etmək üçün bu Məcəllənin 39-cu və 40.2-ci maddələrinə uyğun və 10-cu fəsli ilə müəyyən edilmiş qaydada onlardan zəruri məlumatların tələb edilməsi, əldə edilməsi və araşdırılmasını həyata keçirir və yoxlamalar aparır.

39.9. Rəqabət qanunvericiliyinin tələblərinə əməl edilməsinə nəzarət, o cümlədən qiymətləri tənzimlənən sahələrdə qiymətlərin düzgün tətbiqinə, xərclərinin iqtisadi cəhətdən əsaslandırılmasına və məqsədyönlülüyünə, habelə təbii inhisar subyektlərinin aktlarının rəqabət qanunvericiliyinə uyğunluğuna nəzarət təbii inhisar subyektlərində yoxlamaların predmetidir.

39.10. Maliyyə-təsərrüfat hesabatlarının araşdırılması nəticəsində, habelə bu Məcəllənin 40.5-ci maddəsində qadağan olunan hərəkətlərə (fəaliyyətə) yol verilməsi müəyyən olunduqda rəqabət orqanı bu Məcəllənin 72-ci maddəsinə uyğun olaraq təbii inhisar subyektinə bu hərəkətlərin dayandırılması və nəticələrinin aradan qaldırılması barədə icrası məcburi göstəriş verir.

39.11. Bu Məcəllə ilə müəyyən olunan tələblərin təbii inhisar subyekti tərəfindən pozulması aşkar edildikdə və rəqabət orqanın göstərişi ilə həmin pozuntuları aradan qaldırmadıqda, rəqabət orqanı bu Məcəllənin 11-ci fəslinə uyğun olaraq tədbirlər görür.

39.12. Rəqabət orqanı təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsinin maliyyə məsələlərinin həlli ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər.

**Maddə 40. Təbii inhisar subyektlərinin fəaliyyətinə dair tələblər**

40.1. Təbii inhisar subyektləri rəqabət orqanının bu Məcəllədə nəzərdə tutulmuş qaydada qəbul etdiyi qərarları yerinə yetirməlidirlər.

40.2. Təbii inhisar subyektləri rəqabət orqanına öz fəaliyyəti barədə bu Məcəllənin 39.7-ci maddəsində nəzərdə tutulan hesabatları, habelə rəqabət orqanının sorğusuna əsasən digər hesabatları, investisiya layihələrini, digər sənədləri və məlumatları təqdim edirlər.

40.3. Təbii inhisar subyektləri rəqabət orqanına bu Məcəllənin 39.8-ci maddəsinə uyğun olaraq, onlardan tələb edilən sənədləri və məlumatları tələb edilən vaxt ərzində və tam həcmdə təqdim etməli və (və ya) nəzarət tədbirlərinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməlidirlər. Təbii inhisar subyektlərindən tələb edilən məlumatların həcmi böyük olduqda, yaxud təbii inhisar subyektləri tərəfindən bu Məcəlləyə uyğun olaraq barəsində dövlət nəzarəti həyata keçirilən hərəkətlərin monitorinqi zərurəti yarandıqda rəqabət orqanı nəzarət tədbirlərini təbii inhisar subyektinin (və ya onun bölməsinin) olduğu yerdə həyata keçirmək hüququna malikdir.

40.4. Təbii inhisar subyektləri (onların vəzifəli şəxsləri) bu Məcəllə ilə müəyyən edilmiş tələbləri pozduqda, rəqabət orqanının qərarlarına uyğun olaraq müəyyən edilmiş müddətdə aşağıdakı hərəkətləri yerinə yetirməlidirlər:

40.4.1. bu Məcəllənin tələblərinin pozulmasını aradan qaldırmaq;

40.4.2. ilkin vəziyyəti bərpa etmək və ya qərarda müəyyən edilmiş başqa göstərişləri yerinə yetirmək;

40.4.3. bu Məcəlləyə uyğun olmayan əqdləri ləğv etmək və ya dəyişmək;

40.4.4. mütləq məhsul təqdim edilməli olan müştəri ilə müqavilə bağlamaq və ya bağlanılmış müqavilədə dəyişiklik etmək;

40.4.5. qanunvericiliyin tələblərini pozmaqla müştərilərdən əsassız və (və ya) artıq alınmış ödənişləri onlara geri ödəmək.

40.5. Məhsulların istehsalı (satışı) zamanı təbii inhisar subyektlərinə aşağıdakılar qadağan edilir:

40.5.1. istehsalı (satışı) həyata keçirilən məhsullar haqqında bu Məcəllənin 41-ci maddəsində nəzərdə tutulmuş məlumatların verilməsinə görə ödəniş (haqq) almaq;

40.5.2. məhsulların istehsalının (satışının) həyata keçirilməsi üzrə xidmətin göstərilməsi ilə əlaqəli olmayan lisenziyaların, icazələrin və digər sənədlərin təqdim edilməsini tələb etmək;

40.5.3. təbii inhisar subyektinin şəbəkələrinə qoşulma və ya əldə edilən məhsulun həcminin artırılması üçün qanunla müəyyən edilmiş texniki şərtlərə riayət edilməsi istisna olmaqla müştəriyə digər tələblər irəli sürmək;

40.5.4. müştərinin təbii inhisar subyektinin şəbəkələrinə qoşulma və ya əldə edilən məhsulun həcminin artırılması üçün qanunla müəyyən edilmiş texniki şərtlərə uyğun iş yerinə yetirən təsərrüfat subyektlərinin fəaliyyətini məhdudlaşdırmaq;

40.5.5. müştərinin təbii inhisar subyektinin şəbəkələrinə qoşulma və ya əldə edilən məhsulun həcminin artırılması zamanı işləri yerinə yetirmək üçün müvafiq lisenziyaya, icazəyə malik olan icraçıları (podratçıları) sərbəst seçmək imkanını məhdudlaşdırmaq;

40.5.6. müştərinin məhsulun dəyərinin ödənilməsi üçün normativ hüquqi aktlarla müəyyən edilmiş ödəniş vasitələrini sərbəst seçmək imkanını məhdudlaşdırmaq;

40.5.7. müştərinin mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərə yol vermək;

40.5.8. müştərilərə münasibətdə rəqabət qanunvericiliyinə və müvafiq təbii inhisar sahəsini tənzimləyən normativ hüquqi aktlara uyğun olmayan aktlar qəbul etmək və onları tətbiq etmək;

40.5.9. təbii inhisar fəaliyyətinin nəticəsi olan məhsulu satmaq imkanına malik olduqda müştərilərlə belə məhsulun satışına dair müqavilə bağlamaqdan əsassız olaraq imtina etmək;

40.5.10. eynixassəli məhsulun əldə edilməsi ilə bağlı müştərilər arasında ayrı-seçkiliyə yol vermək;

40.5.11. məhsulların istehsalı (satışı), habelə təbii inhisar subyektinin şəbəkələrinə qoşulma və ya əldə edilən məhsulun həcminin artırılması ilə əlaqədar müştərilərə münasibətdə normativ hüquqi aktlarda nəzərdə tutulmayan fərqli qaydalar müəyyən etmək və onların icrasını tələb etmək.

**Maddə 41. Təbii inhisar subyektlərinin məlumatı açıqlamaq vəzifəsi**

41.1. Təbii inhisar subyektləri aşağıdakı məlumatların müştərilərə qanuna uyğun olaraq açıqlanmasını (o cümlədən rəsmi internet səhifəsində yerləşdirilməsini) təmin etməlidirlər:

41.1.1. istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısını;

41.1.2. məhsullar üzrə qiymətlərin siyahısını (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə);

41.1.3. müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtləri, müqavilənin formasını və bağlanılması qaydasını;

41.1.4. müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasını.

### 10-cu fəsil
### RƏQABƏT QANUNVERİCİLİYİNƏ ƏMƏL EDİLMƏSİNƏ DÖVLƏT NƏZARƏTİ TƏDBİRLƏRİ

**Maddə 42. Dövlət nəzarəti və onun metodları**

42.1. Bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti rəqabət orqanı tərəfindən həyata keçirilir.

42.2. Dövlət nəzarəti aşağıdakı metodlarla həyata keçirilir:

42.2.1. rəqabət orqanı tərəfindən aparılan araşdırmalar;

42.2.2. yoxlamalar.

**Maddə 43. Rəqabət orqanının apardığı araşdırmalar**

43.1. Aşağıdakılar rəqabət qanunvericiliyinin pozulması hallarının araşdırılması üçün əsasdır:

43.1.1. rəqabət qanunvericiliyinin pozulmasına dair bazar subyektləri və ayrı-ayrı şəxslərdən daxil olan sənədlər, məlumatlar və müraciətlər;

43.1.2. mediada (eləcə də sosial şəbəkələrdə) dərc olunan (yayımlanan) rəqabət qanunvericiliyinin pozulması əlamətlərini əks edən məlumatlar;

43.1.3. müvafiq bazarda rəqabət orqanının həyata keçirdiyi monitorinqlər, təhlillər və yoxlamalar nəticəsində aşkar olunmuş rəqabət qanunvericiliyinin pozulması əlamətləri;

43.1.4. rəqabət orqanı tərəfindən qanun pozuntularının aradan qaldırılması barədə verilmiş göstərişlərin yerinə yetirilməsi vəziyyətinin yoxlanılması.

43.2. Rəqabət qanunvericiliyinin pozulması haqqında müraciət edən şəxslər tərəfindən rəqabət orqanına aşağıdakılar təqdim olunur:

43.2.1. yazılı, o cümlədən elektron formada müraciət;

43.2.2. rəqabət qanunvericiliyinin pozulması faktını təsdiq edən sənədlərin əsli, yaxud notariat qaydasında təsdiq edilmiş surətləri (olduğu halda);

43.2.3. rəqabət qanunvericiliyinin pozulması faktını təsdiq edən əşya və materiallar (olduğu halda);

43.2.4. xarici dillərdə olan sənədlərin Azərbaycan dilinə tam və dəqiq tərcümə olunmaqla notariat qaydasında təsdiq edilmiş əsli və ya surəti (olduğu halda).

43.3. Şikayət ərizəsi ilə müraciət edən hər bir şəxs qanun pozuntusunun onun qanuni marağına toxunduğunu sübut etməlidir. Təsərrüfat subyektləri rəqabət qanunvericiliyinin pozulması halının baş verdiyi müvafiq bazarda fəaliyyət göstərdiyi hallarda və şikayət etdikləri hərəkət onların maraqlarına birbaşa və ya dolayı yolla mənfi təsir edərsə, hüquqlarının və qanuni maraqlarının müdafiəsi üçün rəqabət orqanına müraciət edə bilərlər. Təsərrüfat subyektlərinin birlikləri, yaxud istehlakçı birlikləri, pozuntunun birbaşa təsirinə məruz qalmadıqda belə, edilən davranış onların üzvlərinə birbaşa mənfi təsir göstərirsə, qanunla öz üzvlərini təmsil etmək səlahiyyətlərinə malikdirlər və onların hüquqlarını və qanuni maraqlarını müdafiə edə bilərlər.

43.4. Rəqabət qanunvericiliyinin pozulması haqqında ərizədə müraciət edən və şikayət edilən bazar subyektləri barədə məlumatlar, müraciət edənin tələblərinin mahiyyəti göstərilməli, rəqabət qanunvericiliyinin pozulması faktı izah olunmalıdır.

43.5. Rəqabət orqanı 10 (on) iş günü müddətində daxil olan müraciətin araşdırılmasına başlanması və ya araşdırılmadan imtina edilməsi haqqında əsaslandırılmış qərar qəbul edir.

43.6. Müraciətin araşdırılmasından aşağıdakı hallarda imtina edilir:

43.6.1. müraciətin predmeti rəqabət orqanının səlahiyyətlərinə aid olmadıqda;

43.6.2. qanun pozuntusuna görə iddia və ya məsuliyyətə cəlb etmə müddəti bu Məcəllənin 82-ci maddəsinə əsasən bitdikdə;

43.6.3. qanun pozuntusu halları üzrə cavabdehin müəyyənləşdirilməsi mümkün olmadıqda və ya cavabdeh ləğv edildikdə, yaxud mövcud olmadıqda;

43.6.4. cavabdeh tərəfindən pozuntu hallarının könüllü surətdə aradan qaldırıldığı müəyyən edildikdə;

*Ardı 17-ci səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 16-cı səh.*

43.6.5. müraciətin geri götürülməsi barədə müraciət edənin ərizəsi daxil olduqda.

43.7. Bu Məcəllənin 43.6.2-43.6.5-ci maddələrində nəzərdə tutulan əsaslarla müraciətin araşdırılmasından imtina edilsə belə, digər bazar subyektlərinə münasibətdə rəqabətin məhdudlaşdırılması halı müəyyən edildikdə, bu rəqabət orqanı tərəfindən araşdırmaya başlanılması üçün əsasdır.

43.8. Sazişlər və ya təmərküzləşmələrlə bağlı araşdırmalar apararkən rəqabət orqanı bazarın ümumi şərtlərinin və iqtisadi göstəricilərinin vəziyyəti ilə bağlı müvafiq bazarda rəqabətin məhdudlaşdırılmasına əsaslı şübhələr və ya rəqabət qanunvericiliyinin pozulması əlamətləri olduğunu müəyyən etdikdə, bu Məcəllənin 56.1-ci maddəsinə uyğun olaraq bütün zəruri məlumatları tələb edir və ya plandankənar yoxlama aparır.

43.9. Rəqabət orqanı bu Məcəllənin 11.2-ci, 15.4-cü və 43.8-ci maddələrində qeyd edilən hallarda müvafiq bazara giriş maneələrini, təmərküzləşmənin səviyyəsini, müvafiq sahədə rəqabətin dinamikasını, təmərküzləşmələrin bazara təsirlərini, yaxud rəqabətə tənzimləyici təsirlərini və müvafiq sektorda rəqabət aparılmasının digər şərtlərini araşdırır.

43.10. Daxil olan müraciətin araşdırılmasına başlanılması ilə bağlı 3 (üç) iş günü müddətində müraciət edən şəxslərə məlumat verilir.

43.11. Araşdırma rəqabət orqanının qərarının qəbul edildiyi tarixdən sonrakı 30 (otuz) iş günü müddətində həyata keçirilir.

43.12. Əlavə müddət tələb olunduğu hallarda rəqabət orqanının əsaslandırılmış qərarı əsasında araşdırmanın müddəti 30 (otuz) iş gününədək uzadılır.

43.13. Rəqabət orqanı araşdırmanın aparılması üçün əldə edilmiş məlumatların kifayət etmədiyini müəyyən etdikdə, müraciət edən şəxsdən bu Məcəllənin 56.1-ci maddəsində qeyd edilmiş müddətdə əlavə məlumatlar və təsdiqedici sənədlərin təqdim edilməsini tələb edir. Bu Məcəllənin 56.1-ci maddəsinə əsasən təyin edilmiş müddət müraciət edən şəxsin əsaslandırılmış müraciəti ilə uzadıla bilər.

43.14. Bu Məcəllənin 56.1-ci maddəsinə əsasən müəyyən edilmiş müddət ərzində müraciət edən şəxs tərəfindən əlavə məlumatlar və təsdiqedici sənədlər təqdim edilmədikdə, rəqabət orqanı araşdırmaya xitam verilməsi haqqında qərar qəbul edir və 3 (üç) iş günü müddətində müraciət edən şəxsə göndərir. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra müraciət edən şəxsin təqdim etdiyi əlavə məlumatlara və təsdiqedici sənədlərə rəqabət orqanı tərəfindən baxılmır.

43.15. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra müraciət edən şəxs rəqabət orqanına yenidən ərizə ilə müraciət edə bilər.

43.16. Araşdırmanın nəticələri barədə müraciət edən şəxsə 3 (üç) iş günü müddətində məlumat təqdim olunur.

**Maddə 44. Bazarın monitorinqi**

44.1. Bazarın monitorinqi rəqabət orqanı tərəfindən aşağıdakı məqsədlərlə həyata keçirilir:

44.1.1. bazarda rəqabət qanunvericiliyinin tələblərinə əməl edilməsinin müəyyənləşdirilməsi;

44.1.2. qiymətlərin qərarlaşmış səviyyəsinin müəyyənləşdirilməsi;

44.1.3. qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən məhsullar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarlarının yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi;

44.1.4. bazarların məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyənləşdirilməsi;

44.1.5. rəqabətin məhdudlaşdırılmasına təsir göstərən amillərin aşkar edilməsi;

44.1.6. rəqabətin vəziyyətinin müəyyən edilməsi;

44.1.7. aşkar edilmiş rəqabət qanunvericiliyinin pozulması əlamətlərinin aydınlaşdırılması.

44.2. Bazarın monitorinqi rəqabət orqanının qərarı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada aparılır.

44.3. Rəqabət orqanı tərəfindən həyata keçirilən monitorinqin nəticəsində monitorinqin nəticələrinə dair akt tərtib edilir. Monitorinqin nəticələrinə dair aktın forması və tərtib edilmə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 45. Məlumatların təhlili**

45.1. Rəqabət orqanı əldə edilmiş statistik məlumatlar, mediada (eləcə də sosial şəbəkələrdə) dərc edilmiş məlumatlar, bazar subyektlərinin təqdim etdiyi sənədlər və məlumatlar, habelə bazarın monitorinqi zamanı əldə edilmiş məlumatlar əsasında rəqabət qanunvericiliyinin pozulub-pozulmamasına dair təhlil aparmaq hüququna malikdir.

45.2. Rəqabət orqanının apardığı təhlillər zamanı aidiyyəti bazar subyektləri onlardan tələb olunan elektron və (və ya) kağız daşıyıcılarda olan zəruri məlumatları, o cümlədən məxfi və konfidensial məlumatları (qanunla nəzərdə tutulduğu hallarda dövlət sirri və statistik sirr, habelə kommersiya, vergi, gömrük və bank sirri hesab olunan məlumatları əsaslandırılmış sorğu əsasında) və sənədləri rəqabət orqanının yazılı sorğusuna əsasən bu Məcəllənin 56-cı maddəsinin tələblərinə uyğun təqdim etməlidirlər.

**Maddə 46. Araşdırmanın yekunlaşdırılması**

46.1. Araşdırma başa çatdıqda rəqabət orqanının araşdırmanı aparan vəzifəli şəxsi (şəxsləri) tərəfindən araşdırmanın nəticələri üzrə akt tərtib edilir. Araşdırmanın nəticələrinə dair aktın forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

46.2. Araşdırma nəticəsində bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətlərinin müəyyən edilməsi həmin bazar subyektlərinə münasibətdə iş qaldırılması üçün əsasdır.

46.3. Bu Məcəllənin 46.1-ci maddəsinə uyğun olaraq akt tərtib olunduqdan sonra araşdırma materiallarına baxılmanın nəticələri üzrə rəqabət orqanı 15 (on beş) iş günü müddətində aşağıda qeyd olunan qərarlardan birini qəbul edir:

46.3.1. rəqabət qanunvericiliyinin pozulması halları və ya əlamətləri müəyyən edildikdə rəqabət qanunvericiliyinin pozulması haqqında iş qaldırılması məsələsinə baxılması üçün rəqabət komissiyasının yaradılması barədə;

46.3.2. rəqabət qanunvericiliyinin pozulması hallarının və ya əlamətlərinin müəyyən edilməsi üçün əlavə sübutlara zərurət yarandıqda yoxlamanın aparılması barədə;

46.3.3. rəqabət qanunvericiliyinin pozulması halı üzrə məsuliyyətə cəlb etmə müddəti keçdikdə, araşdırmaya xitam verilməsi barədə;

46.3.4. rəqabət qanunvericiliyinin pozulması halı müəyyən edilməzsə araşdırmaya xitam verilməsi barədə.

46.4. Rəqabət orqanı araşdırmaların nəticələri barədə məlumatları özünün rəsmi internet səhifəsində dərc edir.

**Maddə 47. Dövlət nəzarətinin həyata keçirilməsinin xüsusiyyətləri**

47.1. Bu Məcəllənin 43-45-ci maddələrinə əsasən həyata keçirilən nəzarət tədbirləri və bu Məcəllənin 11-ci fəslinə uyğun olaraq rəqabət komissiyası tərəfindən rəqabət qanunvericiliyinin pozulması haqqında işlərə baxılması "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənən yoxlama tədbiri hesab edilmir.

47.2. Bu Məcəllədə başqa qayda nəzərdə tutulmamışdırsa yoxlamalar (təbii inhisar subyektlərində aparılan yoxlamalar istisna olmaqla) rəqabət qanunvericiliyinin xüsusiyyətləri nəzərə alınmaqla "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 48. Yoxlamaların aparılması**

48.1. Rəqabət orqanı aşağıdakı hallarda bazar subyektlərində yoxlama aparır:

48.1.1. rəqabət qanunvericiliyinin pozulması əlamətlərini aşkar etdikdə;

48.1.2. rəqabət qanunvericiliyinin pozulması barədə mənbəyi bəlli məlumat (bu Məcəllənin 43.1-ci maddəsində qeyd edilən sənədlər, məlumatlar və müraciətlər) əldə etdikdə;

48.1.3. işə baxılma zamanı zərurət yarandıqda;

48.1.4. aparılan araşdırmalar zamanı əlavə sübutlara zərurət yarandıqda.

48.2. Yoxlamaların aparılması zamanı rəqabət orqanının yoxlama aparmaq hüququna malik vəzifəli şəxsləri aşağıdakı səlahiyyətlərə malikdirlər:

48.2.1. bazar subyektlərinin iqtisadi fəaliyyət məqsədilə istifadə etdiyi əraziyə (yaşayış sahəsi istisna olmaqla), istehsal və emal müəssisələrinə, binalara, anbarlara, satış sahələrinə və xidməti nəqliyyat vasitələrinə baxış keçirmək və yoxlamanın predmetinə dair bu Məcəllənin tələblərinə uyğun olaraq digər zəruri tədbirlər həyata keçirmək;

48.2.2. yoxlama müddətində və yoxlama üçün əhəmiyyətindən asılı olaraq rəqabət orqanının əsaslandırılmış qərarı ilə bazar subyektinin istehsal avadanlıqlarının olduğu otaqlar istisna olmaqla, avadanlıqlarının, sənədlərinin, araşdırma materiallarının yerləşdiyi otaqları möhürləmək;

48.2.3. fəaliyyəti ilə bağlı elektron və (və ya) kağız daşıyıcılarda olan zəruri məlumatları və sənədləri yoxlamaq, habelə onlardan çıxarışlar etmək, onların surətlərini çıxarmaq;

48.2.4. yoxlanılan bazar subyektinin istənilən nümayəndəsinə yoxlama predmeti ilə bağlı suallar vermək və zəruri məlumatları dəqiqləşdirmək.

48.3. Rəqabət orqanı tərəfindən bazar subyektlərində yoxlamaların keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

48.4. Rəqabət orqanı tərəfindən hökmran mövqe tutmuş təsərrüfat subyektlərində və təbii inhisar subyektlərində planlı və plandankənar yoxlamalar, digər təsərrüfat subyektlərində plandankənar yoxlamalar aparılır.

48.5. Plandankənar yoxlama təyin edildikdə qanun pozuntusu ilə bağlı faktların və sübutların məhv edilməsinin və ya gizlədilməsinin qarşısının alınması məqsədilə bazar subyektinə bu barədə əvvəlcədən məlumat verilmir.

48.6. Yoxlama (təbii inhisar subyektlərində aparılan yoxlamalar istisna olmaqla) 30 (otuz) iş günündən artıq olmayan müddətdə aparılır. Yoxlamanın aparılması üçün əlavə müddət tələb olunduqda, rəqabət orqanının əsaslandırılmış qərarına əsasən yoxlamanın müddəti hər dəfə 30 (otuz) iş günü müddətinə uzadılmaqla 90 (doxsan) iş gününədək artırıla bilər.

48.7. Təbii inhisar subyektlərində aparılan yoxlamalar 90 (doxsan) iş günündən artıq olmayan müddətdə aparılır. Yoxlamanın aparılması üçün əlavə müddət tələb olunduqda, rəqabət orqanının əsaslandırılmış qərarına əsasən yoxlamanın müddəti hər dəfə 90 (doxsan) iş günü müddətinə uzadılmaqla 270 (iki yüz yetmiş) iş gününədək artırıla bilər.

48.8. Rəqabət orqanı tərəfindən təbii inhisar subyektlərində yoxlamaların keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

48.9. Rəqabət orqanının əsaslandırılmış qərarına əsasən yoxlama aşağıda göstərilən hallarda və müddətlərdə, lakin 6 (altı) aydan çox olmamaqla dayandırılır:

48.9.1. yoxlama zamanı şəxs qeydiyyatda olduğu (faktiki olduğu) ünvanda olmadıqda və ya şəxsin olduğu yerin müəyyən edilməsi və digər səbəblərdən tapılması mümkün olmadıqda - həmin şəxsin olduğu yer müəyyən olunanadək;

48.9.2. barəsində yoxlaması aparılan bazar subyektinin rəhbəri (onu əvəz edən şəxs) müvəqqəti olaraq əmək qabiliyyətini itirdikdə - əmək qabiliyyəti bərpa olunanadək;

48.9.3. rəqabət orqanının təşəbbüsü ilə mütəxəssis dəvət edildikdə və ya ekspertiza keçirildikdə - mütəxəssisin və ya ekspertin rəyi yoxlamaya təqdim edilənədək;

48.9.4. yoxlamanın obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən rəqabət orqanının sorğusuna cavab xarici ölkədən alındıqda - xarici ölkədən cavab alınanadək;

48.9.5. bu Məcəllənin 50.4-cü maddəsi ilə müəyyən edilmiş hallarda - məhkəmənin qərarı qanuni qüvvəyə minənədək.

48.10. Rəqabət orqanı 48.9-cu maddədə qeyd olunan hallar aradan qalxdıqda yoxlamanın bərpa olunması barədə qərar qəbul edir. Bu Məcəllənin 48.9-cu maddəsində qeyd olunan müddət ərzində həmin hallar aradan qalxmadıqda rəqabət orqanı yoxlamaya xitam verilməsi haqqında qərar qəbul edir.

48.11. Rəqabət orqanının vəzifəli şəxsi yoxlama zamanı təsərrüfat subyektinə yoxlama üçün zəruri olan sənədlərin və məlumatların təqdim edilməsi barədə tələbnamə verə bilər. Təsərrüfat subyekti tələbnamə ilə müəyyən edilmiş müddətdə sənədləri və məlumatları rəqabət orqanına təqdim etməlidir.

48.12. Rəqabət orqanı tərəfindən tələb edilən, yoxlama üçün zəruri sənədlərin və (və ya) məlumatların (mənbəyi məlum olan) təsərrüfat subyekti tərəfindən rəqabət orqanına verilməsindən imtina edilməsi, yaxud tələbnamədə qeyd edilən müddətdə təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

48.13. Yoxlama zamanı rəqabət orqanının vəzifəli şəxslərinin xidməti vəzifələrinin icra edilməsinə maneçilik törədilməsi qadağandır.

48.14. Bazar subyekti nümayəndə vasitəsilə təmsil olunduqda onun səlahiyyətini təsdiq edən sənədin surəti rəqabət orqanına təqdim olunmalıdır.

**Maddə 49. Yoxlamaların nəticələrinin rəsmiləşdirilməsi**

49.1. Rəqabət orqanı tərəfindən aparılan yoxlamanın nəticələri üzrə yoxlamanı həyata keçirən vəzifəli şəxs (şəxslər) tərəfindən yoxlamanın başa çatdığı gün akt tərtib edilir.

49.2. Yoxlama materiallarına baxılmanın nəticələri üzrə rəqabət orqanı 15 (on beş) iş günü müddətində aşağıda qeyd edilən qərarlardan birini çıxarır:

49.2.1. rəqabət qanunvericiliyinin pozulması halları və ya əlamətləri aşkar edildikdə:

49.2.1.1. pozuntu əlamətləri müəyyən edildikdə, rəqabət qanunvericiliyinin pozulması haqqında iş qaldırılması məsələsinə baxılması üçün rəqabət komissiyasının yaradılması barədə və ya;

49.2.1.2. bu Məcəllənin 60-cı maddəsinin tələbləri nəzərə alınmaqla 77.1-ci maddədə qeyd olunan pozuntu əlamətləri aşkar edildikdə həmin qanun pozuntusunun könüllü aradan qaldırılması ilə bağlı bazar subyektinin müraciətinin qəbul edilməsi və araşdırmaya xitam verilməsi barədə;

49.2.2. qanun pozuntusuna yol verildiyini təsdiq etmək üçün kifayət qədər sübutlar və hüquqi əsaslar olmadığı halda, qanun pozuntusunun aşkar olunmaması barədə.

49.3. İşə baxılma zamanı yoxlama keçirildikdə rəqabət komissiyası yoxlamanın nəticələrini işin mahiyyəti üzrə qəbul etdiyi yekun qərarında nəzərə alır.

**Maddə 50. Rəqabət orqanı tərəfindən sənədlərin və nümunə kimi əşyaların götürülməsi**

50.1. Yoxlama zamanı rəqabət orqanının vəzifəli şəxsinin bazar subyektindən yoxlamanın məqsədləri üçün zəruri hesab edilən sənədləri (o cümlədən elektron daşıyıcılarda olan məlumatları) və (və ya) nümunə kimi əşyaları götürmək hüququ vardır.

50.2. Sənədlərin (o cümlədən elektron daşıyıcılarda olan məlumatların) və (və ya) nümunə kimi əşyaların götürülməsi rəqabət orqanının qərarı ilə həyata keçirilir.

50.3. Sənədlərin (o cümlədən elektron daşıyıcılarda olan məlumatların) və (və ya) nümunə kimi əşyaların götürülməsi barədə bu Məcəllənin 55-ci maddəsinin tələblərinə uyğun olaraq protokol tərtib edilir. Sənədlərin (o cümlədən elektron daşıyıcılarda olan məlumatların) və (və ya) nümunə kimi əşyaların götürülməsi, saxlanması və qaytarılması bu Məcəllənin 65-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

50.4. Bazar subyekti sənədləri və əşyaları vermədiyi halda həmin sənədlərin və (və ya) nümunə kimi əşyaların götürülməsi rəqabət orqanının əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə həyata keçirilir.

**Maddə 51. Ekspertin dəvət edilməsi**

51.1. Dövlət nəzarəti tədbirinin həyata keçirilməsi zamanı ortaya çıxan məsələlərin izah olunması üçün xüsusi biliklər tələb olunduğu hallarda maraqlı şəxslərin (müraciət edən və ya barəsində araşdırma aparılan şəxslərin) vəsatəti və ya rəqabət orqanının qərarı ilə ekspertiza təyin edilir.

51.2. Ekspert müqavilə əsasında cəlb edilir. Müqavilədə tərəflərin hüquqları və vəzifələri, ekspert qarşısında qoyulan suallar, bilə-bilə yalan rəy verməsinə görə ekspertin məsuliyyəti və mülki qanunvericiliklə müəyyən edilmiş digər məsələlər nəzərdə tutula bilər. Ekspert qarşısında qoyulan suallar və onun rəyi ekspertin xüsusi biliyindən kənara çıxa bilməz.

51.3. Qərarda ekspertizanın təyin edilməsi üçün əsaslar, ekspertin soyadı, adı, atasının adı və ya ekspertiza keçirən təşkilatın adı, ekspert qarşısında qoyulan məsələlər və ekspertə təqdim olunan materiallar qeyd edilir.

51.4. Ekspertin araşdırmanın predmetinə aid olan materiallar ilə tanış olmaq, ona əlavə materialların verilməsi barədə vəsatət qaldırmaq hüququ vardır.

51.5. Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət etmədikdə, ekspert rəy verməkdən imtina edir.

51.6. Rəqabət orqanı barəsində dövlət nəzarəti tədbiri aparılan bazar subyektini ekspertiza keçirilməsi haqqında qərar ilə tanış etməlidir və həmin şəxsin bu Məcəllənin 51.7-ci maddəsində nəzərdə tutulan hüquqlarını ona izah etməlidir.

51.7. Ekspertizanın təyin edilməsi və keçirilməsi zamanı bazar subyektinin aşağıda qeyd edilən hüquqları vardır:

51.7.1. ekspertə əsaslandırılmışetiraz etmək;

51.7.2. ekspertin rəyinin alınması üçün əlavə suallar təqdim etmək;

51.7.3. rəqabət orqanının razılığı ilə ekspertiza keçirilməsində iştirak etmək;

51.7.4. ekspertin rəyi ilə tanış olmaq və surətini əldə etmək.

51.8. Ekspert rəyi öz adından verir və imzalayır. Ekspertin rəyində onun tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr və qoyulan suallara əsaslandırılmış cavablar əks etdirilir. Ekspertiza aparılarkən barəsində onlara dair suallar qoyulmamış iş üçün əhəmiyyətli olan halları müəyyən etdikdə, ekspertin həmin hallar haqqında özünün rəyinə nəticələr daxil etmək hüququ vardır.

51.9. Ekspertin rəyinin surəti və ya onun rəy vermək imkanının olmaması barədə məlumat dövlət nəzarəti aparılan bazar subyektinə verilir. Həmin bazar subyektinin izahat vermək, öz etirazlarını bəyan etmək, ekspertə əlavə sualların qoyulmasını, əlavə, yaxud təkrar ekspertizanın təyin edilməsini tələb etmək hüququ vardır.

51.10. Ekspertin rəyi kifayət qədər aydın olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya tədqiqat aparılmış obyektlərə dair əlavə suallar yarandıqda, aparılmış tədqiqatdakı və ya rəydəki boşluğun aradan qaldırılması üçün bu maddədə nəzərdə tutulmuş qaydada əlavə ekspertiza təyin edilir və bu ekspertiza həmin və ya başqa ekspertə həvalə edilir.

51.11. Ekspertin rəyi kifayət qədər əsaslı olmadıqda və ya şübhə doğurduqda, yaxud onun əsaslandığı sübutlar etibarsız (qeyri-mötəbər) hesab edildikdə bu maddədə nəzərdə tutulmuş qaydada təkrar ekspertiza təyin edilir və bu ekspertiza başqa ekspertə həvalə edilir.

51.12. Bazar subyektinin bu Məcəllənin 51.7-ci və 51.9-cu maddələrində nəzərdə tutulmuş hüquqları ilə əlaqədar vəsatəti təmin edilmədikdə, rəqabət orqanı vəsatətin rədd edilməsi səbəbləri qeyd edilməklə əsaslandırılmış qərar qəbul edir və qərarın surətini 3 (üç) iş günü müddətində həmin bazar subyektinə təqdim edir.

**Maddə 52. Mütəxəssisin dəvət edilməsi**

52.1. Dövlət nəzarətinin həyata keçirilməsi zamanı bilavasitə rəqabət orqanının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb olunduqda, maraqlı şəxslərin vəsatəti və ya rəqabət orqanının təşəbbüsü ilə rəqabət orqanının qərarına əsasən mütəxəssis dəvət oluna bilər.

52.2. Mütəxəssisin xüsusi bilik və təcrübəsi olmalıdır və o, işin nəticələrində maraqlı olmamalıdır. Bu şərtlərə cavab verməyən mütəxəssisin rəyindən istifadə oluna bilməz.

52.3. Mütəxəssis müqavilə əsasında dəvət olunur. Müqavilədə tərəflərin hüquq və vəzifələri, mütəxəssis qarşısında qoyulan suallar, bilə-bilə yalan rəy verməsinə görə mütəxəssisin məsuliyyəti və mülki qanunvericiliklə müəyyən edilmiş digər məsələlər nəzərdə tutula bilər.

52.4. Bu Məcəllənin 52.1-ci maddəsinə müvafiq olaraq cəlb olunmuş mütəxəssis onun qarşısında qoyulmuş suallar barəsində öz rəyini bildirməlidir. Mütəxəssisin rəyi yazılı şəkildə tərtib olunur, onun tərəfindən imzalanır və işin materiallarına əlavə edilir.

52.5. Bazar subyekti mütəxəssisin rəyi ilə razılaşmadıqda, bu barədə rəqabət orqanına əsaslandırılmış şikayət edə bilər.

52.6. Mütəxəssisin bilə-bilə yalan rəy verməsi nəticəsində rəqabət orqanına və ya bazar subyektinə dəyən zərərin ödənilməsi mülki qanunvericiliyə müvafiq olaraq tələb oluna bilər.

**Maddə 53. Tərcüməçinin iştirakı**

53.1. Rəqabət orqanı tərəfindən tərcüməçi dəvət oluna bilər. Tərcüməçinin dəvət olunması rəqabət orqanının qərarı əsasında həyata keçirilir.

53.2. Tərcüməçi tərcümə üçün lazım olan dili sərbəst bilən, işin nəticələrində marağı olmayan şəxs olmalıdır.

53.3. Bu Məcəllənin 53.1-ci və 53.2-ci maddəsinin müddəaları eşitmə və danışma qabiliyyəti məhdud olan fiziki şəxsin işarələrini başa düşən vasitəçi şəxslərə (peşəkar surdo tərcüməçilərə) də aiddir.

53.4. Rəqabət orqanının əməkdaşları lazım olan xarici dili (dilləri) bilsələr də, tərcüməçi vəzifəsini yerinə yetirə bilməzlər.

53.5. Tərcüməçi müqavilə əsasında dəvət olunur. Müqavilədə tərəflərin hüquq və vəzifələri, bilə-bilə yanlış tərcüməyə görə tərcüməçinin məsuliyyəti və mülki qanunvericiliyə müvafiq olaraq digər məsələlər müəyyən edilə bilər.

**Maddə 54. Baxış və götürmə zamanı videoçəkilişdən istifadə**

54.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda yoxlama keçirərkən rəqabət orqanı tərəfindən baxış və götürmə fasiləsiz videoçəkiliş aparılmaqla həyata keçirilir.

54.2. Baxış və götürmə haqqında protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeyd aparılır və videoçəkilişi əks etdirən məlumat daşıyıcısı həmin protokola əlavə olunur.

**Maddə 55. Tərtib edilən protokollara dair ümumi tələblər**

55.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda rəqabət orqanı tərəfindən protokol tərtib edilir.

55.2. Protokolda aşağıdakılar qeyd edilir:

55.2.1. protokolun adı;

55.2.2. konkret hərəkətlərin həyata keçirilməsinin yeri və tarixi;

55.2.3. hərəkətin başlanma və başa çatma vaxtı;

55.2.4. protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

55.2.5. hərəkətin həyata keçirilməsində iştirak edən şəxslərin soyadı, adı, atasının adı, ünvanı, vətəndaşlığı, şəxsiyyətini təsdiq edən sənədin seriyası (olduğu halda), nömrəsi və verilmə tarixi;

55.2.6. hərəkətin məzmunu, onun həyata keçirilməsinin ardıcıllığı;

55.2.7. hərəkətin həyata keçirilməsi zamanı aşkar olunan və iş üçün əhəmiyyətli olan faktlar və hallar;

55.2.8. bu Məcəlləyə uyğun olaraq sənədlər və ya əşyalar nümunə kimi götürüldükdə sənədlərin və ya əşyaların miqdarı, həcmi və digər xüsusi əlamətləri.

55.3. Hərəkətin həyata keçirilməsində iştirak edən bütün şəxslərə protokol tanış olmaq üçün təqdim edilir. Həmin şəxslərin protokola daxil edilməli olan qeydlər etmək hüququ vardır.

55.4. Protokol onu tərtib etmiş rəqabət orqanının vəzifəli şəxsi, habelə hərəkətin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən imzalanır. Bazar subyekti protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda qeyd edilir. Bazar subyektinin izahat vermək və protokolun məzmunu barədə öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququ vardır. Onun bu izahatı və mülahizələri protokola əlavə olunur.

55.5. Protokolun surəti yoxlanılan bazar subyektinə təqdim edilir.

**Maddə 56. Sənəd və məlumatların rəqabət orqanına təqdim edilməsi**

56.1. Rəqabət orqanı rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini həyata keçirmək, habelə bu Məcəlləyə əsasən öz vəzifələrini yerinə yetirmək üçün bazar subyektlərindən araşdırma ilə bağlı bütün zəruri məlumatların 10 (on) iş günü müddətində təqdim edilməsini tələb edə bilər. Bu müddət bazar subyektinin əsaslandırılmış müraciəti əsasında əlavə 10 (on) iş günü müddətinə uzadıla bilər.

56.2. Məlumatların təcili təqdim edilməsi zəruri olan hallarda rəqabət orqanı zərurəti əsaslandırmaqla bazar subyektlərindən belə məlumatların 3 (üç) iş günü müddətində təqdim edilməsini tələb edir.

56.3. Araşdırmaların aparılması üçün bazar subyektləri rəqabət orqanının müraciətinə əsasən tələb edilən bütün zəruri sənədləri və məlumatları vaxtında və tam həcmdə təqdim etməlidir. Müraciətdə məlumatların təqdim edilməməsinə, yaxud natamam və ya yanlış məlumatın göndərilməsinə görə qanunla nəzərdə tutulmuş məsuliyyət barədə məlumatlar öz əksini tapmalıdır.

56.4. Bazar subyektləri tələb olunan məlumatın vaxtında, düzgün və tam şəkildə rəqabət orqanına təqdim edilməməsinə görə bu Məcəllənin 77.1.1-ci maddəsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 57. Rəqabət orqanı tərəfindən sənədlərin təqdim edilməsi**

57.1. Sənədlər (onların surətləri) rəqabət orqanı tərəfindən bazar subyektinə və istehlakçıya sifarişli poçt rabitəsi, yaxud elektron üsulla göndərilməli və ya təqdim edilməlidir.

57.2. Bu Məcəllənin 57.1-ci maddəsinə uyğun olaraq sifarişli poçt göndərişi vasitəsilə göndərilmiş sənədləri bazar subyekti qəbul etməkdən imtina etdikdə həmin sənədlər ona "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çatdırılmış hesab edilir.

*Ardı 18-ci səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 17-ci səh.*

**Maddə 58. Sübut etmə vəzifəsi**

58.1. Bu Məcəllənin 11-ci, 12-ci, 16-cı (bu Məcəllənin 16.3-16.6-cı maddələri istisna edilməklə), 18.3-cü və 20-25-ci maddələrinin müddəalarının pozulmasının sübuta yetirilməsi vəzifəsi şikayət verən şəxsin, araşdırma rəqabət orqanının təşəbbüsü ilə aparıldıqda isə rəqabət orqanının üzərinə düşür.

58.2. Bu Məcəllənin 13.1-ci, 14.1-ci, 16.3-16.6-cı və 28.3-cü maddələri ilə müəyyən olunmuş şərtlərin təmin edilməsinin sübuta yetirilməsi vəzifəsi barəsində iş qaldırılan təsərrüfat subyektinin üzərinə düşür.

58.3. Bu Məcəllənin 7-ci fəsli (bu Məcəllənin 28.3-cü maddəsi istisna olmaqla) ilə müəyyən edilən təmərküzləşmələrə razılıq verilməsi zamanı rəqabətin məhdudlaşdırılmasının sübuta yetirilməsi vəzifəsi rəqabət orqanının üzərinə düşür və bu zaman təsərrüfat subyektləri tərəfindən təmərküzləşmələrlə bağlı bu Məcəllə əsasında tələb olunan məlumatlar tam və düzgün şəkildə təqdim olunmalıdır. Rəqabət orqanı tərəfindən həmin məlumatların məxfiliyi və konfidensiallığı qorunmalıdır.

**Maddə 59. Müvəqqəti tədbirlər**

59.1. Rəqabət orqanı tərəfindən aparılan dövlət nəzarət tədbirinin həyata keçirilməsi zamanı mötəbər sübutlar əsasında bazar subyektinin hərəkətlərinin rəqabətin məhdudlaşdırılmasına əhəmiyyətli və ya bərpaolunmaz təsiri məlum olan hallarda rəqabət orqanının əsaslandırılmış qərarı əsasında həmin hərəkətləri dayandıran və ya onların qarşısını alan müvəqqəti tədbir görülməsi haqqında icrası məcburi göstəriş verilir.

59.2. Bu Məcəllənin 59.1-ci maddəsində qeyd olunan göstərişdə müvəqqəti tədbirin məqsədi, əsasları və müddəti qeyd edilir. Göstərişin qüvvədəolma müddəti araşdırma və işə baxılması müddətində ümumilikdə 1 (bir) ildən çox olmamaqla uzadıla bilər.

59.3. Bu Məcəllənin 59.1-ci maddəsinə uyğun olaraq rəqabət orqanı tərəfindən verilən məcburi göstərişdən bu Məcəllənin 83-cü maddəsinə uyğun olaraq məhkəməyə şikayət verilə bilər. Şikayətin təqdim edilməsi rəqabət orqanı tərəfindən göstəriş verilən müvəqqəti tədbirin icrasını təxirə salmır.

59.4. Müvəqqəti tədbirin verilməsinə səbəb olan hallar aradan qaldırılarsa, rəqabət orqanı bu Məcəllənin 59.1-ci maddəsində qeyd olunan göstərişi vaxtından əvvəl ləğv edir.

**Maddə 60. Bazar subyektləri tərəfindən qanun pozuntusunun könüllü aradan qaldırılması**

60.1. Rəqabət orqanı tərəfindən aparılan araşdırma və ya yoxlama çərçivəsində bu Məcəllənin 77.1-ci maddəsində qeyd edilən qanun pozuntularının könüllü aradan qaldırılması ilə bağlı bazar subyektinin müraciəti əsasında rəqabət orqanının qərarı ilə araşdırma və ya yoxlama üzrə icraat dayandırılır və həmin qanun pozuntularının aradan qaldırılması üçün bazar subyektinə 3 (üç) aya qədər vaxt müəyyən edilir.

60.2. Rəqabət orqanı tərəfindən aparılan araşdırma və ya yoxlama çərçivəsində barəsində araşdırma aparılan bazar subyektinin hərəkətlərində bu Məcəllənin 77.1.1-ci maddəsində qeyd edilən qanun pozuntusunu aşkar edildikdə, bazar subyektinə həmin pozuntunun mahiyyəti izah edilir və onun aradan qaldırılması üçün 10 (on) gün vaxt müəyyən edilir. Pozuntunun könüllü aradan qaldırılması ilə bağlı əlavə vaxt tələb olunduğu halda bazar subyektinin müraciəti əsasında rəqabət orqanının qərarı ilə bu Məcəllənin 60.1-ci maddəsi tətbiq edilir.

60.3. Qərar qəbul etməzdən əvvəl bazar subyektinin müraciətində verilən təkliflərin qanun pozuntusunun aradan qaldırılması baxımından yetərliliyinin qiymətləndirilməsi üçün rəqabət orqanı təkliflərin əsas məzmununu rəsmi internet səhifəsində dərc edir və bununla bağlı maraqlı tərəfləri dərc edilmiş məlumatda göstərilmiş formada və müddətdə rəy bildirməyə dəvət edir. Rəqabət orqanı təkliflərin təqdim edilməsi üçün 30 (otuz) günədək müddət müəyyən edir.

60.4. Rəqabət orqanı bazar subyekti tərəfindən qanun pozuntularının könüllü aradan qaldırılması ilə bağlı öhdəliklərinin yerinə yetirilmədiyini və ya qərarın qəbul edilməsi üçün təqdim olunmuş məlumatların natamam və yanlış olduğunu aşkar etdikdə, bu Məcəllənin 60.1-ci maddəsində qeyd edilən qərarını ləğv edir, araşdırma və ya yoxlama üzrə prosedurları bərpa edir.

## 11-ci fəsil
## RƏQABƏT QANUNVERİCİLİYİNİN POZULMASI HAQQINDA İŞLƏRƏ BAXILMASI

**Maddə 61. Rəqabət komissiyası tərəfindən işə baxılması**

61.1. Rəqabət orqanı tərəfindən aparılan araşdırmalar və yoxlamalar zamanı bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətlərinin müəyyən edilməsi həmin subyektlər barəsində iş qaldırılması üçün əsasdır. Rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılması rəqabət komissiyasının qərarı əsasında həyata keçirilir. Qərar 5 (beş) iş günü müddətində işin tərəflərinə təqdim olunur.

61.2. İş qaldırılması haqqında qərarda bütün mühüm faktlar, pozuntunun müəyyən edilməsinə hüquqi əsas, işə baxılması müddəti və cavabdehin rəqabət orqanına öz mövqeyini əsaslandırmaq üçün etirazlarını, mülahizələrini və sübutlarını təqdim etmə müddəti göstərilməlidir.

61.3. Öz mövqeyini əsaslandırmaq məqsədilə etirazlarını, mülahizələrini və sübutlarını təqdim etmək üçün işin tərəflərinə 10 (on) iş günündən az olmayan müddət müəyyən edilir.

61.4. Rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə işə rəqabət komissiyası tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılması haqqında qərar çıxarıldığı vaxtdan 3 (üç) ay müddətinə baxılır. İşə baxılması üçün əlavə müddət tələb olunduqda həmin müddət rəqabət komissiyasının əsaslandırılmış qərarına əsasən hər dəfə 3 (üç) ay müddətinə uzadılmaqla 9 (doqquz) ayadək artırıla bilər.

61.5. Rəqabət komissiyası tərəfindən işlərə qapalı və açıq iclaslarda baxılır. İnformasiyanın, qanunla qorunan hər hansı sirrin açıqlanmasının yolverilməz olduğu hallarda, proses iştirakçılarının şəxsi və ya ailə həyatının toxunulmazlığının təmin edilməsinin tələb olunduğu hallarda, yetkinlik yaşına çatmayan şəxslərin maraqlarının qorunmasının zəruri olduğu hallarda, habelə proses iştirakçılarının və ya digər şəxslərin həyatı, sağlamlığı və ya azadlığı üçün təhlükə yarandığı hallarda proses iştirakçılarının müraciəti və ya rəqabət komissiyasının təşəbbüsü ilə işə baxılma iclası qapalı keçirilə bilər. Rəqabət komissiyasının iclası komissiyanın sədri və üzvlərinin azı yarısı iştirak etdikdə səlahiyyətlidir.

61.6. Rəqabət komissiyasının formalaşdırılması, hüquq və vəzifələri, fəaliyyətinin təşkili, iclaslarının keçirilməsi qaydası, iclas protokollarına və qəbul etdiyi qərarlara dair tələblər bu Məcəllənin 8.2-ci maddəsinə uyğun olaraq təsdiq edilən qaydalarla müəyyən edilir.

**Maddə 62. Rəqabət komissiyası tərəfindən baxılan işin tərəfləri**

62.1. Rəqabət komissiyasında baxılan işin tərəfləri aşağıdakılardır:

62.1.1. ərizəçi;

62.1.2. cavabdeh;

62.1.3. maraqlı tərəflər.

62.2. Rəqabət qanunvericiliyinin pozulmasına görə işin tərəflərinin hüquqları aşağıdakılardır:

62.2.1. yol verilmiş pozuntuya görə məsuliyyət barədə məlumatlandırılmaq;

62.2.2. işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək, surətini çıxarmaq;

62.2.3. işə baxılmasında şəxsən, yaxud nümayəndəsi vasitəsilə iştirak etmək;

62.2.4. məlumatları təqdim etmək və izahatlar vermək;

62.2.5. işin halları üzrə vəsatət qaldırmaq və ya etiraz etmək;

62.2.6. öz hesabına nümayəndənin, vəkilin və ya digər şəxslərin hüquqi xidmətindən istifadə etmək;

62.2.7. öz hesabına tərcüməçinin xidmətindən istifadə etmək;

62.2.8. rəqabət qanunvericiliyinə uyğun olaraq götürülmüş əşyaları və sənədləri normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada geri almaq;

62.2.9. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlar.

62.3. İşə baxılmanın yeri və vaxtı haqqında lazımi qaydada xəbərdar edilmiş şəxs (onun nümayəndəsi) işə baxılmasına üzrsüz səbəbdən gəlmədikdə və işə baxılmanın təxirə salınması barədə vəsatət təqdim etmədikdə, yaxud belə vəsatət rəqabət komissiyası tərəfindən rədd edildikdə, işə həmin şəxsin (onun nümayəndəsinin) iştirakı olmadan baxılır.

62.4. Rəqabət qanunvericiliyinin pozulması haqqında işin tərəflərinin vəzifələri aşağıdakılardır:

62.4.1. rəqabət orqanının çağırışı üzrə gəlmək;

62.4.2. rəqabət orqanının tələbi ilə məlumatları təqdim etmək və izahat vermək;

62.4.3. rəqabət orqanının tələbi ilə maddi sübut olan sənədləri (onların təsdiq olunmuş surətini) və əşyaları (onların nümunələrini) təqdim etmək;

62.4.4. rəqabət komissiyasının iclaslarında iştirak etmək;

62.4.5. qanunla qorunan məxfi və konfidensial məlumatları yaymamaq.

**Maddə 63. İş üzrə dinləmələr**

63.1. Rəqabət komissiyası işin mahiyyəti ilə əlaqəli bazar subyektlərindən, onların işçilərindən, habelə işdə iştirak edən digər şəxslərdən izahat ala bilər.

63.2. Rəqabət qanunvericiliyinin pozulması haqqında iş üzrə izahat verməli şəxslər məktubla, teleqramla və ya elektron rabitə vasitələrindən istifadə edilməklə çağırıla bilərlər.

63.3. Rəqabət komissiyası rəqabət qanunvericiliyinin pozulmasına görə işin tərəflərindən ayrı-ayrılıqda izahat alır.

63.4. İzahat alınmazdan əvvəl rəqabət komissiyası izahatı alınan şəxsin şəxsiyyətini, onun vəzifəsini və baxılan işə aidiyyətini müəyyənləşdirir, tərcüməçinin xidmətinə ehtiyacını aydınlaşdırır, hüquq və vəzifələrini ona izah edir.

63.5. İş üzrə dinləmələr zamanı rəqabət komissiyası işin mahiyyəti üzrə aşağıdakıları aydınlaşdırır:

63.5.1. cavabdehin rəqabət qanunvericiliyinin pozulmasında özünü təqsirli bilməsini;

63.5.2. cavabdehin rəqabət qanunvericiliyinin pozulması faktını təsdiq etməsini.

63.6. Rəqabət komissiyası şahid və digər şəxs qismində çağırılanlara hansı məqsədlə çağırıldıqlarını bildirir və işin mahiyyəti üzrə öz izahatını verməsini təklif edir. Bundan sonra çağırılan şəxsə suallar verilir.

**Maddə 64. Rəqabət qanunvericiliyinin pozulması haqqında baxılan iş üzrə sübuta yetirilməli olan hallar**

64.1. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılması zamanı aşağıdakılar sübut edilməlidir:

64.1.1. rəqabət qanunvericiliyinin pozulması, bu hadisənin başvermə vaxtı və yeri;

64.1.2. rəqabət qanunvericiliyini pozan bazar subyekti və onun vəzifəli şəxsləri;

64.1.3. bazar subyektinin və (və ya) vəzifəli şəxsinin təqsiri;

64.1.4. rəqabət qanunvericiliyinin pozulması nəticəsində əldə olunmuş qanunsuz gəlir müəyyən olunduqda onun məbləği.

**Maddə 65. Rəqabət qanunvericiliyinin pozulmasının sübutları**

65.1. Rəqabət qanunvericiliyinin pozulmasını, buna görə məsuliyyətə cəlb edilən bazar subyektinin (onun vəzifəli (məsul) şəxsinin) təqsirini və işin mahiyyəti üzrə əhəmiyyət kəsb edən digər halları müəyyən etmək məqsədilə rəqabət orqanının vəzifəli şəxsinin bu Məcəllə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada əsas kimi götürə bildiyi faktiki məlumatlar və əşyalar rəqabət qanunvericiliyinin pozulması haqqında işlər üzrə sübut hesab edilir.

65.2. Bazar subyektlərinin vəzifəli şəxsləri tərəfindən rəsmiləşdirilmiş, iş üçün əhəmiyyət kəsb edən faktları və halları əks etdirən qərarlar, aktlar, arayışlar, məlumatlar (o cümlədən fotoşəkillər və audiovizual materiallar), izahatlar və digər sənədlər (o cümlədən qanunvericiliyə müvafiq olaraq aşkar edilmiş və rəsmiləşdirilmiş elektron sənədlər və yazışmalar) rəqabət qanunvericiliyinin pozulması haqqında iş üzrə yazılı sübut hesab olunur.

65.3. Rəqabət qanunvericiliyinin pozulması haqqında iş üçün aşağıdakılar maddi sübut hesab edilir:

65.3.1. rəqabət qanunvericiliyinin pozulmasının bilavasitə obyekti olan əşyalar;

65.3.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə cavab verməyən, o cümlədən saxta, keyfiyyətsiz, yararlılıq müddəti başa çatmış, habelə qanunla tələb olunduqda markalanması, lazımi məhsul görünüşü, gigiyenik, uyğunluq, mənşə sertifikatı, keyfiyyəti və təhlükəsizliyini təsdiq edən sənədləri olmayan, yaxud piratçılıq yolu ilə əldə edilmiş mallar;

65.3.3. rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılması üçün lazım olan sənədlər və əşyalar, o cümlədən elektron məlumat daşıyıcıları.

65.4. Maddi sübutların növü, miqdarı, çəkisi və əlamətləri təfərrüatı ilə rəqabət orqanı tərəfindən tərtib olunmuş protokolda təsvir olunur, habelə onların fotoşəkilləri işə əlavə edilir. Maddi sübutlar onların bütövlüyü və tədqiq (sınaq) zamanı uyğunluğu yoxlanacaq parametrlərin tədqiq (sınaq) aparılacaq yerə çatdırılması üçün kifayət edən vaxt ərzində dəyişməz qalacaq şəkildə qablaşdırılmalı və qablaşdırmanın bütövlüyü pozulmadan onu açmağın mümkün olmayacağı şəkildə möhürlənməlidir.

65.5. Bazar subyektləri maddi sübutun əlamətləri olan sənədləri və əşyaları rəqabət orqanının vəzifəli şəxsinə təqdim etməlidirlər.

65.6. Yoxlama zamanı və ya bazar subyektinin özünün təqdim etdiyi hallarda, rəqabət orqanının rəhbəri rəqabət qanunvericiliyinin pozulmasına dair sübutların götürülməsi haqqında qərar qəbul edir. Maddi sübutlar bu Məcəllənin 50-ci maddəsi ilə müəyyən edilmiş qaydada götürülür. Rəqabət orqanının vəzifəli şəxsi rəqabət qanunvericiliyinin pozulması haqqında işin nəticələri üzrə qərar qüvvəyə mindikdən sonra 30 (otuz) gün müddətində (habelə inzibati və (və ya) məhkəmə qaydasında mübahisələndirildikdə müvafiq qərar qüvvəyə minənədək) maddi sübutların qorunub saxlanılması üçün zəruri tədbirlər görməlidir. Bu müddət bitdikdən sonra rəqabət orqanı maddi sübutlar haqqında qərar (sübutun qaytarılması və ya məhv edilməsi) qəbul etməlidir.

65.7. Rəqabət orqanı tərəfindən götürülmüş maddi sübutlar işin nəticələri üzrə müvafiq qərar qəbul edildiyi tarixdən bu Məcəllənin 65.6-cı maddəsində müəyyən edilmiş müddətdə özünün müvəqqəti saxlanc anbarlarında, yaxud qanun pozuntusuna yol vermiş bazar subyektinin bina və anbarlarında müvəqqəti saxlanması üçün yerləşdirilir. Maddi sübutların yerləşdirildiyi sahələr (anbarlar) möhürlənməlidir. İş inzibati və (və ya) məhkəmə qaydasında mübahisələndirildiyi təqdirdə bu müddət rəqabət orqanının əsaslandırılmış qərarı ilə məhkəmənin qərarı qüvvəyə minənədək uzadıla bilər.

65.8. Rəqabət orqanı tərəfindən götürülmüş tez xarab olan maddi sübut kimi götürülmüş mallar satılmaq üçün bu Məcəllənin 65.10-cu maddəsində müəyyən edilmiş qaydada ixtisaslaşmış təşkilatlara verilir, bu mümkün olmadıqda və ya satılmasına qanunla yol verilmədikdə isə məhv edilir. İşin nəticəsi üzrə bazar subyekti tərəfindən rəqabət qanunvericiliyinin pozulması müəyyən edilmədikdə satılmış və ya məhv edilmiş sübut qismində götürülmüş məhsulun dəyəri bu Məcəllənin 65.11-ci maddəsi ilə müəyyən edilmiş qaydada bazar subyektinə ödənilir.

65.9. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına zidd olaraq özgənin əmtəə nişanından, sənaye və əqli mülkiyyət hüquqlarından, reklam materiallarından, qablaşdırmaformalarından istifadə olunması və ya mal və xidmətlərin təqlidi, yaxud bu Məcəllənin 22-ci və 23-cü maddələrinin tələblərinin pozulması halları müəyyən edildikdə, rəqabət orqanının vəzifəli şəxsi tərəfindən protokollaşdırılaraq, mallar həm istehsalçıdan, həm də satıcıdan götürülür.

65.10. Bu Məcəllənin 65-ci maddəsinə əsasən götürülmüş malların digər məqsədlər üçün istifadəsi, satılması, qaytarılması, məhv edilməsi və ya dəyərinin ödənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

65.11. Rəqabət qanunvericiliyinin pozulması haqqında iş üzrə sübutlar hərtərəfli, tam və obyektiv qiymətləndirilməlidir. Qiymətləndirilməmiş sübutlar iş üzrə qərar qəbul edilərkən sübut kimi nəzərə alınmır.

65.12. Rəqabət orqanının sorğularına bazar subyekti tərəfindən qəsdən yalan və ya natamam məlumatların verildiyi aşkar edildikdə, bu hal sübutların qiymətləndirilməsi zamanı həmin məlumatları təqdim etmiş bazar subyektinin əleyhinə istifadə oluna bilər.

65.13. Bu Məcəlləyə zidd olaraq əldə olunan sübutlardan istifadə edilməsinə yol verilmir.

**Maddə 66. Rəqabət komissiyasının qərarları**

66.1. Rəqabət qanunvericiliyinin pozulması haqqında qaldırılmış işlər üzrə rəqabət komissiyası aşağıdakı qərarları qəbul edir:

66.1.1. işə baxılmasının təxirə salınması haqqında;

66.1.2. işlərin bir icraatda birləşdirilməsi haqqında;

66.1.3. konkret hallar üzrə ayrı-ayrı işlərə ayrılması haqqında;

66.1.4. işə baxılmasının dayandırılması haqqında;

66.1.5. baxılması dayandırılmış işin bərpası haqqında;

66.1.6. işə baxılmasına xitam verilməsi haqqında;

66.1.7. rəqabət qanunvericiliyinin pozulması və tətbiq edilən məsuliyyət tədbirləri haqqında;

66.1.8. iş üzrə materialların aidiyyəti dövlət orqanlarına göndərilməsi haqqında;

66.1.9. işə yenidən baxılması haqqında.

66.2. Bu Məcəllənin 66.1-ci maddəsinə uyğun olaraq rəqabət komissiyasının qəbul etdiyi qərarda aşağıdakılar qeyd olunmalıdır:

66.2.1. rəqabət komissiyası sədrinin və üzvlərinin soyadı, adı, atasının adı, vəzifəsi;

66.2.2. işin baxıldığı tarix, yer və ünvan;

66.2.3. haqqında işə baxılan bazar subyekti barədə məlumat;

66.2.4. iş üzrə baxılan hallar;

66.2.5. qanun pozuntusu kimi qiymətləndirilən hərəkətlərin təsbit olunduğu normativ hüquqi aktların müddəaları;

66.2.6. rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət nəzərdə tutan müvafiq normativ hüquqi aktın normaları;

66.2.7. müvafiq halda iş üzrə icraatın birləşdirilməsinin və ya ayrılmasının əsasları;

66.2.8. müvafiq halda baxılan işin dayandırılmasının və ya ona xitam verilməsinin əsasları;

66.2.9. qərardan şikayət verilməsinin müddəti və qaydası;

66.2.10. malların və nümunə kimi götürülən əşyaların miqdarı, dəyəri, sənədlərin adı və digər maddi sübutlar və onların qiymətləndirilməsi barədə məlumatlar;

66.2.11. iş üzrə rəqabət komissiyası tərəfindən müəyyən edilən hallar, çıxarılan nəticələr, həmin nəticələrin qanun üzrə əsaslandırması və bu nəticələr üzrə yerinə yetirilməsi zəruri olan tələblər (qanun pozuntularının aradan qaldırılması və yol verilmiş qanun pozuntularına görə məsuliyyət tədbirlərinin tətbiqi və sazişlərin ləğv edilməsi, yaxud müqavilələrin məcburi bağlanması).

66.3. İşə baxılması üzrə tələb olunan materiallar vaxtında təqdim edilmədikdə, rəqabət komissiyası təsərrüfat subyektlərinin mənafeyinə, yaxud ictimai mənafeyə zərər vuran halların qarşısını almaq məqsədilə, həmin hallar üzrə işə baxılmasını yekunlaşdırmadan, qanun pozuntusunun təxirə salınmadan dayandırılması və (və ya) tələb edilən materialların vaxtında təqdim edilməməsinə görə maliyyə sanksiyalarının tətbiq edilməsi haqqında qərar qəbul edir.

66.4. Rəqabət komissiyası tərəfindən bu Məcəllənin 66.1.6-cı və 66.1.7-ci maddələrində qeyd edilən qərarlar 10 (on) iş günü müddətində, digər qərarlar isə 5 (beş) iş günü müddətində işin tərəflərinə təqdim edilir.

66.5. Rəqabət komissiyanın qərarlarının nəticələrinə dair məlumatlar rəqabət orqanının rəsmi internet səhifəsində dərc edilir.

**Maddə 67. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının təxirə salınması, iş üzrə icraatın birləşdirilməsi və ayrılması**

67.1. Rəqabət komissiyası müddəti və səbəbləri göstərməklə, aşağıdakı hallarda rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının təxirə salınması barədə qərar qəbul edir:

67.1.1. tərəflərdən (onların nümayəndələrindən) üzrlü səbəbdən iclasa gəlmək imkanının olmadığı barədə əsaslandırılmış vəsatət daxil olduqda;

67.1.2. iş üzrə əlavə sübutlara (o cümlədən sənəd və məlumatlara) zərurət yarandıqda;

67.1.3. rəqabət komissiyası tərəfindən iclasda ekspertlərin iştirakı zəruri hesab edildikdə;

67.1.4. işə baxılmasına mane olan digər hallarda.

67.2. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılması təxirə salınarkən işə baxılma müddəti dayandırılmır.

67.3. Rəqabət komissiyası tərəfindən aşağıdakı hallarda işlərin icraatının birləşdirilməsi haqqında qərar qəbul edilir:

67.3.1. eyni bazar subyekti barəsində mahiyyətcə eyni olan qanun pozuntusu halları üzrə müxtəlif işlərə baxıldıqda;

67.3.2. baxılan işlərdə qanun pozuntusuna yol verməsi iddia olunan bazar subyekti haqqında eyni hallar üzrə yeni müraciətlər daxil olduqda;

67.3.3. baxılan bir neçə işin tərəfləri eyni bazar subyektləri olduqda.

67.4. Rəqabət komissiyası aşağıdakı hallarda iş üzrə icraatın ayrılması haqqında qərar qəbul edir:

67.4.1. işdə baxılan hallar ayrı-ayrı şəxslərin mənafeyi ilə bağlı olduqda və onların eyni vaxtda yekunlaşdırılması mümkün olmadıqda (əlavə sübutlar, araşdırma, ekspertiza və s. tələb olunduqda);

67.4.2. işə baxılması zamanı araşdırılan hallarla bilavasitə əlaqəsi olmayan digər qanun pozuntusu aşkar edildikdə;

67.4.3. işə baxılmasını mürəkkəbləşdirən, sübuta yetirilmiş qanun pozuntuları ilə bağlı olmayan digər hal yarandıqda.

**Maddə 68. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının dayandırılması**

68.1. Rəqabət komissiyası müddəti, səbəbləri və bununla bağlı görülməli olan tədbirlər göstərilməklə, aşağıdakı hallarda rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasının dayandırılması haqqında qərar qəbul edir:

68.1.1. həmin işin mahiyyəti ilə əlaqədar məhkəmələrdə və ya aidiyyəti dövlət orqanlarında işə baxıldıqda;

68.1.2. məhkəmələrdə və ya aidiyyəti dövlət orqanlarında, həmçinin rəqabət orqanında baxılmaqda olan başqa işin nəticələrinin rəqabət komissiyasında baxılan iş üçün əhəmiyyəti olduqda;

68.1.3. ekspertiza aparılması və ya mütəxəssis rəyinin alınması zərurəti yarandıqda;

68.1.4. işlə əlaqədar müvafiq sorğular verilməsi və yerində yoxlama aparılması zərurəti yarandıqda;

68.1.5. cari vəziyyətdə işə baxılmasını qeyri-mümkün edən digər hallarda.

68.2. İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan sonra işə baxılması rəqabət komissiyasının qərarı ilə davam etdirilir və həmin gündən müddət axımı bərpa olunur.

**Maddə 69. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə baxılmasına xitam verilməsi**

69.1. Rəqabət komissiyası aşağıdakı hallarda rəqabət qanunvericiliyinin pozulması haqqında işlərin baxılmasına xitam verilməsi haqqında əsaslandırılmış qərar qəbul edir:

69.1.1. bu Məcəllənin 77.1-ci maddəsində qeyd olunan pozuntunu törədən şəxs iş qaldırılmazdan əvvəl qanun pozuntusunu bu Məcəllənin 60-cı maddəsinə uyğun olaraq könüllü surətdə aradan qaldırdıqda;

69.1.2. rəqabət qanunvericiliyinin pozulması iş üzrə araşdırmalar zamanı təsdiq olunmadıqda və ya sübuta yetirilmədikdə;

69.1.3. rəqabət qanunvericiliyinin pozulmasına yol vermiş şəxs, bu Məcəllənin 13.1-ci, 16.4-cü və 28.3-cü maddələrinə uyğun olaraq məsuliyyətdən azad edildikdə;

69.1.4. rəqabət qanunvericiliyinin pozulması halı üzrə məsuliyyətə cəlbetmə müddəti keçdikdə;

69.1.5. fiziki şəxs vəfat etdikdə və ya hüquqi şəxs ləğv edildikdə;

69.1.6. pozuntunu törədən təsərrüfat subyektini və ya onun olduğu yeri müəyyən etmək mümkün olmadıqda.

**Maddə 70. Rəqabət qanunvericiliyinin pozulmasına və məsuliyyət tədbirlərinin tətbiqinə dair qərarlar**

Rəqabət qanunvericiliyinin pozulması sübuta yetirildikdə rəqabət komissiyası rəqabət qanunvericiliyinin pozulmasına və məsuliyyət tədbirlərinin tətbiqinə dair qərar qəbul edir.

**Maddə 71. Qərarların elan edilməsi**

71.1. Rəqabət komissiyası tərəfindən qəbul edilən qərarın nəticə hissəsi, həmçinin qərardan şikayət etmə qaydası və müddəti qərar qəbul edildikdən sonra elan edilir.

71.2. Qəbul edilən qərar tərəflərə təqdim olunduğu gündən qüvvəyə minir.

**Maddə 72. Rəqabət qanunvericiliyinin pozulmasının aradan qaldırılması barədə göstərişin verilməsi**

72.1. Qanun pozuntusuna yol vermiş bazar subyektlərinə rəqabət komissiyasının yekun qərarı əsasında həmin pozuntuların aradan qaldırılması və qərarda icrası zəruri hesab edilən digər hərəkətlərin yerinə yetirilməsi barədə rəqabət orqanı tərəfindən icrası məcburi göstəriş verilir.

*Ardı 19-cu səh.*

# Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi

*Əvvəli 18-ci səh.*

72.2. Göstərişdə qanun pozuntusunun dayandırılması və (və ya) onun nəticələrinin aradan qaldırılması ilə bağlı konkret tələblər, yerinə yetirilməli olan hərəkətlər və onların yerinə yetirilməsi müddəti əks olunmalıdır.

72.3. Rəqabət qanunvericiliyinin pozulmasının aradan qaldırılması barədə göstəriş rəqabət komissiyası tərəfindən qərar qəbul edildiyi tarixdən 10 (on) iş günü müddətinə qanun pozuntusuna yol vermiş işin tərəflərinə təqdim edilir.

**Maddə 73. Rəqabət qanunvericiliyinin pozulmasının aradan qaldırılması barədə göstərişin cavabdeh tərəfindən icrası**

73.1. Bu Məcəllənin 49.2.1.1-ci və 66.1.7-ci maddələrində qeyd olunmuş qərarların icrası ilə bağlı qanun pozuntusuna yol vermiş bazar subyektinə rəqabət orqanı tərəfindən rəqabət qanunvericiliyinin pozulmasının dayandırılması və (və ya) nəticələrinin aradan qaldırılması barədə göstəriş verilir.

73.2. Rəqabət qanunvericiliyinin pozulmasının dayandırılması və (və ya) nəticələrinin aradan qaldırılması barədə rəqabət orqanının göstərişi onun təqdim edildiyi tarixdən göstərişlə müəyyən edilmiş müddət ərzində bazar subyekti tərəfindən icra olunmalıdır. Cavabdehin hərəkətlərinin rəqabətin məhdudlaşdırılmasına əhəmiyyətli və ya bərpaolunmaz təsiri məlum olan hallarda göstərilən müddət rəqabət orqanının əsaslandırılmış qərarı əsasında azaldıla və ya bazar subyektinin əsaslandırılmış vəsatəti üzrə artırıla bilər.

73.3. Göstərişin icra müddətinin bitməsinə 10 (on) iş günü (icra müddəti 20 (iyirmi) gündən az olan göstərişlər üzrə isə 3 (üç) iş günü) qalanadək bazar subyektinin əsaslandırılmış vəsatəti üzrə rəqabət orqanı bu müddətin 3 (üç) aydan çox olmayan müddətə uzadılması haqqında qərar qəbul edir.

73.4. Göstərişin vaxtında icra edilməməsi onun icrasından yayınma və ya qismən icra olunması hesab edilir və bu Məcəllənin 12-ci fəsli ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

73.5. Bazar subyektləri rəqabət orqanının qərar və göstərişlərinitam və qismən icra etmədikdə, bununla bağlı maliyyə sanksiyası tətbiq edildikdən sonra həmin qərarda qeyd olunmuş müddətdə icra olunmadıqda həmin qərar və göstərişlərin məcburi icrasını təmin etmək məqsədilə rəqabət orqanı məhkəmədə iddia qaldırır.

73.6. Bazar subyektinin rəqabət qanunvericiliyinə zidd olaraq qəbul etdiyi qərarların (aktların) ləğvi və ya qismən dəyişdirilməsi haqqında göstəriş yerinə yetirilmədikdə, rəqabət orqanı onların tam və ya qismən ləğv edilməsi öhdəliyinin həmin bazar subyektinin üzərinə qoyulması, yaxud rəqabət qanunvericiliyinin pozulması baş verənədək mövcud olmuş vəziyyətin məcburi bərpa olunması haqqında məhkəmədə iddia qaldırır.

73.7. Rəqabət qanunvericiliyinin pozulmasına yol verilməklə bağlanılmış sazişlərin və müqavilələrin ləğvi və ya dəyişdirilməsi, həmçinin bazarın digər subyektləri ilə sazişlərin və müqavilələrin məcburi qaydada bağlanılması, habelə razılıq alınmadan həyata keçirilən və rəqabəti məhdudlaşdıran təmərküzləşmələrə yol vermiş təsərrüfat subyektlərinin (maliyyə institutlarına münasibətdə Mərkəzi Bankla razılaşdırmaqla) bölünməsi haqqında göstəriş icra edilmədikdə, rəqabət orqanı onların tam və ya qismən etibarsız hesab edilməsi (etibarsızlığının təsdiq edilməsi) və nəticələrinin tətbiq edilməsi, yaxud məcburi qaydada bağlanılması barədə iddia ilə məhkəməyə müraciət edir.

73.8. Bazar subyektləri tətbiq edilmiş maliyyə sanksiyalarını vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda, rəqabət orqanı maliyyə sanksiyalarının, yaxud onların ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul edir və bu qərarın məcburi icrası "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən icra məmurları tərəfindən həyata keçirilir.

73.9. Qanunla müəyyən edilmiş hallarda rəqabət orqanı təsərrüfat subyektlərinin bank hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq hüququna malikdir.

**Maddə 74. İş üzrə materialların aidiyyəti dövlət orqanlarına göndərilməsi**

74.1. İş üzrə materialların aidiyyəti dövlət orqanlarına göndərilməsi haqqında qərar araşdırma zamanı bazar subyektinin (onun vəzifəli (məsul) şəxslərinin) əməllərində cinayət əlamətləri aşkar olunduqda qəbul edilir.

74.2. Qəbul edilmiş qərar və iş üzrə materiallar rəqabət orqanı tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və bu barədə işin tərəflərinə məlumat verilir.

74.3. Göndərilən materialların surəti rəqabət orqanında saxlanılır.

**Maddə 75. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə yenidən baxılması**

75.1. Rəqabət komissiyası iş üzrə qərar qəbul etdikdən sonra həmin işlə əlaqədar onun mahiyyəti üzrə əsaslı dəlillər olan yeni hallar aşkar edildikdə (o cümlədən işin tərəflərinin verdiyi məlumatların yanlış və ya natamam olduğu aşkarlandıqda) və həmin hallarla bağlı dəlillər araşdırılaraq işə yenidən baxılması zəruri hesab olunduqda rəqabət orqanı tərəfindən işə yenidən baxılması üçün iş üzrə materiallar rəqabət komissiyasına təqdim edilir.

75.2. Rəqabət komissiyası təqdim edilmiş materiallara baxaraq rəqabət qanunvericiliyinin pozulması əlaməti üzrə işə yenidən baxılması haqqında qərar qəbul edir. Qərarda işə yenidən baxılmasının zəruriliyi və onun əsasları təfsilatı ilə qeyd olunmalıdır. Qərar 5 (beş) iş günü müddətində işin tərəflərinə təqdim edilir.

75.3. Bu Məcəllənin 75.1-ci maddəsinə uyğun olaraq işin mahiyyəti üzrə yeni hallar barədə dəlilləri işin tərəfləri təqdim etdikdə və həmin hallarla bağlı dəlillər araşdırılaraq işə yenidən baxılması zəruri hesab olunmadıqdarəqabət komissiyası işə yenidən baxılmasından imtina barədə qərar qəbul edir və həmin qərar 5 (beş) iş günü müddətində işin tərəflərinə təqdim olunur.

75.4. Rəqabət qanunvericiliyinin pozulması haqqında işə yenidən baxılması bu Məcəllənin 11-ci fəslində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

75.5. Rəqabət orqanı tərəfindən qərara və göstərişlərə dəyişiklik edilməsi, onun etibarsız sayılması və ləğvi qaydaları bu Məcəllə və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

## 12-ci fəsil
## RƏQABƏT QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**Maddə 76. Rəqabət qanunvericiliyinin pozulması**

76.1. Bazar subyektləri, onların vəzifəli (məsul) şəxsləri, habelə rəqabət orqanının vəzifəli şəxsləri rəqabət qanunvericiliyinin pozulmasına görə qanunda müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

76.2. Rəqabət orqanı və onun vəzifəli şəxsləri bu Məcəlləyə uyğun olaraq əldə etdikləri məxfi və konfidensial məlumatların (kommersiya, vergi, gömrük və bank sirri, habelə statistik sirr sayılan məlumatlar daxil olmaqla) qanuna uyğun olaraq qorunmasını təmin etməlidirlər.

76.3. Təsərrüfat subyekti tərəfindən bu Məcəllənin 77-ci maddəsində qeyd edilmiş pozuntulardan iki və daha artıq qadağan edilmiş hərəkətə yol verildikdə maliyyə sanksiyalarının hesablanması toplanma qaydasında və ya yol verilmiş bir qadağan olunmuş hərəkət iki və daha artıq pozuntu xarakteri daşıdıqda daha ağır maliyyə sanksiyasının tətbiq olunması ilə həyata keçirilir.

**Maddə 77. Rəqabət qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyaları**

77.1. Aşağıdakı qanun pozuntularına yol vermiş təsərrüfat subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təsərrüfat subyektinin ümumi dövriyyəsinin 3 faizinə qədər məbləğdə maliyyə sanksiyası tətbiq edilir:

77.1.1. bu Məcəlləyə əsasən tələb olunan hallarda və bu Məcəllənin 60-cı maddəsi nəzərə alınmaqla rəqabət orqanına natamam, yanlış və ya saxta sənəd və məlumatların təqdim edilməsi və ya həmin sənəd və məlumatların gecikdirilməklə təqdim edilməsi, yaxud təqdim edilməməsi;

77.1.2. bazar subyektinin iqtisadi fəaliyyəti ilə bağlı yoxlamanın predmetinə dair yoxlamanı həyata keçirən rəqabət orqanının vəzifəli şəxslərinin suallarına cavab verməkdən imtina edilməsi, yaxud natamam, qeyri-dəqiq və ya gecikdirilmiş cavabların verilməsi yolu ilə yoxlamaların və araşdırmaların keçirilməsinə, habelə işə baxılmasına maneçilik törədilməsi, yaxud zəruri şəraitin yaradılmaması;

77.1.3. bazar subyektləri və ya onların vəzifəli şəxsləri tərəfindən rəqabət orqanının öz vəzifələrinin, qərarlarının və göstərişlərinin icrasına maneçilik törədilməsi;

77.1.4. rəqabət orqanı tərəfindən aparılan yoxlama zamanı yoxlamanı həyata keçirən rəqabət orqanının vəzifəli şəxsləri tərəfindən vurulmuş möhürün bütövlüyünün pozulması.

77.2. Aşağıdakı qanun pozuntularına yol vermiş təsərrüfat subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təsərrüfat subyektinin ümumi dövriyyəsinin 5 faizinə qədər məbləğdə maliyyə sanksiyası tətbiq edilir:

77.2.1. qadağan edilmiş rəqabəti məhdudlaşdıran şaquli sazişlərin bağlanılması;

77.2.2. rəqabəti məhdudlaşdıran uyğunlaşdırılmış hərəkətlərə yol verilməsi (bu hərəkətlər onların fəaliyyətlərinin qəsdən əlaqələndirilməsini əhatə etmədikdə və davamlı xarakter daşımadıqda);

77.2.3. nisbətən yüksək bazar gücündən sui-istifadəyə yol verilməsi;

77.2.4. bu Məcəllənin 22-ci maddəsində qeyd edilən hallar istisna olunmaqla, haqsız rəqabətə yol verilməsi;

77.2.5. razılıq alınmalı təmərküzləşmələrlə bağlı rəqabət orqanına ərizənin təqdim edilməməsi və ya təmərküzləşmə baş verdikdən sonra təqdim edilməsi.

77.3. Aşağıdakı qanun pozuntularına yol vermiş təsərrüfat subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təsərrüfat subyektinin ümumi dövriyyəsinin 10 faizinə qədər məbləğdə maliyyə sanksiyası tətbiq edilir:

77.3.1. rəqabəti məhdudlaşdıran üfüqi sazişlərin bağlanılması;

77.3.2. rəqabətin məhdudlaşdırılmasına yönəldilmiş uyğunlaşdırılmış hərəkətlərə yol verilməsi (bu hərəkətlər onların fəaliyyətlərinin qəsdən əlaqələndirilməsini əhatə etdikdə və davamlı xarakter daşıdıqda);

77.3.3. hökmran mövqedən sui-istifadəyə yol verilməsi;

77.3.4. rəqabət orqanının qərar (bu Məcəllənin 77.1-ci maddəsi üzrə pozuntular istisna olmaqla) və göstərişlərinin yerinə yetirilməməsi və ya qismən yerinə yetirilməsi;

77.3.5. rəqibin sahibkarlıq fəaliyyətinin təqlidi;

77.3.6. haqsız rəqabətə təkrar və ya davamlı olaraq yol verilməsi.

77.4. Bu maddənin məqsədləri üçün təsərrüfat subyektlərinin birliklərinin, yaxud şəxslər qrupunun toplam dövriyyəsi onun üzvlərinin dövriyyəsinin cəmi kimi hesablanır.

77.5. Bu Məcəllənin 77.1-77.3-cü maddələrinə uyğun olaraq maliyyə sanksiyasının tətbiq edilməsi üçün təsərrüfat subyektlərinin toplam dövriyyəsini müəyyən etmək, yaxud təsərrüfat subyektlərinin birliklərinin üzvlərinin dövriyyəsini hesablamaq mümkün olmadıqda (bazar subyekti tərəfindən məlumatlar təqdim edilmədikdə və aidiyyətidövlət orqanlarında (qurumlarında) həmin məlumatlar mövcud olmadıqda), qanun pozuntusuna yol vermiş təsərrüfat subyektinə və ya təsərrüfat subyektlərinin birliklərinin üzvlərinin hər birinə aşağıdakı məbləğlərdə maliyyə sanksiyası tətbiq edilir:

77.5.1. Bu Məcəllənin 77.1-ci maddəsi ilə müəyyən edilən hallara görə 10.000 manatdan 50.000 manata qədər;

77.5.2. Bu Məcəllənin 77.2-ci maddəsi ilə müəyyən edilən hallara görə 50.001 manatdan 200.000 manata qədər;

77.5.3. Bu Məcəllənin 77.3-cü maddəsi ilə müəyyən edilən hallara görə 200.001 manatdan - 500.000 manatadək.

77.6. Bu Məcəllənin 39.2-ci maddəsində nəzərdə tutulan hərəkətlərin rəqabət orqanı ilə razılaşdırmadan həyata keçirilməsinə görə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,2 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.7. Bu Məcəllənin 39.5-ci, 39.6-cı və 40.2-ci maddələrində nəzərdə tutulan məlumatların (sənədlərin) müəyyən edilmiş qaydada və vaxtda təqdim edilməməsinə görə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,2 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qiymətlərin əsassız olaraq dəyişdirilməsinə görə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,1 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.9. Bu Məcəllənin 40.3-cü maddəsinə uyğun olaraq rəqabət orqanının səlahiyyətlərinin həyata keçirilməsi üçün tələb olunan sənədlərin və ya başqa məlumatların vaxtında təqdim edilməməsinə, habelə yoxlamaların həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmamasınagörətəbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,1 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.10. Bu Məcəllənin 40.5-ci maddələri ilə müəyyən edilmiş hərəkətlərə yol verilməsinə görə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,1 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.11. Rəqabət orqanının bu Məcəllənin tələblərinə uyğun olaraq qəbul edilmiş qərarlarının pozulmasınagörə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,1 faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir.

77.12. Bu Məcəlləyə əsasən bazar subyektlərinə tətbiq edilən maliyyə sanksiyalarına əlavə olaraq rəqabət orqanı və ya rəqabət komissiyası bazar subyektlərinin rəqabət qanunvericiliyinin pozulması (bu Məcəllənin 77.1-ci maddəsində müəyyən edilmiş əməllərə görə istisna olmaqla) hallarında birbaşa iştirak edən vəzifəli şəxslərinə onların aldığı sonuncu vəzifə maaşlarının 2 (iki) mislinədək məbləğdə maliyyə sanksiyasının tətbiqi ilə bağlı qərar qəbul edir.

77.13. Rəqabət orqanı dövlət inhisarında olan xidmətləri göstərən bazar subyektlərinin bu Məcəllə ilə qadağan edilmiş pozuntunu törətməsi nəticəsində əldə etdikləri qanunsuz gəlirin dövlət büdcəsinə ödənilməsi haqqında həmin subyektlərə icrası məcburi olan göstərişlər verir.

77.14. Rəqabət qanunvericiliyinin pozulmasına görə bu Məcəllənin 77.1-77.3-cü, 77.5-ci və 77.12-ci maddələrində qeyd edilmiş hər bir hal üçün işin xüsusiyyətinə uyğun olaraq maliyyə sanksiyalarının hesablanması və tətbiqi meyarları və qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

**Maddə 78. Maliyyə sanksiyalarından azadolmalar və güzəştlər**

78.1. Bazar subyekti bu Məcəllənin 77.2.1-ci, 77.2.2-ci, 77.3.1-ci və 77.3.2-ci maddələrində qeyd olunan pozuntular barədə məlumat və sübutu rəqabət orqanına könüllü olaraq təqdim etdiyi, verilmiş məlumatların araşdırma üçün əsas olduğu və qanun pozuntusunun aşkarlanmasına səbəb olduğu halda həmin bazar subyekti aşağıdakı bütün şərtlər təmin edildikdə maliyyə sanksiyalarından azad edilir:

78.1.1. saziş iştirakçısı olaraq rəqabət orqanına könüllü müraciət edib rəqabət qanunvericiliyinin pozulmasında öz təqsirini etiraf etdikdə;

78.1.2. müraciətdən əvvəl qadağan olunmuş fəaliyyəti dayandırdıqda və işə baxılma müddəti bitənədək onun nəticələrini könüllü aradan qaldırdıqda;

78.1.3. işə mahiyyəti üzrə baxılıb yekun qərar qəbul edilənədək rəqabət orqanı ilə əməkdaşlıq etdikdə;

78.1.4. qadağan olunmuş rəqabəti məhdudlaşdıran sazişin təşəbbüskarı olmadıqda və digər bazar subyektlərini qadağan edilən fəaliyyətlərə qoşulmağa məcbur və təşviq etmədikdə;

78.1.5. müraciətin edilməsi faktını, habelə təqdim olunan məlumat və sübutları məxfi saxladıqda;

78.1.6. iddia olunan pozuntuya dair sübutları məhv etmədikdə.

78.2. Bazar subyektinin müraciəti rəqabət orqanı tərəfindən araşdırmaya başlandıqdan və lazımi sübutlar toplandıqdan sonra təqdim edildikdə maliyyə sanksiyalarından azadolma tətbiq edilmir.

78.3. Bazar subyektinin maliyyə sanksiyasından azad olunması maraqlı şəxslərin onlara vurulmuş zərərlə bağlı məhkəməyə müraciət etmək hüququnu istisna etmir. Bu halda iş üzrə araşdırma, yoxlama və ya işə baxılması davam edən müddətdə vurulmuş zərərlə bağlı maraqlı şəxslərin iş üzrə materiallara çıxışı yalnız məhkəmə aktı əsasında təmin edilir.

78.4. Təqdim edilmiş məlumat və sübutlar bu Məcəllənin 78.1-ci maddəsində qeyd edilmiş şərtlərə tam cavab vermədiyi, habelə bu Məcəllənin 78.2-ci maddəsində qeyd olunan hallarda bazar subyekti pozuntunun aşkarlanmasında əhəmiyyətli rol oynadıqda və bütövlükdə bu Məcəllənin 78.1.2-78.1.5-ci maddələrində qeyd olunan şərtlər yerinə yetirildikdə, rəqabət orqanı tərəfindən həmin bazar subyektinə maliyyə sanksiyaları üzrə güzəştlər tətbiq edilir.

78.5. Bu Məcəllənin 78.4-cü maddəsində qeyd olunan maliyyə sanksiyaları üzrə güzəştlər rəqabət komissiyası tərəfindən aşağıdakı qaydada hesablanır:

78.5.1. birinci müraciət edən bazar subyektinə maliyyə sanksiyaları məbləğinin 30 faizindən 50 faizinədək;

78.5.2. ikinci müraciət edən bazar subyektinə maliyyə sanksiyaları məbləğinin 20 faizindən 30 faizinədək;

78.5.3. digər müraciət edən bazar subyektlərinə maliyyə sanksiyaları məbləğinin 20 faizinədək.

**Maddə 79. Maliyyə sanksiyalarını yüngülləşdirən və ağırlaşdıran amillər**

79.1. Bu Məcəllənin 77-ci maddəsinə əsasən tətbiq edilən maliyyə sanksiyalarını yüngülləşdirən amillər aşağıdakılardır:

79.1.1 rəqabət qanunvericiliyinin pozulması iddiası ilə müraciət edən subyektin bazar subyektinə qarşı şikayətini geri götürməsi;

79.1.2. barəsində iş qaldırılan bazar subyekti tərəfindən işə dair mahiyyəti üzrə qərar qəbul edilməmişdən əvvəl rəqabət qanunvericiliyinin pozulması hallarının könüllü aradan qaldırılması və (və ya) qanun pozuntusunun etiraf edilməsi;

79.1.3. tələb olunan sənəd və məlumatların bazar subyekti tərəfindən tam və vaxtında təqdim edilməsi;

79.1.4. bu Məcəllənin 78-ci maddəsi nəzərə alınmaqla, bazar subyekti tərəfindən işə baxılma zamanı rəqabət komissiyası ilə tam əməkdaşlıq edilməsi;

79.1.5. tətbiq edilə biləcək maliyyə sanksiyasının bazar subyektinin ödəmə qabiliyyətini ağırlaşdırması;

79.1.6. bazar subyektinin ölkənin sosial-iqtisadi həyatında könüllü iştirak etməsi (o cümlədən xeyriyyə fəaliyyəti və korporativ sosial məsuliyyət tədbirləri).

79.2. Bu Məcəllənin 77-ci maddəsinə əsasən tətbiq edilən maliyyə sanksiyalarını ağırlaşdıran amillər aşağıdakılardır:

79.2.1. barəsində iş qaldırılan bazar subyekti tərəfindən işə dair mahiyyəti üzrə qərar çıxarılana qədər haqsız rəqabət hallarının könüllü aradan qaldırılmaması;

79.2.2. bazar subyekti tərəfindən rəqabət qanunvericiliyinin pozulmasına təkrar və davamlı olaraq yol verilməsi;

79.2.3. bazar subyekti tərəfindən qanun pozuntusunun törədilməsi nəticəsində qanunsuz gəlirin əldə edilməsi;

79.2.4. bazar subyekti tərəfindən işə baxılma zamanı rəqabət komissiyası ilə əməkdaşlıqdan qismən və ya tamamilə imtina edilməsi.

**Maddə 80. Maliyyə sanksiyalarının dövlət büdcəsinə ödənilməsi**

80.1. Rəqabət orqanının maliyyə sanksiyasının dövlət büdcəsinə ödənilməsi barədə göstərişində başqa müddət nəzərdə tutulmadıqda, göstərişin təqdim edilməsindən sonrakı 30 (otuz) gün müddətində bazar subyekti tərəfindən göstərişdə qeyd edilən məbləğ dövlət büdcəsinə ödənilir.

80.2. Bazar subyekti rəqabət orqanının maliyyə sanksiyasının dövlət büdcəsinə ödənilməsi barədə göstərişində qeyd olunan məbləği bu Məcəllənin 80.1-ci maddəsində qeyd edilən müddətdə ödəmədikdə, rəqabət orqanı ödənişin təmin edilməsi məqsədilə göstərişi məcburi icraya yönəldir.

80.3. Təsərrüfat subyektlərinin birliklərinin hər hansı üzvü maliyyə sanksiyalarının tətbiq edilməsinə səbəb olmuş qanun pozuntusunun əmələ gəlməsində iştirak etmədiyini sübut etdikdə, həmin təsərrüfat subyektinə maliyyə sanksiyaları tətbiq edilmir.

**Maddə 81. Qanunsuz gəlir**

81.1. Bu Məcəllənin 11-ci, 12-ci, 16-cı, 18-ci, 20-25-ci, 27-ci və 33-cü maddələrinin tələblərinin pozulmasına yol verilməklə həyata keçirilən iqtisadi fəaliyyət nəticəsində əldə olunan gəlir qanunsuz gəlir hesab olunur.

81.2. Rəqabət komissiyası tərəfindən maliyyə sanksiyalarının müəyyən edilməsi zamanı qanunsuz gəlirin məbləğinin tətbiqi nəzərdə tutulan maliyyə sanksiyasından çox olduğu aşkar edildikdə maliyyə sanksiyasının məbləği fərqə mütənasib olaraq artırılır və əldə edilən qanunsuz gəlirin 50 faizi həcmində əlavə maliyyə sanksiyası tətbiq edilir.

81.3. Bu Məcəllənin 81.2-ci maddəsində nəzərdə tutulan əlavə maliyyə sanksiyası rəqabət orqanı tərəfindən aşağıdakı hallarda tətbiq edilmir:

81.3.1. tələb olunan sənəd və məlumatlar bazar subyekti tərəfindən tam və vaxtında təqdim edildikdə;

81.3.2. bazar subyekti işə baxılma zamanı rəqabət komissiyası ilə tam əməkdaşlıq etdikdə;

81.3.3. tətbiq edilə biləcək maliyyə sanksiyasının bazar subyektinin maliyyə vəziyyətini ağırlaşdıra biləcəyi müəyyən edildikdə.

81.3.4. Bu Məcəllənin 81.3-cü maddəsi rəqabət qanunvericiliyinin pozulması nəticəsində qanunsuz gəlirin əldə olunmasına təkrar yol verən bazar subyektlərinə tətbiq edilmir.

81.5. Rəqabət komissiyası tərəfindən qanunsuz gəlir məbləğinin ödənilməsinə dair qərar verilənədək rəqabət qanunvericiliyinin pozulması nəticəsində zərər çəkən digər bazar subyektinə zərərinin əvəzi ödənildikdə qanunsuz gəlirin məbləği qaytarılan zərərə mütənasib olaraq azaldılır.

**Maddə 82. Müddətlər**

82.1. Rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb etmə müddəti bu Məcəllənin 77.1-ci maddəsində qeyd edilən pozuntulara görə 3 (üç) il, 77.2-ci, 77.3-cü və 77.6-77.13-cü maddələrində qeyd edilən pozuntulara görə 5 (beş) il təşkil edir.

82.2. Rəqabət qanunvericiliyinin pozulması ilə əlaqədar bu Məcəllənin 82.1-ci maddəsində nəzərdə tutulmuş müddətlərdə və bu Məcəllənin 31.11-ci, 73.5-73.7-ci və 73.9-cu maddələrində nəzərdə tutulmuş hallarda rəqabət orqanı bazar subyektinə qarşı iddia tələbi ilə məhkəməyə müraciət edir.

82.3. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda sazişlərin və ya müqavilələrin etibarsız hesab edilməsi (etibarsızlığının təsdiq edilməsi) və nəticələrinin tətbiq edilməsi barədə rəqabət orqanının iddialarına Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş müvafiq müddətlər tətbiq olunur.

82.4. Bu Məcəllənin 77-ci maddəsində qeyd edilən pozuntulara görə məsuliyyətə cəlb etmə müddəti həmin pozuntuların törədildiyi gündən hesablanır. Uzanan və davam edən qanun pozuntusuna görə məsuliyyətə cəlb etmə müddəti müvafiq pozuntunun dayandırıldığı tarixdən, dayandırılmadığı halda isə rəqabət orqanı tərəfindən aşkar edildiyi gündən hesablanır.

82.5. Rəqabət qanunvericiliyinin pozulması ilə əlaqədar rəqabət orqanına müraciət daxil olduqda və ya rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə rəqabət orqanı tərəfindən iş qaldırıldıqda bu Məcəllənin 77-ci maddəsində qeyd edilən pozuntulara görə məsuliyyətə cəlb etmə müddətinin hesablanması dayanır.

**Maddə 83. Rəqabət qanunvericiliyinin pozulması ilə bağlı işin yekunu üzrə rəqabət orqanının qərar və göstərişlərindən, onun vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətin verilməsi**

83.1. Maraqlı şəxslər hüquqlarını və qanunla qorunan mənafelərini müdafiə etmək məqsədilə rəqabət orqanının, onun vəzifəli şəxslərinin qərarlarından, göstərişlərindən, hərəkətlərindən və ya hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət vermək hüququna malikdirlər.

83.2. Rəqabət orqanının qərar və göstərişlərindən məhkəməyə və inzibati qaydada şikayət verilməsi həmin qərar və göstərişlərin icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla icrasını dayandırmır.

**Maddə 84. Rəqabət qanunvericiliyinin pozulması nəticəsində vurulmuş zərərin ödənilməsi**

Azərbaycan Respublikasının rəqabət qanunvericiliyinin pozulması nəticəsində vurulmuş zərərin müəyyən edilməsi və ödənilməsinə məhkəmə qaydasında baxılır.

**Azercell** abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 26.01.2024-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# *Mətbuat Şurası:* "Jurnalistlərin kütləvi aksiyalar zamanı informasiya toplamaq hüququ onları tərəfə çevirməməlidir"

"Jurnalistlərin mitinqlər, piketlər, nümayişlər, ümumiyyətlə, kütləvi aksiyalar zamanı informasiya toplamaq və yaymaq hüququ var. Amma bu hüquq media təmsilçilərini tərəfə çevirməməli, elə təəssürat yaranmamalıdır ki, onlar hansısa qütbün maraq və mənafelərindən irəli gələn fəaliyyət göstərirlər".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Mətbuat Şurasının jurnalistlərin kütləvi aksiyaları işıqlandırmaları ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada həmçinin qeyd olunur: "Jurnalistlər küçə aksiyalarında obyektiv davranmalı, soyuq yanaşmaları ilə seçilməli, durumun həssaslığını ciddi şəkildə düşünərək, yalnız cəmiyyətin informasiya almaq hüququnun təminatçısı rolunda çıxış etməlidirlər. Onların özləri deyil, hadisə yerindən hazırladıqları materialların ictimai yükü ön planda dayanmalıdır.

Ötən müddətdə Azərbaycan mediası qeyd etdiyimiz istiqamətdə təcrübə toplayıb, peşəkar vərdişlərə yiyələnib. Amma təəssüf ki, bəzən bu müsbət dinamikaya zidd meyillər qalmaqdadır. Ötən gün paytaxtın Nəriman Nərimanov metrosu yaxınlığında keçirilmiş icazəsiz aksiyada bəzi jurnalistlərin, xüsusilə jurnalist Gülnaz Qəmbərlinin davranışları bunu söyləməyə əsas verir. Həmin aksiya zamanı belə qənaət formalaşdı ki, media təmsilçiləri prosesə informasiya yayıcısı deyil, konkret tərəf olaraq qatılmış, öz vəzifə borcunu yerinə yetirən polis əməkdaşlarını hədəfə gətirməyə və ümumilikdə vəziyyətin gərginləşməsinə çalışmışlar.

Jurnalistlərin kütləvi aksiyalar zamanı münasib yerlərdə peşə vəzifələrini yerinə yetirmələri məsələsi dünya təcrübəsində də əksini tapıb. Bu təcrübəyə əsasən deyə bilərik ki, media nümayəndələri hüquq-mühafizə orqanları əməkdaşları ilə aksiya iştirakçıları arasında hadisələrin gərginləşdiyi məqamlarda, tərəflərin heç biri ilə mübahisəyə girməməli, qıcıq doğuracaq fikir və ifadələr işlətməməlidirlər.

Jurnalistlər prinsip etibarilə onu da mütləq nəzərə almalıdırlar ki, hansısa kütləvi aksiya vacibdirsə, onu cəmiyyətə təqdim etmək qərarına gəlirlərsə, bu zərurətin ödənməsinin qarşısını alacaq hərəkətlərdən uzaq durulmalıdır. Xidməti vəzifələrini yerinə yetirən hüquq-mühafizə orqanlarının əməkdaşları ilə mübahisə, onları gözdən salmaq cəhdi, yersiz ifadələrin işlədilməsi, aqressiv ton, istər-istəməz ictimai maraq amilini riskə atır, ümumən, peşəkar jurnalistika dəyərləri ilə bir araya sığmayan durum formalaşdırır.

Azərbaycan Mətbuat Şurası kütləvi aksiyaları işıqlandıran jurnalistləri, ümumən, özünü cəmiyyətə informasiya verməyə məsul sayan ayrı-ayrı şəxsləri bütün bunları nəzərə almağa, nəticə çıxarmağa çağırır. Şura ünvanladığı bu tövsiyələrin onların gələcək fəaliyyətində ciddi şəkildə nəzərə alınacağına ümidvardır".

# Sürücü səhlənkarlığı və ya piyada etinasızlığı

Nəqliyyat vasitələrinin sürətlə artdığı müasir dövrümüzdə əsas problemlərdən biri də yol-nəqliyyat hadisələrinin çoxalmasıdır. Ötən il ərzində respublika üzrə qeydə alınan yol-nəqliyyat hadisələrinin sayı 1636 olub. Düzdür, avtoqəzaların sayında 2022-ci illə müqayisədə 1,9 faiz azalma olsa da, mövcud statistika ürəkaçan deyil.



Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ötənilki qəzaların 60 faizə yaxını sutkanın gecə və alatoranlıq vaxtında baş verib. Nəticədə 591 nəfər həyatını itirib, 718 nəfər isə yaralanıb. Bəs görəsən ölkəmizdə baş verən yol-nəqliyyat hadisələrinin əsas səbəbləri nələrdir?

Bu statistikanın formalaşmasına sürücü səhlənkarlığı və digər amillərlə yanaşı, bilavasitə piyadaların özlərinin də yol hərəkəti qaydalarına etinasızlığı təsir göstərir.

BDYPİ piyadalara müraciət edərək onlardan sutkanın qaranlıq vaxtı, eləcə də məhdudiyyətli görünmə şəraitində əlvan və ya işıqqaytarıcı elementləri olan geyim və əşyalardan istifadəyə üstünlük verməyi xahiş edir və hər kəsi bu sahədə ictimai iştirakçılığa töhfə verməyə çağırır.

## Bəzən təcrübəli sürücülər də məsuliyyətsizlik edirlər

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyir ki, aparılan araşdırmalara görə, yol-nəqliyyat hadisələrinin üç əsas səbəbi var: "Birincisi, sürücü və piyadaların bilərəkdən yol hərəkəti qaydalarını pozması, ikincisi, yol-nəqliyyat infrastrukturunun vəziyyəti, üçüncüsü isə, istifadə müddətini başa vurmuş, texniki cəhətdən nasaz, heç bir göstəricisinə görə müasir tələblərə cavab verməyən avtomobillərdir".

E.Cəfərov bildirir ki, yol qəzalarının artmasına sürücülərin səriştəsizliyi də səbəb olur: "Vətəndaşlar avtomobil idarəetmə bacarıqlarını inkişaf etdirməlidirlər. Ölkəmizdə bəzi sürücülər yol hərəkəti qaydalarını yaxşı bilmirlər, avtomobil sürmə bacarıqları çox zəifdir. Bu zaman əsas məsuliyyət sürücülük kursları və məktəblərinin üzərinə düşür. Bakı, Sumqayıt və Gəncə kimi şəhərlərdə bu məktəblər normal fəaliyyət göstərsə də, ölkənin bəzi şəhər və rayonlarında olan sürücülük kurslarında dərslər formal keçirilir, kifayət qədər bilik və bacarıqlar öyrədilmir. Sürücülər yalnız yola çıxdıqdan sonra avtomobil sürməyi öyrənirlər".

Ekspertin sözlərinə görə, bəzən təcrübəli sürücülər də məsuliyyətsizlik edərək, bilərəkdən yol hərəkəti qaydalarını pozurlar. Dönmə manevri edir və yaxud sürət həddini aşırlar. Xüsusi qeyd etmək lazımdır ki, yol hərəkəti qaydalarının pozulması kimi halları yalnız cərimə tətbiq etməklə həll etmək mümkün deyil. Bəzi sürücülər cərimələrə məhəl qoymurlar.

## Yol hərəkəti qaydalarına əməl etmək əsas şərtdir

Bir çox hallarda yol nəqliyyatı qəzalarının piyada məsuliyyətsizliyindən baş verdiyini söyləyən E.Cəfərov bildirir ki, yol hərəkəti qaydalarına əməl etməmək, qırmızı işıqda yol keçmək, nəqliyyat vasitəsinin qəfildən qarşısına çıxmaq, piyada keçidlərinə etinasızlıq göstərmək kimi hallar qəzaların baş verməsinə səbəb olur: "Piyadalar qadağan olunmuş ərazilərdə, çoxzolaqlı yollarda, sutkanın qaranlıq saatlarında yol keçərək faciələrə səbəb olurlar.

Ekspert onu da qeyd edir ki, bəzi piyada keçidləri enişdə, yoxuşda qoyulduğuna görə avtomobil sürücüsü ilə piyada arasında vizual kontakt yaranmır, onlar bir-birlərini görə bilmirlər. O, həmçinin bildirib ki, ümumiyyətlə, yol nəqliyyat hadisələri ilə bağlı xoşagəlməz halları minimuma endirmək üçün mütəmadi olaraq həyata keçirilən müvafiq maarifləndirmə işləri mühüm əhəmiyyət kəsb edir: "Təhsil müəssisələrində məktəblilərə yol hərəkəti qaydalarını öyrətmək, bəzi vacib məqamları təbliğ etmək məqsədəuyğundur. Maarifləndirmə tədbirləri yalnız uşaqlar arasında deyil, böyüklər üçün də keçirilməlidir. Qaydaları dəfələrlə pozanlarla isə qrup halında xüsusi işlər aparılmalıdır. Sürücülər təkrarən eyni qayda pozuntularına yol verərlərsə, onlar, ümumiyyətlə, sürücülük vəsiqəsindən məhrum edilməlidirlər".

Deyilənlərdən də aydın olur ki, qəzaların baş verməsində bütün yol-hərəkət iştirakçıları məsuliyyət daşıyırlar. Beləliklə, sürücülər və piyadalar məsuliyyətlərini dərk edərək qaydalara əməl etməli, öz həyatlarını təhlükəyə atmamaqla yanaşı, digər hərəkət iştirakçıları üçün də qəza şəraiti yaratmamalıdırlar.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Əbədi ehtiramla
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər
Dünyanın ən müasir ekoloji layihəsi
Prezident İlham Əliyev Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında tikinti, abadlıq işləri və Ofis binasında yaradılan şəraitlə tanış olub
Milli yüksəliş və tərəqqi dövrü
Azərbaycan seçicisi iradəsini ifadə etməkdə sərbəstdir
Füzulililərin şad günü
80 mindən çox etirazçı küçələrə çıxıb
Fransalı nazir Ukraynada muzdlu fransız döyüşçülərinin olduğunu təsdiqlədi
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Vikipediya"nın Azərbaycan dili bölməsində keyfiyyət 43-ə yüksəlib

VİKİPEDİYA

"Vikipediya"nın Azərbaycan dili bölməsində dərinlik (keyfiyyət) 42-dən 43-ə yüksəlib. Bunu AZƏRTAC-a açıqlamasında AMEA-nın Rəyasət Heyəti Aparatının "Elektron Akademiya" şöbəsinin baş mütəxəssisi, "Vikipediya" üzrə mütəxəssis, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk deyib.

"Səkkiz ildən çoxdur ölkəmizdə "Vikipediya"nın inkişafı istiqamətində çalışan bir şəxs kimi deyə bilərəm ki, uğurlu göstərici məni çox sevindirir. Bir zamanlar göstərici çox aşağı idi. Şübhəsiz ki, bu uğurlu göstəricinin arxasında Azərbaycan "Vikipediya" icmasının birgə zəhməti və fədakarlığı dayanır. Hər bir könüllü, idarəçi zəngin platformada öz töhfəsini verməyə çalışır. Bu gün "Vikipediya"nın Azərbaycan dili bölməsində keyfiyyətli, məzmunlu, istinadlarla zəngin məqalələr yaradılır və zənginləşdirilir. Düzdür, mən də "Vikipediya"da məqalələrin silinməsinin tərəfdarı deyiləm və daha çox mübahisə yaradan məqalələrin etibarlı istinadlarla zənginləşdirilməsini dəstəkləyirəm. Ancaq buna baxmayaraq, ortada real nəticə var. Hazırda "Vikipediya"nın Azərbaycan dili bölməsində inkişafı müşahidə edirik. Bu inkişaf isə doğma dilimizdə məlumat bazasının zənginləşməsinə xidmət edir. "Vikipediya" ciddi platformadır. Orada fəal olmağımız milli maraqlar nöqteyi-nəzərindən də vacibdir", - deyə Elnur Eltürk qeyd edib.

O, ötən ilin dekabr ayı ərzində "Vikipediya"nın Azərbaycan dilində olan səhifələrinə 37 milyon dəfə baxış olduğunu bildirib: "Son bir il ərzində isə bu rəqəm 358 milyondur. Bu statistika bizi daha yaxşı çalışmağa, uğurlu nəticələr əldə etməyə sövq edir".

Qeyd edək ki, bir neçə ildir Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) institutlarının əməkdaşları üçün könüllü olaraq "Vikipediya" təlimləri keçirilir. Təlimlərin keçirilməsində məqsəd AMEA-nın elmi müəssisə və təşkilatlarında könüllü "Vikipediya" qruplarının formalaşdırılmasıdır. Son bir ildə isə AMEA Rəyasət Heyəti Aparatının "Elektron Akademiya" şöbəsinin təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada "Vikipediya" təlimləri təşkil edilir. Könüllü qruplar "Vikipediya"nın Azərbaycan dili bölməsində məqalələrin yaradılmasına və zənginləşdirilməsinə öz töhfələrini verirlər.


UNHCR
The UN Refugee Agency

## Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK)

*Bakıdakı ofisi tender elan edir*

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK-ın) Azərbaycandakı Nümayəndəliyi ixtisaslı xidmət təminatçılarını Azərbaycanda qaçqınlar və sığınacaq axtaranlar üçün hüquqi yardım xidmətlərinin göstərilməsi üçün Xidmət Müqaviləsi bağlamaq məqsədilə rəsmi təklif irəli sürməyə dəvət edir.

Tender barədə ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiniz:

**http://www.azerweb.az/en/event.php?id=10959**
**Sənədlərin son təqdimetmə tarixi 18 fevral 2024-cü il.**


# "Neftçi" Azərbaycan çempionatlarında 200-cü heç-heçəyə imza atıb

"Neftçi" Azərbaycan çempionatları tarixində 200-cü heç-heçəyə imza atıb. AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, bu yubiley Azərbaycan Premyer Liqasının XIX turuna təsadüf edib.

"Ağ-qaralar" "Sabah"la səfər matçına çıxıb. Bakı derbisi qolsuz başa çatıb. "Neftçi" 1992-ci ildən daimi iştirakçısı olduğu ölkə çempionatlarındakı 908-ci görüşdə 200-cü sülhə imza atıb. Bakılılara qədər yalnız "Qarabağ" 200 heç-heçə səddini keçib.

Qeyd edək ki, "Neftçi"nin ilk bərabərliyi məhz "Qarabağ"la matçda gerçəkləşib. 1992-ci il sentyabrın 26-dakı ev matçında paytaxt təmsilçisi bir xalı bir qolla qazanıb - 1:1.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

zəncirlər və birləşdirici bəndlərin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Fikrət, Rasim, Rafiq və Həşim Hüseynovlar, Şamo və Emin Mustafayevlər keçmiş iş yoldaşları Elburus Əhmədova əzizi

**GÜLARƏ TOPUŞ QIZI HÜMBƏTOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə (keçmiş Maksim Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış, 10a sinfinin məzunları sinif yoldaşları Naibə Məhərrəmovaya anası

**GÜLARƏ TOPUŞ QIZI HÜMBƏTOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış 932-ci qrupun məzunları qrup yoldaşları Mətanət Bağırovaya atası

**QƏZƏNFƏR BƏHMƏN OĞLU BAĞIROVUN**

Tərtər rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3704
Sifariş 143

Qiyməti 60 qəpik